METODİK VƏSAİT

# AZƏRBAYCAN DİLİ




6

DÖVLƏT DİLİ

LAYİHƏ

LAYİHƏ

SAMİRƏ BEKTAŞİ
YEGANƏ ABDULLAYEVA

*Ümumi təhsil müəssisələrinin* **6***-cı sinifləri üçün*

# AZƏRBAYCAN DİLİ

(DÖVLƏT DİLİ)

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

LAYİHƏ

# Mündəricat


Giriş ... 3
Dərsliyin komponentləri və strukturu ... 5
Məzmun standartları və onların şərhi ... 9
Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Azərbaycan dili fənni üzrə məzmun standartları ... 12
Mövzuların saatlar üzrə bölgüsü ... 13
Qiymətləndirmə ... 16
Diaqnostik qiymətləndirmə ... 16
Formativ qiymətləndirmə ... 17
Müşahidə vərəqinə nümunələr ... 18
Summativ qiymətləndirmə ... 19
Şagirdin özünüqiymətləndirmə vərəqi ... 20
Qruplarda işin qiymətləndirilməsi ... 20
Qrupun qiymətləndirmə vərəqi ... 21
Şagirdlərin qarşılıqlı qiymətləndirmə vərəqi ... 22
Qrup təqdimatının qiymətləndirilməsi ... 23
Essenin qiymətləndirilməsi ... 24
Diskussiyanın qiymətləndirilməsi ... 24
Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi ... 24
Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr ... 25
Bir-birini öyrətmək üçün məsləhətlər ... 25

**I bölmə. Ailədən başlanan yol**

*1-ci dərs.* Layihə ... 28
*2-ci dərs.* Dünya içində bir aləm ... 32
*3-cü dərs.* Dünya içində bir aləm ... 35
*4-cü dərs.* Dünya içində bir aləm ... 38
*5-ci dərs.* Pərvizin həyatı (1-ci dərs) ... 39
*6-cı dərs.* Pərvizin həyatı (2-ci dərs) ... 41
*7-ci dərs.* Kiçik Summativ Qiymətləndirmə ... 43
*8-ci dərs.* Pərvizin həyatı (1-ci saat) ... 45
*9-cu dərs.* Pərvizin həyatı (2-ci saat) ... 47
*10-cu dərs.* "Şarların köməyi" ... 50
*11-ci dərs.* "Şarların köməyi" ... 51
*12-ci dərs.* "Şarların köməyi" ... 53
*13-cü dərs.* Mətn ... 54
*14-cü dərs.* Mətn ... 56
*15-ci dərs.* Mətn ... 58
*16-cı dərs.* Layihənin I hissəsinin yekunu ... 60

**II bölmə. Vətən yolu**

*1-ci dərs.* Daş adamlar ... 64
*2-ci dərs.* Daş adamlar ... 68
*3-cü dərs.* Daş adamlar ... 70
*4-cü dərs.* Azərbaycan bayrağı ... 71
*5-ci dərs.* Azərbaycan bayrağı ... 74
*6-cı dərs.* İtirilmiş açar ... 76
*7-ci dərs.* İtirilmiş açar ... 79
*8-ci dərs.* İtirilmiş açar ... 81
*9-cu dərs.* Kiçik Summativ Qiymətləndirmə ... 83
*10-cu dərs.* Ataya məktub ... 85
*11-ci dərs.* Nişan üzüyü ... 86
*12-ci dərs.* Nişan üzüyü ... 88
*13-cü dərs.* Mən nə etdimsə, Vətən üçün etdim ... 90
*14-cü dərs.* Mən nə etdimsə, Vətən üçün etdim ... 92
*15-ci dərs.* İyirmi yanvar gecəsi ... 94
*16-cı dərs.* "Gözün aydın Azərbaycan!" ... 96
*17-ci dərs.* Kiçik Summativ Qiymətləndirmə ... 99

**III bölmə. Mənəvi dünyam**

*1-ci dərs.* Baxmaq, görmək və tətbiq etmək ... 102
*2-ci dərs.* Nəsihət xəzinəsi ... 104
*3-cü dərs.* Qızıma məktub (I hissə) ... 106
*4-cü dərs.* Qızıma məktub (II hissə) ... 109
*5-ci dərs.* Qızıma məktub ... 111
*6-cı dərs.* Mavi don ... 113
*7-ci dərs.* Mavi don ... 115
*8-ci dərs.* Tək hərəkət ... 119
*9-cu dərs.* Tək hərəkət ... 122
*10-cu dərs.* Kiçik Summativ Qiymətləndirmə ... 125
*11-ci dərs.* Fleyta ... 127
*12-ci dərs.* Fleyta ... 130
*13-cü dərs.* Limon ağacı ... 131
*14-cü dərs.* Limon ağacı ... 133
*15-ci dərs.* Novruz Cıdır düzündə ... 136
*16-cı dərs.* Novruz Cıdır düzündə ... 137
*17-ci dərs.* Üç mirvari ... 138
*18-ci dərs.* Layihənin III hissəsinin yekunu ... 140
*19-cu dərs.* Kiçik Summativ Qiymətləndirmə – 2 ... 142

**IV bölmə. Zəfər yolu**

*1-ci dərs.* Günəşə baxan şəhər ... 145
*2-ci dərs.* Günəşə baxan şəhər ... 146
*3-cü dərs.* Günəşə baxan şəhər ... 148
*4-5-ci dərs.* Günəşli torpaq ... 149
*6-cı dərs.* Danışan abidələr ... 151
*7-ci dərs.* Danışan abidələr (Örənqala) ... 153
*8-ci dərs.* Kiçik Summativ Qiymətləndirmə – 2 ... 155
*9-cu dərs.* Danışan abidələr (araşdırma) ... 158
*10-11-ci dərs.* Dahi şəhər ... 160
*12-ci dərs.* Musiqi konservatoriyası ... 161
*13-cü dərs.* Musiqi konservatoriyası ... 162
*14-cü dərs.* Layihənin yekunu ... 163
*15-ci dərs.* Kiçik Summativ Qiymətləndirmə ... 165




LAYİHƏ

# Giriş

Ümumtəhsil məktəblərində dövlət dili kimi tədris edilən Azərbaycan dilinin əsas məqsədi şagirdlərimizdə təkcə yaradıcı, tənqidi və məntiqi təfəkkürü deyil, eyni zamanda, milli təfəkkürü formalaşdırmaqdır.

Azərbaycan dilini öyrənmək üçün dövlət tərəfindən müəyyənləşdirilmiş məzmun xətləri üzrə (dinləyib-anlama, danışma, oxu, yazı) nitq və yazı vərdişlərinə yiyələnən şagirdlər fikirlərini şifahi və yazılı şəkildə ifadə etməyi öyrənirlər.

Müxtəlif üslublarda (dərslikdə, əsasən, bədii və publisistik üslubda mətnlər verilmişdir) təqdim edilən mətnlərin intonasiyalı və ifadəli oxusu şagirdlərdə düzgün oxu vərdişləri formalaşdırır. Mətnlər vasitəsilə şagirdlər müxtəlif biliklər və məlumatlar əldə edirlər. Şagirdlərin mövzu ilə bağlı əlavə məlumatların toplanmasına, lazım olan informasiyanın əldə edilməsinə, məlumatın emal edilməsi, təhlili, analiz və sintez edilməsinə, dəyərləndirilməsinə və s. istiqamətləndirilməsi onlarda toplama, qruplaşdırma, emaletmə, müqayisəetmə, təqdimetmə və s. kimi bacarıqların formalaşdırılmasına əlverişli imkan yaradır.

Ümumtəhsil məktəblərinin təlim digər dillərdə olan bölmələrinin 6-cı sinfi üçün hazırlanmış Azərbaycan dili dərsliyi müvafiq fənn üzrə məzmun standartları əsas götürülərək hazırlanmışdır.

Dərslik 4 bölmədən ibarətdir. Hər bölmədə bölmənin adına və məzmununa uyğun müxtəlif mətnlər verilmişdir. Mətnlər məzmun baxımından qruplaşdırılmış və mətnlərin dili, məzmunu, ideyası, leksikası üzərində iş aparmaq üçün müxtəlif tapşırıqlar verilmişdir. Tapşırıqlar hazırlanarkən məzmun standartlarının reallaşdırılması diqqətdə saxlanılmışdır.

Bu tapşırıqlar məzmunu mənimsəməyə xidmət etməklə yanaşı, şagirdlərdə şüurlu, düzgün və ifadəli oxu bacarıqlarının formalaşmasına, zəruri dil qaydalarının öyrənilməsinə, onların lüğət ehtiyatının zənginləşdirilməsinə, öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə etməyə yardımçı olur.

Mətn üzərində iş aparmaq üçün dərslikdə aşağıdakı ardıcıllıq gözlənilmişdir: Şagird mətnin orfoqrafiya və orfoepiyası üzərində iş aparır, mətnin müxtəlif üsullarla oxusu təşkil edilir, mətnin məzmun və ideyası, daha sonra lüğət tərkibi üzərində iş aparılır, mətnlə bağlı qrammatik tapşırıqlar, tətbiq çalışmaları verilir. Zəruri hallarda dil qaydaları, daha sonra mövzu, mətnin ideyası və s. ilə bağlı şagirdlərə inşa, esse, hekayə yazmaq, təqdimat hazırlamaq və s. üçün istiqamət verilir.

5-ci sinifdə olduğu kimi, 6-cı sinif Azərbaycan dili dərsliyində də rabitəli mətnlər, təqdimatlar hazırlamaq üçün şagirdlərə müxtəlif planlar təqdim olunmuş və istiqamətlər, tövsiyələr verilmişdir.

Hörmətli müəllimlər! Diqqətinizə çatdırmaq istəyirik ki, bu planlar, sadəcə, bir nümunədir. Planları qurduğunuz dərsə müvafiq olaraq şagirdlərlə birlikdə özünüz də hazırlaya bilərsiniz. Təqdim olunmuş mövzu ilə bağlı sərbəst şəkildə plan hazırlamağı şagirdlərə də tapşırmaq olar.

Dərslikdə müxtəlif mövzularla bağlı araşdırmaların aparılması, sorğunun keçirilməsi təklif olunur. Müasir şagirdlərdə bu bacarıqların formalaşdırılması mütləqdir. Bu halda məqsəd şagirdlərdə sual tərtibetmə, təqdimetmə, toplanılan məlumatın ümumiləşdirilməsi və s. kimi bacarıqları formalaşdırmaqdır. Sorğuların keçirilməsi 5-ci sinif dərsliyində də var idi. Mövcud vəziyyətdə (xüsusi karantin rejimi) sorğunun necə keçirilməsi sual yarada bilər. Müəllim sinfi II qrupa bölməklə sorğunun dərsdən sonrakı vaxtlarda qrupdakı şagirdlərin bir-biri ilə sorğu keçirməsini təşkil edə bilər. Şagirdlər sorğunu yaşadıqları yerdə yaşıdları, qohumları və s. ilə də keçirə bilərlər. Sorğu üçün dərslikdə nümunə suallar verilmişdir. Müəllim seçim əsasında həmin suallardan istifadə edə, yaxud fərqli suallar təqdim edə bilər. Bu prosesə valideynləri də cəlb etmək olar.

Araşdırmaların təşkili üçün müəllimin sinfə müxtəlif resurslar gətirməsi və yaradıcı mühit yaratması məqsədəmüvafiqdir. Texniki vasitələrin olduğu siniflərdə şagirdləri müəllim nəzarəti altında internetdən müvafiq materialların axtarışına yönəltmək olar.

**Qeyd.**

Müəllim sinifdə yaradıcı mühiti təmin etmək üçün aşağıdakılara əməl etməlidir:

LAYİHƏ

– biliyi əldə etməyə həvəs yaratmalı;
– hazır cavablı suallar yox, problemli situasiya yaratmağa sövq edən suallar verməli;
– şagirdin gələcək inkişafını təmin etməli;
– informasiyanı, sadəcə, verməməli, şagirdi biliklərin əldə edilməsi, informasiyadan düzgün istifadə edilməsi prosesinə cəlb etməli;
– öyrənmə prosesini düzgün planlaşdırmalıdır.

Dərslikdə bir neçə mətnə ad verilməmişdir. Mətnin adlandırılması şagirdə tapşırıq kimi verilmişdir. Bu tipli tapşırıqlar şagirdi oxuduğundan nəticə çıxarmağa, fikirlərini ümumiləşdirib bir anlayışla ifadə etməyə sövq edir. Bir neçə mətndə dialoq hissə mətnə çəkilmiş obrazlar vasitəsilə təqdim olunur.

Şagirdlərə şəkillər üzərində iş aparmaq əvvəlki sinifdə də təklif olunmuşdu. Bu, 6-cı sinifdə də davam etdirilir. Şəkillərin təhlili, mətnin məzmununa uyğunluğu, rəsm və ya foto olması, rəng çalarları, şəkillər vasitəsilə çatdırılan fikrin müəyyən edilməsi, şagirdin özünə mövzu ilə bağlı rəsm və ya fotonun çəkilməsinin tapşırılması onlarda təsviretmə, əlaqələndirmə, müqayisəetmə, tətbiqetmə kimi bacarıqların formalaşdırılmasına imkan yaradır.

İllüstrasiyalar, şəkillər, fotolar şagirdlər üçün əlavə məlumat mənbəyidir. Buna görə də illüstrasiyalarla və şəkillərlə iş aparmaq üçün aşağıda göstərilənlər əsasında suallar və tapşırıqlar hazırlamaq vacibdir:

- İllüstrasiyadan (rəsm, foto) məlumatın alınması;
- İllüstrasiyaya əsasən dövr və məkanın (hadisə yerini) müəyyən edilməsi;
- Hadisələrin və onların iştirakçılarının, şəraitin, mühitin təsvir edilməsi;
- İllüstrasiyada əks olunan obrazların xüsusiyyətlərinin (geyim, davranış, tələffüz, danışıq və s) müəyyənləşdirilməsi;
- Süjet və detallara görə əsər müəllifinin əsas fikrinin aydınlaşdırılması;
- İllüstrasiyaların (rəsm, foto) mətnin əsas ideyasına uyğunluğunun müəyyənləşdirilməsi;
- Şəkilaltı mətnin (əgər varsa) illüstrasiyanın məzmunu ilə tutuşdurulması;
- İllüstrasiya (rəsm, foto) üzrə hekayə hazırlanması.

İllüstrasiyalarla iş zamanı şagirdləri aşağıdakı fəalliyyətlərə cəlb etmək məqsədəmüvafiqdir:

- İllüstrasiya (rəsm, foto) üzrə ümumi söhbət;
- "Rəssamla" müsahibə (bu fəaliyyətin cütlərlə təşkili daha uyğundur);
- Sualların qoyuluşu və cavabın müəyyən edilməsi üzrə (bu fəaliyyətin cütlərlə təşkili daha uyğundur).
- Qruplarda illüstrasiyalar üzrə fikir mübadiləsi aparmaq.
- Cütlüklərdə illüstrasiyalar üzrə müzakirə etmək.
- Şəklin yaranması və yaranma səbəbləri haqqında mətn tərtib etmək.
- İllüstrasiyalar haqqında rəy yazmaq;
- İllüstrasiyalar əsasında mətn (hekayə, inşa, esse) yazmaq.

İllüstrasiyaların dərk olunmasını yoxlamaq məqsədilə aşağıdakı suallardan istifadə etmək olar:

- Sizcə, illüstrasiya naturadan çəkilib, yoxsa sonradan yaradılıb?
- Əgər o sonradan yaradılıbsa, onun mənbəyi nə olub?
- Müxtəlif tip illüstrasiyalarda hadisələrin obrazlı əksini müqayisə edin.
- Müxtəlif illüstrasiyalarda məzmunu və dəyərləndirici əlaqələri təyin edin.
- İllüstrasiyanın dəyərlər sistemini və subyektivlik səviyyəsini müəyyən edin.
- Öz mövqeyini illüstrasiyanın köməyi ilə əsaslandır.

Dərslik maraqlı bir ideya üzərində qurulmuşdur. İlk dərsdən şagirdə layihə kimi təqdim olunan "səyahət" hər bölmədə bölmənin məzmununa uyğun, dərsliyin sonunda isə tam şəkildə yekunlaşır.



LAYİHƏ

Dərslik boyu bələdçi obrazlar şagirdləri müşayiət edir, onlarla birlikdə səyahətə çıxır, müzakirələrdə iştirak edir, istiqamət verir. Bu obrazlar şagirdləri səyahətə dəvət edir, səyahət zamanı gördüklərini ümumiləşdirməyi və müxtəlif formalarda hazırlayaraq təqdim etməyi təklif edirlər.

Müəllim şagirdlərə izah etməlidir ki, səyahətə başlamaq üçün insan, ilk növbədə, özünü, məqsədlərini, arzu və istəklərini, ailədə, məktəbdə, cəmiyyətdə yerini "kəşf" etməli, ailədə qazandığı mənəvi keyfiyyətlər, məktəbdə öyrəndiyi bilik, yiyələndiyi bacarıqlar zəngin olmalıdır.

Dərslikdə bu il fərqli yanaşmalar vardır. Əvvəlki illərdən fərqli olaraq, bu il dərsliklərdə QR-lar verilmişdir. Müvafiq mövzularda şagirdləri əlavə tədqiqatlara, mövzu ilə bağlı əlavə məlumat almaq üçün internet resurslarına yönəltmək üçün QR (küar kod), animasiyalar və səsləndirmələrdən istifadə edilmişdir. Bu QR-lar dərslikdə hər hansı bir mövzuda təsvir olunanlarla bağlı şagirdlərdə təsəvvür yaratmaq, mövzu ilə bağlı əlavə məlumatlar vermək, müəyyən ərazi və bölgələrə virtual gəzinti etmək məqsədilə verilmişdir. Telefon vasitəsilə QR-ları skan etməklə dərsdən sonra şagirdlər evdə təqdimat hazırlarkən, inşa və ya esse yazarkən istifadə edə bilərlər.

Dərslikdə azərbaycançılıq ideologiyasının təbliği, vətənpərvərlik hissi, Vətənə hörmət və məhəbbət hissinin aşılanması, ətraf mühitə münasibət, Azərbaycan flora və faunasının qorunması, ailə-məktəb münasibətlərinin düzgün qurulması və s. bu kimi məsələlər diqqətdə saxlanılmışdır.

Dərsliyin sonunda lüğət verilmişdir.

# Dərsliyin komponentləri və strukturu

Azərbaycan dili dərslik komplektinə daxildir:

*1. Dərslik*

*2. Müəllim üçün metodik vəsait*

Dərslik 4 bölmədən ibarətdir:

*I bölmə* – **"Ailədən başlanan yol"**

*II bölmə* – **"Vətən yolu"**

*III bölmə* – **"Mənəvi dünyam"**

*IV bölmə* – **"Zəfər yolu"**

I və II bölmə I yarımil, III və IV bölmələr isə II yarımil üçün nəzərdə tutulmuşdur.

Hər bölmənin əvvəlində bölmədə öyrəniləcək mətnlər, araşdırılacaq mövzular haqqında ümumi təsəvvür yaratmaq üçün şagirdlərə müəyyən suallar verilir. Diaqnostik xarakter daşıyan bu suallar şagirdlər tərəfindən cavablandırılır.

Bölmədəki mətnlər öyrənildikcə şagirdlərin mövzu ilə bağlı bilikləri dərinləşdirilir, bölmənin sonunda mövzu ilə bağlı onların fikirləri ümumiləşdirilir və yekunlaşdırılır. Şagirdlərin bölmə tədris edilməmişdən əvvəl söylədikləri fikirlərlə sonrakı fikirləri tutuşdurulur, onların dünyagörüşündə, fikirlərində əmələ gələn dəyişiklik və inkişaf müşahidə edilir. Hər bölmənin sonunda şagird "səyahət"ini yekunlaşdırır və mövzu ilə bağlı fikirlərini ümumiləşdirir. Bu tipli qısamüddətli layihələr şagirdlərdə öyrənilən məlumatın emal edilməsi, sistemləşdirilməsi, yekunlaşdırılması və təqdim edilməsi kimi bacarıqlar formalaşdırır.

**I bölmədə** əvvəlində şagirdə yelkənli gəmi ilə "səyahətə çıxmaq", kəşflər etmək və ya səfər etmək təklif olunur. Bələdçi obraz şagirdlərə səyahəti ailəsindən başlamağı təklif edir. 5-ci sinif dərsliyində verilmiş materiallara əsasən şagirdlərin özünə dair araşdırma aparması, kim



LAYİHƏ

olduğunu, malik olduğu müsbət və mənfi xüsusiyyətləri araşdırması nəzərdə tutulurdu. 6-cı sinifdə şagird mövzunun davamı olaraq artıq "Ailə nədir?" sualına ("Dünya içində bir aləm") cavab axtarır, ailəsinə dair araşdırma aparır, ailədə öz yerini, ailənin formalaşmasında rolunu, ailədəki hüquq və vəzifələrini müəyyən etmiş olur. Burada həmçinin şagirdə valideynləri ilə sorğu keçirməsi də təklif olunur. Dərslikdə sorğunun keçirilməsi üçün suallar da verilmişdir. Bu prosesə məktəb psixoloqunun cəlb edilməsi daha effektiv nəticə verə bilər. Bu, problemli şagird və ailənin üzə çıxarılmasında məktəbə yardımçı ola bilər, məktəb və müəllimlər həmin şagirdlərlə işi düzgün qurmaq üçün istiqamətlərini müəyyən etmiş olarlar. Şagirdin növbəti səyahəti və tədqiqatı özünün insan və layiqli vətəndaş kimi formalaşmasında əvəzsiz rolu olan məktəbə ("Pərvizin həyatı"), müəllimə ("Şarların köməyi"), daha sonra cəmiyyətə (Mətn) yönəlir.

Dərslikdə layihənin ikinci addımı kimi şagirdlərə teleqramın yazılış qaydasını öyrətmək üçün maraqlı bir priyomdan istifadə olunur: şagirdlərə ünvansız və qəribə məzmunlu teleqram təqdim olunur. Teleqramdakı "zirvə" sözünün altında gizlənən məna dərsliyin sonunda açılır, səyahət başa çatır.

Bu mövzularla bağlı şagirdə verilən tapşırıq, sorğu və araşdırmalarda şagirdin yaş səviyyəsi gözlənilmişdir.

Araşdırmaları aparmaq üçün müəllim şagirdi istiqamətləndirir, resurslar təqdim edir, şagirdi yaş səviyyəsinə uyğun təqdimatlar hazırlamağa, fikrini sadə və anlaşıqlı cümlələrlə ifadə etməyə sövq edir.

I bölmədə təqdim olunan mətnlər tədris prosesində şaxələndirilir, yeri gəldikcə uyğun mövzularla əlaqələndirilir. 5-ci sinifdə 18 Sentyabr Musiqi Günü ilə bağlı məlumat verildiyi üçün bu dəfə dərslikdə bu mövzuya toxunulmamışdır. Lakin müəllimin yığcam sual-cavab ("Uşaqlar, səyahətiniz zamanı sentyabr ayında əlamətdar günləri sıralasa idiniz, ilk tarixi gün hansı olardı?", "18 Sentyabr nə üçün əlamətdar tarix sayılır?" , "Sizcə, 18 Sentyabr tarixinin zirvə sözü ilə nə kimi əlaqəsi ola bilər?" və s.) vasitəsilə bu mövzuya toxunması məqsədəmüvafiqdir.

"Dünya içində bir aləm" mətni tədris olunarkən şagird "Ailə nədir?" sualına cavab tapır, ailənin müqəddəsliyi, özünəməxsus qayda-qanunları olduğunu, ailədə ata-ananın, özünün rolunu anlayır, "Təhsil haqqında Qanun"un müvafiq bəndləri ilə tanış olur, hadisə və anlayışları müqayisə edir. M.İbrahimovun "Pərvizin həyatı" povesti (povest xeyli ixtisar edilmiş və şagirdin yaş səviyyəsinə uyğunlaşdırılmışdır) ailədən sonra şagirdin həyatında xüsusi yer tutan məktəb mühitinə, eyni zamanda, iç dünyasına səyahət edir, cəmiyyətə layiqli vətəndaş kimi çıxışında məktəb və müəllimin rolunu, ətraf mühitlə münasibətdə formalaşan xarakterini dərk edir. "Şarların köməyi" mətni müəllimi ibrətamiz obraz kimi canlandırır. Mətndə müəllimin cəmiyyətdə özünü idarə etmək, qayğıkeşlik, əməkdaşlıq, qarşılıqlı yardım, birgəfəaliyyətin səmərəsi ilə bağlı şagirdlərə verdiyi tərbiyə təbliğ olunur. Övladın tərbiyəsində ata və ananın verdiyi tərbiyənin əhəmiyyətini vurğulayan "Dünya içində bir aləm" mətnindən sonra müəllimin, məktəbin şagirdə verdiyi təlim-tərbiyə, şagirdin cəmiyyətə hazırlanması ilə bağlı mətnlər verilir, müəllim ailədə formalaşan mənəvi dəyərləri şagirdlərdə daha da inkişaf etdirən şəxs kimi təqdim olunur.




Ailədən məktəbə, məktəbdən cəmiyyətə olan keçidi bu sxem vasitəsilə göstərmək üçün şagirdə təqdim etmək məqsədəmüvafiqdir. Şagird ailədə, məktəbdə və cəmiyyətdə öyrəndiklərini, onun inkişafında rolu olan şəxs və ya hadisələri göstərməklə əldə etdiklərini, "səyahət"in ona qazandırdıqlarını təqdim edə bilər.

I bölmənin sonuncu mətninin adlandırılması şagirdin öhdəsinə buraxılmışdır. Bitkin hissə S.S.Axundovun "Cəhalətin qurbanı" hekayəsindəndir. Burada Tamam obrazı vasitəsilə şagirdə cəmiyyətdə özünü aparmaq qaydaları, hörmət, qarşılıqlı hörmət, ətrafa hörmət kimi müsbət keyfiyyətlər təbliğ olunur. Dinləmə mətni kimi isə eyni məzmunlu və dahi şair, dramaturq Hüseyn Cavidin uşaq ikən həyatında baş vermiş hadisə təqdim olunur.

LAYİHƏ

Hər iki mətndə canlı aləmin – quşların qorunması haqqında məsələ əsas mövzu olduğu üçün şagirdlərə “Azərbaycanda quşlar və onların qorunması” ilə bağlı araşdırma aparmaq və rubrika hazırlamaq təklif olunur.

Bölmənin sonunda şagird təqdim olunan tapşırıq modeli vasitəsilə özünü qiymətləndirir, “səyahət”ini yekunlaşdırır və bölmədə dərslik müəlliflərinin çatdırmaq istədikləri əsas fikirləri müəyyən etmiş olur.

Bölmədə nitq hissələri, isim, tək və cəm, ümumi və xüsusi isimlər, onların yazılış qaydaları haqqında yığcam, sadə məlumat verilir, qaydalar mətnlə əlaqələndirilir, qaydaları tətbiq etmək üçün çalışmalar verilir.

Bölmədə dinləmə mətnləri üzərində iş aparmaq üçün suallar verilmiş, dinləmə mətnləri isə MMV-də cari planlaşdırma nümunələrində yer almışdır. Onu da qeyd edək ki, dinləmə mətnlərinin səsli variantı da təqdim olunmuşdur.

Mətnlərdən sonra 4 məzmun xətti üzrə standartları reallaşdıran tapşırıqlar verilmişdir. Orfoqrafiya və orfoepiya ilə bağlı tapşırıqlar müəllimin qurduğu dərsdən asılı olaraq mətnin oxusundan əvvəl və ya oxu zamanı icra edilə bilər.

Oxudan sonra mətnin məzmununu mənimsəmək, lüğət tərkibi üzərində iş aparmaq üçün sual və tapşırıqlardan istifadə olunur.

“Oxu” məzmun xətti üzrə 3.1.3. alt-standartını (Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir) reallaşdırmaq üçün bölmədə mətn, mətnin hissələrə bölünməsi və tərkib hissələrinin şagird tərəfindən asanlıqla müəyyən edilə bilməsi üçün “Yaddaş” verilmişdir.

Tapşırıqların bir qismində şagirdə nümunələr təqdim olunur. Şagirdə izah olunmalıdır ki, təqdim olunan söz, söz birləşmələri, cümlə, fikir və s. ona yalnız nümunə kimi verilir. Şagirdlər tapşırığın icrasına öz düşüncələrinə, təxəyyüllərinə uyğun yanaşa bilərlər.

Bir çox tapşırıqların izahı cari planlaşdırma nümunələrində verilmişdir.

Yazı məzmun xəttini reallaşdırmaq üçün I bölmədə teleqramın yazılması qaydası (4.1.4.), əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri (4.1.3.) qaydaları və qaydalara müvafiq tapşırıqlar verilmişdir.

I bölmə üzrə müəllimlərə iki Kiçik Summativ Qiymətləndirmə nümunəsi təqdim olunur.

**II bölmədə** də eyni prinsip, eyni yanaşma gözlənilmişdir. Bu bölmədə şagird Vətən, torpaq və yurd sevgisinin nə olduğunu öyrənmək üçün səyahətə çıxır, tarixi hadisələrin burulğanına düşür. Bu bölmə Azərbaycan Respublikasının işğalçı Ermənistan üzərindəki parlaq qələbəsini özündə ehtiva edir. Bu bölmədə şagirdə tarixi hadisələrin fonunda planlı çalışma, ədalətli olma, qərar qəbuletmə, hadisələrə münasibətbildirmə kimi xüsusiyyətlər aşılanır. Şagird mövzu ilə bağlı tədqiqat aparır, təkliflər verir, münasibət bildirir, müzakirə olunan mövzularla bağlı mülahizələrini bildirir, təqdimatlar, bülletenlər, bukletlər, divar qəzetləri və s. hazırlayır.

Mətnlər məzmun baxımından biri digərinə başlanğıc verir. “Daş adamlar” mətnində Persey obrazı vasitəsilə başqa xalqlara hörmətlə yanaşma, tolerantlıq kimi xüsusiyyətlər təbliğ olunur. Perseyin adadakı insanları xilas etmək üçün çevik qərar qəbul etməsi, planlı iş görməsi kimi xüsusiyyətlərin şagirdlərdə tərbiyə edilməsi çox vacibdir. Bu xüsusiyyətləri özündə tərbiyə edən şagird dərslərinə, istirahətinə və digər məsələlərə də vaxt ayırmağı öyrənəcəkdir. Mətndə insan hüquqları ilə bağlı təqdim olunan tapşırıqlar icra edilərkən müəllimin 12 Noyabr Konstitusiya Günü, ana qanunun əhəmiyyəti haqqında yığcam məlumat verməsi məqsədəuyğundur.

“Daş adamlar” mətni “Azərbaycan bayrağı” şeirinin tədrisinə keçid etməyə imkan verir. Bu keçid üçün dərslikdə müvafiq suallar *(“Persey gəzdiyi ölkələri xatırlatmaq üçün oradan bir əşya gətirirdi. Nə üçün?”, “Sizcə, dövləti tanıdan nədir?”, “Dövlətin müstəqilliyini sübut edən nədir?”)* verilmişdir. Müəllim fərqli suallardan da istifadə edə bilər. Şeirin tədrisi zamanı 9 Noyabr Bayraq Günü haqqında şagirdlərin bu tarixi günlə bağlı məlumatları sual-cavab vasitəsilə yoxlanılır. Şagirdlər “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında

“AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU”nun müvafiq bəndləri ilə tanış olur və araşdırma aparmağa sövq edilirlər.



LAYİHƏ

“İtirilmiş açar” mətni vasitəsilə şagirdlər azərbaycanlıların doğma yurdlarından qovulması haqqında sadə məlumatlar əldə edirlər. Hadisələrə şagirdlərin münasibəti öyrənilir.

“Ataya məktub” mətni 28 il işğal altında olan Qarabağda baş verənlər haqqında (torpaqların işğalı, tarixi abidələrin məhvi, Qarabağın mədəniyyət beşiyi olması və s.) şagirdlərdə təsəvvür yaradır. Şagird xəyalən Qarabağ torpağına səyahət edir. Bu mətn vasitəsilə şagird fakt və hadisələrin müəyyən edilməsini, onların fərqləndirilməsini, istifadə qaydalarını öyrənir.

“Nişan üzüyü” mətni vasitəsilə şagirdlərdə müharibə, onun fəsadları, müharibədə xalq ilə ordunun həmrəyliyi və s. məsələlər ön plana çəkilir, şagirdlərin mövzu ilə bağlı fikirləri öyrənilir. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuzun 27 sentyabr – 8 noyabr 2020-ci il tarixlərində parlaq qələbəsi, düşməni cəzasına çatdırması ilə bağlı şagirdlərdə fikir söyləmə, mühakimə yürütmə, münasibət bildirmə bacarığı formalaşdırılır.

Dərslikdə Vətən müharibəsinin real qəhrəmanı və real hadisələr əsasında yazılmış “Mən nə etdimsə, Vətənim üçün etdim” hekayəsinin fonunda şagirdlərə xalqın vətənpərvər oğullarını tanıtmaq, onlardan nümunə götürmək, vətəni sevmək hissinin aşılanması çox mühüm və vacib məqamdır. Mövzu ilə əlaqədar şagirdlərin Vətən müharibəsinin digər qəhrəmanları haqqında məlumat toplaması, yaş səviyyələrinə uyğun hekayə, inşa və esselər yazması, təqdimatlar, bukletlər, bülletenlər, divar qəzetləri hazırlaması, rəsm çəkməsi və s. bu kimi tədbirlərə istiqamətləndirilməsi onlarda vətənpərvərlik hisslərinin formalaşdırılmasına əhəmiyyətli dərəcədə təsir etmiş olacaqdır. Eyni zamanda, müharibədə dövlət başçısının Ali Baş Komandan kimi istər orduya rəhbərlik etməsi, istərsə də informasiya müharibəsində qələbəsi, şəhid, qazi və qəhrəman döyüşçülərə qayğısı anlaşıqlı dildə şagirdlərə çatdırılmalı və onları bu məsələlərə münasibət bildirilməsinə sövq etmək lazımdır. Hərtərəfli qələbə çalmaq üçün savad, bilik əldə etməyin vacibliyi vurğulanmalıdır.

“Gözün aydın, Azərbaycan!” şeiri isə qələbənin əzəmətini tərənnüm edir. Bu şeir vasitəsilə şagirdlərdə baş vermiş hadisələr yekun münasibətbildirmə, əlaqələndirmə kimi bacarıqlar formalaşdırmaq mümkündür.

I bölmədə olduğu kimi, burada da mətnlər üzərində iş aparmaq üçün müxtəlif tapşırıqlar, sonu **k** və **q** ilə bitən çoxhecalı sözlərin yazılış və deyiliş qaydaları, sait və ya samitlə başlanan şəkilçi qəbul etdikdə söz kökündə baş verən dəyişikliklərlə bağlı qaydalar, tapşırıqlar və s. verilmişdir.

Yazı məzmun xəttini reallaşdırmaq üçün II bölmədə mövzuya uyğun inşa, esse və hekayənin yazılması (4.1.1.), izahatın hazırlanması (4.1.4.), əsas nitq hissələrinin yazılış qaydaları (4.1.3.) və s. ilə bağlı müvafiq tapşırıqlar yer almışdır. Yazılan hekayə, inşa və esselərin çox sadə, yığcam olması üçün şagirdə istiqamət və lazımi göstərişlər verilməlidir.

II bölmə üzrə müəllimlərə iki Kiçik Summativ Qiymətləndirmə nümunəsi təqdim olunmuşdur. II bölmənin sonunda BSQ keçirilməsi nəzərdə tutulur. BSQ məktəb rəhbərliyi tərəfindən hazırlanır və keçirilir.

**III bölmədə** şagird kəşflər və ixtiralar aləminə səyahət edir, diqqətin, çalışqanlılığın, zəhmətin, səbir və təmkinin mənəvi aləmin formalaşmasında rolunu dərk etmək üçün səyahətə çıxır, təqdim olunan sualları ətrafında düşünür, araşdırma aparır. Müxtəlif mətnlər və tapşırıqlar vasitəsilə suallarına cavab tapır, cəmiyyətdə yaşamaq və faydalı olmaq üçün etməli olduqları ilə bağlı yoldaşları ilə müzakirələr aparır, xüsusiyyətləri müəyyən edir, onları qruplaşdırır. Digər bölmələrdə olduğu kimi, III bölmədə də şagirdlərə araşdırma aparmaq təklif olunur.

III bölmə şagirdlərdə diqqətcillik, zəhmətsevərlik, səbir, təmkin, dözümlülük, özünəinam, ətrafa münasibət, başqalarına hörmət, qayğı, mərhəmət kimi xüsusiyyətlər, məqsədə nail olmaq üçün hədəfləri düzgün müəyyən etmək, tədqiqatçılıq, müxtəlif mənbələrdən məlumatların toplanması, onların emal edilməsi, ümumiləşdirilməsi və qərarvermə kimi bacarıqlar formalaşdırır.

III bölmədə sifət nitq hissəsinin yazılışı haqqında məlumat və qaydalar təqdim olunmuşdur.



LAYİHƏ

**IV bölmədə** şagirdlər I bölmədə teleqram vasitəsilə onların dəvət edildiyi zirvəyə çatırlar. Bu zirvənin işğaldan azad olunmuş, işğaldan azad ediləcəyinə ümidini itirməyən musiqi beşiyinin, musiqi konservatoriyasının ocağı hesab edilən doğma Şuşanın olduğunu anlayırlar. Bu bölmədə şagird doğma vətəninin bir hissəsini – Şuşaya gedən yolu səyahətə çıxır, keçdiyi yerlərin tarixi, mədəniyyəti ilə tanış olur, əldə etdiyi məlumatlar əsasında yığcam təqdimatlar edir. Təqdimatları əsasında təklif olunan layihəni hazırlayır.

Bölmədə bəzi mətnlərdə bölgənin adı birbaşa verilməmiş, onu əvəz edən və bölgə ilə bağlı olan başqa bir adla təqdim edilmişdir. Bölgənin adını müəyyənləşdirmək şagirdin öhdəsinə buraxılmışdır. Məsələn, “Günəşə baxan şəhər” dedikdə Bakı, “Danışan abidələr şəhəri” dedikdə Beyləqan, “Dahi şəhər” dedikdə Füzuli və s. nəzərdə tutulur.

IV bölmədə say nitq hissəsinin yazılış qaydası təqdim olunmuşdur.

Bu bölmədə şagird təqdimat hazırlayarkən, inşa yazarkən əvvəlki bölmələrdə öyrəndikləri qrammatik qaydaları və durğu işarələrini tətbiq edir. Bu layihələrin məktəbdə sərgisi və təqdimatı keçirilsə, məqsədəmüvafiq olar.

IV bölmənin sonunda BSQ keçirilməsi nəzərdə tutulmuşdur.

# Məzmun standartları və onların şərhi

**Azərbaycan dili (dövlət dili) fənni üzrə aşağıdakı məzmun standartları vardır: *“Dinləmə”, “Danışma”, “Oxu”, “Yazı”.***

**Dinləmə** şifahi nitqin eşidilməsi və qavranılmasıdır. Şagird mövzu ilə bağlı müxtəlif mənbələrdən məlumatı dinləyir, lazım olan informasiyanı seçir, qeydlər aparır. Dinlədiyi mətndə əsas fikri, lazım olan faktları seçməyi bacarır, həmin fikir və faktlar ətrafında mülahizələr yürüdür.

Müəllim dərslikdə dinləmə mətnləri üzrə təqdim olunmuş sualların cavablandırılması üçün şagirdə mətni dinləyərkən diqqətli olmağı tövsiyə etməlidir.

*Dinləmə mətnləri üzərində işləyərkən şagird aşağıdakıları bacarmalıdır:*

- dinlədiyi mətnin məzmununu izah edir;
- mətnin məzmununa münasibət bildirir;
- mətndəki əsas fikri müəyyən edir;
- mətndəki əsas fikrə münasibət bildirir;
- mətndəki hadisələrə münasibət bildirir;
- mətndəki obrazlara münasibət bildirir;
- sözlərin düzgün tələffüzünə diqqət yetirir;
- mətnlə bağlı verilən suallara cavab verir;
- dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir;
- mətndən lazım olan faktları seçir;
- mətndəki fakt və hadisələri fərqləndirir;
- mətndən açar sözləri seçir;
- mətndəki söz, ifadə və cümlələrin mənasını izah edir.

**Danışma** nitq fəaliyyətidir. Şagird müzakirə olunan mövzu ilə bağlı fikirlərini bildirir, müxtəlif fikirlərə münasibət bildirir, müzakirələrə qoşulur, nitqini qurur. Danışma həm dinləmə, həm də oxu mətnlərindən sonra həyata keçirilir.

Danışma bacarığı sinifdə müzakirələr zamanı formalaşır. Şagirdin fikir bildirməsi, fikirlərini ifadə etməsi üçün ona müəllim lazımi dəstəkləyici mühit yaratmalıdır.

Dərslikdə şagirdin müzakirə olunan mövzu ilə bağlı danışması, problemi müəyyənləşdirməsi və münasibət bildirməsi, müqayisələr aparması, təkliflər verməsi üçün kifayət qədər tapşırıq modelləri vardır.

LAYİHƏ

Danışmanı reallaşdırmaq üçün dərslikdə şəkillər və onlar üzərində işləmək üçün suallar verilmişdir. Müəllim qurduğu dərsdən asılı olaraq uyğun bildiyi digər şəkillərdən də istifadə edə bilər.

*Danışma zamanı şagird aşağıdakıları bacarmalıdır:*

- sait və samitləri düzgün tələffüz edir;
- sözləri düzgün vurğu ilə tələffüz edir;
- jest və mimikalardan nitqinə uyğun istifadə edir;
- nitqində temp və ritmdən istifadə edir;
- fakt və hadisələri seçə bilir;
- fakt və hadisələri fərqləndirə bilir;
- fikrini əsaslandırarkən faktlardan yerində istifadə edir;
- şəkilləri təsvir edir;
- şəkillər əsasında dialoq və mətn qurur;
- mövzu ilə bağlı fikirlərini bildirir;
- fikirlərini bildirmək üçün zəruri söz və ifadələrdən istifadə edir;
- mövzu ilə bağlı cümlə (cümlələr) qurur;
- müşahidə etdiyi əşya və hadisələri şifahi təsvir edir;
- cümlələr əsasında rabitəli mətn tərtib edir;
- çatdırmaq istədiyi əsas fikri müəyyən edir;
- əsas fikrə münasibət bildirir;
- obrazlara münasibət bildirir;
- hadisələrin sonluğunu fərqli təqdim etmək üçün təkliflər verir;
- dinlədiyi və ya oxuduğu mətnin məzmununu danışır.

**Oxu** müxtəlif üslubda olan mətnlərin şüurlu, düzgün və ifadəli oxusunun təşkil edilməsidir.

Oxu söz ehtiyatını artırmaqla yanaşı, şagirdlərin nitqini, özünüifadə bacarıqlarını (şifahi və yazılı şəkildə) inkişaf etdirir. Oxu düzgün, sürətli və ifadəli oxu vərdişləri formalaşdırır, fakt və hadisələri müəyyən etmək, onları qruplaşdırmaq, müqayisə etmək və s. üçün şərait yaradır. Oxu mətnləri üzərində tapşırıqlar oxudan əvvəl, oxu zamanı və oxudan sonra icra edilir.

Oxudan əvvəl şagird mətnin adına münasibət bildirir, onu adlandırır, mətndə nədən və ya kimdən danışılacağı barədə fikir yürüdür, mülahizələrini bildirir, mətnlə bağlı orfoqrafik və orfoepik tapşırıqları icra edir. Hadisələri proqnozlaşdırır, onların necə davam edəcəyi barədə öz mülahizələrini bildirir və s.

Oxu zamanı mətni düzgün, şüurlu, sürətli və ifadəli oxumağı bacarır, mətnə uyğun şəkillər üzərində danışır, şəklin məzmuna uyğunluğunu müəyyən edir, mətnlə bağlı sualları cavablandırır.

Oxudan sonra mətnin məzmununun hansı səviyyədə mənimsənildiyini (obrazlar, əsas fikir və s.) öyrənmək üçün sual və tapşırıqlar üzərində iş aparılır, mətnin sonuna yaradıcı yanaşır.

*Oxu zamanı şagird aşağıdakıları bacarmalıdır:*

- Mətni intonasiya ilə oxuyur;
- Oxu zamanı intonasiyanın tələblərini əməl edir;
- Əsas nitq hissələrinin qrammatik mənasını izah edir;
- Əsas nitq hissələrinin nitqdə rolunu müəyyən edir;
- Mətnin tərkib hissələrini müəyyən edir;
- Mətnin tərkib hissələrinə müvafiq hadisələrə münasibət bildirir;
- Mətndəki sözləri düzgün vurğu ilə oxuyur.

**Yazı** vasitəsilə şagirdlər digər standartlar reallaşarkən əldə etdiyi, öyrəndiyi məlumatları müxtəlif mətn formaları şəklində təqdim edir, araşdırmaları, sorğuları və tədqiqatları əsasında təqdimatlar hazırlayır.



LAYİHƏ

*Yazı zamanı şagird aşağıdakıları bacarmalıdır:*

- sözləri düzgün yazır;
- sözlərin mənasına bələd olaraq onlardan düzgün istifadə edir;
- cümlələri qurur;
- cümlələr əsasında kiçik mətnlər tərtib edir;
- durğu işarələrindən düzgün istifadə edir;
- zəruri dil qaydalarını bilir;
- teleqram və izahat yazır;
- mətn formalarını fərqləndirir;
- müxtəlif formalarda mətn hazırlayır;
- yazacağı fikirlər üçün forma müəyyən edir;
- mətn hazırlamaq üçün plan tərtib edir.

Bu bacarıqlara yiyələnən şagird sadə, yaş səviyyəsinə uyğun şəkildə müxtəlif formada mətn hazırlamağı, hadisələrə münasibət bildirməyi, obyekt, anlayış və hadisələri təsvir etməyi və s. bacarır.

Dərslikdə müxtəlif mətn formalarının, təqdimatların hazırlanması üçün plan və istiqamətlər verilmişdir.

**Dil qaydaları.** Dərslikdə dil qaydaları 4.1.3. standartı əsas götürülərək verilmişdir. Dil qaydaları təqdim edilərkən sözlərin orfoepiyası, orfoqrafiyası, əsas nitq hissələrinin yazılış qaydaları, cümlələrin sonunda və dialoqlarda durğu işarələrinin işlənməsi nəzərə alınmışdır.

*Orfoepik tapşırıqlar* dərslikdə mətnlərdən əvvəl verilmişdir. Mətnin oxusundan əvvəl müəllim həmin sözlərin tələffüzü üzərində iş aparır, tələffüz qaydalarını izah edir. Oxu zamanı həmin səslərin şagirdlər tərəfindən düzgün tələffüzü diqqətdə saxlanılır.

*Orfoqrafik tapşırıqlar* da orfoepik tapşırıqlar kimi oxudan əvvəl icra edilir. Müəllimin seçimi əsasında tapşırıq müxtəlif üsullarla həyata keçirilə bilər:

1. Mətnin oxusuna başlamamışdan əvvəl təklif olunan sözlərin düzgün yazılışı üzərində iş aparır. 2–3 dəqiqə müddətində tapşırıqların icrası mümkündür.
2. Müəllim həmin sözləri lövhəyə yazır və düzgün yazılış şagirdlər tərəfindən müəyyənləşdirilir.

Morfologiya bölməsindən isim, sifət və sayların yazılış qaydaları, sintaksis bölməsindən isə cümlələrin durğu işarələrindən düzgün istifadə qaydaları və müvafiq tapşırıqlar təqdim olunur.

Dərslikdə zəruri dil qaydaları 4 bölmədə təqdim olunmuşdur.

4.1.4. standartında nəzərdə tutulan teleqramın yazılma qaydası I bölmədə, izahatın yazılma qaydası II bölmədə verilmişdir.



LAYİHƏ

# Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Azərbaycan dili fənni üzrə məzmun standartları

**VI sinfin sonunda şagird:**

• dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir; nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir, nitqində ritm və tempdən məqsədəuyğun istifadə edir;

• fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır və mətnin hissələrinə müvafiq qruplaşdırır;

• mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir;

• mətndəki sözləri düzgün vurğu ilə oxuyur;

• mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir;

• mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir və mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir;

• əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;

• müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

**1. Dinləyib-anlama**

Şagird:

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir;*

1.1.1. Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir;
1.1.2. Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir.

**2. Danışma**

Şagird:

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir;
2.1.2. Nitqində ritm və tempdən istifadə edir;
2.1.3. Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır;
2.1.4. Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır.

**3. Oxu**

Şagird:

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir;
3.1.2. Mətndəki sözləri düzgün vurğu ilə oxuyur;
3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir.

**4. Yazı**

Şagird:

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir;
4.1.2. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir;
4.1.3. Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
4.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.



LAYİHƏ

# Mövzuların saatlar üzrə bölgüsü

Dərslikdə verilmiş tədris materialları 34 həftəni əhatə etməklə 68 saat üçün nəzərdə tutulmuşdur. Azərbaycan dili həftədə 2 saat tədris olunur.

## İllik planlaşdırma nümunəsi

### I bölmə. Ailədən başlanan yol

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 1.1.1., 2.1.3., 4.1.4. | Layihə. Teleqram | 1 | |
| 2 | 1.1.1., 2.1.3., 3.1.2. | Dünya içində bir aləm | 1 | |
| 3 | 1.1.1., 2.1.3., 3.1.2. 4.1.2 | Dünya içində bir aləm | 1 | |
| 4 | 2.1.1., 2.1.3., 4.1.2. | Dünya içində bir aləm | 1 | |
| 5 | 2.1.1.,2.1.3., 3.1.3. | Pərvizin həyatı (I hissə) | 1 | |
| 6 | 3.1.1., 3.1.2.,4.1.3. | Pərvizin həyatı (I hissə) | 1 | |
| 7 | | KSQ | 1 | |
| 8 | 1.1.2., 3.1.2. | Pərvizin həyatı (II hissə) | 1 | |
| 9 | 1.1.2., 2.1.3., 4.1.3. | Pərvizin həyatı (II hissə) | 1 | |
| 10 | 2.1.3., 3.1.1., 3.1.2. | “Şarların köməyi” | 1 | |
| 11 | 2.1.3., 3.1.3. | “Şarların köməyi” | 1 | |
| 12 | 2.1.3., 4.1.2., 4.1.3. | “Şarların köməyi” | 1 | |
| 13 | 1.1.1., 2.1.3., 4.1.1. | Mətn | 1 | |
| 14 | 2.1.3., 3.1.2., 3.1.3., 4.1.2. | Mətn | 1 | |
| 15 | 1.1.2., 2.1.3., 2.1.4., 4.1.1. | Mətn | 1 | |
| 16 | 2.1.3., 3.1.3. | Layihənin I hissəsinin yekunu | 1 | |
| 17 | | KSQ | 1 | |

### II bölmə. Vətən yolu

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 2.1.3.,2.1.4., 3.1.2., 3.1.3. | Daş adamlar | 1 | |
| 2 | 2.1.1., 2.1.3. | Daş adamlar | 1 | |
| 3 | 3.1.1.,4.1.3., 4.1.4. | Daş adamlar | 1 | |
| 4 | 2.1.2., 2.1.3., 3.1.2. | Azərbaycan bayrağı | 1 | |



LAYİHƏ

| | | | | |
|---|---|---|---|---|
| 5 | 3.1.1., 4.1.2., 4.1.3. | Azərbaycan bayrağı | 1 | |
| 6 | 1.1.1., 2.1.4., 3.1.2., 3.1.3., 4.1.2. | İtirilmiş açar | 1 | |
| 7 | 2.1.3., 2.1.4., 3.1.1., 4.1.3. | İtirilmiş açar | 1 | |
| 8 | 1.1.2., 4.1.1., 4.1.2., 4.1.3. | İtirilmiş açar | 1 | |
| 9 | | KSQ | 1 | |
| 10 | 2.1.3., 3.1.2., 3.1.3. | Ataya məktub | 1 | |
| 11 | 2.1.1., 2.1.3., 3.1.2., 3.1.3. | Nişan üzüyü | 1 | |
| 12 | 1.1.1., 2.1.3., 3.1.1., 4.1.3. | Nişan üzüyü | 1 | |
| 13 | 2.1.1., 2.1.3., 3.1.2. | Mən nə etdimsə, Vətən üçün etdim | 1 | |
| 14 | 2.1.3.,2.1.4., 3.1.3. | Mən nə etdimsə, Vətən üçün etdim | 1 | |
| 15 | | 20 Yanvar | 1 | |
| 16 | | “Gözün aydın, Azərbaycan!” və bölmənin yekunlaşdırılması | 1 | |
| 17 | | KSQ | 1 | |

## III bölmə. Mənəvi dünyam

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 2.1.2., 2.1.3., 3.1.1, 3.1.2., 4.1.2. | Baxmaq və görmək | 1 | |
| 2 | 1.1.1., 2.1.3., 4.1.2. | Nizami Gəncəvi | 1 | |
| 3 | 2.1.1., 2.1.3., 2.1.4., 3.1.1. | Qızıma məktub! | 1 | |
| 4 | 2.1.2., 2.1.3., 2.1.4., 4.1.2. | Qızıma məktub! | 1 | |
| 5 | 1.1.2., 2.1.2., 2.1.3., 3.1.1. | Qızıma məktub! (Essenin yazılması) | 1 | |
| 6 | 2.1.1., 2.1.3., 2.1.4., 3.1.2. | Mavi don - Xocalı | 1 | |
| 7 | 2.1.1., 2.1.3., 2.1.4., 3.1.2., 4.1.1. | Mavi don - Xocalı | 1 | |
| 8 | 2.1.3., 2.1.4., 3.1.3., 4.1.1. | Tək hərəkət | 1 | |
| 9 | 3.1.1., 3.1.2., 3.1.3., 4.1.3. | Tək hərəkət | 1 | |
| 10 | 2.1.3., 2.1.4., 3.1.1., 3.1.3. | KSQ | 1 | |
| 11 | 2.1.2., 2.1.3., 2.1.4., 3.1.2., 3.1.3. | Fleyta | 1 | |
| 12 | 1.1.2., 2.1.2., 2.1.3., 3.1.2., 3.1.3. | Fleyta | 1 | |
| 13 | 2.1.2., 2.1.3., 2.1.4., 3.1.3., 4.1.2. | Limon ağacı | 1 | |
| 14 | 2.1.1., 2.1.3., 2.1.4., 3.1.1., 3.1.3., 4.1.4. | Limon ağacı | 1 | |
| 15 | 2.1.3., 2.1.4., 3.1.1., 3.1.3., 4.1.1. | Novruz Cıdır düzündə | 1 | |



LAYİHƏ

| | | | | |
|---|---|---|---|---|
| 16 | 1.1.1., 1.1.2., 2.1.1., 2.1.3., 3.1.3. | Üç mirvari | 1 | |
| 17 | 3.1.1., 3.1.2., 3.1.3., 4.1.3. | Üç mirvari | 1 | |
| 18 | | Layihə | | |
| 19 | | KSQ | | |

## IV bölmə. Zəfər yolu

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 1.1.2., 2.1.1., 2.1.3., 4.1.2. | Günəşə baxan şəhər | 1 | |
| 2 | 4.1.1., 4.1.2., 4.1.3. | Günəşə baxan şəhər | 1 | |
| 3 | 3.1.1., 4.1.3.. | Günəşə baxan şəhər | 1 | |
| 4 | 1.1.2., 2.1.1., 2.1.3., 4.1.2. | Günəşli torpaq | 1 | |
| 5 | 1.1.2., 2.1.1., 2.1.3., 4.1.2. | Günəşli torpaq | 1 | |
| 6 | 1.1.2., 3.1.1., 2.1.3., 2.1.4. | Danışan abidələr | 1 | |
| 7 | 3.1.1., 2.1.3., 3.1.3., 4.1.3. | Danışan abidələr | 1 | |
| 8 | | KSQ | 1 | |
| 9 | 1.1.2., 2.1.1., 2.1.3., 4.1.2. | Danışan abidələr | 1 | |
| 10 | 1.1.2., 2.1.3., 4.1.1., 4.1.2., 4.1.3. | Dahi şəhər | 1 | |
| 11 | 1.1.2., 2.1.3., 4.1.1., 4.1.2., 4.1.3. | Dahi şəhər | | |
| 12 | 1.1.2., 2.1.3., 4.1.1., 4.1.2., 4.1.3. | Musiqi konservatoriyası | 1 | |
| 13 | 4.1.1., 4.1.2, 4.1.3. | Musiqi konservatoriyası | 1 | |
| 14 | | Layihənin yekunu | 1 | |
| 15 | | KSQ | 1 | |

LAYİHƏ

# Qiymətləndirmə

Bildiyiniz kimi, məktəbdaxili qiymətləndirmənin 3 növü (diaqnostik, formativ, summativ) vardır. Məzmun standartlarına əsaslanan məktəbdaxili qiymətləndirmə şagirdin fəaliyyət və nailiyyətini izləyir, inkişafını təmin etməklə yanaşı, inkişaf dinamikasını izləməyə imkan verir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi tədrisin keyfiyyətinin artırılması üçün məqsədlər müəyyən edir, irəliləyişləri qiymətləndirir, nəticələr əsasında müqayisələr aparır.

**Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:**

- Təlim nəticələrinin, standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- Şagirdlərin təlimə marağını yüksəltmək;
- Şagirdlərin güclü və zəif cəhətlərini müəyyən etmək;
- Şagirdlərin nailiyyətini dəyərləndirmək;
- Şagirdlərin nəyə isə nail olduğuna əmin olmaq;
- Şagirdlərin gələcək uğurlarının maksimallaşdırılması.

**Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:**

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

# Diaqnostik qiymətləndirmə

Şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək müəllim üçün məktəblilərin potensial imkanlarını, meyil və maraqlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda, şagird bir ümumi təhsil müəssisəsindən digərinə köçürüldükdə, yəni sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Müəllim qiymətləndirməyə diaqnostikadan başlamalıdır. Diaqnostik qiymətləndirmə tədris prosesini daha səmərəli və keyfiyyətli etmək, strategiyasını qurmaq üçün müəllimə imkan verir. Diaqnostik qiymətləndirmə keçirmək üçün müəllim seçdiyi standartlar əsasında təlim nəticələri, təlim nəticələri əsasında qiymətləndirmə meyarları müəyyənləşdirir, daha sonra qiymətləndirmə materialı hazırlayır.

**Nümunə:**

**Standartlar:** 1.1.2., 4.1.2.

Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir;

Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir.

**Təlim nəticələri:**

Dinlədiyi mətndən faktları (hadisələri) seçir.

Giriş, əsas hissə və nəticə hissəni əlaqələndirir. (Mövzudan asılı olaraq, giriş və əsas hissə, əsas hissə və nəticənin, giriş və nəticə hissənin əlaqələnməsinin müəyyən edilməsi)

**Qiymətləndirmə meyarları:**

Əsas faktı (hadisəni) müəyyənetmə

Əlaqələri müəyyənetmə



LAYİHƏ

Dərslikdə bununla bağlı tapşırıqlar verilmişdir. Müəllim həmin tapşırıqlardan istifadə etməklə fərqli tapşırıqlar (analoqunu) hazırlaya bilər.

Diaqnostik qiymətləndirmənin nəticələri yalnız müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, yekunlar barədə valideynlər, sinif rəhbəri və digər fənləri tədris edən müəllimlər məlumatlandırılır. O, formativ və summativ qiymətləndirmələr üçün zəmin rolunu oynayır.

Diaqnostik qiymətləndirmənin nəticələri təhlil olunur, şagird portfoliosunda saxlanılır.

## Diaqnostik qiymətləndirmədə istifadə olunan üsul və vasitəyə nümunə

| Üsul | Vasitə |
|---|---|
| Tapşırıqvermə | çalışma, sual, tapşırıq, şəkil üzərində iş və s. |
| Müşahidə | Müəllimin qeydiyyat vərəqi (yeni mövzu haqqında siniflə aparılan yoxlama zamanı müəyyən edilmiş meyarlarla bağlı müəllimin öyrənmək istədiklərinin qeydlər şəklində yazılması) |

## Formativ qiymətləndirmə

Formativ qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarındakı irəliləməni, geriləməni müşahidə etməyə, çatışmazlığı aradan qaldırmağa imkan verir. Müəllim formativ qiymətləndirməni həyata keçirmək üçün təlim məqsədlərini, daha sonra məqsədlər əsasında rubrikləri düzgün müəyyənləşdirməlidir. Rubriklər şagird fəaliyyətinin sözlü qiymətləndirməsidir.

Qiymətləndirmə apararkən aşağıdakılar diqqət mərkəzində saxlanmalıdır:

*Nəyi qiymətləndiririk?* (şagirdin bilik və bacarıqlarını);

*Necə qiymətləndiririk?* (müxtəlif üsul və vasitələrlə);

*Kimi qiymətləndiririk?* (şagirdi);

*Qiymətləndirmənin nəticələri necə təhlil olunur?* (cavablar yoxlanır, təlim nəticələrinin şagirdlər tərəfindən reallaşma səviyyəsi təhlil edilir (düzgün cavabların sayı, çatışmazlıq, müəllimin üzərində işləməli olduğu problem, daha çox diqqət yetirilməli məqamlar və s.), nəticələr diaqramlar vasitəsilə göstərilir;

*Qiymətləndirmənin nəticələri necə emal olunur?* (xarakterik səhvlər qruplaşdırılır, şagirdlərlə müzakirə olunur, müvafiq izahlar verilir);

*Qiymətləndirmənin nəticələri barədə kimə məlumat verilir?* (sinif rəhbərinə, valideynlərə, şagirdlərə).

Bilik və bacarıqların qiymətləndirilməsində bütün şagirdlərin diqqətdə saxlanması vacibdir.

Formativ qiymətləndirmənin keçirilməsi üçün qiymətləndirmənin üsul və vasitələri düzgün seçilməlidir. Hazırlanan tapşırıqlar ölçülə bilən olmalıdır. Dərslikdə şagird bacarıqlarını ölçən müxtəlif tapşırıq modelləri vardır.

Tapşırıqlar şagirdlərdə dinlədiyi və oxuduğu mətnlərdə əsas fikri müəyyənləşdirmək, müxtəlif fikirlərlə bağlı mülahizələrini bildirmək, yeni sözlərin mənasını öyrənmək, sözləri cümlələrdə işlətmək, ad və əlamət bildirən sözləri müəyyən etmək, onları uyğunlaşdırmaq, fakt və hadisələri



LAYİHƏ

seçmək, sözləri düzgün tələffüz etmək, düzgün yazmaq, durğu işarələrindən düzgün və yerində istifadə etmək, məzmunu yaradıcı nəql etmək, mətnin sonluğuna yaradıcı yanaşmaq və s. bu kimi bacarıqları ölçməyə xidmət edir. Bu tip tapşırıqlar standartların ölçülməsini təmin edir.

Standartlardan irəli gələn tələblərə yiyələnmə prosesində müəllim şagirdlərdə müxtəlif fəaliyyətləri müşahidə edə bilər. Məsələn:

- Mühakimə yürütməkdə çətinlik çəkir.
- Mühakimələri mətndəki əsas fikri qismən (tam) əhatə edir.
- Əsas fikirlə bağlı sərbəst mühakimə yürüdə bilir.
- Fikirlərini müəllimin və yoldaşlarının verdiyi sualların köməyi ilə ifadə edir.
- Faktları dəqiq olmasa da, sərbəst fikir söyləyir.
- Fikirlərini dəqiq fakt və nümunələrlə əsaslandırır.

Formativ qiymətləndirməni həyata keçirən müəllimin aşağıda qeyd olunanları bilməsi məqsədəuyğundur:

- Fənn üzrə hər bir dərs müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir.
- Hər dərsdə müəllim təlim prosesini şagirdlərin məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməsinə yönəltməlidir.
- Şagirdlər fəaliyyətlərində potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər.
- Müəllim əvvəlcədən hazırladığı qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyət səviyyəsini zəif, orta, yüksək olmaqla qruplaşdırmalı və şagirdin adının qarşısında fəaliyyətinə uyğun müvafiq qeydlərini yazmalıdır.

Formativ qiymətləndirmə aparmaq üçün müəllim müxtəlif üsul və vasitələrdən istifadə edə bilər.

## Müşahidə vərəqinə nümunələr

| Meyarlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Şagirdlərin soyadı və adı | Cümlələr arasında rabitə yaradır. | Mətn qurur. | Mətndəki əsas fikri müəyyənləşdirir. | Düzgün oxuyur. | Lüğətlə işləyə bilir. | Sözləri düzgün tələffüz edir. | Sözləri düzgün yazır. |
| Əliyeva Nərgiz | + | + | + | + | + | + | + |
| Əliyev Əli | + | + | – | – | + | – | – |
| Həsənov Ramil | – | – | – | – | + | – | – |
| Məmmədli Nigar | – | – | + | – | – | – | + |

Formativ qiymətləndirmə gündəlik aparılır, nəticələr yarımilin sonunda ümumiləşdirilir və şagird portfoliosunda saxlanılır.

Formativ qiymətləndirmədə müəllim əvvəlcədən proqnozlaşdırmadığı və dərs prosesində müşahidə etdiyi fəaliyyətləri də uyğun ifadələrlə təsvir edə bilər.



LAYİHƏ

# Summativ qiymətləndirmə

Summativ qiymətləndirmə hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

1. Hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;
2. Hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Qeyd edək ki, qiymətləndirməni təkcə müəllimlər aparmır. Şagirdlərin özləri tərəfindən də qrupun, cütün qiymətləndirməsi diqqətdə saxlanmalı vacib məsələlərdən biridir.

Şagirdlərin özlərini qiymətləndirməsi, təkcə öz davranış və baxışlarına deyil, doğulub böyüdüyü ailəyə, ətrafa, dostlarına, yaşıdlarına, münasibət bildirməsi, təhlil etməsi onlarda həm özünə, həm ətraf mühitə münasibətdə vacib bacarıqlar formalaşdırır. Dərslikdə bununla bağlı müxtəlif tapşırıqlar verilmişdir. Fərdi qaydada icrası daha məqsədəmüvafiq olan bu tapşırıqlar şagirdə sadə şəkildə həm özünü, həm də yaşıdlarını, ətraf mühiti təhlil və tədqiq etməyə imkan verir.

# Şagirdin özünüqiymətləndirmə vərəqi

**Nümunə – 1**

Şagirdin adı və soyadı: ________________________ Tarix:_______________
Sinif: _________

| Öyrənmə sahələri | Müvəffəqiyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|---|
| | | Bəli | Qismən | Xeyr |
| DİNLƏMƏ | Diqqətlə dinləyirəm. | | | |
| | Dinlədiklərimlə bağlı həyatdan nümunələr verirəm. | | | |
| | Dinlədiklərimi təxəyyülümdə canlandırıram. | | | |
| | Dinlədiklərimlə bağlı suallar verirəm və yönəldilən suallara cavab verirəm. | | | |
| DANIŞMA | Dinləyicilərə dəyər verdiyimi onlara hiss etdirirəm. | | | |
| | Bədən dilindən istifadə edirəm. | | | |
| | Etika qaydalarına və dəyərlərə uyğun danışıram. | | | |
| | Duyğu, düşüncə və xəyallarımı şifahi olaraq ifadə edirəm. | | | |
| | Rəvan danışıram. | | | |
| OXU | Oxu məqsədimi müəyyənləşdirirəm. | | | |
| | Açıq və anlaşılan bir şəkildə oxuyuram. | | | |
| | Oxuduğum mətnin əsas ideyasını müəyyənləşdirirəm. | | | |
| | Oxuduqlarımda nə, harada, nə zaman, necə, nə üçün və kim suallarına cavab axtarıram. | | | |
| | Başlıqdan çıxış edərək mətnin məzmununu təxmin edirəm. | | | |
| | Bilmədiyim sözlərin mənasını araşdırıram. | | | |
| | Mətnin növünü nəzərə alaraq oxuyuram. | | | |
| | Sərbəst oxuya diqqət verirəm. | | | |

LAYİHƏ

| | | | | |
|---|---|---|---|---|
| YAZI | Sözləri düzgün yazıram. | | | |
| | Cümlələri düzgün qururam. | | | |
| | Hadisələri başvermə ardıcıllığına görə yazıram. | | | |
| | Durğu işarələrindən yerinə görə düzgün istifadə edirəm. | | | |
| | Müşahidə etdiyim hadisələrdən yazımda istifadə edirəm | | | |
| | **CƏMİ** | | | |

# Şagirdin özünüqiymətləndirmə vərəqi

**Nümunə – 2**

Şagirdin adı və soyadı: ________________________ Tarix:_______________

Sinif: _________

| Qabiliyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Başqalarının izahlarını və məsləhətlərini dinləyirəm. | | | |
| 2. Təlimata əməl edirəm. | | | |
| 3. Müzakirələrdə iştirak edirəm. | | | |
| 4. Çalışmalarımı düzgün yerinə yetirirəm. | | | |
| 5. Anlamadığım bölmələrə aid sual verirəm. | | | |
| 6. Qrup yoldaşlarıma tapşırığın həllində kömək edirəm. | | | |
| 7. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə edirəm. | | | |
| 8. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə edirəm. | | | |

# Qruplarda işin qiymətləndirilməsi

Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsi meyarı aşağıda cədvəllər şəklində göstərilib: Müəllim konkret vəziyyətdən asılı olaraq bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər.



LAYİHƏ

# Qrupun qiymətləndirmə vərəqi

**Nümunə – 1**

Qrupun adı: ___________________ Tarix:________________

Sinif: ___________________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| Meyarlar | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur? | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir? | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir? | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı? | | | | | |
| Qrup üzvləri qərarlarını bir-birlərinə bildirir? | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər? | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər? | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər? | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir? | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər? | | | | | |
| Qrupda ziddiyyətli fikirləri müzakirə edirlər? | | | | | |
| Üzərində işlənilən mövzuda, qrup üzvləri ortaq bir fikrə gəlir? | | | | | |
| Qrup məhsuldar şəkildə işləyirmi? | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar? | | | | | |

Şərhlər:

______________________________________________

______________________________________________

LAYİHƏ

# Qrup qiymətləndirmə vərəqi

**Nümunə – 2**

**Təlimat:** Qrupdakı hər bir şagirdin qiymətləndirilməsi

**Qeyd:** cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə edə bilərsiniz.

| Şagirdin adı, soyadı | Tapşırığı icra edir | Başqalarını dinləyir | Məsuliyyəti bölüşür | Qrup yoldaşlarına kömək edir | Müzakirələrə qoşulur | Fikirlərini əsaslandırır | Fərqli fikirlərə hörmətlə yanaşır | Qrupdakı vəzifəsini icra edir | Vaxtdan səmərəli istifadə edir | Tapşırıqları yerinə yetirir | Təqdimat hazırlayır | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

Şərhlər:

___

# Şagirdlərin qarşılıqlı qiymətləndirmə vərəqi

**Nümunə**

Qiymətləndirilən şagirdin adı, soyadı: ___

Qiymətləndirən şagirdin adı, soyadı: ___

Sinif: ___

| Qrupumuzdakı şagirdlər | Həmişə | | | Layihənin əvvəlində | | | Layihənin sonunda | | | Heç vaxt | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum |
| Tədbirdə könüllü iştirak edir. | | | | | | | | | | | | |
| Vəzifəsini vaxtında yerinə yetirir. | | | | | | | | | | | | |
| Fərqli mənbələrdən məlumatlar toplayıb təqdim edir. | | | | | | | | | | | | |
| Qrup yoldaşlarının fikrinə hörmət edir. | | | | | | | | | | | | |
| Dostları ilə danışarkən etik qaydalara əməl edir. | | | | | | | | | | | | |
| Resurslardan səmərəli istifadə edir. | | | | | | | | | | | | |
| Materiallardan istifadə edərkən qənaətcildir. | | | | | | | | | | | | |
| Nəticələri müzakirə edərkən aydın danışır, danışılanları başa düşür. | | | | | | | | | | | | |



LAYİHƏ

# Qrup təqdimatının qiymətləndirilməsi

Təqdimatlar qiymətləndirilərkən səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və videomaterialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

- ✓ **biliklər:** faktlar, problemlər, anlayışlar, ideyalar;
- ✓ **əqli vərdişlər:** təhlil, qiymət, göstəricilərin sintezi, yəni məntiqlə düşünmək qabiliyyəti;
- ✓ **kommunikativ vərdişlər:** informasiyanı aydın şəkildə təqdim etmək bacarığı.

*A) Qrupların təqdimatının dörd səviyyə üzrə qiymətləndirilməsi*

Aşağıdakı cədvəldə şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilə və ya bunlara əlavələr edilə bilər.

Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilməsindən, yəni onların nə dərəcədə səylə öyrənmələri, faktlardan və detallardan nə dərəcədə dürüst və yerində istifadə etməsi ilə izah olunur.

**4-cü** və **3-cü** səviyyələr: şagirdlər anlayışların, problemlərin, ideyaların tərifini verə və bunları izah edə bilir, faktlar arasında qarşılıqlı əlaqəni başa düşür, göstəricilərin qiymətləndirilməsi üçün əqli vərdişlərdən istifadə edirlər (müqayisə, qarşıqoyma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən olunması və s.). Təqdimat zamanı material aydın və dürüst təsvir edilir, nümunə və misallar öz yüksək keyfiyyəti, çıxarılan nəticələr öz məntiqi və savadlılığı ilə seçilir.

**2-ci** və **1-ci səviyyələr:** şagirdlər əsas anlayışları, problemləri izah edə bilmir, faktlar arasında qarşılıqlı əlaqələri yaxşı başa düşə bilmir, faktlardan yersiz istifadə edir, bəzən isə onları saya almırlar. Problemin mahiyyətini açmaqda, nəticələri savadlı və qısa ifadə etməkdə çətinlik çəkir, təqdimatın keçirilmə qaydalarına lazımi diqqət yetirmirlər.

| Meyarlar | 4 səviyyə | 3 səviyyə | 2 səviyyə | 1 səviyyə |
|---|---|---|---|---|
| Əsas anlayışlar, problemlər, mövzular, ideyalar. | Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir. | Yaxşı seçilir, tərifi və təsviri verilir. | Seçilir, tərifi verilir və təsvir edilir. | Seçilmir. |
| Faktlar, informasiya. | Yanlışlıqlar yoxdur. | Kiçik yanlışlıqlar var. | Səhvlər var. | Yoxdur və ya qeyri-dəqiqdir. |
| Problemə aid göstəricilərin toplanması. | Məntiqlə seçir və hər şeyi təşkil edir. | Məntiqlə seçir və bir hissəsini təşkil edir. | Problem üzrə az göstərici tapır. | Mühüm göstəriciləri tapa bilmir. |
| Nəticə çıxarmaq bacarığı. | Göstəricilərə əsaslanır. | Göstəricilərə əsaslanan məlumatlı nəticələr | Yanmçıq nəticələr | Nəticələr yoxdur və ya dəqiq deyil. |
| Təqdimat zamanı ideyaların irəli sürülməsi: fənn haqqında bilgilər və məntiqlə düşünmək bacarığı. | Əla bilik və məntiq. | Yaxşı bilik və məntiq. | Müəyyən bilik və məntiq. | Qeyri-dəqiq bilgilər. |
| Təqdimatın təşkili | Əla | Yaxşı | Kafi | Qeyri-kafi |

LAYİHƏ

# Essenin qiymətləndirilməsi

Esseni qiymətləndirilərkən müəllim aşağıdakı meyarlardan istifadə edə bilər:

- esse mövzusunun mahiyyətinin dərki və tam açılması;
- faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;
- terminlərdən, faktlardan düzgün istifadə olunması;
- mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması; fikrin ardıcıllığı.

# Diskussiyanın qiymətləndirilməsi

Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz baxışlarını təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

- dəlillərin inandırıcı olması;
- mənbələrdən istifadəetmə bacarığı;
- mülahizələrin məntiqliyi, ziddiyyətlərin olmaması;
- polemika bacarığı: sual vermək, diskussiya üzrə rəqibin dəlillərini zəiflədən əks dəlillər tapmaq məharəti.

Mənfi ballar (1-dən 5-dək) ilə aşağıdakı parametrlərlə ölçülə bilər:

- mövzuya aid olmayan mülahizə;
- limitdən artıq vaxtdan istifadə;
- qrup üzvlərinə maneə törədilməməsi;
- Qrup üzvlərinin fikirlərinə hörmətlə yanaşma.

# Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi

**Nümunə**

Adı, soyadı: ________________ Tarix: ________________

| | heç vaxt 1 | demək olar heç vaxt 2 | bəzən 3 | tez-tez 4 | həmişə 5 |
|---|---|---|---|---|---|
| Fəal iştirak edirdim. | | | | | |
| Tapşırıqları yerinə yetirirdim. | | | | | |
| Öz ideyalarını dəqiq izah edirdim. | | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdim. | | | | | |

Mən bugünkü diskussiyaya hazır gəlmişəm: ☐ HƏ ☐ YOX



LAYİHƏ

# Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr

- Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli;
- Şifahi sorğu üzrə qeydiyyat vərəqi;
- Test tapşırıqları;
- Tapşırıq, çalışma;
- Rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri.




# Bir-birini öyrətmək üçün məsləhətlər

Unutmayın ki, dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birlərinə öyrətmələrini istəmək önəmli nailiyyət əldə etmək yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bu zaman şagirdlərə tədqiqatçılıq xarakterli tapşırıq verin. Sonra onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamağı öyrədin. Əgər şagirdlər, bu barədə digərinə öyrədərlərsə onda həqiqətən mövzunu mənimsəmiş olublar. Həmyaşıdları tərəfindən öyrədilmiş şagirdlərdən sinifdə nə öyrəndiklərini izah etmələrini istəyə və ya onların düzgün öyrədilməsini yoxlamaq üçün viktorina kimi qısa bir qiymətləndirmə tapşırığından istifadə edə bilərsiniz.



LAYİHƏ

## Filmlər çəkmək üçün məsləhətlər.

Smartfonlar və planşetlər kimi yeni texnologiyalar sinifdə filmləri çox əlçatan, sürətli və effektiv bir öyrənmə vasitəsinə çevirib. Şagirdlər tarixi bir hadisəni, səhnələşməni, siyasi iclası və ya debatı yaddaşa köçürə bilərlər ki, bu da onlara sonradan "tarixi zamana çevrilmiş" bu hadisənin yenidən canlandırılmasına imkan yaradar.

## İdraki xəritələrin yaradılması üçün məsləhətlər.

İdraki xəritə, fərqli amillər arasında əlaqələri əyani şəkildə göstərən bir diaqramdır. Şagirdlər səhifənin ortasında əsas sualı və ya konsepsiyanı yazmaqla başlayırlar. Məsələn, "Romada plebeylərin patrisilərlə mübarizəyə başlamasının əsas səbəbi". Daha sonra şagirdlər bu sualla bağlı bir sıra başqa səbəbləri və dəlilləri qeyd edirlər.

Afişaların yaradılması üçün məsləhətlər.

Şagirdlərdən mətni vizual görüntülərə çevirmələrini istəyin. Bu onların dərsin əsas məqamlarını nə qədər dərk etdiklərini yoxlamaq üçün çox faydalı bir yoldur. Əgər şagirdlər afişa yaratmağın şəxsi versiyasını təklif edirlərsə, deməli, belə dərs daha yaxşı işləyir. Məsələn; quldarlığın ləğv edilməsinin vacibliyini təsvir etmək, siyasi partiyanı təbliğ etmək, sosial bərabərsizliklə mübarizə aparmaq, yeni bir ixtiranı reklam etmək, tibbi nailiyyəti və ya əsgərlərin müharibəyə çağırışı kimi məsələlərə dair plakat hazırlamaq.

## Diaqramların, qrafiklərin hazırlanması üçün məsləhətlər.

Əsas hadisələrin xronoloji ardıcıllıqla yerləşdirilməsi, bir hadisənin nə vaxt baş verdiyini, niyə baş verdiyini anlamaqda çox faydalı ola bilər. Müharibələr, siyasi nəzarətin artırılması və ya azalması, iqtisadi inkişafın təsiri kimi əsas məqamları qeyd etmək üçün fərqli rəng kodlaşmasından istifadə şagirdə dərsi başa düşməkdə əlavə bir dəstək ola bilər. Bu zaman diaqramlardan istifadə etmək olar.

Şagirdlərə tarixi dəyişiklik və inkişaf qanunauyğunluqlarını başa düşməkdə vizual cəhətdən kömək etmək üçün diaqramlara əlavələr kimi qrafiklər yaradın. Qrafiklərdə xronoloji inkişafı, həmçinin əsas hadisələrin təsirini göstərmək olar. Məsələn, qrafikdə bir ölkədə immiqrasiyanı azalda və ya artıra biləcək müharibələrin və ya digər hadisələrin təsirini vermək olar.

## Sinifdənxaric öyrənmə üçün məsləhətlər.

Şagirdlər sinifdən kənarda da fəal şəkildə öyrənə bilərlər. Aktiv təlimin əsas hissəsi onlara öyrənmələri üçün daha çox məsuliyyətli olmağı aşılamaqdır. Tədqiqat layihəsi üçün muzeyə, sənət qalereyasına və ya maraqlı tarixi yerə səyahət etmələri tövsiyə edilə bilər. Mövzu ilə duyğusal bir əlaqənin olması, şagirdlərin marağına səbəb olur. Onlar tarixi hadisəni xatırlayan bir ailə üzvündən müsahibə götürə və ya bu tədbirin özündə iştirak edə bilərlər. Şagirdlər ünsiyyət qurduqda və emosionallığa qapandıqda, öyrəndiklərində daha çox dəyər və aktuallıq görürlər. Tədrisə daha çox maraq göstərir və bağlanırlar.

LAYİHƏ

# 1

## Ailədən başlanan yol


Layihə. Teleqram

Dünya içində bir aləm

Pərvizin həyatı (I hissə)

KSQ

Pərvizin həyatı (II hissə)

Pərvizin həyatı (II hissə)

“Şarların köməyi”

Mətn

Layihənin I hissəsinin yekunu

KSQ




LAYİHƏ

## 1-ci dərs

# Layihə

**Standartlar:** 1.1.1., 2.1.3., 4.1.4.

**Təlim nəticələri:**

Layihənin məqsədini müəyyənləşdirmək üçün suallar verir.
Mülahizələrini bildirməklə fikirlərini əsaslandırır.
Teleqram yazır.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** beyin həmləsi, sual-cavab, klaster və ya anlayışın çıxarılması

1-ci addım. İlk dərs Bilik Gününə həsr olunmuş yığcam, şifahi və ya yazılı təqdimatla (vəziyyətdən asılı olaraq) başlaya bilər. Şagirdlərin məktəb, müəllim, bilik və s. ilə bağlı fikirləri soruşula bilər.

Daha sonra şagirdlərin diqqəti dərsliyə yönəldilir, bu tədris ilində qarşıda duran vəzifələr, maraqlı layihələrin hazırlanacağı barədə məlumat verilir. Şagirdləri dərslik, onun quruluşu, şərti işarələri və s. ilə tanış edir. Onların diqqətinə çatdırılır ki, bölmə boyunca onlara bələdçilik edən obrazlar olacaq. Bu obrazlar, onların istiqaməti və sualları vasitəsilə şagirdlər bölmənin mahiyyəti, əhəmiyyəti və s. haqqında məlumat alacaqlar. Daha sonra müəllim diqqəti bölmənin adına ("Ailədən başlanan yol") yönəldir. Şagirdlərə suallarla *("Ailədən başlanan yol" dedikdə nə başa düşürsünüz?", "Sizcə, bölmə nə üçün belə adlandırılmışdır?", "Ailədən başlanan yol hara gedə bilər?" və s.)* müraciət edir. Şagirdlərin fikirləri klasterdən istifadə etməklə və ya lövhəyə yazılmaqla müzakirə edilə də bilər, cavabları yazılı şəkildə də alına bilər.

2-ci addım. Müəllim şagirdlərin diqqətini "Layihə"yə cəlb edir. Şagirdlərə "Şəkildə nə təsvir olunmuşdur?" sualı ilə müraciət edir. Diqqət gəminin yelkənləri üzərindəki sual işarələrinə yönəlir, səh. 8-də verilmiş suallarla bağlı ilkin təxminlərin bildirilməsi şagirdlərə təklif olunur.

*Yeri gəlmişkən, onu da qeyd edək ki, yelkənli gəmi hərəkətlidir. Mobil telefondan istifadə etməklə şagirdlər bunu müşahidə edə bilər.*

3-cü addım. Bələdçi obrazın verdiyi sual (Təsəvvür edin ki, gözəl, yelkənli ... istifadə edərdiniz?) sualı ilə müraciət edir. Lazım bilərsə, müəllim şagirdlərə bu məlumatı da verə bilər:

*Yelkənli qayıqla təkbaşına dünyanı gəzmək çoxunun arzusudur. Yazıçı və səyyah Joşua Slokum bu arzunu gerçəkləşdirmiş ilk insandır. O, 51 yaşına qədər müxtəlif gəmilərdə Çinə, Yaponiyaya səyahət etmişdir. 24 aprel 1895-ci ildə 51 yaşında "Sprey" adlı qayıqla Bostondan yola düşərək 3 il davam edən səyahətinin sonunda 46,000 millik yol qət etdikdən sonra 27 iyun 1898-ci ildə Nyuport, Rod Aylend ştatına çatır. Beləliklə, dünya turu tamamlanır. 1899-cu ildə səyyah öz səyahəti haqqında məşhur "Dünya ətrafında yelkənlərlə təkcə səyahət" adlı kitabını nəşr etdirir.*

Daha sonra növbəti üç sual ("Səyahət edərsinizsə, bu səyahət kəşf, yoxsa səfər məqsədi daşıyar", "Səyahətə haradan başlayıb harada bitirərdiniz?", "Planlaşdırdığınız səyahətdə sizə nələr lazım ola bilər?" şagirdlərə ünvanlanır. "Səyahət" sözünün leksik mənası, səyahətin növləri ilə bağlı onların fikirlərini öyrənmək, "Səyahət etmisinizmi?", Səyahət etməkdə məqsədiniz nə olub?", "Səyahət və səfər sözləri fərqlənirmi?" sualları ilə şagirdlərə müraciət etmək məqsədəmüvafiqdir. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir.

LAYİHƏ

**Müəllimin nəzərinə:**

Şagirdlərin səyahət, səyahət etmək, səyahətin əhəmiyyəti və üstünlükləri ilə bağlı ilkin fikirlərini bilmək üçün aşağıdakı cədvəli şagirdlərə təqdim etməklə onların fikirlərini (yaxşı olar ki, şagirdlərin fikirlərində əmələ gələn dəyişikliyi müşahidə etmək üçün yazılı olsun) öyrənə bilər.

*Cədvəl 1.*

| | |
|---|---|
| Səyahət nədir? | |
| **Səyahət sizi dəyişə bilərmi?** | |
| SƏYAHƏT ETMƏK SİZİ NECƏ DƏYİŞİR? | |
| Əgər səyahət etsəniz, nə öyrənəcəksiniz? | |
| Səyahət zamanı hansı problemlər yarana bilər? | |
| Səyahət zamanı problem yaranarsa, nə edərsiniz? | |

*Cədvəl 2.*

| | |
|---|---|
| Səyahət nədir? | |
| Səyahət insanda bacarıq formalaşdıra bilərmi? | |
| Səyahət hansı bacarıqları formalaşdıra bilər? | |

**Müəllimə kömək:**

**Səyahət** şəxsi bacarıqları inkişaf etdirir, müstəqil, özünə əmin olmağı, ünsiyyət, vaxtı idarə etməyi, inadkarlıq, liderlik öyrədir

4-cü addım. Şagirdlərə təxmini də olsa, səyahətin yığcam, 2-3 bənddən ibarət planını tərtib etmək tapşırılır. Bu tapşırığın icrası üçün şagirdə 5 dəq. vaxt yetərlidir. Çünki bu plan hər hansı bir mətnə əsasən deyil, onların öz təxəyyüllərinə əsasən hazırlanacaqdır. Şagirdlərə izah olunur ki, dərslik bizi səyahətə dəvət etməklə yanaşı, səyahətə ailəmizdən başlamağı təklif edir. Bu məqamda şagirdə "Sizcə, nə üçün?" sualı ilə müraciət etmək olar. Layihəni yerinə yetirmək üçün şagirdin hər bölmədə görəcəyi işlər ("Mətnləri öyrəndikcə açar sözlər və ifadələr seçin", "Açar sözlərdən və ifadələrdən cümlələr düzəldin", "Hər bir mətndən çıxan əsas fikrə diqqət yetirin", "Hər bir bölmənin sonunda öyrənəcəyiniz fikirlər açar cümlələr olacaq") diqqətinə çatdırılır.

X.Kolumb və İ.Brunellə bağlı verilən məlumatlar motivasiya xarakterli olub şagirdləri səyahətə həvəsləndirmək, araşdırmalara, kəşflərə marağını artırmaq üçün verilmişdir.

Müəllim uyğun bildiyi halda, səyahətlə bağlı aforizmlərdən (*"Səyahət özümüzü yenidən kəşf etməyə kömək edir", "Səyahətin faydaları xəyali reallığa uyğunlaşdırmaqdır", "Hər şeyin necə olacağını düşünmək əvəzinə, hər şeyi olduğu kimi görmək daha yaxşıdır", "Səyahət yalnız digər ölkələri deyil, həm də özünü tanımağa kömək edir" və s.)* istifadə edə bilər.

LAYİHƏ

5-ci addım. 10-cu səhifədəki tapşırıq üzərində iş aparılır. Bu tapşırığın verilməsində məqsəd teleqramın yazılmasını öyrətməklə yanaşı, həm də şagirdin dəvət olunduğu “Səyahət” layihəsinə marağını artırmaqdır.

6-cı addım. Müəllim şagirdlərə əvvəlcə teleqram haqqında məlumat verir. Dərslikdə teleqram sözünün ifadə etdiyi məna, istifadəsi haqqında məlumat verilmişdir. Daha sonra müəllim diqqəti “Zirvə” sözünə yönəldir. Söz assosiasiyası, klaster və ya anlayışın çıxarılması üsullarından birindən istifadə etməklə sözün ifadə etdiyi mənaya yönəldir.




Qeyd. Zirvə dağ, dağ silsiləsi və ya dağ massivinin ən yüksək hissəsidir. Tektonik quruluşundan, onu təşkil edən süxurların tərkibindən və s. asılı olaraq zirvələr müxtəlif formalarda (pik, platoyabənzər və s.) ola bilər.

Dünyada ən yüksək zirvə Himalay dağlarında Comolunqma (Everest, 8848 m), Azərbaycan Respublikasında isə Bazardüzüdür (4466 m). Bazardüzü zirvəsi Baş Qafqaz silsiləsində, Azərbaycan Respublikası ilə Dağıstan sərhədində yerləşir.

Şuşada ən yüksək zirvə Böyük Kirs dağıdır (2725 metr).

Şagirdlərin dünyada və Azərbaycanda hansı zirvələri tanıdıqları soruşulur. Bu, əslində, ip ucudur. Çünki 4-cü bölmənin sonunda şagirdlər zirvə dedikdə Şuşanın nəzərdə tutulduğunu öyrənəcəklər. Layihəyə marağın artırılması üçün Şuşanın adının çəkilməməsi tövsiyə edilir. Əgər şagirdlərdən bu fikri səsləndirən olarsa, müəllim üstüörtülü münasibət bildirməklə şagirdləri tədqiqata sövq edir. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir.

7-ci addım. Müəllim teleqramın yazılış qaydası üzərində iş aparır. Dərslikdə 11-ci səhifədə teleqramın yazılmasına verilən tələblər, həm də teleqrama nümunə verilmişdir. Teleqram yazmaq üçün dərslikdə verilmiş təlimat şagirdlərlə birgə oxunur. Müəllim teleqramın strukturu haqqında onlara məlumat verir, teleqramı nümunə üzərindən izah etməklə şagirdlərə teleqram yazmağı təklif edir. Bu, müəllimin qurduğu dərsdən asılı olaraq kiçik qruplar vasitəsilə və ya fərdi qaydada həyata keçirilə bilər.

Müəllim uyğun bildiyi halda şagirdlərə *“Kimə teleqram vurmaq istərdiniz?”, “Teleqramda nəyi yazardınız?”* kimi suallarla şagirdi daha da maraqlandıra bilər.

8-ci addım. Müəllim “Sizcə, müasir dövrdə teleqrama ehtiyac varmı?” sualı ilə şagirdlərə müraciət edir. Yəqin ki, şagirdlər müxtəlif sosial şəbəkələrin adını çəkməklə onlar vasitəsilə məlumatın daha tez və sürətli ötürülməsi haqqında fikirlər söyləyəcəklər. Bu, təbiidir. Müəllim şagirdlərə izah etməlidir ki, bəzən elə məlumatlar var ki, onların məhz teleqram vasitəsilə çatdırılması daha məqsədəuyğundur. Məsələnin texniki tərəfləri də vardır: internetin zəif olması, yaxud heç olmaması, telefonun olmaması və s.

9-cu addım. Evə tapşırıq şagirdlərin, xüsusi bacarığa malik olan şagirdlərin də səviyyələri nəzərə alınmaqla aşağıdakı kimi verilə bilər:

1. Arzu etdiyiniz şəxsə teleqram yazın;
2. “Mən səyyah olmaq istərdim” mövzusunda rəsm əsəri;
3. “Yelkənli gəminin kapitanıyam” adlı komiksin hazırlanması;
4. “Səyahət nədir?” mövzusunda yığcam mətnin hazırlanması;
5. “Dünya ətrafında səyahət” (fərqli ad da ola bilər, adı şagirdlər özləri də düşünə bilər) adlı hekayə yazmaq;
6. “İlk səyahətim ailəmədir” adlı təqdimat hazırlamaq.



LAYİHƏ

**Qeyd.** Müəllim dərsini fərqli şəkildə də qura bilər.

Yelkənli mətnlər, onların yaranması, istifadəsi haqqında dinləmə mətni təqdim etməklə, mətn əsasında suallar verməklə dərsinə başlaya bilər. Şagirdlərin yelkənli gəmilərlə bağlı müəyyən təsəvvürləri yarandıqdan sonra dərslikdəki materiala keçid edə bilər.

### Dinləmə mətninə nümunə

İnsanlar quruda yüksək sürətlə hərəkət etmək vasitələrinə malik olmaqla yanaşı, dərin suları da üzüb keçmək arzusu ilə yaşamış və nəhayət, onu həyata keçirmişlər. Belə hərəkət vasitələrindən biri olan ilk qayıqların yaranma tarixi eradan min illərlə əvvələ gedib çıxır. Misirdə qazıntılar zamanı tapılmış yelkənli gəmi, Qobustan qayalarına həkk edilmiş avarlı qayıq rəsmləri bunu sübut edir.

Müəyyən edilmişdir ki, ilk yelkənli qayıqlar tabaq şəklində olmuşdur. Bu tabaqla dənizdə üzən insanlar əllərində tutduqları kürəkləri suda hərəkət etdirir, onun hərəkət sürətini və istiqamətini dəyişə bilirdilər.

Misirlilər dirəklərin sayını artırmaqla daha güclü və böyük gəmilər yarada bilmişlər. Onlar bu gəmilərlə Aralıq dənizinin sularında üzən, qarşı sahillərdə yaşayan xalqlarla ticarət əlaqələri yaradan ilk insanlar olmuşlar.

XVII əsrə aid Vaza yelkənli gəmisi indiyə qədər qorunub-saxlanılan yeganə gəmidir.1628-ci ildə İsveçrədə hazırlanmış gəmini ölkə başçısı Kral Qustav Vazanın şərəfinə belə adlandırmışlar. Gəmini ağ yelkənləri üç dor ağacına bağlanmışdı.

Azərbaycanın Abşeron yarımadasında yerləşən Qobustan qayalıqlarındakı rəsm təsvirləri göstərir ki, qədimlərdə bu ərazilərin sakinləri öz qayıqları ilə Xəzər dənizində üzməyi bacarmışlar.

Suda üzən böyük ölçülü yelkənli qayıqlara sonralar gəmi adı verilmişdir. Gəmilər Arximed qanunu əsasında (Mayeyə batırılmış cismə təsir edən itələyici qüvvə Arximed qüvvəsi adlanır.) su üzərində dayanıb üzən qurğulardır.

Müasir dövrdə gəmilər xüsusi gəmiqayırma zavodlarında hazırlanır.

*"Fizika həyatımızda" Ç.Qacar, A.Cilovdarlı*



LAYİHƏ

## 2-ci dərs Dünya içində bir aləm

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.2.

**Təlim nəticələri:**

Dinləmə mətni əsasında fikirlərini dəqiqləşdirir.
Söylədiyi fikirləri əsaslandırır.
Mətni düzgün tələffüzlə oxuyur.

**İş forması:** kollektiv, cütlər və fərdi

**İş üsulu:** beyin həmləsi, İNSERT, müzakirə

1-ci addım. Seçmə yolla ev tapşırığı yoxlanılır, şagirdlər qiymətləndirilir. Müəllim şagirdlərin yazılarını qiymətləndirərkən yazıların (inşa, təqdimat və s.) müsbət və mənfi cəhətlərini bildirməli, şagirdlərdə düzgün yazı vərdişləri formalaşdırmalıdır. Sonra mətn üzərində iş aparmaq üçün hazırlıq görülür.

**1-ci üsul.** Şagirdlərin diqqəti mətnin adına (dərslik, səh. 14, tapşırıq 1) yönəldilir, suallarla *("“Dünya içində bir aləm” dedikdə nə başa düşürsünüz?", “Dünya nədir?”, “Dünya içində hansı aləm ola bilər?”)* onlara müraciət edilir. Şagirdlərin fikirləri dinlənilir və mətnin oxusuna keçid edilir.

**2-ci üsul.** Müəllim mətnin adını lövhəyə yazır. Şagirdlərə rəngli stikerlər (kağızlar) paylayır, *"“Dünya içində bir aləm” dedikdə nə başa düşürsünüz?"*sualı ilə onlara müraciət edir, mətnin adı ilə bağlı fikirlərini həmin kağızlara yazıb lövhəyə yapışdırmağı tapşırır. Tapşırığın vaxta qənaət baxımından cütlər vasitəsilə icrası məqsədəmüvafiqdir. Şagirdlərin sualı cavablandırması üçün onlara 2-3 dəq. vaxt verməsi kifayətdir. Bu, şagirdlərdə verilən suala çevik münasibət bildirmək bacarığı formalaşdıra bilər. Şagirdlərin fikirləri dinlənilir və mətnin oxusuna keçid edilir.

**3-cü üsul.** Müəllim şagirdlərə mətnin adı ilə bağlı sual tərtib etməyi, onu cavablandırmağı tapşırır. Bu tapşırığı icra etmək üçün sinfi 2 qrupa bölmək, 1 qrupa sual hazırlamağı, digərinə cavab verməyi tapşırmaq olar. Tapşırığın icrasına 3-4 dəq. kifayət edir.

2-ci addım. Mətnin oxusundan əvvəl Ümummilli lider Heydər Əliyevin kəlamı, orfoqrafiya və orfoepiya tapşırıqları üzərində iş aparılır. Mətnin oxusu təşkil edilir. Oxunun təşkili üçün İnsert üsulundan istifadə etmək olar. Şagirdlər mətni oxuyurlar və kodlaşdırırlar.

Kodlaşdırma şagirdlər tərəfindən mətnin kənarında (mətn iş vərəqlərində verilə bilər) hər bir cümlə və ya abzasa müvafiq karandaşla (“+”, “–”, “✓”, “?” işarələrindən istifadə edilməklə) aparılır.

“+” işarəsi ilə tanış olmayan təzə informasiya işarə edilir.
“✓” işarəsi ilə məlum olan informasiya qeyd olunur.
“?” işarəsi ilə mətnin aydın olmayan hissələri qeyd olunur (və ya “əlavə məlumat lazımdır”) deməkdir.
“–” işarəsi mətnin müəyyən hissəsi ilə razı olmadıqda qoyulur.



LAYİHƏ

Şagirdlərin qeydləri əsasında müzakirələr aparılır. Müəllim yeni mövzuya aid söhbət aparır, suallar verir, lazım gələrsə, əlavə məlumat, izahatlar verir. Şagirdlərə mətn əsasında suallar tərtib etmək tapşırığı da verilə bilər.

**3-cü addım.** Dinləmə mətnindən ("Ana sevgisi") istifadə edilir. Sualları cavablandıra bilməsi üçün şagirdlər mətni diqqətlə dinləməyə sövq edilir. Oxunun ifadəli, düzgün, məzmuna uyğun təşkili vacibdir.

> Avstraliyada misli görünməmiş bir quraqlıq başlamışdı. Meşədə yaşayan heyvanlar susuzluqdan əziyyət çəkirdilər. Heyvanlar su tapmaq üçün kəndlərə üz tuturdular. Kəndlərdə yaşayanların vəziyyəti heç də onlardan yaxşı deyildi. İnəklər və qoyunlar susuzluqdan zəif düşmüşdü. Kəndlilər suyu qənaətlə işlədir, həm özlərini, həm də mal-qaranı xilas etməyə çalışırdılar. Ona görə də bu qiymətli sərvəti meşə heyvanları ilə bölüşmək niyyətində deyildilər. Kəndlilər əllərində tüfəng su anbarlarının yanında keşik çəkirdilər.
>
> Bir gün əlində silah keşik çəkən kəndli kolluqların arasından bir səs eşitdi. Kəndli: "Bu, yəqin ki, meşədəki heyvanlardan biridir", – deyə öz-özünə düşündü. Tüfəngi tətikdə saxlayıb asta və səssiz addımlarla səs gələn tərəfə getdi, sakitcə gözləməyə başladı.
>
> Bir azdan kolluqların arasından kisəsində balası olan bir kenquru çıxdı. Kenqurunun susuzluğu üzündən oxunurdu. O, qəhvə rəngli gözləri ilə kəndliyə baxır və sanki bir udum su üçün yalvarırdı. Kəndli istər-istəməz əlini tətikdən çəkdi.
>
> Kenquru asta addımlarla inəklər üçün qoyulan su qabının yanına getdi. Kəndli hələ də onlara baxmaqda davam edir, kenquru da gözlərini kəndlidən çəkmirdi. Nəhayət, kenquru su qabına yaxınlaşdı. Kenqurunun balası acgözlüklə suyu içməyə başladı. Balaca kenquru o qədər susamışdı ki, az qala, suyun içinə düşəcəkdi. Ana kenquru isə yalvarış dolu baxışlarla kəndliyə baxmaqda davam edirdi.
>
> Kenquru balası doyunca su içib başını qaldırdı. Artıq getmək vaxtı idi və ana kenquru balası ilə birlikdə bir az əvvəl gəldikləri kolluqlara tərəf getdi. Bir azdan hər ikisi kolluqların arasında gözdən itdi. Bütün bu baş verənlərə tamaşa edən kəndli isə tüfəngini bir kənara qoyaraq səssizcə ağlayırdı. Çünki ana kenquru susuzluğuna baxmayaraq, bir udum da su içməmişdi. O yalvarış dolu baxışlar isə "Ancaq və ancaq körpəm üçün" demək idi...
>
> *"Ailəm" jurnalından*

Dinləmə mətni üzərində iş aparmaq üçün dərslikdə 3 sual verilmişdir:

1. Kəndli nə üçün əlini tətikdən çəkir? (Kəndli kenqurunu öldürə bilməzdi. Çünki o da canlı idi. Üstəlik yanında balası da var idi.)

2. Kəndli nə üçün kenquruya mane olmur? (Kenqurunun gözlərindəki yalvarışlı ifadə, balası üçün su istəyi kəndlini ona mane olmaqdan saxlayır.)

3. Ana kenquru nə üçün su içmədi? (Çünki o da suyun qıt olduğunu başa düşür, kəndlinin onu vuracağından ehtiyat edir, balasının su içməsi ona kifayət edirdi və s.)

Bunlar təxmini cavablardır. Şagirdlərin cavabları fərqli ola bilər.

"Dünya içində bir aləm" mətni ilə "Ana sevgisi" mətninin məzmunu müqayisə edilir, müzakirə aparılır və şagirdlər bu fikrə gəlirlər ki, bala sevgisi təkcə insanlarda deyil, həm də heyvanlar aləmində də vardır. "Ana haqqında fikirlərinizi mətnə əlavə edin" tapşırığı hər iki mətnin müza-



LAYİHƏ

kirəsindən sonra icra edilir. Şagirdlərə suallarla müraciət etmək olar: *Mətnlər xoşunuza gəldimi? Ana necə təqdim olunur? Ananı təsvir etmək üçün hansı cümlələrdən istifadə edərdiniz? "Ana haqqında fikrinizi bir cümlə ilə necə ifadə edərsiniz" sualı ilə sizə müraciət etsə idilər, nə deyərdiniz?* və s.

**4-cü addım.** https://www.youtube.com/watch?v=AWS5Yzkr8mY linkindən istifadə etməklə heyvanlarda ana məhəbbətini əyani şəkildə nümayiş etdirmək olar. Öz seçimi əsasında müəllim qurduğu dərsə müvafiq uyğun bildiyi digər nümunələrdən də istifadə edə bilər. Nümayiş etdirilən video (müəllim tərəfindən hazırlanmış təqdimat, şəkil, nağıl , hekayə və s.) əsasında müzakirələr təşkil edilir, oxu və dinləmə mətnləri, video əsasında şagirdlər müqayisələr aparır, fikirlərini bildirirlər. Müzakirələr zamanı müəllimlərin şagirdləri gördükləri və dinlədikləri əsasında sual hazırlamaq, sualla yoldaşlarına müraciət etməyə sövq etməsi zəruridir. Nəyisə öyrənmək, hansısa bir məlumatı dəqiqləşdirmək məqsədilə suallarla müəllimə, yoldaşlarına müraciət etməsi şagirdlərdə sualvermə, məlumatı dəqiqləşdirmə bacarıqlarının formalaşmasına imkan vermiş olur.

**5-ci addım.** Dərslikdəki 4-cü tapşırıq (səh. 14) üzərində iş aparılır. Tapşırıq 2.1.3. altstandartının reallaşdırılması üçün təqdim edilmişdir. Müəllim bu tapşırığın icrasını cütlər şəklində və ya fərdi şəkildə təşkil edə bilər.

**6-cı addım.** Dərsikdəki 8 və 11-ci tapşırıq üzərində iş aparılır. 8-ci tapşırığın cütlər, 11-ci tapşırığın kollektiv şəkildə aparılması məqsədəuyğundur. 8-ci tapşırıqda "inkişaf" sözünün sinonimi "təkamül" sözüdür. 11-ci tapşırığın cavabı C bəndidir.

E variantında qala sözündən istifadə etməklə öyrədici xarakterli məlumat yerləşdirilmişdir.

**7-ci addım.** Müəllim ev tapşırığı kimi aşağıdakıları verə bilər:

1. https://www.youtube.com/watch?v=vOO-kXgXcgQ QR-dan istifadə etməklə şagirdlər Mərdəkan qalasını seyr etməklə öz fikirlərini yaza bilərlər.
2. Mərdəkan qalası haqqında təqdimat hazırlamaq.
3. 7-ci tapşırıq (səh. 14)

Qeyd 1. Evə tapşırıq verilərkən müəllim şagirdlərinin səviyyəsini nəzərə almalıdır.

Qeyd 2. Müəllim uyğun bildiyi halda şagirdləri ilə aşağıdakı suallar əsasında sorğu keçirə bilər. Təbii ki, burada psixoloqun məsləhət və köməyindən istifadə zəruridir. Bu gün ailədaxili münasibətlərdə problemlərin artdığı bir dövrdə hər bir müəllimin belə məsələlərə həssas yanaşması, problemli və problemləri olan şagirdə (şagirdlərə) yardım etməsi çox vacibdir.

Sorğu keçirmək üçün nümunə kimi verilmiş suallardan istifadə edə bilərsiniz:

**1. Cinsiniz**
- Kişi
- Qadın

**2. Ailənizdəki münasibətləri necə qiymətləndirirsiniz?**

Çox yaxşı
Yaxşı
Elə də yaxşı deyil
Pis
Elə də pis deyil
Çox pis



LAYİHƏ

**3. Sizcə, ailənizi hansı xüsusiyyətlər möhkəmləndirir? (bir neçə cavab qeyd edə bilərsiniz)**

qarşılıqlı hörmət
mehribançılıq
bir-birini anlamaq
dostluq
məhəbbət
məsuliyyət

**4. Karantin dövründə ailənizlə bütün günü birlikdə olmaqdan razısınızmı?**

Bəli, razıyam.
Qismən razıyam.
Xeyr, razı deyiləm.

**5. Birlikdə olduğunuz vaxt, adətən, nə edirsiniz? (Bir neçə cavab qeyd edə bilərsiniz.)**

Birgə müzakirə edirik, ailə üçün vacib qərarlar qəbul edirik.
Evə aid işləri birlikdə görürük.
Birlikdə müxtəlif oyunlar oynayırıq.
Birlikdə televizora baxırıq.
Birlikdə ev tapşırıqları edirik.
Oxuduğumuz kitabları müzakirə edirik.

**6. Əgər çətin vəziyyətə düşərsinizsə, kimə müraciət edərsiniz?**

Valideynlərimə
Yaxın qohumlarıma
Dostlarıma
Psixoloqa
Heç kimə

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 3-cü dərs Dünya içində bir aləm

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.2. 4.1.2

**Təlim nəticələri:**

Dinləmə mətni əsasında fikirlərini dəqiqləşdirir.
Söylədiyi fikirləri əsaslandırır.
Mətni düzgün tələffüzlə oxuyur.
Mətnləri əlaqələndirir.

**İş forması:** kollektiv, cütlər və fərdi

**İş üsulu:** müzakirə, klaster, sorğu



LAYİHƏ

**Dərsin gedişi.** Müəllim dərsi müxtəlif formalarda təşkil edə bilər. Dərsə mətnin oxusu ilə başlayıb sual-cavab etməklə əvvəlki hissə ilə əlaqə yarada bilər. Sonra dinləmə mətnindən istifadə edə bilər, şagirdlərin fikirləri müzakirə oluna bilər. Yaxud dərsə dinləmə mətni ilə başlayıb oxu mətni üzərində iş aparmaqla dərsi davam etdirə bilər.

1-ci addım. Evə verilmiş tapşırıq seçmə yolla yoxlanır. Şagirdlərin fikirlərinə münasibət bildirilir və fikirlər ümumiləşdirilir. *(Əgər müəllim hər hansı bir şagirdin yazısında ailə ilə bağlı müəyyən bir problem müşahidə edərsə, məktəb psixoloquna müraciət edə bilər.)* Dərsliyin 13-cü səhifəsindəki mətn oxunmamışdan qabaq klaster və ya anlayışın çıxarılması üsulundan istifadə etməklə şagirdlərin ata haqqında fikirləri öyrənilə bilər. Sonra mətnin ilk abzası oxunur. Şagirdlərə mətnlə bağı suallar verilir: *Ata nə üçün ailənin memarı hesab edilir? Nə üçün o böyüklüyün simvolu hesab edilir?* və s. Müəllim verdiyi sualları sinfindəki şagirdlərin səviyyəsini nəzərə almaqla daha sadə şəkildə tərtib edə bilər. Lazım gələrsə, təminat, memar, simvol sözlərinin leksik mənası üzərində iş apara bilər.

2-ci addım. Dinləmə mətnindən istifadə olunur. Sualları cavablandıra bilməsi üçün şagirdlər mətni diqqətlə dinləməyə sövq edilir. Oxunun ifadəli, düzgün, məzmuna uyğun təşkili vacibdir.

> Amerikada Vilyam Smart adlı bir ailə başçısının həyat yoldaşı 6-cı uşağı dünyaya gətirərkən vəfat edir. Vilyam bir daha evlənməyərək altı uşağı təkbaşına böyüdür.
>
> 1910-cu ildə Vilyamın Dodd adlı qızının təşəbbüsü ilə ABŞ-da ilk dəfə Atalar günü qeyd edilir. Üstündən 56 il keçdikdən sonra, 1966-cı ildə rəsmi bayram kimi elan olunur. O vaxtdan hər il iyun ayının 3-cü bazar günü ABŞ-da və dünyanın bir çox ölkəsində Atalar günü qeyd edilir. Təkbaşına uşaq böyüdən və kasıb atalara yardımlar verilir, xeyriyyə tədbirləri keçirilir, uşaqlar atalarına hədiyyələr bağışlayır, dünyadan köçmüş ataları isə qəbirləri üstünə getməklə yad edirlər.

Atanın xüsusiyyətlərini müəyyən etmək üçün şagirdlərə suallar verilir: *Vilyam necə ata idi? Onun hansı xüsusiyyətlərini müəyyən edə bildiniz? Mətndə nə xoşunuza gəldi?* və s.

3-cü addım. Dərslikdə Atalar Günü ilə bağlı məlumat diqqətə çatdırılır. Məlumat şagirdlərə oxutdurula da bilər. Daha sonra şagirdlərə analar günü barədə məlumat verilir. Bu bayramın müxtəlif ölkələrdə müxtəlif vaxtlarda (əsasən, may ayının 2-ci bazar günü) qeyd olunduğu, 1 iyun tarixinin Uşaqların Beynəlxalq Müdafiəsi Günü olduğu diqqətə çatdırılır.

4-cü addım. Oxu və dinləmə mətnlərinin məzmun baxımından müqayisəsi aparılır. Mətnin ardı oxunur. Şagirdlərə suallarla müraciət edilir: *Ailədə sizə hansı keyfiyyətlər öyrədilir? Vətən sevgisi necə aşılanır? Doğma dilimizə məhəbbət necə öyrədilir?* və s.

Dərsliyin 15-ci səhifəsində verilmiş "Azərbaycan Respublikasının Təhsil Qanunu"nun 34-cü maddəsində valideynlərin vəzifələri haqqında verilmiş bəndlər şagirdlərin diqqətinə çatdırılır. Eyni zamanda, övladın da vəzifələrinin olduğu barədə ilkin məlumat verilir.

5-ci addım. 5 və 6-cı tapşırıqlar üzərində iş aparılır. 5-ci tapşırıq (cavab: 2,3,4) kollektiv şəkildə, 6-cı tapşırıq cütlər şəklində həyata keçirilə bilər.

6-cı addım. Mətnin lüğət tərkibi üzərində iş aparılır, 9 və 10-cu tapşırıqlar yerinə yetirilir. 10-cu tapşırıqda mətndə "təbiət" sözü *xarakter, xasiyyət, daxili aləm* və s. mənalarda işlənmişdir.



LAYİHƏ

**7-ci addım.** 6-cı sinfin standartlarında (“Yazı” məzmun xətti) şagirdlərə əsas nitq hissələrinin yazılış qaydasının öyrədilməsi nəzərdə tutulmuşdur. Əvvəlki sinifdə şagirdlərə mürəkkəb sözlərin yazılış qaydaları öyrədilmişdi. 12-ci tapşırıq 5-ci sinifdə öyrədilən qaydaları təkrarlamaqla 6-cı sinfə keçid xarakteri daşıyır. Daha sonra 13-cü tapşırıq icra edilir. 13-cü tapşırıq şagirdlərə vurğu haqqında qaydanı öyrətmək üçün motivasiya xarakteri daşıyır. Qayda şagirdlərə sadə dildə izah edilir, nümunələr göstərilir. 14–16-cı tapşırıqlar yerinə yetirilir. Müəllimin seçimi əsasında tapşırıqlar şifahi və ya yazılı şəkildə həyata keçirilir.

**8-ci addım.** Müəllim “Dünya içində bir aləm” mətni haqqında şagirdlərə öz düşüncələrini yazmağı təklif edir. Bunun üçün müəllim şagirdlərə vərəqlər paylayır, şagirdlərin fikirləri yazılmış vərəqləri yığır, təhlil edərək növbəti dərslərin birində yığcam şəkildə onlarla müzakirə təşkil edir. Bu yazıların psixoloqla birlikdə təhlili, müzakirə zamanı psixoloqun həmin dərsə dəvət edilməsi məqsədəuyğundur.

“Oxunmuş mətn haqqında yazı” iki üsulla həyata keçirilə bilər:

1. Şagirdlər oxuduqları mətn haqqında öz düşüncələrini yazırlar. Yazının 10-15 cümlədən ibarət olması yetərlidir.

2. Müəllim mətn əsasında şagirdlərə 4-5 sual təqdim edir. Şagirdlər suallara əsaslandırılmış cavablar yazırlar.

Bu yanaşma şagirdlərdə düşüncələrini ifadəetmə, genişləndirmə, mətnə münasibət bildirmə bacarıqlarını inkişaf etdirir. Onlar müxtəlif məsələlərə münasibət bildirməyi bacarırlar.

Oxunmuş mətnə rəsm əsərinin çəkilməsi, rəsm çəkmək qabiliyyəti olmayan şagirdlərin müxtəlif vasitələrdən, ləvazimatlardan və s. istifadə etməklə mövzuya uyğun nə isə hazırlaması məqsədəmüvafiqdir. Bu, mövzunun daha yaxşı mənimsənilməsinə şagirdə kömək etmiş olur.

**9-cu addım.** 16–17-ci səhifələrdə araşdırma şagirdə ev tapşırığı kimi verilir. Bu tapşırığın verilməsində, həyata keçirilməsində, təhlil və təqdimində mütləq psixoloqun köməyindən və tövsiyələrindən istifadə etmək lazımdır. Dərslikdə verilmiş suallar anket şəklində şagirdlərə təqdim edilir və qaydalar izah olunur.

İmkan olarsa, valideynləri bu tapşırığın icrası ilə bağlı qabaqcadan məlumatlandırmaq məqsədəuyğun hesab edilir. Övladlarında özünəinamı artırmaq, onlara məhəbbət və qayğı ilə əhatə olunduğunu hiss etdirmək, ailədə təkcə valideynlərin deyil, həm də övladların vəzifələrinin olduğunu dərk etdirmək vacibdir.

Şagirdlərdə ümumiləşdirmə bacarığı da formalaşdırmaq zəruridir. Bu, aşağı siniflərdən sadə şəkildə başlamalı, yuxarı siniflərə qalxdıqca yaş səviyyələrinə uyğun mürəkkəbləşməlidir. Sorğudan sonra şagirdlər valideynlərinin cavabları əsasında ailədəki yerini, vəzifəsini, hüququnu bilməli, cavablar əsasında dərsliyin 17-ci səhifəsindəki natamam mətni öz araşdırmalarına əsasən tamamlamalıdırlar. Mətnin hazırlanması növbəti dərsdə həyata keçiriləcək. Ola bilər, hansısa şagird (şagirdlər) bunu icra etməkdə çətinlik çəksin, yazıları lazımi səviyyədə olmasın. Vacib olan cəhət şagirdə ailənin müqəddəsliyini, ilk tərbiyə ocağı olduğunu, dəyərlərin ilk olaraq ailədə qazanıldığını, ailədə hər bir kəsin öz hüquq və vəzifələri olduğunu və s. dərk etdirməkdir.

Həm də müəllim bu mövzuya dərslikdə qoyulan layihə prizmasından yanaşmalı, şagirdə bu araşdırmaların başladıqları səyahətlə bağlı olduğunu izah etməlidir. Şagirdlər üçün maraqlı olsun deyə müəllim onlara səyahətin xəritəsini çəkməyi də tövsiyə edə bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

## 4-cü dərs Dünya içində bir aləm

**Standartlar:** 2.1.1., 2.1.3., 4.1.2

**Təlim nəticələri:**

Danışarkən vurğulu hecaları düzgün tələffüz edir.
Söylədiyi fikirləri əsaslandırır.
Mövzuya uyğun təqdimat hazırlayır.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** yazı, müzakirə

1-ci addım. Dərsə psixoloq, hətta valideynlərdən bir neçəsi də cəlb oluna bilər. Dərsin maraqlı və canlı olması üçün müəllim sinfə müxtəlif suallarla müraciət edə bilər: *Uşaqlar, ailədaxili səyahətiniz necə keçdi? Bu səyahət sizə nə öyrətdi? Ailəyə səyahət sizə nə qazandırdı? Səyahət xoşunuza gəldimi? Səyahət maraqlı oldumu? Səyahət turunuzun iştirakçıları kimlər oldu?* və s.

2-ci addım. Şagirdlərin sorğularının nəticələri dinlənilir. Yaxşı olar ki, bütün şagirdlərin yazıları dinlənilsin, oxunduqca yazılara münasibət bildirilsin: Məsələn: *Sən necə də əzizsən!, Valideynlərin səni nə qədər sevirmiş?!, Ailədə sənə necə də inanırlar?!* və s. kimi ifadələr şagirdlərin motivasiyasının daha da yüksəlməsinə, dərsə marağının artmasına səbəb ola bilər.

3-cü addım. Nəticələr dinlənildikdən, müzakirələr aparıldıqdan sonra şagirdlərə nəticələri ümumiləşdirməyi, ümumiləşdirmələr haqqında kiçik mətn tərtib etmək tapşırılır. Dərsliyin 18-ci səhifəsində mövzu ilə bağlı natamam mətn vardır. Şagirdlərə həmin cümlələri tamamlamaq tapşırığı verilir.

4-cü addım. Şagirdlər sorğunun nəticələrinə uyğun olaraq mətni tamamlayırlar. Şagirdlər fərqli cümlələrdən də istifadə edə bilərlər. Dərslikdə verilən mətn nümunədir.

5-ci addım. Şagirdlərin yazıları oxutdurulur. İstər oxu zamanı, istərsə də fikirlərini təqdim edərkən sözlərin düzgün vurğu ilə deyilməsinə diqqət yetirilməlidir. Vaxtında düzəldilən səhv nitqin düzgünlüyünə aparan yoldur.

6-cı addım. Şagirdlərin həm öz yazılarına, həm də yoldaşlarının yazılarına münasibət bildirməsi, fikirlərini əsaslandırması onlarda münasibətbildirmə bacarığının formalaşmasına imkan yaratmış olar.

7-ci addım. Mövzuya yekun vurulur, şagirdlərə ev tapşırığı kimi ailə haqqında öyrəndikləri və dinlədikləri mətnlər, apardıqları araşdırmalar əsasında şəkilli təqdimat hazırlamaq, inşa yazmaq, əgər şagirdlərin imkanı varsa, buklet, komiks və s. hazırlamaq tapşırılır.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

5-ci dərs

# Pərvizin həyatı (1-ci dərs)

**Standartlar:** 2.1.1.,2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Danışarkən vurğulu hecaları düzgün tələffüz edir.
Fikirlərini əsaslandırır.
Giriş hissədə cümlələrin ardıcıllığını müəyyən edir.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** rollu oxu, auksion və ya anlayışın çıxarılması

1-ci addım. Ev tapşırıqları seçmə yolla yoxlanılır, şagirdlər qiymətləndirilir. Şagirdlərin "ailədaxili səyahət"inə yığcam şəkildə yekun vurulur, növbəti səyahətin ailədən məktəbə istiqamətlənəcəyi şagirdlərin diqqətinə çatdırılır.

2-ci addım. Mətnin oxusuna başlamamışdan əvvəl müəllim məktəb haqqında şagirdlərin fikirlərini soruşa bilər. Bunu bir neçə üsulla etməklə "məktəb" haqqında şagirdlərin fikirlərini ümumiləşmə bilər:

✓ "Məktəb nədir?" sualı ilə şagirdlərə müraciət edə bilər.
✓ Anlayışın çıxarılması və ya auksion üsulundan istifadə etməklə mövzuya giriş etmək olar.
✓ B.Vahabzadənin *"Məktəb yolları" şeirindən dinləmə mətni kimi istifadə edib, "Şeirdə məktəb necə təsvir olunur?", B.Vahabzadə şeirdə məktəbi necə təqdim edir?* və s. suallarla müraciət etmək olar.

A məktəb yolları, məktəb yolları,
Sizi bir an belə unutmadım mən.
Könlüm min həsrətlə titrəyib əsir
Hər dəfə, hər dəfə keçəndə sizdən.

Uşaqlıq günlərim düşür yadıma
Məktəbə aparır məni bu yollar.
O gözəl günlərdə hər kiçik anın
Sevinclərlə dolu bir aləmi var!

Hər gün iki dəfə keçirdim sizdən.
Kəssə də yolumu qar, boran, sazaq.
Gedişim yüngüldü, gəlişimdə mən
Hər dəfə bir pillə artırdım ancaq.

A mənim uşaqlıq dostum, həmdəmim!
Sən bilsən, nə qədər mənə əzizsən.
Hər kiçik daşının üstündən azı,
Atlanıb keçmişəm min bir dəfə mən.

Kamalım gün-gündən pərvazlanaraq
Bütün kainata açardı qanad.
Elmin sirlərini duyduqca mənə –
Daha da mənalı gəlirdi həyat.



LAYİHƏ

Yararaq keçmişəm sənin üstünü –
Bürüyən dumanı, bürüyən sisi.
Sənsən ömrüm boyu, həyatım boyu
Getdiyim yolların ən şərəflisi!

İndi nə dərdim var, nə də bir qəmim.
Açılıb ömrümün qızıl baharı.
Məni səadətə siz apardınız,
A məktəb yolları, məktəb yolları!

✓ Şeirin bəndlərini cütlərə təqdim etməklə hər bənddə *"Məktəbə necə münasibət bildirilmişdir?", "Şeirdə məktəb necə təqdim olunur?"* sualları ilə şagirdə tapşırıq vermək olar.

✓ Hər hansı bir məktəbin, yaxud şagirdin özünün oxuduğu məktəbin şəklini lövhədə asmaq və rəngli stikerlərdə şagirdlərin məktəblə bağlı fikirlərini şəklin ətrafına yapışdırmaqla şagirdlərin fikirlərini ümumiləşdirmək olar.

✓ Sinfin səviyyəsi imkan vermirsə, adi bir məktəb şəklini nümayiş etdirməklə şagirdlərin məktəb haqqında fikirlərini öyrənə bilər.

Ümumiyyətlə, müəllim uyğun bildiyi vasitələrdən istifadə etməklə motivasiya yarada bilər.

**3-cü addım.** Mətnin I hissəsinin oxusu üzərində iş təşkil edilir. Oxu zamanı sözlərin düzgün tələffüzü, intonasiya, obrazların danışıq tərzinə uyğun səsləndirmələrə, obrazı səsləndirərkən jest və mimikaların təqdiminə diqqət yetirilməlidir. Oxunun rollar vasitəsilə həyata keçirilməsi tövsiyə olunur. Nömrələnmiş çərçivələrdəki abzasların oxusundan sonra şagirdlərə ardıcıllığı müəyyən etmək tapşırılır. Abzasların ardıcıllığı: **2, 1, 3** Bu tipli tapşırıqların şifahi şəkildə icrası, fikirlərin əsaslandırılması növbəti mərhələlərdə "Yazı" məzmun xətti üzrə 4.1.2. standartının (Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir) reallaşmasına kömək etmiş olar. Mətnin oxusu davam etdirilir, ".... səliqənə diqqət yetir" cümləsindən sonra mövzulararası əlaqə yaratmaq üçün dərslikdə 20-ci səhifədə verilmiş *"Mətndə təsvir edilənləri "Dünya içində bir aləm" mətni ilə əlaqələndirin. Hansı oxşarlığı gördünüz?"* sualı ilə şagirdlərə müraciət olunur.

Şagirdlərin cavabları "Hər iki mətndə ana tərbiyəverici şəxs kimi təqdim olunur. Ana övladın səliqəsinə, tərbiyəsinə, ağıllı olmasına çalışır; ailə şagirdin şəxsiyyət kimi formalaşmasında əvəzsiz rola malikdir" və s. səpkidə ola bilər. Müəllim şagirdlərin cavablarını sadə, anlaşılan, aydın və başa düşülən şəkildə ifadə etməsinə çalışmalıdır.

**4-cü addım.** Mətnin oxusu davam etdirilir. Mətnin müəyyən bir hissəsi obrazlar vasitəsilə dialoq şəklində verilmişdir. Ardıcıllıq belə olmalıdır:

–Dənizə, qayalar üstünə gedirik! Balıq tutmağa. Gəl gedək!
Bu təklif məni həvəsləndirdi. Çünki bu gün hava çox gözəl idi. Nə gilavar əsirdi, nə xəzri. Mart ayında belə günəşli və sakit hava çox az-az olurdu.
– Bəs dərslər? – deyə mən soruşdum.
– Nə var ey, bir-iki saat dəniz qırağında oynayarıq.
Hüseyn istehza ilə Səfaya dedi:
– Gəl bu yana. Onu apara bilməzsən. Gərək həmişə nümunə olsun!
Həsən də ucadan səsləndi:
– Eqoist!

**5-ci addım.** Mətnin oxusu bitdikdən sonra məzmun üzərində iş aparılır. Bələdçi obrazın da şagirdləri bu istiqamətdə iş aparmasına çağırışı onların diqqətinə çatdırılır.

1. Müəllim qurduğu plana uyğun olaraq lüğət üzərində iş aparmaqla davam etdirə bilər. Mətn üçün açar sözlərin müəyyənləşdirilməsi (ailə, məktəb, müəllim, tərbiyə və s.) ilk tapşırıq ola bilər. Lüğət üzərində tapşırıqların kollektiv şəkildə icrası mümkündür. Tapşırıqlar müəllimin seçimi



LAYİHƏ

əsasında cütlər və ya fərdi qaydada icra edilə bilər. Tapşırığın hansı formada icrası müəllimin qurduğu dərsdən asılıdır.

2. Məzmun üzərində iş aparmaq üçün dərslikdə 22-ci səhifədə verilmiş 1–5-ci tapşırıqlar üzərində iş aparıla bilər. Tapşırıqların kollektiv şəkildə icrası daha məqsədəuyğundur.

2-ci tapşırığı cavablandırmaq üçün şagirdlərə "Çimnaz müəllim bizə əzbərləmək üçün şeir vermişdi. ......." abzasından istifadə etmək tövsiyə olunur. Lakin sinfin səviyyəsi imkan verirsə, yəni hazırlıqlı uşaqlar cavabın hansı abzasda "gizləndiyini" özləri müəyyən etməlidirlər.

5-ci tapşırığın cavabı B bəndidir. Orada şeir əzbərləmək tapşırılsa da, şeirin adı verilməmişdir.

6-cı addım. Müəllim ümumiləşmə apararkən Pərvizin "Uşaqlar danışdıqca mən həm onlara qulaq asır, həm də düşünürdüm ki, gedim, ya getməyim?" cümləsi ilə başlanan abzas üzərində xüsusilə dayanmalı, burada onun dili ilə fikirlərə şagirdlərin münasibət bildirməsinə çalışmalıdır. Bu abzas vasitəsilə şagirdlərə **təsirə düşməmək, ziyan gətirəcək hadisələrdən uzaq olmaq, hər hansı bir təklif alarkən dərindən düşünmək, işini planlaşdırmaq, daha vacib olan məsələləri, ilk növbədə, yerinə yetirmək** kimi fikirlər aşılanmalıdır.

"İstədim, onlara qoşulub gedəm. ....." cümləsi ilə başlayan abzas üzərində də diqqət cəmləşməlidir. Bu abzas şagirdlərdə **xarakterin formalaşması** baxımından olduqca əhəmiyyətlidir.

Ümumiləşmə aparıldıqdan sonra şagirdlərə *"Siz bu mətndən nə öyrəndiniz?", "Sizcə, bu mətni oxuduqdan sonra mən bu səyahətimdə kəşf etdim ki.." sualına cavab tapa bilərsinizmi?", "Pərviz və onun dostlarının dünyasına etdiyim səyahət sizə nə öyrətdi?"* kimi suallar verilir.

7-ci addım. Şagirdlərin səviyyəsini nəzərə almaqla aşağıdakı mövzularda inşa yazmağı tapşırmaq olar:

✓ "Mənim Pərviz haqqında düşüncələrim" (Dərslikdə bu, 4-cü tapşırıqda sxemdən sonra verilmişdir.)

✓ "Pərvizin həyatı" mətni haqqında düşüncələrim"

✓ Səfa obrazına münasibətim" və s.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 6-cı dərs Pərvizin həyatı (2-ci dərs)

**Standartlar:** 3.1.1., 3.1.2.,4.1.3

**Təlim nəticələri:**

Sözlərin qrammatik mənalarını fərqləndirir.
Sözlərin vurğusunu düzgün oxuyur.
Cəm isimlərin yazılış qaydalarına əməl edir.

**İş forması:** kollektiv

**İş üsulu:** yazı, müzakirə

LAYİHƏ

**1-ci addım.** Müəllim dərsə evə verdiyi tapşırığın yoxlanması ilə başlaya bilər. Seçmə yolla şagirdlərin yazıları oxutdurulur, oxutdurulan yazılara münasibət bildirilir. Bu münasibətin şagirdlərin sinif yoldaşları tərəfindən bildirilməsi məqsədəuyğundur. Şagirdlər qiymətləndirilir. Əgər oxunan inşaları təhlil edib ona yaxşı münasibət bildirən şagird olarsa, o da qiymətləndirilməlidir. Bu, sözlü qiymətləndirmə də ola bilər.

**2-ci addım.** Dərslikdəki 10-cu tapşırıq (səh. 23) icra edilir. Bu tapşırıq sözlərin qrammatik mənalarının öyrədilməsi üçün motivasiya xarakterlidir. Sonra sözlərin qrammatik mənası, qrammatik mənaya görə qruplaşması, suala cavab verməsi və s. nümunələr əsasında şagirdlərə izah olunur.

İzahın möhkəmləndirilməsi məqsədilə lövhədə müxtəlif sözlər yazıb onların qrammatik mənası şagirdlərdən soruşula bilər.

**3-cü addım.** 11 və 12-ci tapşırıqlar şifahi, 13-cü tapşırıq yazılı şəkildə cütlər vasitəsilə icra edilə bilər. 13-cü tapşırığı icra etmək üçün müəllim hər cütə fərqli abzaslar təqdim etsə, məqsədəuyğun olar. Tapşırığın icrası üçün 5 dəqiqə yetərlidir.

**4-cü addım.** Müəllim ad bildirən sözlərin isim adlandırılması, sualları və xüsusiyyətləri haqqında yığcam məlumat verir. Söz kökündəki saitin qalın və incəliyindən asılı olaraq cəm şəkilçisinin yazılış qaydasını izah edir.

Hörmətli müəllimlər! Bu qaydalar əzbərlətmək üçün deyil, şagirdlərin tətbiq bacarığını inkişaf etdirmək üçündür!

**5-ci addım.** 14–16-cı tapşırıqla icra olunur. Tapşırıqların müstəqil olaraq yazılı şəkildə və fərdi qaydada icrası məqsədəmüvafiq hesab edilir. Bu, şagirdlərdə yazı bacarıqlarını formalaşdırmaq baxımından əlverişli tapşırıqdır.

**15-ci tapşırıq.**

1. Xalqımızın elə müqəddəs dəyərləri var ki, bu dəyərlər hətta and yerinə də çevrilmişdir *(T.Əmiraslanov)*. 2. Arxeoloji qazıntılar əsasında əldə edilmiş məlumatlar göstərir ki, Azərbaycan ərazilərində əkinçilik neolit dövründən təşəkkül tapmışdır. 3. Hər uşaq fərqli xarakterə malikdir. 4. “Oxu! Ancaq oxuduğun ayağını yerlərə, başını yüksəkliyə, qəlbini ülviyyətə bağlasın”.

**6-cı addım.** Şagirdlərin tapşırıqları yoxlanılır. Əgər səhvlər varsa, şagirdlərə öz səhvlərini düzəltmək üçün istiqamət verilir.

**7-ci addım.** 7-ci tapşırıq icra edilir. Tapşırıq müəllimin seçimindən asılı olaraq şifahi və ya yazılı şəkildə icra edilə bilər. Ev tapşırığı kimi 8-ci tapşırıq verilir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun olaraq aparılır.



LAYİHƏ

7-ci dərs

# Kiçik Summativ Qiymətləndirmə

## Murad (ixtisarla)

Tiflis şəhərinin yaxınlığında Kolbasan adlı bir kənd var idi. Bu kəndin dörd bir tərəfi bağlıq, meşəlik idi. Elə ki bahar olurdu, ağaclar çiçəkləyir, təpələr, yamaclar yumşaq ot və çiçəklərə bürünürdü. Rəngbərəng güllərin ətri ətrafa yayılırdı. Səhər-axşam quşların gözəl nəğmələrinin arası kəsilmirdi.

Bu kənddə Bilqeys və Murad adlı bacı-qardaş yaşayırdı. Bilqeys olduqca mehriban və tərbiyəli qız idi. Oynadıqdan sonra oyuncaqlarını səliqə ilə yerinə yığar, atasının aldığı "Uşaq gözlüyü" kitabının şəkillərinə tamaşa edərdi.

Murad heç evdə tapılmazdı. Səhər evdən çıxar, bir də axşam qayıdardı. Hər kəslə döyüşərdi.

Ona görə də onu heç kəs sevməzdi. Bacısı Bilqeysin də oyuncaqlarını dağıdar, kobud davranardı.

Bilqeys mehriban bir qız olduğu üçün qapılarındakı heyvanlar və quşları da çox sevərdi. Heyvanlar və quşlar da Bilqeysdən qaçmazdılar. Çox vaxt olurdu ki, bağçada oynadığı zaman Mərmər pişik, Dəmir it, Mərcan xoruz Bilqeysin başına yığışar, o da əlindəki çörəyi xırdalayıb onlara atardı.

Murad isə yoldaşlarını və bacısını incitdiyi kimi, heyvanları da incidərdi. Heyvanlar onun gəldiyini görən kimi tez qaçardılar.

Murad alma ağacının altında oturub qəmgin-qəmgin bunlara baxır, öz-özünə düşünürdü: "Nə üçün Bilqeysi hamı sevir?! Hamı ona qayğı ilə yanaşır? Amma məni heç kəs sevmir?! Nə üçün?".

*Abdulla Şaiq*

1. Suallardan hansına mətndə cavab vardır?
   A) Bilqeys atası ilə hansı kitaba baxırdı?
   B) Murad Bilqeysə hansı sualları verir?
   C) Hekayədə kəndin hansı fəsildə daha da gözəlləşməsi təsvir olunur?
   D) Murad nə üçün peşman olur?
   E) Bilqeys və Murad hansı şəhərdə yaşayırdı?

2. Mətndə hansı fikir ifadə olunmuşdur?
   (İnsan mehriban, səmimi, xeyirxah və mərhəmətli olmalıdır. Özünə qarşı hörmət görmək istəyirsə, ətrafa da, böyüyə də, kiçiyə də hörmət etməli, qayğı və məhəbbətlə yanaşmalıdır.)
   Şagirdlərin cavabları fərqli ola bilər. ________________________________
   ________________________________________________

3. Atalar sözlərindən hansı mətnin ifadə etdiyi fikrə uyğundur?
   A) Sonrakı peşmançılıq fayda verməz.
   B) Acı danışan şirin söz eşitməz.
   C) Cücəni payızda sayarlar.
   D) Çox istəyən azdan da olar.
   E) Daldan atılan daş topuğa dəyər.

LAYİHƏ

4. Murada hansı məsləhəti verərdiniz? (Şagirdlərin fərdi cavabları ola bilər.)

______________________________________________

______________________________________________

5. Mətndən istifadə etməklə Muradın xüsusiyyətlərini yazın.




6. Mətnin sonluğunu necə tamamlayardınız? Mətnin sonluğunu öz təxəyyülünüz əsasında 4-5 cümlə ilə tamamlayın.
(Şagirdlərin fərdi cavabları ola bilər.)

______________________________________________

______________________________________________

7. Mətndə mürəkkəb sözləri seçib yazın. (*Kolbasan, rəngbərəng, bacı-qardaş, səhər-axşam*)

8. Cümləni tamamlayın.

Mətndə altından xətt çəkilmiş sözlər ona görə böyük hərflə yazılmışdır ki, _____ *(Bu adlar heyvanlara verilmişdir.)*

9. 1-ci abzasda cəm isimləri seçib yazın.

*(ağaclar, çiçəklər, yamaclar, quşlar, nəğmələr, təpələr, güllər)*

10. Altından xətt çəkilmiş cümlədə sözlərin vurğusunu qeyd deyin.

Rəngbərəng (2-ci heca) güllərin (3-cü heca) ətri (2-ci heca) ətrafa (3-cü heca) yayılırdı. (3-cü heca)



LAYİHƏ

## 8-ci dərs Pərvizin həyatı (1-ci saat)

**Standartlar:** 1.1.2., 3.1.2.

**Təlim nəticələri:**

Dinlədiyi mətndəki hadisələrə münasibət bildirir.

Sözləri düzgün vurğu ilə oxuyur.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** səsli oxu, proqnozlaşdırılmış oxu

1-ci addım. Müəllim "Pərvizin həyatı" povestinin II hissəsinin oxusuna başlamamışdan əvvəl əvvəlki hissədən suallar verir, həmin hissədə hansı hadisələrin baş verdiyi barədə şagirddən yığcam məlumat alır. Bu suallardan istifadə etmək mümkündür: *"Pərviz kim idi?", "Səfa kim idi?", I hissədə hansı hadisələr baş verir?"* və s.

Daha sonra müəllim həmin əsərin II hissəsini oxuyacaqları barədə şagirdi məlumatlandırır, mətnin oxusunu təşkil edir. Səsli və pronozlaşdırılmış oxudan istifadə etmək tövsiyə olunur.

Səsli oxu şagirdə mətndəki sözlərin düzgün tələffüz qaydasını və həmin sözlərin hansı mənada işləndiyini öyrətməyə imkan verir, normal tempdə oxumağını təmin edir, onların nitq bacarıqlarını inkişaf etdirir. Müəllim mətnin giriş hissəsində 1-2 cümləni düzgün, intonasiyalı (mətndə təsvir olunan hiss və həyəcanlara, duyğulara, düşüncələrə əsasən) oxuyur, mətnin oxusunu davam etdirməyi şagirdlərə tapşırır. Əgər düzəliş və qeydlər varsa, oxu bitdikdən sonra aparılmalıdır.

2-ci addım. Mətnin "Mən...... . heç kim ev işini etməyib" cümləsi bitdikdən sonra oxusu dayandırılır. Şagirdə "Sizcə, hadisələr necə davam edəcək?" sualı ilə müraciət edilir. Müəllim şagirdlərin cavabı çevik cavablandırmasına nail olmalıdır. Cavablar fərqli ola bilər. Müəllim bir neçə cavabı lövhədə qeyd edə bilər. Müəllim mətnin dərslikdə verilməmiş hissəsini şagirdlər üçün oxuyur:

> Mən Fatmanı başa düşmədim, daha doğrusu, onun dediklərini birdən-birə qavraya bilmədim.
>
> – Sən nə danışırsan, açıq de görüm, necə yəni eləməmişik?
>
> – Səfa məsələni eləyənlərin dəftərini yığır. Deyir ki, dərsdən sonra qaytaracaq özlərinə. Gərək bütün sinif bir ağızdan desin ki, tapşırığı eləməmişik.
>
> – Mən deməyəcəyəm! Bu nə sözdür?
>
> – Bu zaman Səfa mənə yaxınlaşdı və əlini çantama uzatdı:
>
> – Di, hesab dəftərini bəri ver!
>
> – Nə üçün? – deyib mən özümü bilməməzliyə vurdum.
>
> Bu zaman başqa uşaqlar da başımıza yığışdılar. Məni çəkə-çəkə sinfə apardılar.
>
> – Dəftəri ver,– deyib hər tərəfdən üstümə düşdülər,– adam xain olmaz!
>
> – Necə yəni xain?– deyib mən heyrətlə soruşanda Hüseyn qabağıma gəldi:
>
> – Adə, başa düş, yoldaşlarımızın çoxu nə şeiri əzbərləyib, nə də məsələləri həll edib. Onları satmamaq üçün qərara almışıq ki, hamımız deyək ki, müəllim, dərsə hazır deyilik! Nə olsa, qoy hamımıza olsun!



LAYİHƏ

Mən etiraz etmək istəyəndə uşaqlar yer-yerdən üstümə düşdülər. Başa düşdüm ki, şeiri desəm və ya dəftərimi versəm, yoldaşlarım məndən üz döndərəcək. Mən onların dediyinə razı oldum və hər şey də bundan sonra başladı.

Sinfə girən kimi Çimnaz müəllim bizimlə salamlaşdı və dedi:

– Dəftərləri açın, məsələləri yoxlayacağam.

Uşaqlar qışqırdılar ki, “müəllim, etməmişik!” Çimnaz müəllim çaşıb qaldı. Sonra soruşdu:

– Heç kəs etməyib?!

– Heç kəs! – deyə Səfa, Hüseyn və Həsən yerindən qışqırdı.

Mənim ürəyim döyünürdü, qorxurdum ki, müəllim məndən soruşsa, nə “hə”, nə də ”yox” deyə bilməyəm. Müəllimi aldatmaq mənə çox ağır gəlirdi. Bir yandan da yoldaşlarımı incitmək istəmirdim. Utandığımdan başımı aşağı dikmişdim. Müəllim Fatmadan soruşdu:

– Fatma , sən də eləməmisən?

Fatma cavab verməyib başını aşağı dikdi.

– Pərviz, sən də eləməmisən? – deyə müəllim, nəhayət mənə müraciət etdi. Mən nə cavab verdiyimi, səsimin nə cür çıxdığını bilmədim. O, yadımdadır ki, müəllim dedi:

– Şeiri də əzbərləməmisiniz?

Məlum oldu ki, heç kəs şeiri əzbərləməyib.

– Bu məsələni gərək direktora çatdırım! – deyib bizi kədərli-kədərli süzdü və dərsə başladı.

**3-cü addım.** Müəllim bu hissənin oxusundan sonra şagirdlərin təxminləri və hadisələri tutuşdurur. Ola bilər ki, hansısa cavablar uyğun olsun. Müəllim həmin şagirdləri rəğbətləndirə bilər. Sinfə suallarla müraciət edə bilər: “Sizcə nə üçün müəllim Fatma ilə Pərvizə ayrıca müraciət edir?”, “Müəllim nə üçün kədərlənir?” və s. Bir neçə şagirdin cavabı dinlənildikdən sonra mətnin oxusu davam etdirilir.

27-ci səhifədə verilmiş “Direktor bu sözləri kimə deyir? sualının cavabı “şagirdlərdir”. Siz öz borcunuzu unutmusunuz deyərkən direktor şagirdlərə vəzifələrini xatırladırdı.

**4-cü addım.** Mətnin oxusu davam etdirilir. Oxu bitdikdən sonra mətndən sonrakı suallar üzərində iş aparılır. Şagirdlərin cavabları dinlənilir. Daha sonra “Azərbaycan Respublikasının Təhsil Qanunu”ndan şagirdlərin vəzifələri diqqətə çatdırılır və onlara sualla müraciət edilir: “Sizcə, sinif qanunun hansı maddəsini pozmuşdur?

**Cavab:** 32.5.2 və 32.5.5

**5-ci addım.** 5Şagirdlərin diqqətinə çatdırılır ki, bu məsələnin üstü açılır. Adi bir hadisə, səliqəsizlik, diqqətsizlik hadisənin açılmasına, uşaqların öz səhvlərini etiraf etməsinə səbəb olur.

Müəllim şagirdlərə sualla müraciət edir: *Sizcə, Pərvizin hansı xüsusiyyəti əhvalatın açılmasına səbəb olur?*

Sualın cavabını tapmaq üçün müəllim şagirdlərə Pərvizlə bağlı suallar verə bilər, onun xüsusiyyətlərini yada sala bilər.

Pərviz dərslərini yaxşı oxusa da, çalışqan olsa da, dərslərini hazırlayandan sonra dəftər-kitabını çantasına yığmaması, stolun üstündə qoyması, səhər məktəbə gedəndə tələsik dəftər-kitabını çantasına yığması, bəzən bir kitab və dəftərin əvəzinə, başqasını aparması sirrin üstünün açılmasına səbəb olur.

**6-cı addım.** Səsli oxuda lüğət tapşırıqları üzərində iş aparmaq məqsədəuyğundur. Mətnin oxusu bitdikdən sonra 6, 7, 8-ci tapşırıqlar üzərində iş aparılır. Müəllim uyğun bilirsə, bu tapşırıqları növbəti dərsə də saxlaya bilər.



LAYİHƏ

7-ci addım. Evə 10-cu tapşırıq verilir. Tapşırığın yazılması üçün dərslikdə plan verilmişdir. Buna baxmayaraq, müəllim bir daha məktubun yazılma qaydasını şagirdlərin diqqətinə çatdırır, məktubun məzmunlu yazılması üçün onlara tövsiyələr verir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 9-cu dərs Pərvizin həyatı (2-ci saat)

**Standartlar:** 1.1.2., 2.1.3., 4.1.3.

**Təlim nəticələri:**

Dinləndiyi mətndəki hadisələrə münasibət bildirir.
Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Ümumi və xüsusi isimlərin yazılış qaydasını bilir.

**İş forması:** kollektiv, qruplarla, cütlərlə

**İş üsulu:** müzakirə, beyin həmləsi

1-ci addım. Müəllim dərsə ev tapşırığının seçmə yolla yoxlanması ilə başlaya bilər. Şagirdlərin həmyaşıdları olan Pərvizə yazdıqları məktub oxutdurulur. Müəllim həm məktubun yazılış qaydasına, həm məzmununa, həm də düzgün tələffüzə diqqət yetirir. Qeydlər aparır, əgər nöqsanlar varsa, şagirdlərlə birlikdə təhlil olunur, yazı və oxu zamanı diqqətli olmağı tövsiyə edir.

2-ci addım. Müəllim qurduğu dərsə uyğun olaraq, dərsi iki istiqamətdə davam etdirə bilər:

1. Əvvəl dinləmə mətni əsasında suallar cavablandırılır, sonra oxu mətninin məzmunu üzərində iş aparılır.

2. Əvvəl oxu mətni əsasında suallar cavablandırılır, sonra dinləmə mətni üzərində iş aparılır.

Biz məzmun üzərində işi təklif edirik.

Sinif 4 qrupa bölünür. I qrupa 1-ci, II qrupa 2-ci , III qrupa 4-cü, IV qrupa 5-ci tapşırıq verilir. Tapşırıqların icrası üçün 10-12 dəq. yetərlidir. Əgər əvvəlki dərslərdə məzmun şagirdlərə yetərli qədər mənimsədilibsə, şagird bu tapşırıqları icra etməkdə çətinlik çəkməyəcək. Müəllimlərə hər qrupdan 1 nəfər seçməklə 3-cü tapşırığı (səh. 30) fərdi qaydada icra etdirməsi tövsiyə olunur. Təyin olunmuş müddət bitdikdən sonra qrupların və fərdi qaydada icra edilmiş tapşırıqların cavabları yoxlanılır, əlaqələndirilir və ümumiləşmə aparılır.

3-cü addım. Dinləmə mətnindən istifadə olunur.

**Dinləmə mətni:**

Dərsdən sonra evə getməyə bir ayağım gəlirdi, biri yox. Məktəbin həyətindən çıxanda daldan Səfanın səsini eşitdim, dayandım. O gəlib çatan kimi soruşdum:

— İndi nə edək?
— Heç nə. Bərk durmaq lazımdır...Yoldaşları satmaq olmaz!..
— Heç bilmirəm, atama nə deyəcəyəm?



LAYİHƏ

— Günah səndədir! — deyib mən Səfaya qarşı ürəyimə dolmuş acığı bildirdim, — uşaqları balıq tutmağa aparmasaydın, belə də olmazdı.

— Balıq tutmağı birinci dəfə Hüseyn dedi. Mən də həvəsləndim.

Özümü saxlaya bilmədim:

— Çox da həvəsləndin. Adam hər həvəsləndiyi şeyi eləməz. Gərək baxasan, nə vacibdir, birinci onu edəsən, bəs ağıl adama nə üçün verilib?

— Mən özüm də bunların hamısını qanıram. Ancaq özümü saxlaya bilmirəm. Bəlkə, ona görə ki mənim qabiliyyətim yoxdur.

Səfa şuluq olsa da, ürəyiaçıq oğlandır. Heç vaxt fikrini yoldaşından gizlətməz. Nöqsanını da boynuna alandır. Elə buna görə də ondan ayrıla bilmirəm. Neçə dəfə söz-sözə gəlmişik. Neçə dəfə demişəm ki, bir də onunla dostluq etməyəcəyəm. Ancaq bu xasiyyətinə görə yenə barışmışam – ürəyi kinli deyil, gizlində söz saxlamaz. Bəzi şeylərdə istəyirəm, ona kömək edim: bir odur ki, özünü saxlaya bilmir, dərs zamanı danışmaq istəyir, danışır, dərsdən sonra evə getmək əvəzinə, futbol oynamaq istəyir, oynayır, ürəyindən balıq tutmaq keçir, gedib tutur.

Müəllimləri də, anasını, atasını da incidir. Necə olsa, gərək Səfaya bunu başa salam. İkinci də odur ki, heç özünə inanmır. İnanmır ki, istəsə, hesabdan əlaçı ola bilər. İstəsə, gələcəkdə yaxşı mühəndis olar. Deyir ki, “adamın bəxtinə nə yazılıb, o olacaq”.

… Səfa ilə belə danışdıq ki, dərsdən sonra hərə öz evinə getsin, çörək yesin, bir az dincəlsin, evin işlərinə baxsın, sonra görüşək, dərsləri edək. Daha gecəyə qalmasın. Kimin evinə getmək üstündə mübahisəmiz düşdü: mən dedim, sən bizə gəl, o dedi, yox, həmişə mən gəlirəm, bu gün sən gəl!

…Bu barədə çox mübahisə etdik. O mənə, mən ona haqlı olduğumuzu sübut eləməyə çalışdıq.

— Bu dəfə sən bizə gəl, gələn dəfə mən gələrəm! — deyib Səfa qəti cavab verdi.

— Mən belə istəyirəm!

Səfada bu xasiyyət var. Bir də görürsən ki, hər sözü qurtaranda başlayır ki, “mən belə istəyirəm!” Bu isə mənim xoşuma gəlmir.

— Çox da sən istəyirsən, mən istəmirəm!

— Niyə istəmirsən, bizdə pis olur ki?

— Bəs sən niyə istəmirsən? — deyib mən soruşdum.

Səfa:

— Bilirsən, — dedi: — xarakterimi bərkidirəm ey, söz vermişəm, özümü möhkəm olmağa öyrədəm. Bir şeyi ki, qərara aldım, dönməyəm, nə olur-olsun o cür eləyəm, yoxsa mən niyə əvvəllərdə pis oxuyurdum? Çünki heç bir qərarımı yerinə yetirə bilmirdim. Deyirdim, dərs hazırlayacağam, hazırlaya bilmirdim, çünki oynamaq çıxırdı ortalığa. Gedirdim oynamağa. İndi heç vaxt sözümdən dönən deyiləm. Demişəm, bizə gələcəksən, vəssalam.

Səfanın sözü açıq deməyi və xarakterini möhkəmlətmək qərarı mənim xoşuma gəldi. Ancaq fikrimdən bir şey keçdi: “Bəs mən niyə zəiflik göstərim?”. Sonra gördüm ki, yox, bu, yaxşı fikir deyil. Çünki yoldaşlıqda belə şey yaramaz. Gərək bir dəfə sən güzəştə gedəsən, bir dəfə o. Başqa cür etsən, tərslik olar. Mən fikrimi Səfaya dedim və biz xeyli danışandan sonra qəti qərara gəldik ki, xarakter nədir, tərslik nədir. O günü mən Səfagilə getdim, biz rahatca dərsləri hazırladıq.

Elə o günün sabahı Səfaya dedim:

— Gəl kişi kimi söz verək, bütün dərslərdən qiymətlərimiz əla olsun!

Bu dəfə Səfa həmişəki kimi birdən-birə “yaxşı” demədi.



LAYİHƏ

— Əlaya söz vermirəm, amma dördə söz verirəm.

— Yaxşı, mən razıyam. Bu il çalış, dörddən aşağı qiymətin olmasın. Gələn il beşə oxuyarsan.

Səfa razılaşdı və mənim canıma and içdi ki, nə olur-olsun, sözündən dönməyəcək. Beləliklə, biz hər gün dərsdən sonra görüşürdük. Bir yerdə oynayır və dərs hazırlayırdıq. Ya o bizə gəlirdi, ya mən onlara gedirdim. Əlbəttə, o daha çox gəlirdi, çünki bizdə cücələr vardı.

Dinləmə mətninə əsasən sualları cavablandırmaq üçün dərslikdə 10 sual verilmişdir. Sualları cavablandırmaq üçün cütlərlə iş formasından istifadə etmək olar.

**Cavablar:**

1. 1,3
2. Çünki Pərvizgildə cücələr var idi.
3. Bu sualda hər şagirdin fərdi cavabları olacaq.
4. A
5. 2
6. Səfaya xarakterini möhkəmlətməkdə kömək etdi.
7. Bəli/Yox. Şagirdin fərdi yanaşması ola bilər.
8. Pərviz 2,3,5,6,7, 9,10,11,12,
   Səfa 1,4,7,8,11,12,13,14
9. D
10. 1b 2a

**4-cü addım.** Cütlərin cavabları dinlənilir. Cavablar ümumiləşdirilir, şagirdlərə suallarla müraciət edilir: *“Bu mətndən siz nə öyrəndiniz?”, Sizcə, mətndə uşaqlara hansı keyfiyyətlər aşılanır?”, “Mətn uşaqları hansı keyfiyyətlərdən uzaq olmağa çağırır?”, Nə üçün məktəb ailə ilə birlikdə olmalıdır?”, “Məktəbin ailə ilə qarşılıqlı münasibətinin sizə necə xeyri var?”* və s.

Müəllim mövzunu yekunlaşdırır, şagirdlərinə xaraktercə möhkəm olmağı, təsirə düşməməyi, məktəbin nizam-intizam qaydalarına, ailədaxili qayda-qanuna əməl etməyi, böyüklərə: ataya, anaya, müəllimə hörmətlə yanaşmağı, yalan danışmamağı, pis əməllərdən uzaq olmağı tövsiyə edir.

**5-ci addım.** Müəllim dərsi davam etdirir. 9-cu tapşırıq müəllimin seçimi əsasında fərdi qaydada yazılı və ya şifahi şəkildə həyata keçirilə bilər. Daha sonra şagirdlərə *“Nə üçün mətndə sözlərin əksəriyyəti kiçik hərflə yazılmışdır?”* sualı ilə şagirdlərə müraciət edir. Şagirdlərin cavabları yanlış ola bilər. Şagirdlərin cavablarının düz və ya səhv olmasına müəllim tərəfindən münasibət bildirilmir.

**6-cı addım.** Müəllim ümumi isimlərlə bağlı şagirdlərə izahat verir.

Qeyd. Ehtiyac yaranarsa, dərslikdəki qaydalar oxutdurula bilər.

**7-ci addım.** Müəllim hər qrupa kiçik mətn parçası təqdim edir. Mətn parçalarından ümumi isimlərin seçilməsini, fikirlərin əsaslandırılmasını tapşırır. Tapşırığın icrası üçün şagirdə 3 dəq. vaxt verilir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

## 10-cu dərs "Şarların köməyi"

**Standartlar:** 2.1.3. 3.1.1..3.1.2.

**Təlim nəticələri:**

Fikirlərini əsaslandırır.
Mətni oxuyarkən vurğunun tələblərinə əməl edir.
Sözlərin ifadə etdiyi leksik mənanı bilir.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** müzakirə, klaster, müzakirəli oxu, Venn diaqramı.

**1-ci addım.** Müəllim dərsə müxtəlif üsullarla başlaya bilər.

1. İmkan və məkan nəzərə alınmaqla *"Şarların köməyi" mətnindəki hadisəni reallıqda həyata keçirə bilər və "Nə nəticə əldə etdiniz?"* sualı ilə şagirdlərə müraciət edə bilər.

2. https://www.youtube.com/watch?v=_7KMy8Y73Yk linkində dərslikdəki mətnin şəkillərlə rus dilində səsləndirilməsi var. Müəllim həmin mətni nümayiş etdirə bilər, "Mətndə nədən danışılır?" sualı ilə şagirdlərə müraciət edə bilər.

3. "Şar nədir?", "Şardan harada və nə üçün istifadə olunur?" sualı ilə şagirdlərə müraciət edə bilər. Cavablar alındıqdan sonra mətnin oxusunu təşkil edə bilər.

4. "Şar" sözünü lövhədə yazmaqla klaster vasitəsilə şagirdlərin fikrini öyrənə bilər.

5. Dərsi birbaşa mətnin adına diqqəti yönəltməklə "Sizcə, şarların nə kimi köməyi ola bilər?" sualı ilə sinfə müraciət edə bilər.

6. Dərslikdə verilmiş Nizaminin aforizmini səsləndirməklə "Bu misralarda hansı fikirlər ifadə olunmuşdur?" sualı ilə yığcam müzakirə təşkil edə bilər. Daha sonra şagirdə "Sizcə, mətndə nədən danışılacaq?" sualı ilə müraciət edilir, şagirdlərin fikirləri dinlənilir. Maraqlı fikirlər lövhəyə də qeyd oluna bilər.

7. https://www.youtube.com/watch?v=UvZIwifLIKQ linkindən istifadə etməklə "Dünya uşaq himni"ni səsləndirə bilər. Şagirdlərin mahnıda eşitdikləri ilə bağlı fikirləri dinlənilə bilər, sonra mövzuya keçid etmək olar.

**2-ci addım.** Mətnin orfoqrafiya və orfoepiyası üzərində iş müəllimin seçimindən asılı olaraq həm oxudan əvvəl, həm də sonra aparıla bilər. Mətnin oxusunu müzakirəli oxudan istifadə etməklə təşkil etmək olar.

Müzakirəli oxu zamanı şagirdlər mövzu ilə bağlı biliklərini, hiss və düşüncələrini başqaları ilə paylaşır, qarşılıqlı fikir mübadiləsi aparır, məsələyə müxtəlif tərəflərindən baxmaq bacarığı qazanırlar. Müəllim buna şərait yaratmalıdır. Şagirdlər mətni hissə-hissə və ya bütöv şəkildə oxuyur, müzakirə bütün sinifə, yaxud qruplarla keçirilir. Müzakirənin sonunda isə ümumi fikirlərdən ibarət mətn tərtib olunur.

Müzakirədə bütün şagirdlərin iştirakını və bir-birlərinin fikrinə hörmətlə yanaşmağı təmin etmək lazımdır.



LAYİHƏ

**3-cü addım.** Mətnin oxusu bitdikdən sonra mətnin sonluğunda ifadə edilən fikri bilmək üçün pazlların ardıcıllığını bilmək lazımdır. Eyni tapşırığı bütün qruplara tapşırmaqla 3-4 dəq. vaxt verilməsi məqsədəuyğundur. *“Hansı qrup daha tez tapar?”* sualı ilə şagirdləri cavabı daha tez və düzgün tapmağa sövq etmək olar.

**Pazlların ardıcıllığı:** 2, 6, 1, 7, 4, 5, 3

**4-cü addım.** Mətnin oxusundan sonra şagirdlərə “Oxudan sonra fikirlərinizdə nə dəyişiklik oldu?” sualı ilə müraciət edilir, onlara həm əvvəlki, həm də sonrakı fikirlərinə münasibət bildirmək tapşırığı verilir. Dərslikdəki mətndən sonrakı 1–3-cü tapşırıqlar bütün sinfə ünvanlanır.

**5-ci addım.** 5–10-cu tapşırıqlar üzərində iş aparılır. 5-ci tapşırıq kollektiv şəkildə, 6, 7, 9, 10-cu tapşırıqlar qruplar şəklində icra oluna bilər. Şagirdlərin cavabları dinlənilir, müzakirə edilir.

**6-cı addım.** 8-ci tapşırıq kollektivlə birlikdə icra olunur. Şagirdlərin hamısının fikirlərinin dinlənilməsi mütləqdir.

**7-ci addım.** 11-ci tapşırıq evə verilir.

## *11-ci dərs* “Şarların köməyi”

**Standartlar:** 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Müzakirələrdə fikirlərə münasibət bildirir.
Giriş, əsas və nəticə hissələri müəyyənləşdirir.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** müzakirə

**1-ci addım.** Müəllim uşaqlara dərsdə görəcəkləri iş – mətnin tərkib hissələrini müəyyən edəcəkləri barədə məlumat verir. O bildirir ki, ətrafımızda mövcud olanlar müəyyən hissələrdən ibarətdir. Bunun üçün müxtəlif şəkillərdən (ağac, kəpənək, bina və s.) nümayiş etdirə bilər.

**2-ci addım.** İzahat davam etdirilir. Mətnlər də müxtəlif hissələrdən – giriş, əsas, nəticə hissələrdən ibarətdir. Hər hissənin özündə abzaslar var. Hər hissədə bitkinlik özünü göstərir. Mətnlərdə bir-biri ilə əlaqəli fikirlər, hadisələr, obrazlar olmasa, tamlıqdan, bitkinlikdən danışmaq olmaz.

**3-cü addım.** 4-cü tapşırığın şərti oxudulur. 4-cü tapşırığı icra etmək üçün – mətnin tərkib hissələrini müəyyənləşdirmək üçün dərsliyin 34–35-ci səhifələrində verilmiş “Yaddaş” üzərində iş aparılır. Hissələrin müəyyənləşdirilməsinin vərdişə çevrilməsi üçün bu nümunə üzərində diqqətli iş aparılması vacibdir.

**4-cü addım.** 35-ci səhifədə verilmiş suallar üzərində iş aparılır. Hətta şahın belə müəllim qarşısında təzim etdiyi, ona hörməti xüsusilə vurğulanır. Müəllim bildiyi əhvalat və hadisələrdən

LAYİHƏ

(Səfəvilər dövründə müəllimlərə verilən dəyər. Vaqifin müəllim kimi şöhrətlənməsi və s.) nümunə çəkə bilər.

5-ci addım. "Müzakirə" bölməsində verilən tapşırıq üzərində iş aparılır. Müəllim uyğun bildiyi halda, həmin tapşırığı yazılı şəkildə icra etmək üçün evə də tapşıra bilər.

6-cı addım. "Yaddaş" şagirdlərə mənimsədildikdən sonra "Şarların köməyi mətninin tərkib hissələri müəyyənləşdirilir.

Bu məqsədlə şagirdə iş vərəqi də təqdim edilə bilər. Müəllimin seçimindən asılı olaraq bu tapşırıq cütlər və ya kiçik qruplar vasitəsilə təşkil edilə bilər.

**İş vərəqinə nümunə:**

| Mətnin adı | Giriş hissə | Əsas hissə | Nəticə |
|---|---|---|---|
| | | | |
| | | | |

"Şarların köməyi mətninin tərkib hissələri:

**Giriş hissə:** Səbinə müəllim sinfə çoxlu şar gətirmişdi. Şarları uşaqlara payladı.

**Əsas hissə:** Səidə tez soruşdu:

– Müəllim, biz bunlarla nə edəcəyik?

Müəllim onun sözünə cavab vermədən şarları uşaqlara payladı, onların üstünə öz adlarını yazmalarını xahiş etdi. Sonra İnayəti, Elşadı və Fatehi yanına çağırdı, uşaqların köməyi ilə həmin şarları dəhlizə çıxardıb onları qarışdırdı. Səbinə müəllim uşaqlara öz adları yazılmış şarları tapmaq üçün beş dəqiqə vaxt verdi. Uşaqlar şarları tapmağa cəhd etsələr də, onlarda heç nə alınmır.

Verilmiş müddət bitir. Müəllim başqa üsula əl atır. Şagirdlərə yanlarında olan şarları götürməyi və üstündəki adın sahibinə verməyi təklif edir. Yenə beş dəqiqə vaxt verir. Heç iki dəqiqə çəkməmiş şagirdlər tapşırığı yerinə yetirirlər. Hər şagird üstündə öz adı yazılmış şarı əldə edir.

**Nəticə:** Müəllim şagirdlərə sual verir:

– Niyə siz tapşırığı ikinci dəfə daha rahat yerinə yetirdiniz?

Şagirdlər müxtəlif cavablar verirlər. Müəllim onları dinləyib deyir:

*– Uşaqlar, insan təkbaşına heç vaxt xoşbəxtliyə nail ola bilməz. Əgər xoşbəxt olmaq istəyirsinizsə, bir-birinizə qayğı və məhəbbətlə yanaşın, bir-birinizlə əməkdaşlıq edin. Onda xoşbəxtliyi tez tapar, uğura nail olarsınız.*

7-ci addım. Ev tapşırığı kimi tədris olunmuş mətnlərdən hər hansı birinin tərkib hissələrini müəyyən etməyi tapşırmaq olar.

"Şarların köməyi" mətninin komiksinin hazırlanmasını da tapşırmaq olar.



LAYİHƏ

## 12-ci dərs “Şarların köməyi”

**Standartlar:** 2.1.3., 4.1.2., 4.1.3.

**Təlim nəticələri:**

Müzakirələrdə fikirlərə münasibət bildirir.
Yazıda mətnin tərkib hissələrini əlaqələndirir.
Xüsusi isimlərin yazılış qaydasını bilir.
Xüsusi isimlərdə dırnaq işarəsindən düzgün istifadə edir.

**İş forması:** kollektiv, qruplarla, cütlərlə

**İş üsulu:** müzakirə, yazı

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanması ilə başlaya bilər. Şagirdlər ev tapşırıqlarını oxuyarkən sözlərin vurğusu, düzgün intonasiya ilə tələffüzü diqqətdə saxlanmalıdır. Yaxşı olar ki, şagirdlərin yazılarına yoldaşları tərəfindən münasibət bildirilməsi təşkil edilsin, yazıların müsbət və mənfi tərəfləri səsləndirilsin. Bu, şagirdlərdə rəy bildirmə bacarığını formalaşdıra bilər.

2-ci addım. 12 və 13-cü tapşırıqlar kollektiv şəkildə icra olunur. 13-cü tapşırıq xüsusi isimlərin yazılışı ilə bağlı qaydanın izah edilməsi üçün giriş xarakterlidir. Müəllim nümunələrdən istifadə etməklə xüsusi isimlərin işlənmə yerini, yerindən asılı olmayaraq, böyük hərflə yazılmasını, bəzən ümumi isimlərin xüsusi, xüsusi isimlərin ümumi ismə çevrilməsi haqqında məlumat verir.

Məsələn, *Rentgen (alman alimi) rentgen (xüsusi şüalarla işıqlandırna), Badamlı (qəsəbə adı) – badamlı (mineral su)* və s.

**Vətən** sözü ümumi isimdir, lakin ölkənin adı əvəzində işlənərkən böyük hərflə yazılır. Məsələn, *Biz Vətən (yəni, Azərbaycan Respublikası) qarşısında borcluyuq*.

**Yer, Ay, Günəş** sözləri yalnız astronomik və coğrafi mənada işlənərkən böyük hərflə, qalan bütün hallarda isə kiçik hərflə yazılır.

Məsələn: *Ay və Yer birlikdə Günəş ətrafında ildə bir tam dövr edirlər. Qızmar günəşin altında durmaq çətin idi. Təyyarə yerdən aralandı.*

3-cü addım. 14–16-cı tapşırıqlar üzərində iş aparılır. 14 və 16-cı tapşırıqlar şifahi, 15-ci tapşırıq yazılı şəkildə fərdi qaydada icra olunur. 16-cı tapşırıq tətbiq xarakterlidir. Şagirdlər cümlələrdən səhv yazılmış ümumi və xüsusi isimləri seçib cədvəldə düzgün formada yazırlar. Vaxta qənaət baxımından 15-ci tapşırığın cütlər vasitəsilə icrası da mümkündür. Şagirdlərdən biri “səhvdir”, digəri “düzgündür” xanasını doldurur. Tapşırığın icrası üçün 5 dəqiqə yetərlidir. Müzakirə zamanı “səhvdir” xanasını tamamlayan şagird yoldaşının tamamladığı “düzdür” xanasını təqdim edir. Proses digər şagird tərəfindən də buna uyğun icra edilir: yəni “düzdür” xanasındakı yazıları deyil, “səhvdir” xanasındakı yazıları təqdim edir.

4-cü addım. Müəllim qurduğu dərsə müvafiq olaraq xüsusi isimlərlə bağlı yığcam sorğu təşkil edir, şagirdlərin mövzunu mənimsədiyinə əmin olduqdan sonra 17-ci tapşırığın icrasını həyata keçirir.

5-ci addım. 17-ci tapşırığın icrası üçün qruplar və ya fərdi qaydadan istifadə etmək olar. Şagirdlərə mövzular, istiqamət və plan təqdim olunur, mövzu haqqında yazmaq üçün izahat

LAYİHƏ

verilir. Şagirdlər tapşırığı fərdi qaydada icra edirlərsə, mövzu və mövzunun təqdimi üçün forma seçməkdə sərbəstdirlər.

Tapşırıq qrup şəklində icra ediləcəksə, müəllim püşkatmadan istifadə edə bilər. Forma seçməkdə qruplar sərbəstdir.

6-cı addım. Şagirdlər tapşırığı icra edirlər. Tapşırığın 12-15 cümlədən ibarət olması yetərlidir. Şagirdlər hazırlıqlıdırlarsa, inşanın həcmi, yəni cümlə sayı artıq ola bilər. Əsas məqsəd şagirdlərin mətnin tərkib hissələrini, həmin hissələrdə veriləcək materialı, təqdim olunacaq fikirləri hissələrə uyğun düzgün tərtib etməkdir.

7-ci addım. Qrupların (Yazılar fərdi qaydada yazılıbsa, yazısını tez bitirən ilk 5 nəfərin yazısı oxutdurulur.) yazıları dinlənilir. Bir daha ailə, ata-ana, müəllim, məktəb haqqında şagirdlərin fikirləri ümumiləşdirilir, ailədən başlanıb məktəbdə davam edən səyahətin onlara qazandırdığı keyfiyyət və xüsusiyyətlər şagirdlər tərəfindən səsləndirilir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 13-cü dərs Mətn

**Standartlar:** 1.1.1., 2.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Dinlədiyi mətnlə bağlı sualları cavablandırır.
Müzakirələrdə münasibət bildirməklə fikirlərini əsaslandırır.
Mövzu ilə bağlı hekayə yazır.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** müzakirə, söz assosiasiyası, kublaşdırma

1-ci addım. Müəllim dərsə başlamaq üçün “yanlış”, “yanlışlıq”, “səhv” , “xəta”, “bilmədən edilən yanlış hərəkət”, “anlamayaraq səhvetmə” anlayışlarından uyğun bildiyini və ya hamısını lövhəyə yazır. Söz assosiasiyası üsulundan istifadə edərək şagirdlər həmin sözlə bağlı fikirlər söyləyirlər. Bu fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Diqqəti çəkən fikirlər varsa, müəllim onların qarşısından müəyyən işarələr qoya bilər və ya həmin cümlələrin altından xətt çəkə bilər.

2-ci addım. Diqqət dərsliyin 40-cı səhifəsində verilmiş bələdçi obrazın təqdim etdiyi müzakirə suallarına yönəldilir. Şagirdlərə suallarla müraciət edilir, cavablar dinlənilir.

Qeyd. Müəllim dərslikdəki müzakirə sualları ilə dərsi başlayıb, yuxarıdakı anlayışlarla bağlı müzakirəni davam etdirə bilər.

3-cü addım. Şagirdlərə mövzu ilə bağlı mətn dinlədilir. Bu, həqiqətən, reallıqda baş vermiş hadisədir. Hüseyn Cavidin həyatından götürülmüşdür. 2012-ci ildə nəşr olunmuş “Cavidi xatırlarkən” kitabından Mişkinaz Cavidin xatirələrindən götürülmüşdür.



LAYİHƏ

**Dinləmə mətni**

Cavidgilin məhəllələrində bir uşaq var idi ki, həmişə baharda quşların yuvasını uçurar, yuvadan ətcəbalaları götürər və yuvaya qoymazdı. İtləri ağacla vurub şikəst edər, toyuq-cücənin qıçını sındırardı. Bir sözlə, çox ziyanverici uşaqdı.

Cavid bu uşaqla heç yola getməzdi. Onu daim izlər, hər bir pis hərəkətinə görə onu cəzalandırardı. Ona deyərdi ki, bu ətcəbalaların da ata-anası var, onları balasız qoyursan, quşları öldürürsən. Axı onları yuvada gözləyirlər, ay insafsız, sən nə vaxt bir insafa gələcəksən?

Uşaqlar böyüdükcə onların arasındakı ziddiyyət də böyüyürdü.

Cavidgilin evi çayın kənarında idi. O elə uşaqlıqdan boş vaxtlarını çayın kənarında keçirərdi. Uşaqlarla oynar, isti havalarda çayda çimərdi.

Baharın ilk aylarında bu dağ çayı birdən-birə coşar, bu çaydan sel axardı.

Bir gün uşaqlar çay sahilində oynayırdılar. Birdən kimsə dəhşətlə çığırdı:

– Ay aman!... Sel apardı...

Cavid bir göz qırpımında özünü çaya ataraq selin ağzına aldığı uşağı çox çətinliklə sahilə çıxardı.

Uşaqların hər ikisi bərk yorulmuşdular. Çayda boğulan uşaq, quşların, heyvanların, ağacların qənimi olan uşaq idi. Bütün uşaqlar onların başına yığışmışdılar. Biri öz çörəyindən, biri bayram yemişindən onlara pay verir, hərə bir cür xidmət etməyə çalışırdı.

Uşaqlar bir qədər dincəldikdən sonra Arif Cavidin qulağına pıçıldayır.

– Hüseyn! Sən nahaq bu qansızı selin ağzından aldın, qoyaydın boğulaydı. Axı o bizim düşmənimizdir.

Cavid birdən qəzəblənib üzünü həmin uşağa tutub deyir:

– Sən ondan da qansızsan. Mən onu heyvanlara, quşlara qarşı mehriban, ədalətli olmağa çağırırdım. Mən onu cəzalandırırdım. Lakin onun ölümünü heç zaman istəmərəm. Elə təbiət də onu cəzalandırmaq istəyirdi. Şükür ki bu cəzadan o, ucuz qurtardı, – deyib bir az küskün, bir az acıqlı, asta və yorğun addımlarla evlərinə doğru getdi.

Selin ağzından qurtaran uşaq günahkar kimi başını aşağı salıb Cavidin arxasınca gedir, onu kölgə kimi izləyirdi. Oğlan Cavidə çatıb onunla yanaşı addımladı. Onlar heç nə danışmadılar. Gözləri bir-birinə sataşanda ikisi də birdən qucaqlaşıb kövrəldilər.

Şagirdlər mətnə verilmiş suallar üzərində iş aparırlar. Suallar dərsliyin 41-ci səhifəsində verilmişdir.

**Cavablar:**

1. (burada şagirdlərin fərdi yanaşması ola bilər) M.Cavidin xatirələrində bu, “Uşaq ədaləti” adlanır.

2. Tərbiyələndirici obraz (Hüseyn)
   Tərbiyələnən obraz (Arif)

Təsdiqləyici cümlə *(Sən ondan da qansızsan. Mən onu heyvanlara, quşlara qarşı mehriban, ədalətli olmağa çağırırdım. Mən onu cəzalandırırdım. Lakin onun ölümünü heç zaman istəmərəm. Elə təbiət də onu cəzalandırmaq istəyirdi. Şükür ki bu cəzadan o, ucuz qurtardı.)*

3. 1 və 2
4. ədalətli, xeyirxah, tələbkar, düzgünlük tərəfdarı və s.
5. a., d.
6. A



LAYİHƏ

7. (burada şagirdlərin fərdi yanaşması ola bilər)
8. Giriş (c) əsas (a), nəticə (b)
9. Şəkil nəticəyə aiddir.
10. Yaz fəslindən

**4-cü addım.** Şagirdlərin cavabları yoxlanılır. Əgər səhvlər varsa, müzakirə edilir, şagirdlərə istiqamət verilir.

**5-ci addım.** Müəllim müzakirəni davam etdirir, şagirdlərin mövzu ilə bağlı fikirləri ümumiləşdirilir. Müəllim kublaşdırmadan istifadə etməklə mövzunun hərtərəfli öyrənilməsinə şərait yarada bilər.

"Ədalətli uşaq" mətni (mətnin səsləndirməsi də təqdim olunacaq) təkrar səsləndirilə bilər, 40-cı səhifədəki suallar mətnlə əlaqələndirilir və kublaşdırma vasitəsilə şagird mövzunu təsvir, təhlil, müqayisə edir, əlaqələndirir, tətbiq və fikrini əsaslandırmaq üçün mübahisəyə yönəldir. Bu prosesdə şagirdin tənqidi və məntiqi təfəkkürü inkişaf edir, mövzuya hərtərəfli baxışı, qiymətləndirmə bacarığı, əməkdaşlıq vərdişləri formalaşır.

Müəllim müzakirə ediləcək mövzunu müəyyənləşdirir, hər qrupa mövzu üzrə tapşırıqlar verilir.

**6-cı addım.** Mövzular təqdim olunur və müzakirə edilir, şagirdlərin fikirləri ümumiləşdirilir.

**7-ci addım.** Əgər dərsdə müddət imkan verirsə, dərslikdəki 19-cu tapşırıq üzərində iş aparılır. Şagirdin tamamlamağa zamanı olmazsa, tapşırıq evdə davam etdirilir. Tapşırığın qruplar şəklində icrası məqsədəuyğundur. Evdə yazılacaqsa, deməli, bu, fərdi qaydada icra edilməlidir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*14-cü dərs*

# Mətn

**Standartlar:** 2.1.3., 3.1.2., 3.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Müzakirələrdə münasibət bildirməklə fikirlərini əsaslandırır.
Mətni intonasiyanın tələblərinə uyğun oxuyur.
Tərkib hissələri müəyyən edir.
Tərkib hissələri əlaqələndirir.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** cəld yazı, fasiləli oxu



**1-ci addım.** Müəllim dərsə aşağıdakı linklərdəki materialı təqdim etməklə başlaya bilər.

https://www.youtube.com/watch?v=SdS-ZwP5jw4 (Red-backed shrike. Birds in breeding season /alaçöhrə quşu haqqında)

https://www.youtube.com/watch?v=WFKvZL6hqBM (Dünyanın ən böyük quşları)



LAYİHƏ

https://www.youtube.com/watch?v=6By1TcbeRYE (Azərbaycanda quşlar)
Şagirdlərə videoları səssiz dinləmək və müəyyən qeydlər götürmək tapşırılır.
Texniki imkanlar yoxdursa, müəllim quş şəkilləri təqdim etməklə qeydlər götürməyi tapşırır.

**2-ci addım.** Şagirdlərin qeydləri dinlənilir, münasibət bildirilmir, dərs davam etdirilir.

**3-cü addım.** Mətnin düzgün, intonasiyalı oxusu təşkil edilir. Oxu zamanı orfoqrafiya və orfoepiya tapşırıqları yerinə yetirilir. Müəllim öz seçimi əsasında oxunun fasiləli, proqnozlaşdırılmış, səsli və ya səssiz növlərindən istifadə edə bilər.

**4-cü addım.** Mətnin *"Heç unutmaram. Bir gün bibimgilə getmişdim"* cümləsindən sonra oxu dayandırılır. Diqqət şəklə yetirilir. Müəllim şəkil əsasında yığcam (4-5 cümlədən ibarət) mətn tərtib etməyi və müvafiq hissəyə əlavə etməyi tapşırır. Cütlər vasitəsilə icra etmək olar.

***Hekayədə həmin hissə belədir:***

*Onların bağında gözümə ağacdakı alacəhrə yuvası sataşdı. Cəld ağaca dırmaşdım. Əlimi yuvaya saldım və tüksüz ətcəbalaların üstündən ana alacəhrəni tutub sevincək bir halda ağacdan endim.*

Uşaqların yazıları dinlənilir və oxu davam etdirilir. Müəllim mətnin istənilən abzasında şagirdlərə suallarla müraciət edə bilər. 4 və 5-ci suallar mətn oxunarkən şagirdlərə verilə bilər. Yaxud bir cütü digər cütə mətn əsasında sual verməyə istiqamətləndirə bilər. Mətnin oxusu bitdikdən sonra 6-cı tapşırıqda verilmiş sual şagirdlərə ünvanlanır. Müəllim çalışmalıdır ki, şagird "ətraf mühitdə, cəmiyyətdə hörmət qazanmaq fərdin özündən, davranışlarından, ailə və məktəbdə aldığı tərbiyəni, ədəb-ərkanı düzgün tətbiq etməkdən asılıdır" qənaətinə gəlsin.

**5-ci addım.** 43-cü səhifədə verilmiş 1–10-cu suallar üzərində iş aparılır. Tapşırıqlar müəllimin seçimi əsasında qruplar, kollektiv və ya cütlərlə aparıla bilər. Əgər qrup seçilərsə, I qrupa 2, 3; II qrupa 8, 9; III qrupa 10; IV qrupa 7-ci tapşırıq verilir.

1-ci sualı şagirdlər "Alacəhrə", "Tamam", "Peşmançılıq", "İbrət dərsi" və s. şəkildə adlandıra bilərlər. Bu onların təxəyyül gücündən asılıdır.

Əslində, S.S.Axundova məxsus bu hekayənin adı "Cəhalət qurbanı"dır. Burada Tamamın zorla ərə verilməsindən, başına gələn faciələrdən danışılır.

**6-cı addım.** Qrupların cavabları dinlənilir, müzakirələr aparılır. Ümumiləşdirmə mərhələsində 11-ci tapşırıq üzərində iş aparılır. Müəllim tapşırığı şifahi və ya yazılı şəkildə icra etdirə bilər.

**7-ci addım.** Mətnin lüğət tərkibi üzərində iş aparılır. Tapşırıqlar kollektivlə şifahi şəkildə aparılır. 17-ci və 18-ci tapşırıqlar evə verilir. Əgər sinifdə zəif səviyyəli şagirdlər varsa, 17-ci tapşırıq yalnız onlara verilir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

15-ci dərs

# Mətn

**Standartlar:** 1.1.2.,2.1.3., 2.1.4., 4.1.1.

**Təlim nəticələri:**

Dinlədiyi mətn əsasında qeydlər götürür.
Müzakirələrdə münasibət bildirməklə fikirlərini əsaslandırır.
Fikirlərini qruplaşdırır.
Araşdırması əsasında mətn hazırlamaq üçün mövzu seçir.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** təqdimat

**1-ci addım.** Müəllim bu dərsdə aparacaqları araşdırma, araşdırmanın əhəmiyyəti barədə şagirdlərə məlumat verir. Araşdırma mövzularını şagirdlərə təqdim edir. Müəllim mövzuya giriş etmək üçün əvvəlki dərs nümunəsində linki verilmiş, lakin müəllimin istifadə etmədiyi video-süjetlərdən istifadə edə bilər. Video-süjet əsasında sual-cavab təşkil edə bilər.

**2-ci addım.** Yaxşı olar ki, mövzular püşkatma yolu ilə qruplar arasında bölünsün. Araşdırma mövzuları dərslikdə vardır. Müəllim dərsdən qabaq mövzu il bağlı müxtəlif materiallar toplamalı, şagirdlərin məlumat əldə edib təqdimat hazırlaması üçün resurslar təqdim etməlidir.

Sinifdə texniki imkanlar varsa, kompüter vasitəsilə müəllimin özü tərəfindən dəqiq araşdırılmış, şagirdin yaş səviyyəsini nəzərə almaqla yığcam video-süjetlər təqdim edilə bilər.

Əgər texniki imkanlar yoxdursa, müəllim bu məqsədlə ensiklopediyalardan, şagirdlər üçün şəkilli və yığcam məlumatlı kitablar, quş şəkilləri və s. təqdim etməklə şagirdləri araşdırmaya sövq edir. Araşdırma əsasında hazırlanacaq cümlələrin sadə olmasına diqqət yetirmək lazımdır. Plan dərslikdə vardır. Müəllim şagirdlərlə birlikdə fərqli plan hazırlaya bilər.

**3-cü addım.** Qruplar təqdim olunmuş materiallar üzərində işləyirlər. Əgər təqdimat hazırlanacaqsa, 3–4 slayd yetərlidir. Slayd hazırlamaq imkanı yoxdursa, şagirdlər bunu vatman kağızında, yaxud A4 vərəqlərində icra edə bilərlər. Əsas şagirdin lazım olan materialı toplaması, onu lazımi məlumata çevirə bilməsidir.

Bu araşdırmalar şagirdlərdə toplama, məlumatın emal edilməsi, lazım olanın təqdim edilməsi, təqdim etmə kimi bacarıqlar formalaşdırır.

**4-cü addım.** Qrupların təqdimatı dinlənilir, şagirdlərin işlərinə həm müəllim, həm də digər qruplar tərəfindən münasibət bildirilir. Qruplar qiymətləndirilir.

**5-ci addım.** "Təbiəti qorumaq Vətəni qorumaq deməkdir" mövzusunda müzakirə təşkil edilir.

Müzakirə üçün *"Təbiəti qorumaq nə deməkdir?", "Təbiəti nə üçün qorumaq lazımdır?", "Təbiəti qorumağın Vətəni qorumaqla necə əlaqəsi vardır?", "Vətəni nə üçün qorumaq lazımdır"* suallarından istifadə etmək olar. Müzakirənin aparılmasında əsas məqsəd araşdırmaya yekun vurulması və fikirlərin ümumiləşdirilməsidir.

**6-cı addım.** Şagirdlərə "Ən..." başlığı altında maraqlı rubrika yaratmaq, bura təbiətin ən maraqlı və qeyri-adi quşları haqqında məlumat toplayıb təqdimat hazırlamaq tapşırığı verilir.



LAYİHƏ

Tovuzquşu haqqında https://www.youtube.com/watch?v=dBsiX1-zxLM

https://www.youtube.com/watch?v=3M3zj6143uo linklərdən istifadə etmək olar. Müəllim uyğun bildiyi digər materiallardan da istifadə edə bilər.

Şagirdlərin "Ən..." rubrikası altında hazırladığı yazıların, bukletlərin və s.-nin məktəbdə təqdimatını və ya sərgisini təşkil etmək məqsədəuyğun olar.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

16-cı dərs

# Layihənin I hissəsinin yekunu

**Standartlar:** 2.1.3.,3.1.3

**Təlim nəticələri:**

Müzakirələrdə fikirlərini əsaslandırır.
Vahid fikir formalaşdırır.

**İş forması:** kiçik qruplarla, kollektiv

**İş üsulu:** əqli hücum, təqdimat

1-ci addım. Müəllim şagirdlərə I bölməni yekunlaşdırdıqları, bu bölmədə maraqlı bir səyahət etdiklərini şagirdin diqqətinə çatdırır. Eyni zamanda, şagirdlərin də bölmə ilə bağlı fikirlərini, bu "səyahətin" onlara nə qazandırdığını suallar vasitəsilə soruşur.

2-ci addım. Şagirdlərin diqqəti 49-cu səhifədə verilmiş piramidaya yönəlir, şagirdlərə sualla müraciət edilir: *"Nə üçün piramida bu formada tərtib edilmişdir?", "Niyə piramidanın zirvəsində "Mən" sözü yazılmışdır?"*

Piramida əsasında görəcəkləri iş şagirdlərə izah edilir. Piramidanın hər pilləsi yan tərəfdə verilən müvafiq suallarla əlaqələndirilir. "Piramidanı" oxumaq üçün hər qrupa bir pillə tapşırıla bilər.

Mövzu ilə bağlı şagirdlərin ilkin təxminləri dinlənilir. Müəllim şagirdlərin əvvəlki və sonrakı fikirləri arasındakı dəyişikliyi müşahidə etmək üçün bu tapşırığı iş vərəqlərində yazılı şəkildə icra etdirə bilər.

**İş vərəqinə nümunə:**

| Mövzu | İlkin fikirlərim | Sonrakı fikirlərim |
|---|---|---|
| | | |
| | | |

Qeyd. Bu sxem şagirdin ailədə qazandığı keyfiyyətlər, onun üçün yaradılan mühitdə sağlam düşüncə ilə inkişaf edən, ailədən sinif və məktəb mühitinə ötürülən; burada da bilik, bacarıq və vərdişlər əldə edərək cəmiyyətə ötürülən vətəndaşın formalaşdırılmasını göstərən sxemdir. "Sonrakı fikirlərim" qrafası piramida təhlil edildikdən sonra doldurulur.

Piramidanın **1-ci pilləsində** ailə tərəfindən yaradılan, sağlam və təhlükəsiz mühitdə böyüyən uşağa verilən tərbiyə və əxlaq, dəyərlər ön plana çəkilir.

Yan tərəfdə verilən suallar (mənim ailədə yerim, mənim hüquqlarım, mənim vəzifələrim) piramidanın 1-ci pilləsi ilə əlaqədardır.

Piramidanın **2-ci pilləsində** sinifdə sinif müəllimi tərəfindən şagird üçün yaradılan şərait, öyrədilənlər, yaradılan şərait ön plana çəkilir.

Yan tərəfdə verilən suallar (mənim sinifdə yerim, hüquq və vəzifələrim) piramidanın 2-ci pilləsi ilə əlaqədardır.

Sxem bu ardıcıllıqla davam edir.

3-cü addım. Şagirdlərin cavablandırdıqları suallar dinlənilir. Müzakirəsi təşkil olunur. *"Piramidada verilənlərlə razısınızmı?", "Burada sizin üçün faydalı nə oldu?", "Siz pirami-*

LAYİHƏ

*danın mərtəbələrinə nə əlavə etmək istərdiniz?"* və s. suallarla şagirdlərə müraciət edilir. Şagirdlərin cavabları ümumiləşdirilir. Müəllim *"Bölmədə maraqlı nə oldu?", "Hansı mətni bəyəndiniz (bəyənmədiniz?)?", "Nə üçün?"* suallarından istifadə edə bilər.

**4-cü addım.** Müəllim bir daha şagirdlərə I bölməni yekunlaşdırdıqlarını, artıq gəminin yelkənlərindəki suallardan birini açmağın vaxtı gəldiyini onlara xatırladır.

Sual işarəsinin yerində nə yazıldığını bilmək üçün daha maraqlı tapşırıqları icra etməli olduqlarını onların diqqətinə çatdırır. Tapşırıqları icra etmək üçün təlimatı şagirdlərə xatırladır (dərslik, səh. 50).

**5-ci addım.** Qruplara tapşırıqlar paylanılır. Tapşırıqlar qrupların səviyyələri nəzərə alınmaqla paylanılır.

**I qrup**

1. "Dünya içində bir aləm" mətni üçün açar söz. *(ailə)*
2. "Dünya içində bir aləm" mətnində çərçivəyə alınmış söz. *(kiçik)*
3. Nöqtələrin yerində hansı söz yazılmalıdır?
   ... cəmiyyəti idarə edir, qoruyur və onun siyasi və ictimai quruluşunu təmin edir.
   *xalq, dövlət, əhali*

**Alınan cümlə:** *Ailə kiçik dövlətdir.*



**II qrup**

1. İnsanın ilk təhsilini aldığı yer. *(məktəb)*
2. Ailədə verilir. *(tərbiyə)*
3. Şəkildə təsvir olunmuşdur: *(ocaq)*

**Alınan cümlə:** *Məktəb tərbiyə ocağıdır.*

**III qrup**

1. "Pərvizin həyatı" mətni üçün açar sözlər. *(ailə və məktəb)*
2. Nöqtələrin yerində nə yazılmalıdır? *(cəmiyyət)*
   Sağlam ailə sağlam ... deməkdir. (V.Satir)
3. "Şarların köməyi" mətnində yaşıl rəngdə verilmiş söz. *(üçün)*
4. Nöqtələrin yerinə verilmiş sözlərdən hansı yazılmalıdır?
   *dost, vətəndaş, sirdaş, qardaş*
   ....! Nə gözəl səslənir bu söz,
   Yəni – bir Vətənin övladıyıq biz.
   Anamız eynidir, qardaşıq demək,
   Mən sənə arxayam, sən mənə kömək. (B.Vahabzadə) *(vətəndaş)*
5. Cümləni tamamlayın.
   Qardaşım verilən tapşırıqları vaxtında yerinə ............... *(yetirir)*

**Alınan cümlə:** *Ailə və məktəb cəmiyyət üçün vətəndaş yetirir.*



LAYİHƏ

**IV qrup**

1. Ad bildirən sözdür, vurğusu 3-cü hecaya düşür, ümumi isimdir, insanın tərbiyə aldığı yerdir. *(ailə)*

2; 5. Açıq sözünə əks mənalı olan söz. *(bağlı)*

3. "Şarların köməyi" mətnində çərçivəyə alınmış söz. *(olan)*

4. "Dünya içində bir aləm" mətnində bütün hərfləri böyük yazılmış söz. *(Vətən)*

6. Ola bilməz sözünün əksi. *(olar)*

**Alınan cümlə:** Ailəyə bağlı olan Vətənə də bağlı olar.

6-cı addım. Qruplar tapşırıqları təqdim edirlər. Müəllim gəminin yelkənlərini açmaq üçün bu cümlələrdən vahid cümlə yaratmağı tapşırır.

Gəminin yelkənində: Ailə və məktəb Vətən üçün vətəndaş yetirir.

## 17-ci dərs

**Kiçik Summativ Qiymətləndirməyə nümunə**



LAYİHƏ

# 2

## Vətən yolu

Daş adamlar
Azərbaycan bayrağı
İtirilmiş açar
KSQ
Ataya məktub
Nişan üzüyü
Mən nə etdimsə, Vətən üçün etdim
20 Yanvar
“Gözün aydın, Azərbaycan!”



LAYİHƏ

1-ci dərs

# Daş adamlar

**Standartlar:** 2.1.3.,2.1.4., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Müzakirələrdə fikirlərini əsaslandırır.
Mətnin hissələrinə uyğun olaraq fikir bildirir.
Sözlərin vurğusunu düzgün deyir.
Giriş, əsas və nəticə hissələrini müəyyən edir.

**İş forması:** kiçik qruplarla, kollektiv

**İş üsulu:** anlayışın çıxarılması, müzakirə, fasilələrlə oxu

1-ci addım. Müəllim şagirdləri, ilk növbədə, bölmənin əvvəlində verilən materiallarla tanış edir. Orada verilən sualların şagirdlər tərəfindən tam olmasa da, ilkin fikirlərinin səsləndirilməsi vacibdir. Müəllim bələdçi obrazı şagirdlərə təqdim edir, bölmədə birlikdə fəaliyyət göstərəcəkləri ilə bağlı onları məlumatlandırır.

**Müəllimin nəzərinə:**

*Bu bölmə, bölmədə verilən materiallar şanlı Vətən müharibəsinə həsr olunmuşdur. Ona görə də müəllim "Daş adamlar" mətnini tədris edərkən şagirdlərə yüngülcə Gorğanı erməni işğalçıları ilə müqayisə etməyə imkan verən suallar verə bilər. Dərinə getməyə ehtiyac yoxdur, çünki sonrakı mətnlər şagirdlərə bu məsələyə ətraflı müzakirə etməyə və münasibət bildirməyə imkan verəcəkdir.*

2-ci addım. Müəllim anlayışın çıxarılması üsulundan istifadə edərək hüquq sözü ilə bağlı şagirdlərin hansı məlumata malik olduğunu müəyyənləşdirir.




Sual işarəsinin yerində "hüquq" sözü yazılır.

Müəllim dərsi davam etdirir, "Bəs insan hüquqları nədir?", "İnsan hüquqları dedikdə nə başa düşürsünüz?" suallarından birindən istifadə etməklə şagirdlərə müraciət edir.

**Təxmini cavablar:**

✓ İnsan hüquqları bizi mühafizə edir; onlar qaydalar kimidir.
✓ Onlar bizə hörməti təklif edir və bizdən başqalarına hörmətlə yanaşmağı tələb edir.
✓ İnsan hüquqları mənəvi bir tələbdir və mənəvi dəyərlərə əsaslanır.
✓ İnsan ləyaqəti və bərabərlik insan hüquqlarının əsas ideyasıdır və s.



LAYİHƏ

Şagirdlərə cavablarını yazılı şəkildə qeyd etmək üçün iş vərəqində cədvəl təqdim edilə bilər:

| İnsan hüquqları haqqında | |
|---|---|
| *Nəyi bilirik?* | *Nəyi bilmirik?* |
| | |
| | |

Əgər belə bir cədvəl şagirdlərə təqdim edilərsə, cütlərlə iş formasından istifadə etmək olar. Tapşırığın icrası üçün 5 dəq. yetərlidir. Sual yarana bilər ki, şagird 5 dəq. müddətində sualları cavablandıra bilməz. Müəllim bundan narahat olmamalıdır. Əsas məqsəd şagirdlərdə sualları çevik cavablandıra bilmək bacarığı formalaşdırmaqdır.

Daha sonra dərsliyin 54-cü səhifəsində verilən suallar üzərində iş aparılır. Bu sualların cavablandırılması üçün bütün şagirdlər müzakirədə iştirak etməlidir. Müzakirəyə 12-15 dəq. yetərlidir. Yəqin ki, şagirdlərin fikirləri çox sadə olacaqdır. Mürəkkəbini tələb etməyə ehtiyac yoxdur. “Şagirdlərə hansı hüquqlarımız vardır?” sualı ilə müraciət etmək olar. Yaşamaq, istirahət, söz azadlığı, təhsil almaq, mənzil hüququ və s.

Müəllim Azərbaycanda insan hüquqlarının qorunması, insana və onun azadlıqlarına verilən dəyər, İnsan hüquqları barədə Konstitusiyada müvafiq maddələrin olması barədə şagirdlərə yığcam məlumat verə bilər. Eyni zamanda, digər xalqlarda da insan ləyaqətinə, insan hüquqlarına verilən tələblər barədə məlumat verə bilər.

**Nümunə:**

> Afrikada “ubuntu” yanaşması insan olmağın əsasında nəyin dayandığını göstərir. Ubuntu icmanın bütün üzvlərinə münasibətdə hörməti, qonaqpərvərlik və əliaçıqlığı əsas hesab edir. Ubuntu anlayışı qısa şəkildə belə ifadə oluna bilər: “İnsan digər insanlar vasitəsilə insandır”.

**3-cü addım.** Dərslikdəki “Daş adamlar” mətninin oxusu təşkil edilir. Oxu zamanı orfoqrafik və orfoepik tapşırıqların icrası nəzərdə saxlanılır. Mətnin oxusu üçün fasiləli oxudan istifadə etmək təklif olunur. Bu oxu üsulu əsərin məzmununun mənimsənilməsi üçün tətbiq edilən maraqlı üsullardan biridir.

Müəllim əvvəlcədən əsəri bitkin hissələrə ayırır, məzmunu mənimsətmək üçün hissələrə aid sual tərtib edir. Sinif hazırlıqlıdırsa, bunu şagirdlərə də tapşırmaq olar.

Daha sonra bitkin hissələrin oxusu təşkil edilir. Müəllim bir hissəsini özü oxuyub digər hissələri şagirdlərə oxutdura bilər. Hər bir hissə oxunub qurtardıqdan sonra şagirdlərə suallarla müraciət edilir:

*Bu hissədə nədən danışılır? Nə sizin üçün yeni oldu? Bu hissədən nə öyrəndiniz? Hansı hadisələr Perseyi təəccübləndirir? Sizcə, Persey daha hansı hadisələrlə üzləşəcək?* və s.

Müzakirələr zamanı fərqli fikirlər yaranarsa, müəllim şagirdlərində fərqli fikirlərə dözümlülük yaratmağı öyrətməlidir. Çalışmaq lazımdır ki, bütün şagirdlərin fikirləri dinlənilsin.

Sonuncu hissənin oxusundan sonra *“Perseyin belə edəcəyini düşünürdünüzmu?, Onun hərəkətlərini necə qiymətləndirirsiniz?, Siz əsəri necə tamamlayardınız?, Sizcə, insanlar nə edəcəklər?”* sualları şagirdlərə ünvanlanır.

Qeyd. Mətn belə bitir: insanların nəfəsi özlərinə qayıtdı, həyatlarına qaldıqları yerdən davam etməyə başladılar.

Şagirdlərin fərqli fikirləri ola bilər.

**4-cü addım.** 56-cı tapşırıq üzərində iş aparılır. Tapşırığın qruplar vasitəsilə icrası məqsədəmüvafiqdir. I qrupa “Daş adamlar” mətninin giriş hissəsini; II qrupa əsas hissəsini; III qrupa nəticə hissəsini müəyyən etməyi tapşırmaq olar. Tapşırıq bütün siniflə şifahi şəkildə də icra edilə bilər.



LAYİHƏ

Mətnin giriş hissəsi: Perseyin müxtəlif ölkələrə getməsi, ölkəni xatırladan əşya gətirməsi, növbəti səfərində daş heykəllərlə dolu adaya rast gəlməsi.

Mətnin əsas hissəsi: Perseyin ada ilə tanış olması, adada bir qocaya rast gəlməsi, qocanın vasitəsilə adanı daşa döndərən sehrbaz Gorğanı tapması.

Mətnin nəticə hissəsi: Adanın xilası, insanların əvvəlki halına qayıtması.

Tapşırığı icra etmək üçün şagirdlərə iş vərəqləri təqdim oluna bilər.

İş vərəqinə nümunə:




Cavablar ümumiləşdirilir.

**5-ci addım.** 2–3-cü suallar üzərində bütün siniflə iş aparılır. 4-cü tapşırıq hər sıradan bir cütə tapşırılır. 5 dəq. vaxt verilir. Şagirdlərin cavabları müzakirə edilir, digər şagirdlər cavablara münasibət bildirir.

✓ Müəllim obrazları xarakterik xüsusiyyətlərinin şagirdlər tərəfindən müəyyənlşdirilməsi üçün şagirdlərə müxtəlif iş vərəqləri təqdim edə bilər.

**Nümunə:**

| **“Daş adamlar” əfsanəsi** | |
|---|---|
| *Əfsanədəki obrazlar* | *Obrazların xüsusiyyətləri* |
| Persey | Tolerant, humanist, yüksək mənəvi dəyərlərə malik, xeyirxah, mərhəmətli, cəsarətli |
| Gorğan | Sehrbaz, cəllad, qəddar, yaramaz, insan ləyaqətini alçaldan, özünü düşünən |
| Qoca | Mərhəmətli, xeyirxah, ehtiyatlı |

✓ Əsərin ideyasının, əsas fikrinin müəyyənləşdirilməsi üçün aşağıdakı nümunədə iş vərəqi təqdim edə bilər.

| **“Daş adamlar” əfsanəsi** | |
|---|---|
| Əsərdə əsas fikir | Əsas fikrin açılmasına xidmət edən hadisə, əhvalat, söz və s. |
| Bütün insanların ləyaqət və hüquqlarına hörmətlə yanaşmaq lazımdır. | Perseyin Gorğanı aday gətirməsi, tilsimi açması, insanların hüquqlarını müdafiə etməsi. |



LAYİHƏ

**Müəllimin nəzərinə:**

*Müəllim əlavə məlumat kimi, həqiqətən, Moai adlanan daş adamların – heykəllərin olduğu, Sakit okeanda yerləşən Pasxa adası haqqında məlumat verə bilər. Bu adada minə yaxın belə heykəllər var. 1995-ci ildə UNESCO adaya "Dünya Mirası Ərazisi" adı vermiş və "Rapa Nui Milli Parkı"nı qoruma altına almışdır.*
*https://pickvisa.az/bloq/pasxa-adasi linkindən istifadə etməklə ada haqqında məlumat almaq olar.*





*https://www.youtube.com/watch?v=QhEeh_BcADg linkindən istifadə etməklə həmin ada və heykəllər haqqında məlumat əldə etmək olar. Linkdəki video-süjet ingilis dilində olduğu üçün dərsə ingilis dili müəllimini dəvət etmək, dərsi birlikdə keçmək mümkündür.*
*https://www.youtube.com/watch?v=PR2cvsq81Mo "Dədə Qorqud" filmi, 1.52-ci dəqiqədən insanların döyüş zamanı daşa dönməsi, daşlaşması səhnəsi.*

✓ Əsərin ideyasının, əsas fikrinin müəyyənləşdirilməsi üçün aşağıdakı nümunədə iş vərəqi təqdim edə bilər.

| **"Daş adamlar" əfsanəsi** | |
|---|---|
| Əsərdə əsas fikir | Əsas fikrin açılmasına xidmət edən hadisə, əhvalat, söz və s. |
| | |

6-cı addım. Dvə tapşırıq verilir. Evə tapşırıqlar verərkən sinfin səviyyəsini nəzərə almaq lazımdır və daha çox yaradıcı tapşırıqlar vermək məqsədəmüvafiqdir. Aşağıdakı mövzuları şagirdlərin səviyyələrinə uyğun təqdim edə bilər.

*1. 6-cı tapşırıq (səh. 61)*

*Tapşırığın izahı:* Şagird, ilk növbədə, ada və yarımada şəkillərini müəyyənləşdirir, onların leksik mənasını izahlı lüğətdən tapmaqla müəyyən edir. Sonra Azərbaycanda hansı ada və yarımadanın olduğunu müəyyən edir.

✓ Azərbaycanda ada – Xəzər dənizindəki Böyük Zirə adası (hamının Nargin kimi tanıdığı ada)

**Böyük Zirə adası haqqında**

Xəzər dənizində, Bakının sahil xəttindən 10,5 kilometr məsafədə yerləşən Böyük Zirə (Nargin) adasının sahəsi 1,4 kvadratkilometr, uzunluğu 3,1 km, eni isə 900 m-dir. Relyefi qayalıq çöküntülərdən ibarətdir. Adanın qərb hissəsi azca



LAYİHƏ

təpəlik, şərq hissəsi bir qədər hündür, şimal sahəsi sıldırım, cənub hissəsi isə tam mailidir. Adada su və bitki örtüyü yoxdur.

İlan çox olduğu üçün bəzən İlan adası kimi də xatırlanır.

Böyük Zirə adasının adı Azərbaycan dilindəki "böyük" və ərəb mənşəli "cəzirə" (ada) sözündən yaranıb. Ada 1719-cu ildə, Rusiya imperatoru I Pyotr dövründə "Nargin" adlandırılıb. Formasına görə Fin körfəzindəki Estoniyanın Tallin şəhəri yaxınlığında yerləşən Nargen (hazırda Naysaar) adasını xatırlatdığından ona belə bir ad verilib. Alman, isveç və eston dillərində bu söz "dar keçid" mənasını verir. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ada yenidən Böyük Zirə adlandırılıb.

✓ Azərbaycanda yarımada – Abşeron yarımadası.

*2. "Daş adamlar" mətni əsasında plastilin, rəngli kağız, müxtəlif fiqurlardan mətnin komiksinin hazırlanması.*
*3. Mətn əsasında rəsm əsərinin çəkilməsi*
*4. "Persey (Gorğan/ Qoca) obrazına münasibətim" mövzusunda inşa və ya esse.*
*5. "Daş adamlar" adası haqqında təqdimat hazırlamaq.*

Mövzular müxtəlif olsa da, hamısı "Daş adamlar" mətni ilə bağlıdır. Hazırlanan nümunələr növbəti dərs üçün motivasiya xarakterli ola bilər.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*2-ci dərs*

## Daş adamlar

**Standartlar:** 2.1.1., 2.1.3.

**Təlim nəticələri:**

Danışarkən sözlərin vurğusunu düzgün deyir.
Müzakirələrdə fikirlərini əsaslandırır.

**İş forması:** kiçik qruplarla, kollektiv

**İş üsulu:** müzakirə, Qərarlar ağacı

**1-ci addım.** Müəllim evə verdiyi tapşırıqları yoxlayır. Ev tapşırığının yoxlanmasına 10 dəq. vaxt sərf edilsə, kifayətdir. Şagirdlərin ev tapşırığını təqdim edərkən sözləri düzgün vurğu ilə deməsi, düzgün tələffüz etməsi diqqətdə saxlanılır. Şagirdlərin ev tapşırıqları qiymətləndirilir.

**2-ci addım.** Müəllim şagirdlərə "Daş adamlar" mətni, insan hüquqları ilə bağlı bir neçə sual verməklə ötən dərs müzakirə olunan məsələləri xatırladır, sonra şagirdləri araşdırma aparacaqları barədə məlumatlandırır. Şagirdlərə bildirilir ki, tapşırıqda təqdim olunan hüquqlar hər biri insana aiddir. Lakin bu hüquqların içərisindən adadakı insanların məhz Gorğan tərəfindən pozulan hüquqlarını müəyyən etmək lazımdır.



LAYİHƏ

Şagirdlərə tapşırıq verilir, şagirdlər 5-ci tapşırıq üzərində iş aparırlar. Biliklərin cəlbedici formada ümumiləşdirilməsinə imkan verən “Qərarlar ağacı” üsulundan istifadə etməklə tapşırığı icra etmək olar.

Tapşırığı icra etmək üçün şagirdlər qrup daxilində mütləq mətni təkrar oxumalı, qərarı mətnə əsasən verməlidirlər. Tapşırığın icrasına 15 dəq. kifayətdir.

Lövhədə “Qərarlar ağacı” təqdim olunur. Qruplar variantlarını təqdim edirlər.

| **Problem:** Adada yaşayanların hansı hüquqları pozulmuşdur? | | |
|---|---|---|
| 1-ci variant | 2-ci variant | 3-cü variant |
| | | |
| **Qərar:** Adada yaşayanların 2,3,5,6,7,9,11,12 bəndlərdə göstərilən hüquqları pozulmuşdur. | | |

Şagirdlər cavablarını əsaslandırırlar. Növbəti sual – Ermənilər işğal altında olan torpaqlarımızda azərbaycanlıların bütün hüquqlarını kobudcasına pozmuşlar.

**3-cü addım.** Araşdırma davam edir. Şagirdlərə dərslikdəki *“Təsəvvür edin ki:” başlıqlı tapşırıq üzərində araşdırma aparmaq təklif olunur.*

*Şagirdlərə “Gorğan erməni işğalçılarını təmsil edir. Siz isə düşmənə qarşı mübarizə aparan qəhrəmansınız. İşğalçıya qalib gəlmək üçün siz, ilk növbədə, nə etməlisiniz?”* sualı ilə müraciət edilir.

Şagirdlərin cavabları dinlənilir.

**4-cü addım.** SMüvafiq bildiyi və texniki tələblər imkan verdiyi təqdirdə “Bir qalanın sirri” filmindən uyğun kadr (düşmənə qalib gəlməsi üçün Elşənin kitabları oxumağa sövq edilməsi) nümayiş etdirilə bilər. Əks halda, həmin epizod şagirdlərə nağıl edilə bilər. Daha sonra şagirdlərə sual ünvanlanır: Siz hansı vasitəni/yolu/yanaşmanı/istiqaməti seçərdiniz?

Şagirdlərin cavabları lövhəyə qeyd olunur. Suallar vasitəsilə müəllim şagirdləri **plan qurmaq, planlı çalışmaq** ifadələrinin üzərinə yönəldir. Dərslikdə planlı çalışmaq üçün suallar verilmişdir. Şagirdlər həmin suallar üzərində işə yönəldilir. Şagirlərlə birlikdə düşmənə qalib gəlmək üçün plan tərtib edilir.

**Plana nümunə:**

**Plan:**

Gorğanın xüsusiyyətlərini öyrənmək;
Gorğanın yaşadığı yeri öyrənmək;
Həmin yerin xüsusiyyətlərini öyrənmək;
Ərazini diqqətlə tədqiq etmək;
Gorğana qalib gəlmək üçün kimdən kömək istəyərdin?;
Gorğanın xarakterini (zəif və güclü tərəflərini) öyrənmək;
Ətraflı məlumatlar toplayandan sonra düşməni məhv etmək üçün plan qurmaq.

**5-ci addım.** Şagirdlərin diqqəti 58–59-cu səhifədə verilmiş xəritəyə yönəldilir.

Xəritədə şagirdlər, müxtəlif labirintli yollar, yollarda maneələr, yuxarıda isə Gorğan (təxmini) təsvir edilmişdir.

Şəkil hərəkətlidir, yəni animasiyadır. Şagirdlər telefondan istifadə etməklə həmin xəritə üzrə addımlayacaq, suallara cavab tapmaqla maneələri ortadan qaldıracaq və nəhayət, düşmənə qalib gəlmiş olacaqlar. Bu tapşırığı şagird dərsdənkənar vaxtda icra edəcəkdir. Proqram vasitəsilə sualları cavablandıran şagirdlərin balları və ümumi nəticələri də orada qeyd olunacaqdır.



LAYİHƏ

Dərslikdə isə müəllim maneələri sualları cavablandırmaqla, məntiq tapşırıqlarını yerinə yetirməklə aşacaqlarını şagirdlərin diqqətinə çatdırır. Uşaqlara ən yaxın və rahat yolu tapmaq tapşırığı verilir.

Müəllim tapşırığı bir az da maraqlı etmək üçün *Sizcə, uşaqlar nəyi müzakirə edirlər?, Onlar birlikdə fəaliyyət göstərməyi üstün tutacaqlar, yoxsa ayrılıqda?* suallarından istifadə edə bilər.

**Suallara nümunələr:** (Müəllim sual hazırlamaqda və sual sayını artırmaqda sərbəstdir)

1. İbtidai icma quruluşu nə üçün Daş, Tunc və Dəmir dövrünə bölünür? *(icma quruluşu əmək alətlərinin hazırlandığı materiala görə belə adlanır)*
2. Hansı vasitə məntəqələrin ünvanı təyin etməyə imkan verir? *(xəritə)*
3. Ağacların böyüməsi üçün nə zəruridir? *(oksigen, karbon, su, işıq, mineral maddələr)*
4. Əgər dünən yox, daha əvvəlki gün yox, daha əvvəlki gün çərşənbə idisə, sabah yox biri gün hansı gün olar? *(test bilikli.net-dən götürülmüşdür.)*

   A) Şənbə   B) Çərşənbə   C) Bazar   D) Çərşənbə axşamı

5. Rəqəmlərin Azərbaycan əlifbasının hansı hərfinə uyğun olduğunu müəyyən edin və alınan cümləni xorla deyin. *(Şuşa bizimdir!)*

   26 28 26 1   2 14 32 14 19 5 14 24!

**Təlimat:**

1. 1-ci sualın cavabı düzgün tapılarsa, şagirdin qarşısında 2 yol açılır.
2. Hansı yolla getmək lazım olduğunu müəyyən etmək üçün 2-ci sual cavablandırılır.
3. Yaşıllığı olmayan ərazilərdə ağacların salınması planlaşdırılır.
4. Növbəti maneə açılır. Su vulkanı söndürür.
5. Son suala cavab tapılması ilə düşmən məhv olur. Şagirdlər mərhələni tamamlayırlar.

**6-cı addım.** Şagirdlərə xəritə əsasında yığcam hekayə yazmaq ev tapşırığı kimi verilir.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 3-cü dərs Daş adamlar

**Standartlar:** 3.1.1., 4.1.3., 4.1.4.

**Təlim nəticələri:**

Sözləri leksik və qrammatik mənasına görə fərqləndirir.
Sözləri şəkilçilər vasitəsilə əlaqələndirir.
İzahat yazır.

**İş forması:** kiçik qruplarla, kollektiv

**İş üsulu:** müzakirə, yazı



LAYİHƏ

1-ci addım. Ev tapşırığı yoxlanılır və qiymətləndirilir.

2-ci addım. Şagirdə izahat yazmaq öyrədilir. İzahatın qaydası, izahata verilən tələblər və nümunə dərslikdə 61-ci səhifədə verilmişdir.

3-cü addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 7–8-ci tapşırıqlar üzərində iş aparılır. Müəllim mətnin seçdiyi sözlər əsasında da iş apara bilər. Mətnin müəyyən bir hissəsini şagirdlərə təqdim etməklə mənasını bilmədiyi çətin sözləri seçməyi və lüğətin köməyi ilə ifadə etdiyi mənaları müəyyən etməyi tapşıra bilər.

4-cü addım. 10–12-ci tapşırıqlar icra edilir. Tapşırıqlar şifahi şəkildə kollektivlə yerinə yetirilir. Müəllim tərəfindən sözlərin cümlə daxilində bir-biri ilə əlaqəyə girərkən şəkilçi qəbul edərək dəyişməsi qaydası izah olunur.

5-ci addım. 14-cü tapşırıq icra olunur. Dərslikdə inşanın yazılması üçün təlimat və nümunə verilmişdir. Plan təxminidir. Müəllim şagirdlərlə birlikdə mövzuya uyğun plan tərtib edə bilər.

6-cı addım. Şagirdlər tapşırığı icra edirlər. İnşanın həcminin yığcam, 15–25 cümlədən ibarət olması yetərlidir. Əsas məzmunun çatdırılmasıdır.

Əgər şagirdlər tapşırığı sinifdə icra edib bitirərlərsə, yazılar seçmə yolla oxutdurulur. Sinifdə hazırlamaq üçün kifayət qədər vaxt qalmamışsa, tapşırığı evdə tamamlamaq tapşırılır.

7-ci addım. 13-cü tapşırıq evə verilir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 4-cü dərs Azərbaycan bayrağı

**Standartlar:** 2.1.2., 2.1.3., 3.1.2.

**Təlim nəticələri:**

Ritm və tempin nə olduğunu bilir.
Mövzu ilə bağlı müzakirələrdə hadisələrə münasibət bildirir.
Şeiri oxuyarkən vurğunun tələblərinə əməl edir.

**İş forması:** cütlər, kollektiv

**İş üsulu:** klaster (anlayışın çıxarılması), müzakirə

1-ci addım. Dərsi başlamaq üçün müəllim müxtəlif üsul və priyomlardan istifadə edə bilər.

1. https://www.youtube.com/watch?v=eiGtw4riMsM linkindən (bu, dalğalanan Azərbaycan bayrağıdır) istifadə etməklə şagirdlərə sual ünvanlanır: *Dalğalanan Azərbaycan bayrağı sizdə hansı hisslər yaratdı? Nə üçün? Fikrinizi nə ilə əsaslandıra bilərsiniz?*

2. https://www.youtube.com/watch?v=Xp3Uayjbuq4 linkindən (Nuray Rəhmanın ifasında "Azərbaycan bayrağı" mahnısı) istifadə etməklə şagirdlərə sual ünvanlanır: *Mahnıda hansı fikirlər səsləndirilir? Balaca Nurayın səsindəki temp, ahəng xoşunuza gəldimi? Nə üçün o, mahnını belə ürəklə oxuyur? Mahnıda Azərbaycan bayrağı necə tərənnüm olunur?*



LAYİHƏ

*Mahnıda hansı misralar xoşunuza gəldi? Nə üçün? Videoda hansı səhnələr sizdə qürur hissi oyatdı? Mahnıda bayraq nə üçün "Ata mirası, ana yaylığı" hesab edilir?*

Bu videonun əvvəlində 1–26 saniyədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bayrağımızla bağlı fikirləri səsləndirilir. Həmin hissəni səsləndirib suallar verməklə dərsi davam etdirmək olar.

3. Azərbaycan Respublikasının Konstitusiyasının 23-cü maddəsinin, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq maddələrindən istifadə etməklə şagirdlərə suallar verilir: *Qanunda bayrağa hörmət necə təqdim edilmişdir? Bayrağımızın təsviri hansı sənəddə öz əksini tapmışdır?*

4. Bayraq haqqında şagirdlərin fikirlərini öyrənmək üçün klaster üsulundan istifadə etməklə

5. __________ *bir ölkəni, təşkilatı və ya birliyi işarələyən, əsasən, parçadan olan, dövlət rəmzi olub, müharibələr, inqilablar, nümayişlər zamanı öndə,insanların başı üzərində aparılan, müxtəlif rəsmi təşkilatların, binalarının qarşısında dirəyə asılan və həmin təşkilatı təmsil edən, Vətən uğrunda şəhid olanların məzarları üzərinə salınır.*

Nöqtələrin yerində nə yazılmalıdır? tapşırığı vasitəsilə anlayışın çıxarılması üsulundan istifadə etməklə

6. Dərslikdə sarı çərçivədə verilmiş *"Persey gəzdiyi ölkələri xatırlatmaq üçün oradan bir əşya gətirirdi. Sizcə, dövləti tanıdan nədir? Dövlətin müstəqilliyini sübut edən nədir?"* motivasiya xarakterli sualdan istifadə etməklə.

**2-ci addım.** Təqdim olunanlardan birindən və ya ikisindən istifadə etməklə Mehmet Akif Ersoydan "İstiqlal marşı"ndan verilmiş misralar oxunur, misralar ətrafında yığcam müzakirə təşkil edilir: *Nə üçün bayraq ulduza bənzədilir?, Şair nə üçün bayrağın özünə, öz millətinə aid olduğunu hökmlə deyir?*

Müəllim məqsədəmüvafiq hesab edərsə, https://www.youtube.com/watch?v=gR6CCz4FqZI linkindən istifadə etməklə şairin öz səsi ilə "İstiqlal marşı"nı (ilk 2 bəndini )dinlədə bilər. Şagirdlərə şeiri dinləyərkən onun hansı sürətlə, ahənglə deyilməsinə diqqət yetirmələri tapşırılır.

**3-cü addım.** "Azərbaycan bayrağı" şeirinin ifadəli oxusu təşkil edilir. Texniki imkanlar varsa, https://www.youtube.com/watch?v=PNCe8FInbh0&t=43s linki vasitəsilə Üzeyir

Hacıbəylinin uvertürasının sədaları altında həmin şeir səsləndirilə bilər.

Yaxud https://www.youtube.com/watch?v=H1zDscaC3B8 linkindən istifadə etməklə "Cəngi"nin sədaları altında şeir müəllimin ifadəli oxusunda səsləndirilə bilər.

Qurduğu dərsdən asılı olaraq dərslikdə şeirin yanında verilmiş suallar üzərində həm oxu zamanı, həm də oxudan sonra iş aparmaq olar.

**4-cü addım.** Dərslikdə 67-ci səhifədə verilmiş 1–4-cü tapşırıqlar üzərində iş aparılır.

3-cü tapşırıq:

**Bayraq bənzədilir:** işıq selinə (nur yağmuru), göy qurşağı.

**Bayraq hesab edilir:** Azadlıq rəmzi, ucalıq rəmzi, qalibiyyət rəmzi, istiqlalın simvolu, Azadlıq eşqi, müqəddəslik rəmzi.

Şeirin axırıncı bəndində əsas diqqət 3-cü misraya – *"Şuşada sən qonduğun daşa pir deyəcəyəm" misrasına yönəldilir və müzakirə təşkil olunur: Şeirdə şairin Şuşa ilə bağlı hansı arzuları ifadə olunmuşdur? Şair nə üçün bayrağın Şuşada zirvəyə sancılmasını arzulayır? Şair nə üçün bayrağın sancıldığı daşı pir adlandırır?*

Müəllim suallar vasitəsilə 1992-ci ilin hadisələri, Azərbaycanın bir çox rayon və kəndlərinin, eləcə də mədəniyyət beşiyi Şuşanın mənfur düşmənlərimiz tərəfindən işğal edilməsi haqqında şagirdlərə məlumat verir. Bununla bağlı, şagirdlərin hansı məlumatlara malik olması soruşulması məqsədəuyğundur. *Hazırda nə baş verdi?* sualı ilə müzakirə



LAYİHƏ

davam etdirilir. Şuşanın azad edilməsi, Azərbaycan bayrağının orada dalğalanması, prezidentimizin Şuşanı mədəniyyət beşiyi elan etməsi, Cıdır düzündə 2021-ci ilin may ayında Xarıbülbül festivalının keçirilməsi və s. haqqında şagirdlərə yığcam məlumat verilir və ya bununla bağlı şagirdlərdən məlumat soruşulur.

https://www.youtube.com/watch?v=jb0aDDWGTRc linkindən istifadə etməklə şagirdlərdə Qarabağ uğrunda gedən döyüşlər barədə təsəvvür formalaşdırılır. Təqdim olunan linkdə daha çox zəfər, təntənə üslubu olduğu üçün müəllim həmin linkdəki materialından, yaxud uyğun hissələrindən rahat istifadə edə bilər.

5-ci tapşırıq üzərində iş *(Bütün zirvələri fəth edən, hər birimiz üçün qürur mənbəyi olan müqəddəs Azərbaycan bayrağı azadlıq və müstəqilliyimizin simvoludur)* aparılır. Şagirdlər fikirlərini sadə şəkildə deyə bilərlər: Azərbaycan bayrağı azadlıq və müstəqilliyimizin simvoludur. Bayraq bizim üçün müqəddəsdir və s. Müəllim səslənən fikirləri ümumiləşdirib yekun fikir bildirir.

5-ci addım. 6-cı tapşırıq üzərində iş aparılır.

Daha yüksək intonasiya tələb edən “Azərbaycan bayrağı” ifadəsidir. Yüksək intonasiya ilə deyilməsinin səbəbi bayrağımızın qürur və ucalıq rəmzi olması, şeirdə tərənnüm obyekti kimi məhz Azərbaycan bayrağının seçilməsi, babalarımızdan bizə qalan ən müqəddəs əmanət olması, azadlığımızın rəmzi, müstəqilliyimizin simvolu olmasıdır və s.

Daha sonra müəllim şagirdlərə (seçdiyi priyomdan asılı olaraq) mahnını dinləyərkən (şeiri dinləyərkən, “Cəngi” sədalarını dinləyərkən, videoya baxarkən və s.) hansı hissləri keçirdiniz? sualı ilə müraciət edir. Geniş fikirlərə ehtiyac yoxdur. Dərhal sonra dərslikdə 66-cı səhifədə verilmiş suallar:

*Musiqi olmadan mahnını oxuya bilərsinizmi? Bunu necə həyata keçirə bilərsiniz? Sizcə, nə üçün qədim zamanlarda insanlar ağır bir iş görərkən müxtəlif səslər çıxarmış, ritmdən istifadə etmişlər?* üzərində iş aparılır.

Ritm anlayışı, mahnının xarakterinə uyğunluğu haqqında şagirdlər aşağı siniflərdə Musiqi fənni ilə tanış olmuşlar. Bunu əyani şəkildə şagirdlərə YouTube kanalından ***sinfi, şagirdin yaş, anlam, qəbuletmə və qəbuletmə səviyyəsini, eyni zamanda, mühitin psixologiya və səviyyəsini nəzərə almaqla*** nümayiş etdirmək olar.

Ritmin nə olduğunu nümayiş etdirmək üçün

https://www.youtube.com/watch?v=8TyEnM-n1nA (Yerin Günəş ətrafında hərəkəti)

https://www.youtube.com/watch?v=lWFC3BVJLBg (Natiq ritm qrupu)

https://www.youtube.com/watch?v=lVPLIuBy9CY (Afrika xalqlarında ritm iş prosesində) linklərindən istifadə etmək olar.

**Müəllimin nəzərinə:**

*Əgər təqdim edilən linkləri göstərmək texniki baxımdan mümkün deyilsə, aşağıdakı məlumatlardan istifadə etmək olar:*
*Ritm təkrarlanan hadisələrə deyilir. Kainatın və onunla birlikdə qalaktikaların, ulduzların, planetlərin, peyklərin və s. hərəkətindən müxtəlif ritmlər yaranır. Bu ritmlər bir andan başlayıb milyard illərə qədər davam edə bilər.*
*Bizim üçün çox aydın olan bəzi ritmik hadisələrə nəzər salaq. Məsələn; Yerin öz oxu ətrafında hərəkəti ilə əlaqədar olaraq gecə-gündüzün yaranması, Yerin Günəş ətrafında hərəkəti ilə əlaqədar fəsillərin növbələşməsi, Ayın Yer ətrafında hərəkətindən ay təqviminin yaranması və s.*

Sxem şəklində verilən məlumat oxunur, ritmin mahiyyət və əhəmiyyəti izah edilir. Dərslikdə verilmiş nümunədən istifadə edərək müəllim şeirin ritmlə oxusunu təşkil edə bilər.



LAYİHƏ

**Müəllimin nəzərinə:**

*Ritmlə bağlı verilən izahat əzbərlədilmək üçün deyil, şeirdəki sətrin quruluşunda ahəngdarlıq yaradan söz və ifadələri şagirdə tanıtmaq üçündür. Qafiyə, rədif kimi terminlərin şagirdə əzbərlədilməsinin heç bir əhəmiyyəti yoxdur. Tələb olunan ümumi mahiyyəti (söz və ifadələrdə vurğunu düzgün, lazımi hecada işlətmək, təkrarlanan sözləri düzgün intonasiya ilə demək, rədifi xüsusi səsləndirmək) şagirdə çatdırmaqdır.*

6-cı addım. 7-ci tapşırıq cütlər vasitəsilə icra edilə bilər.

7-ci addım. Evə aşağıdakı kimi yaradıcı tapşırıqlar verilməsi məqsədəuyğundur:

- Dərslikdəki 8-ci tapşırıq
- “Bugünkü dərsdən aldığım təəssürat” mövzusunda şagird düşüncələri
- “Azərbaycan bayrağı – fəxr yerim” mövzusunda inşa (20-25 cümlə)
- “Bayrağımız kimliyimizdir” mövzusunda təqdimat

Əgər sinifdə rəsm çəkmək bacarığı olan şagird varsa, şeir əsasında şəkil çəkilməsi tapşırıla bilər.

Bu materialların qiymətləndirilməsi və şagird portfoliosunda saxlanması zəruridir. Bu, şagirdin il ərzindəki fəaliyyəti barədə geniş məlumat verməklə yanaşı, onun inkişaf dinamikasını izləməyə də imkan verir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 5-ci dərs Azərbaycan bayrağı

**Standartlar:** 3.1.1., 4.1.2., 4.1.3.

**Təlim nəticələri:**

İsimləri fərqləndirir.
Tərkib hissələri arasında əlaqələri müəyyən edir.
Sözlərin sonunda samitlərin yazılış qaydasına əməl edir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müəllimin mühazirəsi, müzakirə

1-ci addım. Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlayır, lazım gələrsə, hər hansı bir maraqlı, diqqətçəkən yazı və ya təqdimatla bağlı yığcam müzakirə təşkil edə bilər, fikirlərə münasibət bildirə bilər. Şagirdlərin mövzu ilə bağlı fikirləri ümumiləşdirilir və yekunlaşdırılır. Şagirdlərin yazıları qiymətləndirilir.

2-ci addım. Müəllim şagirdlərə bildirir ki, hər bir mətnin lüğət tərkibi, sözlərin leksik və qrammatik mənası üzərində iş aparmaq məzmunun daha dərindən qavranılmasına kömək etməklə yanaşı, nitqin lüğət tərkibini də zənginləşdirir, fikirlərin ifadə edilməsi üçün baza yaratmış olur. Şagirdlər 9–13-cü tapşırıqlar üzərində işə cəlb olunurlar.

9–11-ci tapşırıqların cütlər, 12-ci tapşırığın fərdi qaydada icrası məqsədəuyğundur.



LAYİHƏ

*9-cu tapşırıq:*

*Sən ey istiqlalımın (müstəqillik, azadlıq) əbədiyyət sancağı*
*Yağının (düşmənin) min hiyləsi küydən, kələkdən keçər.*

*10-cu tapşırıq:* hiylə-kələk

*11-ci tapşırıq:* "barış" sözü "sülh" sözünün yerində işlənmişdir.

*12-ci tapşırıq* kollektiv şəkildə icra edilə bilər.

*dövlətlə siyasi-hüquqi münasibətlə bağlı olan fərd – **vətəndaş***
*müqəddəs iş uğrunda yorulmadan çalışan – **mübariz***
*yüksək amal, məslək, əqidə, inanc uğrunda ölən, canını fəda edən adam – **şəhid***
*döyüşdə qoçaqlıq, cəsarət göstərən – **igid***
*Bir hadisəni, əhvalatı öz gözü ilə görmüş adam; özünə məlum iş haqqında ifadə vermək üçün məhkəməyə çağırılan şəxs – **şahid***

Bu sözlərdən hər biri yerinə, işlənmə məqamına görə böyük hərflə yazıla bilər.
Mübariz, Şəhid sözləri xüsusi isim kimi işləndikdə; digər sözlər şəxsləndirildikdə.

Mətndə isimlərin tapılması, tək, cəm, ümumi və xüsusi olmasının müəyyən edilərək fikrin əsaslandırılması məqsədəmüvafiqdir.

**3-cü addım.** Qrammatik tapşırıqlar üzərində iş aparılır. 13–16-cı tapşırıqlar kollektiv şəkildə şifahi şəkildə icra edilir. Müəllim tapşırıqları yazılı şəkildə də icra etdirə bilər.

16-cı tapşırıq ***q*** samiti ilə bitən çoxhecalı sözlərin saitlə başlayan şəkilçi qəbul etdikdə ***ğ*** samitinə keçməsi haqqında qayda üçün motivasiya xarakterli tapşırıqdır.

**4-cü addım.** Müəllim tərəfindən mühazirə üsulundan istifadə edilməklə qayda izah edilir.

*Mühazirə üsulu müəllimdən şagirdə məlumatın ötürülməsi üsuludur. Araşdırılacaq problemlə bağlı şagirdin təsəvvürünün formalaşdırılması üçün, problemin həllinin qısa yolla izahı və məlumatı çatdırmaq üçün istifadə edilir. Mühazirələr 10-15 dəqiqə ərzində aparılır.*

*Mühazirə deyərkən aşağıdakıları nəzərə almaq tövsiyə edilir:*

- *Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək,*
- *Plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq).*
    - ✓ *Dilimizdə sonu q ilə bitən sözlərin çox hecalı olması*
    - ✓ *Dilimizdə sonu q ilə bitən sözlərdə q-ğ əvəzlənməsinin baş verməsi*
    - ✓ *Sonu q ilə bitən sözlərin sait və samitlə başlanan şəkilçi qəbul edərkən dəyişib-dəyişməməsi*
    - ✓ *Q-ğ əvəzlənməsinin alınma sözlərdə, əsasən, baş verməməsi*
    - ✓ *Q-ğ əvəzlənməsinin orfoqrafik qayda olması*
    - ✓ *Sonu q ilə bitən sözlərin tələffüzü və yazılışı*
- *Əyani və texniki vasitələrdən istifadə etmək.*

*Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin üz ifadəsini və jestlərini müşahidə etmək) olaraq tənzimləməlidir.*

*Dilimizdə sonu **q** samiti ilə çoxhecalı sözlərə saitlə başlanan şəkilçi artırdıqda **q** samiti **ğ** samiti kimi yazılır. Məsələn:*

***uşaq+a=uşağa***

***qoruq+u=qoruğu; bulaq+a=bulağa, qulaq+ın=qulağın.***

*Belə sözlərə samitlə başlanan şəkilçi artırdıqda sözün sonunda q samiti olduğu kimi qalır. Məsələn: **qoruqçu, bulaqdan, qulaqcıq** və s.*

*Sonu **q** ilə bitən elə sözlər var ki, onlarda **q ğ** əvəzlənməsi baş vermir, yəni onlara saitlə və ya samitlə başlanan şəkilçi artırdıqda sözün sonunda **q** hərfi yazılır.*

*Məsələn: **şərq, üfüq, şəfəq, əxlaq, vərəq, ittifaq, xalq, irq** və s.*

*Şagirdlərə bu dəyişikliyin orfoepik deyil, orfoqrafik qayda olması izah edilməlidir.*



LAYİHƏ

**5-ci addım.** Hər qrup hazırladığı hissəni təqdim edir. Müəllim şagirdlərin yazdıqları kiçik hissəciklərə münasibət bildirir. Ehtiyac yaranarsa, düzəliş verir.

**6-cı addım.** Şagirdlərə hekayənin hissələrini əlaqələndirmək (əgər zərurət yaranarsa) üçün cümlələr düşünmək təklif olunur.

**7-ci addım.** Hekayə tam şəkildə oxunur. Şagirdlərə suallarla müraciət olunur: *"Hekayəni bəyəndinizmi?, Nəyi bəyəndiniz (bəyənmədiniz)?, Qarşınıza qoyduğunuz məqsədə nail oldunuzmu?, Əsas fikri çatdıra bildinizmi?, Hansı obraz daha maraqlı idi? Nə üçün?"* və s.

**8-ci addım.** Qiymətləndirilmə aparılır.

## 6-cı dərs İtirilmiş açar

**Standartlar:** 1.1.1., 2.1.4., 3.1.2., 3.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Fikirlərini dəqiqləşdirmək üçün suallar verir;
Mətnin hissələrinə uyğun fikirlər bildirir;
Oxu zamanı intonasiyanın tələblərinə əməl edir;
Mətndə giriş, əsas və nəticə hissələri müəyyənləşdirir.
Abzasları əlaqələndirmək üçün cümlələr yazır.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** müzakirə, auksion, idraki xəritə, sorğu-sual, cəld yazı

**1-ci addım.** Müəllim dərsə müxtəlif priyomlardan istifadə etməklə başlaya bilər.

1. Şagirdlərə açar göstərir, onun nə olduğunu, nə üçün lazım olduğunu soruşur. Bu məqsədlə auksion üsulundan (şagirdlər qalib şagird müəyyən edilənə qədər bir-birini təkrarlamamaq şərtilə mövzu ilə bağlı fikirlər söyləyirlər) istifadə edə bilər. Şagirdlərin fikirləri ümumiləşdirilir və mövzuya keçid edilir. Şəkil üzərində iş aparmaq üçün dərslikdəki suallardan istifadə edilir. Şəkildə bulağın yeri düzgün deyildir.

2. Mətnin adına münasibət bildirməklə dərsə başlaya bilər: *"Açar necə itə bilər?", "İtirilmiş açar dedikdə nə başa düşürsünüz?", Heç açar itirmisinizmi? Bu nə zaman və hansı halda olub?", "Nəticəsi nə olmuşdur?"* və s. uyğun bildiyiniz suallardan istifadə edə bilərsiniz?

3. "İdraki xəritə" (fərqli amillər arasında əlaqələri əyani şəkildə göstərən bir üsul) yaratmaqla dərsə keçid edə bilərsiniz. Şagirdlər səhifənin ortasında əsas sualı və ya konsepsiyanı yazmaqla başlayırlar. "İtirilmiş açar dedikdə nə başa düşürsünüz?", yaxud "Şəkildə nə təsvir olunmuşdur?", "Şəklin mətnin məzmunu ilə əlaqəsi haqqında ilkin təxminlərinizi yazın" suallarından birini istifadə etmək olar. Şagirdlər sualla bağlı fikirlərini (səbəbləri, arqumentləri və ya dəlilləri) qeyd edirlər.

4. Müəllim şagirdlərə 70 və 71-ci səhifələrdəki təsvirlərə diqqət yetirməyi, bu şəkillərdəki təsvirlərə: – rəngə, ziddiyyətə, insanların simasına, 1-ci şəkildə nə üçün açar təsvirinin olduğuna diqqət yetirməyi tövsiyə edir və yığcam müzakirə təşkil edir.

**2-ci addım.** Şagirdlərin fikirləri dinlənilir, lakin məqsədli şəkildə ümumiləşdirilmir. Məqsəd şagirdin fikirlərinin doğru olub-olmadığının özü tərəfindən yoxlanılması və öz fikirlərini dəyərləndirməsidir.



LAYİHƏ

Mətnin ifadəli və vurğu nəzərə alınmaqla düzgün oxusu təşkil edilir. Oxu zamanı mətn daxilində verilmiş sözlərdən ən uyğun olanını seçib cümləni tamamlamaq şagirdlərdə sözdən yerində və düzgün istifadə etmək bacarığı formalaşdırar.

Cümlələr:

*Özü də hıçqırtı ilə **ağlayırdı**.*

*Açarı bulaqdan su **gətirəndə** itirmişdi.*

*Həmin hadisədən sonra qızcığaz açarı özü ilə **aparmırdı**.*

*... Bir gün qızın da, kəndlərinin də bu sakit və xoşbəxt günləri **pozuldu**.*

***Elə həmin vaxtdan da qanlı-qadalı günləri başladı cümləsi daxil olmaqla oxu** davam etdirilir.*

Bu hissənin oxusu bitdikdən sonra müəllim uşaqlara suallar verir: *"Sizcə, nə baş verdi?", "Mətndə hansı hadisələrə işarə edilir?", "Həmin hadisələrin başlanma tarixi nə vaxta təsadüf edir?", "Siz həmin hadisələr haqqında müəllimlərinizdən, valideynlərinizdən nə eşitmisiniz?", "Onlar sizə bu barədə hansı məlumatları vermişlər?"* və s.

Ola bilər ki, şagirdlər bu barədə ibtidai məlumata malik olsunlar, yaxud heç nə bilməsinlər. Müəllim müxtəlif priyomlardan istifadə etməklə, şagirdlərin yaş səviyyələrini nəzərə almaqla 1988-ci ildən başlayaraq mənfur düşmənlər tərəfindən azərbaycanlıların öz doğma torpaqlarından qovulması, qaçqın və köçkün düşməsi, 1992-ci ildən başlayaraq torpaqlarımızın 20 %-nin: Xocalı, Cəbrayıl, Zəngilan, Laçın, Şuşa, Füzuli, Ağdamın işğal altına düşməsi, I Qarabağ müharibəsi haqqında yığcam məlumat verir. Lazım gələrsə, şagirdlərin suallarını cavablandırır. Yaxşı olar ki, müəllim şagirdləri sual verməyə sövq etsin. Düzgün verilmiş sual dərk edilməmiş məlumatın dəqiqləşdirilməsi, aydınlıq gətirilməsi üçün bir vasitədir.

Əgər texniki imkanlar varsa, https://www.youtube.com/watch?v=6LmWvHJSVko linkindən istifadə etməklə şagirdlərdə həmin hadisələr haqqında təsəvvür yarada bilər. Linkdə Azərinin ifasında "Bizi intiqama səsləyir cəngi!" mahnısının fonunda xalqın sakit və firavan həyatı, qəfildən bu rahatlığın düşmən tərəfindən pozulması nümayiş olunur. Şagirdlərə linkin əvvəldən **1.59** dəqiqəyə qədər olan hissəsini nümayiş etdirmək lazımdır. Axıra qədər dinləmə dərsin mahiyyətini poza bilər.

**3-cü addım.** Şagirdə sual verilir: *Gördüyünüz oxuduğunuzla necə əlaqələndi?*

Şagirdlərin fikirləri dinlənilir, lazım gələrsə, onlar sual verməyə sövq edilir. Müəllim ermənilərin vəhşi xislətini, soyğunçuluğunu şagirdlərə daha yaxşı anlatması üçün şagirdlərin bir-birinə sual verməsinə şərait yaratmalıdır. İlk sualı müəllim verir, şagirdlərə davam etdirməyi tövsiyə edir: *"Necə oldu ki, bu hadisələr başladı?", Niyə ermənilər bizim torpaqlara göz dikmişlər?",* Onlar insanları incitməkdən niyə zövq alırlar?" və s.

Bu sual-cavab zamanı müəllim şagirdlərin mövzudan kənara çıxmasına imkan verməməlidir, əks halda, növbəti dərslər onun üçün marağını itirmiş olacaqdır.

**4-cü addım.** Mətnin oxusu davam etdirilir. "Ata tələsik geyinib çıxdı" cümləsindən sonra 1-2 cümlə artırmaq üçün şagirdlərə tapşırıq verilir. Tapşırığın icrası cütlərlə 5 dəq. vaxt verilməklə icra edilir.

Cümlələr təxminən belə olmalıdır: (Burada cümlə sayı çoxdur. Müəllimlərə təqdim edilir ki, şagirdlər buna bənzər cümlələrdən istifadə edə bilərlər.)

> Ana tez yerindən qalxıb pəncərəyə yaxınlaşdı. Hər yer alov tutub-yanırdı. Aləm bir-birinə qarışmışdı. Küçədə o yan-bu yana qaçan adamları görən ana tez geyindi. Nə baş verdiyini az da olsa, başa düşmüşdü. Evdən nəsə götürməyə vaxt yox idi. Tez qızını yuxudan oyatdı. Heç nə başa düşməyib yuxulu gözlərini ovan qızcığaz dedi.

Yazılar seçmə yolla oxunur. Ən uyğun cümlələr seçilir. Mətnin oxusu davam edir.

Oxu bitdikdən sonra şagirdlərin mətnlə bağlı fikirləri soruşulur, əvvəlki təxminləri ilə müqayisə edilir. 71-ci səhifədəki şəklin məzmunla uyğunluğu ilə bağlı şagirdlərə suallar verilir.

Şagirdlərdə erməni vandalizminə nifrət oyatmaq və şagirdlərdə müəyyən təsəvvürün yaranması üçün "Fəryad" filminin uyğun hissələrindən istifadə etmək olar.



LAYİHƏ

**5-ci addım.** Müəllim şagirdlərə bildirir ki, onlar mətndə faktların müəyyən edilməsi, hadisə ilə faktın bir-birindən fərqləndirilməsi üçün araşdırma aparacaqlar.

72-ci səhifədə faktın tərifi verilmişdir. Şagirdlərə maraqlı olsun deyə müəllim bələdçi oğlan barədə danışır, "Görək o bizə hansı tapşırığı vermişdir?" kimi sualdan (suallardan) istifadə edir.

**Sual:** Fakt nə üçün lazımdır?

**Cavab:** Fakt reallıqda baş verənlər, hər hansı bir hadisə, əhvalat haqqında dəqiq məlumata malik olmaqdır.

Daha sonra "Faktı necə seçməli?" tapşırığı üzərində iş aparılır. Faktı seçmək üçün lazım olan tələblər şagirdin diqqətinə çatdırılır. 72-ci səhifədə bu tələblər verilmişdir. Mətndən götürülmüş nümunə üzərində faktı müəyyən etmək üçün istiqamət verilmişdir.

**Sual:** Mətndə daha hansı faktlar vardır?

**Cavab:** Ermənilərin gecə vaxtı kəndə hücumu;
Kişilərin kəndin müdafiəsinə qalxması;
Kənd camaatının evlərini tərk edib meşəyə qaçması;
İnsanların evsiz-eşiksiz qalması;
Dar vaxtda insanların bir-birinə qayğısı.

Faktın nə olduğunu bilməsi üçün müəllim suallar vasitəsilə şagirdlərə bir neçə fakt demələrini tapşırır. Yaxşı olar ki, şagirdlərin hərəsi bir fakt söyləsin. Tarix, coğrafiya, musiqi, təsviri incəsənət, ədəbiyyat fənlərini öyrənən şagirdlər müxtəlif faktlar söyləyə bilərlər.

**6-cı addım.** Şagirdlər hadisə və faktı fərqləndirmək üçün tədqiqata cəlb olunurlar. Şagirdlərə dərslikdə iki kiçik mətn təqdim olunmuşdur.

İbn Sina ilə bağlı mətndə həm fakt, həm hadisə vardır.
**Fakt:** İbn Sinanın məşhur alim olması
**Hadisə:** Digər təsvir edilənlər
**II mətndə isə faktlar çoxdur:**

Hun tayfalarının Çin ərazilərinə hücum etməsi;
Çin ordusunun güclü hunlar qarşısında acizliyi;
Hökmdar Sin Şi Xuandinin hakimiyyəti;
Hücumlardan qorunmaq üçün Sin Şi Xuandinin sədd tikdirmək qərarı;
E.ə. 214-cü ildə Çin səddinin tikintisi.

Qızın açarı itirməsi hadisədir. Çünki bu adi halda, adi vaxtda baş vermiş bir hadisədir. Açarın bulaqda unudulması heç bir hadisəyə başlanğıc vermir.

**7-ci addım.** Mətnin giriş, əsas və nəticə hissələrinin yığcam şəkildə təqdimi üçün şagirdlərə sual verilir.

**1.** Giriş hissədə nədən danışılır? *(Qızın açarı bulaq başında unutması, kəndin sakit həyatı)*

**2.** Əsas hissədə nədən danışılır? *(Qəflətən kəndin xoşbəxt həyatının pozulmasından, özünü dost kimi göstərən ermənilərin qəfil hücumundan, kənd camaatının evlərindən didərgin düşməsindən, meşəyə üz tutmasından)*

**3.** Nəticə hissədə nədən danışılır? *(Ananın evinə dönmək xəyalı, ağır düşüncələri, qızın evlərinin açarını əlində bərk-bərk tutması)*

Ev tapşırığı kimi şagirdə *"Əgər mətnin adını dəyişmək istəsə idiniz, hansı adı təklif edərdiniz?"* sualı ətrafında 10-15 cümlə ilə öz fikirlərini yazmaq tapşırılır.

Bunun üçün şagirdə **plan** təqdim edilə bilər:

1. Mətnin adı
2. Mətnin adına münasibətim
3. Mətnin adının məzmuna uyğun olub-olmaması
4. Mənim təklif etdiyim ad



LAYİHƏ

5. Təklifimin səbəbi
6. Təklifə münasibətim.

Ev tapşırıqları rəngarəng olsun deyə, mətn əsasında plastilin və fiqurlardan həmin hadisənin təsvirini (komiksini) yaratmaq, rəsm çəkmək, "Mətn əsasında düşüncələrim" adlı yazı tapşırmaq olar. Bu nümunələrdən növbəti dərsdə motivasiya kimi istifadə etmək olar. Həm də şagirdlərin nümunələri onların qiymətləndirilməsi üçün zəngin material vermiş olur.

8-ci addım. Təlim nəticələrinə uyğun olaraq qiymətləndirmə aparılır.

## 7-ci dərs İtirilmiş açar

**Standartlar:** 2.1.3., 2.1.4., 3.1.1., 4.1.3.

**Təlim nəticələri:**

Fikirlərini əsaslandırmaq üçün faktlardan istifadə edir;
Hadisə və faktları mətnin hissələrinə uyğun qruplaşdırır;
Mətndə işlənən isimlərin xüsusiyyətlərini izah edir;
İsimlərin yazılış qaydalarına əməl edir.

**İş forması:** kollektiv, böyük qruplar, cütlər, fərdi

**İş üsulu:** müzakirə, yazı

1-ci addım. Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlayır. Şagirdlərin işləri həm müəllim, həm də yoldaşları tərəfindən qiymətləndirilir. Müəllim şagirdlərə özlərini qiymətləndirmək üçün özünü qiymətləndirmə vərəqi də təqdim edə bilər.

| Bacarıqlar | Qeydlər | |
|---|---|---|
| | Etdim | Etmədim |
| 1. Tapşırığı icra edərkən mövzunu ətraflı öyrəndim. | | |
| 2. Əlavə məlumatlar öyrəndim. | | |
| 3. Plan tərtib etdim. | | |
| 4.Tapşırığımı plan əsasında hazırladım. | | |
| 5. Valideynlərimin məsləhətlərini dinlədim. | | |
| 6. Dostlarımla mövzunu müzakirə etdim. | | |

Bunlar təxmini meyarlardır. Müəllim dəyişdirə bilər.

2-ci addım. Mətnin məzmunu bir daha yada salınır. Müəllim bu məqsədlə suallardan istifadə edir: *"Mətn nə üçün "İtirilmiş açar" adlanır?", "Qız nə üçün ağlayırdı?", "O, açarı harada itirmişdi?", "Kənddə həyat necə idi?", "Sonra nə baş verdi?", "İnsanlar öz yuvalarından niyə didərgin düşdülər?"* və s.

Mətn üzərində iş aparmaq üçün dərslikdəki tapşırıqlar üzərində iş aparılır. Müəllimə tövsiyə edərdik ki, tapşırıqların icrası üçün vaxtı 3-5 dəq. müəyyənləşdirsin. Bu, şagirdlərdə çevikliyi formalaşdırmış olar.



LAYİHƏ

2-4, 6, 8-ci tapşırıqlar kollektiv şəkildə icra edilir. Müəllim şagirdlərin cümlələri düzgün qurmasına, fikirlərini ətraflı, məzmunca dolğun təqdim etməsinə, sözləri düzgün vurğu ilə tələffüz etməsinə diqqət yetirir.

**Tapşırıqların cavabları:** 4-cü tapşırıq *(hadisələr qış fəslində baş vermişdi, ananın qızı şalla bürüməsi bunu təsdiq edir)*, 8-ci tapşırıq (Mətndə təsvir edilənlər Xocalı faciəsini xatırladır), 6-cı tapşırıq (1-ci cümlə azərbaycanlıların dinc yanaşı yaşamasını, gözütoxluğunu təsdiq edir).

5-ci tapşırığın böyük qruplar vasitəsilə icrası məqsədəmüvafiqdir. Sinif iki qrupa bölünür. I qrup **Təbliğ olunan fikirləri** *(həmrəylik, birlik, dar ayaqda bir-birinə kömək, çətin anda mübarizə aparmaq, mehribanlıq, səmimiyyət, gözütoxluq və s.)*; II qrupa **Tənqid olunan fikirləri** *(xəyanət, vəhşilik, qəddarlıq, acgözlük, namərdlik və s.)* seçib qruplaşdırmaq təklif olunur.

*Səbəb insanda yaxşı keyfiyyətlərin təbliği, mənfi xüsusiyyətlərin islah olunmasıdır.*

7-ci tapşırıq cütlərlə icra edilir. Müəllim qurduğu dərsə uyğun olaraq tapşırığı şifahi şəkildə də icra etdirə bilər. Tapşırıq icra olunarkən səbəb və nəticə əlaqələrini, fakt və hadisələri əsərin tərkib hissələrinə uyğun müəyyənləşdirməyi tövsiyə edir.

| Səbəb | Nəticə |
|---|---|
| Qızın açarı unutması | Hıçqırtı ilə ağlaması |
| Su gətirmək üçün bulağa yollanması | Açarı unutması |
| Ananın təsəllisi, mehriban münasibəti | Qızın sakitləşməsi |
| Kəndin sakit həyatının pozulması | Ermənilərin kəndə hücumu |

10-cu tapşırıq şifahi şəkildə icra edilir.

**3-cü addım.** Mövzuya yekun vurulur, bir daha ermənilərin işğalçılıq siyasəti pislənilir, özgə torpağına göz dikənin əvvəl-axır sonunun gələcəyi vurğulanır. Şagirdlərin diqqətinə çatdırılır ki, növbəti mətnlər vasitəsilə biz hadisələrin necə davam edəcəyini və nəticəsini müəyyən edə biləcəyik.

**4-cü addım.** Mətnin lüğət tərkibi üzərində iş aparılır.

11–15-ci tapşırıqlar kollektiv şəkildə, 13-cü tapşırıq fərdi qaydada ( 3 dəqiqə vaxt verilməklə) icra edilir.

11-ci tapşırığın cavabı: **d**

**12-ci tapşırıq məcazi mənalı sözlərin izah edilməsi üçündür. Bunu qayda şəklinə salmaq lazım deyil. Sadəcə, şagirdlərə izah etmək lazımdır ki, dilimiz də elə sözlər var ki, onlar həqiqi məna ilə yanaşı, məcazi məna da ifadə edir.**

Mətndə **baş** sözü *üstündəki* mənasını ifadə edir. Müəllim nümunə üçün baş sözünün həqiqi mənada işləndiyi cümlə yazmaqla fərqi nümayiş etdirə bilər.

13-cü tapşırıq: *Bir gecə hər şey bir-birinə qarışdı. O dəhşətli gecə hamını yuxudan oyatdı. (təxmini – Şagirdlərin fərqli yanaşmaları ola bilər.)*

14-cü tapşırıq: *bərk* sözü *möhkəm* sözü ilə əvəz edilir.

15-ci tapşırıq: Sözlərin əvvəl sinonimi, sonra antonimi tapılır.

**5-ci addım.** 116–20-ci tapşırıqlar icra edilir. Tapşırıqların hansı formada icrası müəllimin seçimindən asılıdır.

16-cı tapşırıq: Xüsusi və mürəkkəb isimdir.

17-ci tapşırıq: ad bildirənlər: Soyuqbulaq, yer-göy;

əlamət bildirənlər: bərk-bərk, qanlı-qadalı, tez-tez;

bölgüdən kənar qalan – bir-birini (nə əlamət, nə ad bildirir)

19-cu tapşırıq:

1988–1989-cu illərdə ermənilər azərbaycanlıların evlərinə basqın edir, onların çıxıb getməsini tələb edirdi. Uşaqlar məktəbə buraxılmır, mağazalarda azərbaycanlılara ərzaq malları satılmırdı.



LAYİHƏ

Noyabrın sonlarında ermənilər Azərbaycan kəndlərinin üzərinə hücuma keçdilər. Əhali qışın şaxtasında dağlara, meşələrə üz tutdu.

**6-cı addım.** 21-ci tapşırıq evə verilir. Tapşırığın icrası üçün dərslikdə istiqamət verilmişdir.

Eyni zamanda, növbəti dərs üçün torpaqla bağlı məlumatlar (torpaq nədir, torpağın faydaları, torpağın mühafizəsi və s.) toplamağı, dərsə topladığı materiallarla yanaşı, plastilin, qayçı, rəngli kağızlar, uyğun fiqurlar, şəkillər və s. gətirməyi tapşırır.

Növbəti dərsə təsviri incəsənət və texnologiya müəllimlərini də dəvət etmək olar.

**7-ci addım.** Təlim nəticələrinə uyğun olaraq qiymətləndirmə aparılır.

## 8-ci dərs İtirilmiş açar

**Standartlar:** 1.1.2., 4.1.1., 4.1.2., 4.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi mətndə hadisələri yazacağı mətnlə əlaqələndirir;
Hazırlayacağı mətn üçün yazı forması seçir;
Mətnin tərkib hissələrini əlaqələndirir;
Yazısında öyrəndiyi qaydaları tətbiq edir.

**İş forması:** böyük qruplar, cütlər, fərdi

**İş üsulu:** müzakirə, yazı

**Dərsin gedişi**

Yaxşı olar ki, müəllim bu dərsə müxtəlif torpaq növləri (münbit, qeyri-münbit, qara torpaq, sarı torpaq, cadar və s.), şagirdlərə kömək üçün müvafiq şəkillər gətirsin.

Aşağıdakı linklərdən istifadə etmək olar:

https://www.youtube.com/watch?v=NVFFxrV9-R0 (Torpaq nədir?)

https://www.youtube.com/watch?v=HG5IHW_-jU4 (Torpaq haqqında atalar sözləri və aforizmlər)

https://www.youtube.com/watch?v=3k95BmyZXjM (Torpaq) (Bu link vasitəsilə şagirdlər maraqlı məlumatlar əldə edə bilərlər)

https://www.youtube.com/watch?v=-AsuAv6TrF8 (Torpaq)

**1-ci addım.** Dərs ev tapşırığının seçmə yolla yoxlanması ilə başlayır. Şagirdlərin fikirlərinə münasibət bildirilir və növbəti addıma keçid etmək üçün müvafiq suallar verilir: *“İnsanlar nə üçün yurd-yuvalarını tərk etmək istəmirdilər?”, “Nə üçün onlar doğma torpağa qayıtmağı üstün tuturdular?”*

Şagirdlərin cavabları ümumiləşdirilir, tapşırıqları və fikirləri dəyərləndirilir.

**2-ci addım.** Müəllim uşaqlara “Torpaq nədir?” adlı araşdırma aparacaqları haqqında məlumat verir. Həm də şagirdlərin dərsə gətirdikləri resurslarla tanış olur.

**3-cü addım.** Müəllim şagirdləri qruplara bölür və onlara suallarla müraciət edir: “Torpaq dedikdə nə başa düşürsünüz?”, “Torpaq nə üçün sərvət hesab edilir?”, “Torpaq nə zaman bərəkətli olur?”



LAYİHƏ

Şagirdlərin cavabları səhv və ya düzgün fikir olmasından asılı olmayaraq, müzakirə edilmir, cavabların düzgünlüyünün tədqiqat əsasında müəyyənləşəcəyi onlara bildirilir.

Qruplara tapşırıq müxtəlif priyomlarla təqdim oluna bilər.

1. Planın hər bəndi bir qrupa tapşırılmaqla tədqiqata başlamaq olar.
2. Püşk atma yolu ilə şagirdlərə suallar yazılmış vərəqlər verilə bilər.

Müəllim şagirdləri təlimatlandırır:

- Təqdim olunan materiallar içərisindən başlığa uyğun lazımi informasiyalar seçilməli;
- Həmin informasiyalar qruplaşdırılıb, sistemləşdirilib mətn halına salınmalı;
- Mətn hazırlanarkən tərkib hissələrə verilən tələblər nəzərə alınmalı;
- Mövzuya şagirdin (qrupun) münasibəti bildirilməli;
- Lazım gələrsə, fotoşəkillər əlavə edilməli;
- Şagirdlərin əl işləri də ola bilər.

Qeyd. Sinifdə texniki imkanlar yoxdursa, şagirdlər vatman kağızında, A3, A4, yaxud qoşa dəftər vərəqində tapşırığı icra edə bilərlər.

**4-cü addım.** Müəllim torpaq növlərini şagirdlərə təqdim edir. Onların bir-birindən fərqini soruşur. Şagirdləri tədqiqata cəlb edir. Qruplar təqdim edilmiş mövzular üzrə lazımi məlumatı seçirlər, təlimata uyğun olaraq təqdimat hazırlayırlar. Bu tapşırıq üçün 15 dəq. vaxt müəyyən edilir. Təqdimatın yığcam olması şagirdlərin diqqətinə çatdırılır.

**5-ci addım.** Şagirdlərin təqdimatları ardıcıl olaraq dinlənilir:

Torpaq nədir?

Torpağın funksiyaları nədir?

Torpağı nə üçün mühafizə etmək lazımdır?

Torpağı necə mühafizə etmək olar?

Şagirdlərin təqdimatı dinləndikcə müvafiq suallar verilir. Lazım gələrsə, https://www.youtube.com/watch?v=IFW_RRVj7Lo linkindən istifadə etməklə Dədə Qorqudun yetişən nəslə verdiyi tövsiyəni nümayiş etdirən hissə təqdim edilir. Texniki imkanlar olmazsa, dərslikdə həmin nəsihət verilmişdir.

**6-cı addım.** Müzakirələr zamanı müəllimin torpağın təkcə əkilib-becərilmə obyekti kimi deyil, həm də yaşamaq üçün məkanımız, Vətənimiz olması fikrini təbliğ etməli, şagirdlərə aşılamalıdır. Bu məqsədlə B.Vahabzadənin **“Qaraca torpağı vətən görmüşəm”** misralarını misal çəkib şagirdlərə sual verə bilər: “Nə üçün B.Vahabzadə torpağı Vətən hesab edir?”, “Siz necə düşünürsünüz?”.

Müəllim hətta çərşənbələrdən birinin də Torpaq çərşənbəsi adlanması, bunun hələ qədimdən torpağı müqəddəs hesab etmələri ilə əlaqədar olduğunu vurğulayır.

Dərsə gətirdiyi cadar torpağı bir daha nümayiş etdirməklə “Bu torpağı canlandırmaq, yararlı hala salmaq üçün nə etmək lazımdır?” (suvarma, minerallarla zənginləşdirmə, qayğısına qalma) sualı ilə şagirdlərə müraciət edə bilər.

**7-ci addım.** Şagirdlərin fikri ümumiləşdirilir və bu nəticə əldə edilir ki, torpaq bizim yaşamağımız üçün əvəzsiz sərvətdir. Qida üçün lazım olan ərzaqların əksəriyyəti məhz torpaq vasitəsilə əldə edilir. Torpağın bərəkətli olması üçün onun daim qorunması, minerallarla zənginləşdirilməsi, suvarılması lazımdır. Torpaq həm də bizim yaşadığımız yerdir. Bizim Vətənimizdir. Onu qorumasaq, biz müstəqil ola bilmərik. Torpağı qorumaq üçün yaxşı biliklər əldə etməli, ona xidmət etməliyik. Torpağı sevməliyik, çünki o bizə ulularımızın əmanətidir və s.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

9-cu dərs

# Kiçik Summativ Qiymətləndirmə

**Milli qəhrəman**

**Səngərə** çathaçatda **düşmənlər** güclü atəşə tuş olub bir anlığa çaşbaş düşdülər. Elə bu anda cəsur döyüşçülərimiz irəli atılıb əks-hücuma keçdilər. Qələbə çalındı. Lakin dəstəyə a(ğ,q)ır itki üz verdi: i(g,q)id və qorxmaz döyüşçü Vüqar Hüseynov bu döyüşdə qəhrəmanlıqla həlak oldu.

1991-ci ilin 20 iyulu... Ermənilərin növbəti hücumu səhər alatoranında güclü top atəşləri ilə başlandı. Sonra tanklardan, zirehli maşınlardan, iriçaplı pulemyotlardan atəş açılmağa başladı. Bu, hücumqaba(ğ,q)ı hazırlıq üçün bir işarə idi.

**Artilleriya** hazırlığından sonra erməni yaraqlıları hücuma keçdi. Vüqar yoldaşları ilə ön postlardan birində mövqe tutmuşdu. Onlar hər dəfə erməniləri yaxına buraxıb sonra sərrast atəşlə tələfata uğradılar. Gün ərzində Vüqarın postu erməni hücumlarını beş dəfə dəf etdi. Lakin ermənilər nəyin bahasına olursa-olsun, mövqe qazanmaq, Vüqargilin postunu ələ keçirmək istəyirdilər. Səngərdən atəşin zəiflədiyini görən ermənilər yenidən irəli soxuldular.

1. Mətnin hissələrinin ardıcıllığını bərpa edin. 2,3,1

2. Mətnin ideyası hansı bənddədir?
   A) Torpaqdan pay olmaz.
   B) Qürbətdə xan olunca
   Vətənində dilən gəz.
   C) Azərbaycan əsgəri məhv olar, torpağından bir qarış da verməz.
   D) Döyüşdə çeviklik vacib keyfiyyətdir.

3. Atalar sözlərindən biri mətnin ideyasına uyğundur:
   A) Torpaq uğrunda ölən varsa, Vətəndir.
   B) İgid sınar, əyilməz.
   C) İgid ölər, adı qalar.
   D) Dost min isə – azdır, düşmən bir isə – çoxdur.

4. Fikirlərdən biri mətndə yoxdur:
   A) Hadisələr yay fəslində baş verir.
   B) Vüqar canını fəda etsə də, postu düşmənə vermir.
   C) Döyüşdən qabaq ağır yaralanan Vüqar həlak oldu.
   D) Hadisələr 90-cı illərdə baş verir.

5. Mətndə təsvir edilənləri tərkib hissələrinə görə qruplaşdırın.

| | |
|---|---|
| Giriş hissə → | 1991-ci ilin yayında ermənilərin növbəti hücuma hazırlıq görməsi |
| Əsas hissə → | Ermənilərin hücuma keçməsi, azərbaycanlı əsgərlər tərəfindən hücumların qarısının alınması, postun qorunması |
| Nəticə hissə → | Azərbaycanlıların döyüş taktikasının erməniləri ağır məğlubiyyətə uğratması, postun qorunub saxlanması, Vüqarın həlak olması |



LAYİHƏ

6. Mətndəki hadisələrin ardıcıllığı harada pozulmuşdur?

1. Hadisələrin 91-ci ilin yayında baş verməsi
2. Ermənilərin hücuma keçməsi
3. Ermənilərin güclü artilleriya hazırlığı
4. Düşmənin hücumunun 5 dəfə dəf edilməsi
5. Dəstəyə ağır itki üz verməsi

1

7. Mətnə əsasən səbəb-nəticə əlaqələrini tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |

2

3

8. Vüqar Hüseynov haqqında hekayə yazsa idiniz, sonluğu necə tamamlayardınız?

______________________________________________

______________________________________________

______________________________________________

9. Mətndəki ***top*** sözünü fərqli mənada cümlədə işlədin.

______________________________________________

10. Məntiqi ardıcıllığı tamamlayın.

güclü → zəif          qabaq → əvvəl

Cəsur → ______          Sərrast → ______

11. Mətndə tünd şriftlə verilmiş sözlərdə vurğunun neçənci hecaya düşdüyünü  göstərin.

Səngərə ____3_____     artilleriya____3______     düşmənlər_____3_________

12. Hansı sözdə **k → y** əvəzlənməsi baş verəcəkdir?

tank ☐

keçirmək ☐

13. Cümlələri tamamlayın.

Vüqar ______________ isimdir, çünki ____________________________

Əsgərlər _______________ isimdir, çünki _________________________

14.  Mətndən cəm isimləri seçib onları təkdə yazın.

düşmənlər

15. Qələbə münasibətilə dostunuza teleqram vurmaq istəyirsiniz. Həmin teleqramı necə tərtib edərdiniz?

______________________________________________

______________________________________________

______________________________________________



LAYİHƏ

## 10-cu dərs **Ataya məktub**

**Standartlar:** 2.1.3., 3.1.2., 3.1.3.
**Təlim nəticələri:**
Mövzu ilə bağlı fikirlərini faktlara əsasən təsdiq edir;
Mətni məzmuna uyğun oxuyur;
Tərkib hissələri fikirlərini əsaslandırmaqla müəyyən edir.
**İş forması:** kollektiv, fərdi
**İş üsulu:** proqnozlaşdırılmış və ya fasiləli oxu, müzakirə, müəllimin mühazirəsi

1-ci addım. Müəllim şagirdlərə sualla müraciət edir: *"Ataya məktub ünvanlanarkən, sizcə, ona nə yazılar?", "Məktubda atadan nə istənilər?"* sualları ilə şagirdlərə müraciət edilir.

Daha sonra diqqət şəkillərə cəlb edilir. Şəkildəki təsvirlərlə bağlı şagirdlərin fikirləri öyrənilir. 1-ci tapşırıq icra edilir.

2-ci addım. Mətnin məzmuna uyğun oxusu təşkil edilir.

https://www.youtube.com/watch?v=MEUfHKYNK9w linkindəki "Fəryad" filminin fon musiqisindən istifadə etmək olar. Yəni mətnin oxusu musiqinin müşayiəti ilə həyata keçirilə bilər. Texniki imkanlar yoxdursa, müəllim və ya şagird tərəfindən mətnin ifadəli oxusu həyata keçirilə bilər. Oxu zamanı 3-cü tapşırığın şərti *(mötərizədəki sözlərdən dərd, hal, xəyal, iz sözləri seçilməlidir)* diqqətdə saxlanılır. Oxunun sonunda "Sizcə, məktub kimdəndir?", "Məktubu Azərbaycana kim yaza bilərdi?" sualları ilə şagirdlərə müraciət edilir. Cavab Qarabağdır.

https://www.youtube.com/watch?v=6LmWvHJSVko linkindən istifadə edilməklə Azərinin ifasında "Bizi intiqama səsləyir cəngi" mahnısı səsləndirilir. Sinifdə texniki imkanlar yoxdursa, bu tapşırıq evə verilir və sualları cavablandırmaq tapşırılır. Video-süjet əsasında şagirdlərə mətn hazırlamağı da tapşırmaq olar.

3-cü addım. Mətnin oxusu bitdikdən sonra 2-ci tapşırıq üzərində iş aparılır. "Şəkillər bizə nədən xəbər verir?", "Abidələrin məhv edilməsi nəyin göstəricisidir?", "Bu abidələri, yaşayış yerlərini məhv edənlər insanların hansı hüquqlarını pozmuşlar?" və s. bu kimi suallarla şagirdlərə müraciət edilir.

4-cü addım. 4–7-ci suallar üzərində iş aparılır. Müəllim 1994-cü ildə baş verən hadisələr, Azərbaycan ordusunun bir sıra yaşayış yerlərini azad etməsi, ulu öndər Heydər Əliyevin apardığı gərgin müzakirələrin nəticəsində atəşkəsə nail olması, Aprel döyüşləri və s. haqqında şagirdlərə yığcam məlumat verir, lazım gəldikdə suallarla onlara müraciət edir.

5-ci addım. 7-ci sual üzərində ayrıca iş aparılır, 2020-ci ilin 27 sentyabrında Vətən müharibəsinin başlanması haqqında şagirdlərə danışır. Bildirir ki, Qarabağ ümidini itirməməkdə haqlı idi. O bilirdi ki, Ana Vətən onu darda qoymayacaq. Bu illər ərzində dövlət başçımız qan tökməmək üçün humanistlik etmiş, erməniləri torpaqların sülh yolu ilə qaytarılmasına çağırmışdır. Lakin azğın düşmən işğal etdiyi torpaqları qaytarmamış, işğalla aldığı torpqları abadlaşdırmamış, əksinə, şəhərlərimizi, kəndlərimizi, abidələrimizi, muzeylərimizi məhv etmişlər. Bu isə onu göstərir ki, erməni özü də bilirdi ki, bu torpaqlar onun yox, azərbaycanlılarındır, Azərbaycanındır. Ona görə də onlar quruculuqla yox, məhz dağıtmaqla məşğul olmuşlar. Düşmənin azğınlığına son qoymaq üçün Prezident ordunu səfərbər etmiş, düşmənə layiqli cavab vermişdir. "Dəmir yumruq" adla-



LAYİHƏ

nan 44 günlük müharibə bizə Qələbə sevinci yaşatmışdır. Azərbaycan Respublikasının Prezidentinin informasiya müharibəsində uğurla apardığı siyasət də öz nəticəsini vermişdir.

**6-cı addım.** Müəllim "İtirilmiş açar" mətninə qayıdır, həyəcanla evini tərk edən və geriyə dönmək ümidi ilə çırpınan Ana obrazı ilə bağlı şagirdlərə suallar verir.

Mövzu ilə bağlı aşağıdakı linklərdən istifadə etmək olar:

https://www.youtube.com/watch?v=_tbM9kWQPtg (GÜNBƏGÜN VƏTƏN MÜHARİBƏSİ (27 SENTYABR–10 NOYABR 2020)

https://www.youtube.com/watch?v=cd-iLY4vkwg **(Qarabağ marşı)**

**7-ci addım.** Müəllim qeyd edir ki, lakin qələbəyə gedən yol heç də asan olmamışdır. Növbəti dərslərimizdə bu barədə danışacağıq.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 11-ci dərs Nişan üzüyü

**Standartlar:** 2.1.1., 2.1.3., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Fikir söyləyərkən sözləri düzgün tələffüz edir;
Mövzu ilə bağlı fikirlərini faktlara əsasən təsdiq edir;
Mətni məzmuna uyğun oxuyur;
Fikirlərini əsaslandırmaqla tərkib hissələri müəyyən edir.

**İş forması:** kollektiv, fərdi, cütlərlə

**İş üsulu:** proqnozlaşdırılmış oxu, ikihissəli gündəlik, diskussiya

**1-ci addım.** Müəllim şagirdlərə yeni bir mətn Azərbaycan yazıçısı Mehdi Hüseynin "Nişan üzüyü" hekayəsini keçəcəkləri barədə məlumat verir və şagirdlərə suallar ünvanlayır: *"Nişan üzüyü nədir?", "Sizcə, onun bizim mövzumuzla necə əlaqəsi ola bilər?", "Necə bilirsiniz, mətndə nədən danışılacaq?"*

Sonuncu sual lövhədə yazılmaqla şagirdlərə ünvanlana və onların cavabları qeyd oluna bilər. Ola bilər ki, müharibə haqqında danışmaq şagirdlərin ağlına gəlməsin. O halda müəllim "Nişan üzüyü və müharibə" anlayışlarını necə əlaqələndirə bilərsiniz?" sualı ilə şagirdlərə müraciət edir. Əgər şagirdlər mövzunun müharibə ilə əlaqəsini bildirərlərsə, müəllim dərslikdə bələdçi obrazın təqdim etdiyi suallar ətrafında yığcam müzakirə təşkil edir.

**2-ci addım.** Mətnin ifadəli və düzgün oxusu təşkil edilir. Müəllim sinfinin səviyyəsini nəzərə almaqla oxu növünü seçməkdə sərbəstdir.

İlk növbədə, əsgərin anaya yazdığı məktub diqqətlə oxunur. Müəllim bu hissədə faktların, yoxsa hadisənin olduğunu şagirdlərdən soruşur. Oğulun məktubuda müharibə dövründə baş vermiş hadisə haqqında məlumat verilir. Müəllim ikinci sualı: "Məktuba əsasən əsgərin xüsusiyyətlərini sadalayın" – şagirdlərə ünvanlayır.



LAYİHƏ

**3-cü addım.** Mətnin oxusu davam etdirilir. Bu dəfə diqqət arxa cəbhədə olan, övladı üçün nigaran qalan ananın üzərinə yönəlir. Bu hissədə təsvir edilənlərin hadisə, yoxsa fakt olduğu barədə fikirlər soruşulur. Müharibədə müxtəlif hadisələr baş verə bilər. Lakin müharibə zamanı arxa cəbhənin ön cəbhəyə yardımı fakt hesab edilir. Müəllim məqsədəmüvafiq hesab edərsə, şagirdlərə yardımçı suallar da verə bilər.

**İkihissəli gündəlik** üsulundan istifadə etməklə mətn üzərində iş təşkil edir. Mətnin cütlər və ya fərdi qaydada aparılması mümkündür.

| Hekayədə diqqətimi çəkən (bəyəndiyim) hadisə | Bəyənməyimin səbəbi |
|---|---|
| | |
| | |

**4-cü addım.** Dərslikdə 82-ci səhifədəki B.Vahabzadənin "Vətəndaş" şeiri oxunur. Şeirin səs yazısından da https://www.youtube.com/watch?v=wYCOGWB5i20
(B.Vahabzadənin öz ifasında) istifadə etmək mümkündür.

Şeirlə bağlı şagirdlərin fikirləri soruşulur. 2–4-cü tapşırıqlar üzərində iş aparılır.

**5-ci addım.** 6–12-ci tapşırıqlar üzərində iş aparılır.

9-cu tapşırığı icra edərkən aşağıdakı sxemdən istifadə etmək olar:




11-ci tapşırığın icrası üçün Venn diaqramından istifadə edə bilərsiniz.

**6-cı addım.** 5-ci tapşırıq icra edilir. Tapşırığın fərdi qaydada icrası tövsiyə edilir. Şagirdlərə tapşırığın icrası üçün 5 dəq. vaxt verilir. Əgər mətnlər üzərində iş düzgün təşkil edilərsə, şagirdlər bu tapşırığı daha tez icra edə bilərlər.

Şagirdlərin yazısı oxutdurulur, mövzu ilə bağlı fikirlər ümumiləşdirilir. Şagirdlərin yazıları qiymətləndirilir.

**7-ci addım.** 13, 30-cu tapşırıqlar evə verilir. 30-cu tapşırığı hər bir şagird fərdi qaydada icra edə bilər. Şagirdlər məktub yazmaq qaydası ilə 5-ci sinifdən tanışdırlar. Bu dərslikdə də bir neçə yerdə məktub verilmişdir. Ona görə də bu tapşırığı icra etməkdə şagirdlər çətinlik çəkməyəcəklər.



LAYİHƏ

13-cü tapşırığın icrasını müəllim sinifdən bacarıq və imkanları nəzərə alınmaqla 4 şagirddən ibarət qrupa tapşıra bilər. Hazırlanmış dialoq növbəti dərsdə təqdim edilərkən müzakirəyə bütün sinif cəlb olunur və mövzu ilə hamı tanış olur. Dialoqun yığcam və maraqlı olması üçün şagirdlərə istiqamət verilir.

Müəllim sinifdən daha 4-5 şagird seçir və onlara sorğu keçirməyi tapşırır. Sorğu üçün suallar dərsliyin 87-ci səhifəsində verilmişdir. Müəllim özünün rəhbərliyi altında bu sorğunu məktəbdə 5-6-cı siniflər arasında təşkil edə bilər. Suallar fərqli şəkildə də qoyula bilər. Sualların cavablarının ümumiləşdirilməsi üçün şagirdə istiqamət verilir, yardım edilir. Bu tapşırıqlar şagirdlərdə qarşılıqlı əməkdaşlıq, müəllim-şagird əməkdaşlığı, komandada işləmək bacarığı, toplamaq, ümumiləşdirmək və təqdim etmək bacarığı formalaşdırmış olur.

Qrupa növbəti dərsdə sorğunun nəticələri barədə hesabat vermək tapşırılır. Nəhayət, eyni mövzu ətrafında qruplar fərqli tapşırıq modelləri ilə işləyirlər.

Bu tipli tapşırıqlar sinifdən kənarda fəal şəkildə şagirdlərin öyrənməsi üçün maraqlı üsullardan biridir. Bu zaman şagirddə daha çox məsuliyyət hissi formalaşır.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 12-ci dərs Nişan üzüyü

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.1., 4.1.3.

**Təlim nəticələri:**

Mətndə təqdim olunanlarla bağlı sual verir;
Mövzu ilə bağlı fikirlərini faktlara əsasən təsdiq edir;
Sözlərin qrammatik mənasını izah edir;
Sonu ***k*** ilə bitən çoxhecalı sözlərin yazılış qaydasını bilir.

**İş forması:** kollektiv, qruplar

**İş üsulu:** diskussiya

1-ci addım. Müəllim dərsə müxtəlif priyomlardan istifadə etməklə başlaya bilər.

1. Ev tapşırıqlarını (12 və 23-cü tapşırıqlar) yoxlayıb yeni mövzuya keçid edir.
2. Əlamətdar günlər, təqvimə düşən günlər haqqında yığcam 3-4 cümləlik məlumat və ya sual verib yeni mövzuya (araşdırma mövzusu) keçid edə bilər.
3. “Sentyabrda hansı əlamətdar günlər var?” sualı ilə şagirdə müraciət edib cavab aldıqdan sonra yeni mövzuya keçid edir.
4. Müəllim lövhəyə müxtəlif tarixlər yazır: 15 sentyabr, 18 sentyabr, 21 sentyabr

Və şagirdlərə suallarla müraciət edir: *“Bu tarixlərdə nə baş vermişdir?”, “Bu tarixlər hansı əlamətdar hadisələrlə yadda qalır?”, “Bu tarixlərin sırasına daha hansı tarixi əlavə edərdiniz?”*

5. Şagirdlərə araşdırma aparacaqları və araşdırma mövzusu barədə məlumat verib şagirdləri tədqiqata cəlb edir.

Araşdırma üçün 82–83-cü səhifələrdə suallar verilmişdir. İlk növbədə 83-cü səhifədə verilən suallarla: “27 sentyabrda nə baş verdi?”, “Hadisələrə kim rəhbərlik edirdi?” və s. müraciət edir.



LAYİHƏ

**2-ci addım.** Şəkillərin altında verilən tarixlərdə hansı hadisələrin baş verdiyi cütlər vasitəsilə icra edilir. Tapşırığın icrası üçün 5 dəq. kifayətdir.

27 sentyabrda Vətən müharibəsi başlamışdır.

3 oktyabr 2020 Suqovuşan
4 oktyabr 2020 Cəbrayıl
9 oktyabr 2020 Hadrut
17 oktyabr 2020 Füzuli
20-22 oktyabr Zəngilan
25 oktyabr Qubadlı
20 noyabr Ağdam
25 noyabr Kəlbəcər
1 dekabr Laçın
8 noyabr Şuşa azad edilmişdir.

Ola bilər ki, şagirdlər 27.09–01.12.2020-ci il tarixlərində hansı ərazinin azad edilməsinin müəyyənləşdirilməsində çətinlik çəksinlər. Digər tarixləri müəyyən etmək üçün cütlərə tapşırıqları aşağıdakı şəkildə təqdim etmək olar:

I cüt: 3 oktyabr  + qovuşmaq = ?

II cüt: 4 oktyabr **C** hərfi ilə başlayan və 8 hərfdən ibarət olan bu rayonun adı həm də oğlan adıdır.

III cüt: 9 oktyabr Azərbaycan əlifbasındakı hərfləri rəqəmlərə uyğun düzməklə ərazinin adını yazın.

11 1 5 24 28 2 7

IV cüt: 17 oktyabr Bu şəhər XVI əsrin dahi Azərbaycan şairinin şərəfinə belə adlandırılmışdır.

V cüt: 20-22 oktyabr  +  = ? Burada hansı söz yazılmışdır?

VI cüt: 25 oktyabr Sözü oxuyun:

*Almanın vətəni + Azərbaycan əlifbasında 5-ci hərf + lı*

VII cüt: 20 noyabr Burada hansı söz yazılmışdır?

*Bulud rəngi* + 

VIII cüt: 25 noyabr Azərbaycanın bu ərazisi qızıl yataqları ilə zəngindir. 8 hərfdən ibarət bu söz əlifbamızın 16-cı hərfi ilə başlayır.

IX cüt: 8 noyabr Bura Üzeyir Hacıbəylinin vətənidir.

X cüt: 1 dekabr Həm rayon, həm qız adı, həm də yırtıcı quş

Şagirdlərin cavabları ümumiləşdirilir, növbəti mərhələyə keçid edilir.

**3-cü addım.** 14–16-cı tapşırıqlar kollektiv şəkildə icra edilir. Daha sonra ötən dərs şagirdlərə tapşırılmış sorğunun nəticələri haqqında onu hazırlayan qrupun təqdimatı dinlənilir.

**4-cü addım.** Tapşırıqların icrası üçün cütlər müəyyənləşdirilir. 17–22-ci tapşırıqlar icra edilir. 21-ci tapşırığın cavabı müharibədir.

**5-ci addım.** 23–24-cü tapşırıqlar sözlərin sonunda ***k – y*** əvəzlənməsi qaydasının öyrədilməsi üçün motivasiya xarakterlidir. Müəllim tərəfindən qayda izah edilir. 26, 27-ci tapşırıqlar icra edilir.

**6-cı addım.** 28, 29-cu tapşırıqlar evə verilir.

31-ci tapşırıq dərsdənkənar vaxtda hazırlanır.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

## 13-cü dərs Mən nə etdimsə, Vətən üçün etdim

**Standartlar:** 2.1.1., 2.1.3., 3.1.2.

**Təlim nəticələri:**

Fikirlərini əsaslandırır;
Danışan zaman sözləri düzgün vurğu ilə tələffüz edir;
Mətni intonasyanın tələblərinə uyğun oxuyur.

**İş forması:** kollektiv, qruplar, cütlər

**İş üsulu:** diskussiya, ziqzaq, səssiz oxu

1-ci addım. Müəllim şagirdlərin diqqətini bələdçi obrazların təqdim etdiyi natamam cümlələrə yönəldir. Şagirdlərə suallarla müraciət edir: "Sizcə, bu natamam cümlələr hansı hadisələr haqqında məlumat verir?", "Niyə belə hesab edirsiniz?", "Cümlələri tamamlamaq üçün biz hansı məlumata malik olmalıyıq?" və s.

Şagirdlərin cavabları ümumiləşdirilir və dialoq tamamlanır.

> Vətən müharibəsində qələbə qazandıq.
> Torpaqlarımız işğaldan azad edildi.
> Bu qələbəmizi Azərbaycan əsgərləri təmin etdi.
> Bir çox əsgərlərimiz şəhid oldu.
> İşğaldan azad edilmiş torpaqlarda üçrəngli bayrağımız dalğalanmağa başladı.
> İgid döyüşçülərimiz şəhidlərimizin düşmən əlinə keçməsinə imkan vermədi.

Müəllim bu tapşırığı cütlər və ya qruplar vasitəsilə icra edə bilər. Tapşırığın icrası üçün 5-7 dəqiqə kifayətdir. Şagirdlərin cavabları oxutdurulur. Hər cütə bir tamamlanmış cümləni oxutmaq, digərlərinin yazıya münasibətini soruşmaq olar.

2-ci addım. Nizaminin aforizmi müəllimin özü, yaxud hər hansı bir şagird tərəfindən oxunur. Misrada ifadə edilən fikirlə bağlı şagirdlərə müraciət edilir. Daha sonra "Sizcə, bu misranın oxunacaq mətnlə nə kimi əlaqəsi ola bilər?" sualı ilə sinfə müraciət edilir. Diqqətçəkən cavab olarsa, lövhədə qeyd oluna bilər.

3-cü addım. Mətnin I hissəsinin oxusu təşkil edilir. Oxu zamanı orfoqrafiya və orfoepiya tapşırıqları diqqətdə saxlanılır. Oxudan sonra suallarla şagirdlərə müraciət etmək olar. Mətnin 3-4 cümlə ilə qısa şəkildə məzmununun danışılması da məqsədəuyğundur.

Qeyd. Müəllim mətnin oxusunda ziqzaq üsulundan da istifadə edə bilər. Sinfi 2 qrupa bölməklə mətnin I hissəsini bir qrupa, II hissəsini isə digər qrupa səssiz oxudan istifadə etməklə oxutdura bilər. Hər qrupdan digərinə ekspert göndərilir. Hər bir qrup ona tapşırılmış hissəni oxuyur, sonra ekspertlər geriyə öz qruplarına qayıdır, mətnin məzmununu ətraflı şəkildə öz qruplarına danışırlar.

**Müəllimin nəzərinə:**

Mətn real həyat hadisəsi əsasında, demək olar ki, olduğu kimi qələmə alınmışdır. Hekayənin müəllifi dərslik müəllifi S.Bəktaşidir. Dərslikdə verilmiş məlum hadisələr belə davam edir. *... Huşu özünə qayıdanda başının üstündə əsgərlər görür. Onların erməni əsgəri olduğunu düşünür, çətinliklə də olsa, əlini silaha atır. "Qorxma, biz Azərbaycan əsgərləriyik" cümləsini eşidəndə huşunu itirir. 36 saat komada qalır. Uzun müddət müalicə alır. Hazırda sağdır. "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.*



LAYİHƏ

Dərslikdə QR-da Xanoğlanın öz danışığı ilə bu əhvalat təqdim olunur. Şagirdlərə evdə telefondan istifadə etməklə həmin məlumatı dinləmək və öz təəssüratlarını yazmaq tapşırıla bilər.

https://www.youtube.com/watch?v=ad2qG3fQA3c linkindən istifadə etməklə sözügedən materialın sinifdə də baxışının keçirilməsi məqsədəmüvafiqdir.

**4-cü addım.** Şagirdlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Xanoğlan Mikayılovun "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi, eyniadlı medalın təsis edilməsi haqqında Qanunla, medalın təsviri ilə tanış olurlar.

"Vətən müharibəsində iştirak edən və qəhrəmanlıq göstərən döyüşçülərimizi təltif etmək üçün daha hansı medallar təsis edilmişdir?" sualı ilə şagridlərə müraciət etmək məqsədəuyğundur.

**5-ci addım.** https://www.muallim.edu.az/news.php?id=13605#prettyPhoto linkindən istifadə etməklə "Azərbaycan müəllimi" qəzetinin 25 may 2021-ci il tarixli nömrəsində X.Mikayılovun müəllimi Kətanə Alıyevanın "Qələbəyə aparan yol" məqaləsi haqqında məlumat verilir və şagirdlər məqalənin müvafiq hissələri ilə tanış edilir. Əvvəlki bölmələrlə əlaqə yaradılır, bir daha insanın vətənpərvər ruhda böyüməsində ailə və məktəbin rolu vurğulanır.

Müəllim məqaləni tapa bilməzsə, həmin məqalədən olan mətndən istifadə edə bilər:

> 2005-ci ildə ilk dəfə birinci sinif şagirdlərini qəbul etdim. Sinifdə mənim diqqətimi çəkən, müsbət keyfiyyətləri ilə özünü sevdirməyi bacaran Xanoğlan adlı sarışın, göygöz oğlan oldu. İstər sinif, istərsə də sinifdənxaric məşğələlər zamanı Xanoğlan çox aktiv idi. Sakit duruşu, ağıllı gözləri, güclü yaddaşı, aydın nitqi ilə adamı heyran edirdi.
>
> 4-cü sinifdə oxuyarkən Xocalı faciəsini əks etdirən bir səhnəcik hazırladım. Səhnəcikdə düşmən əsgərinin rolu da var idi. Bu rolu Xanoğlana tapşırdım.
>
> Bu sözü eşidən kimi onun üzündə nifrət, qəzəb qarışıq sərt görkəm yarandı və dedi:
>
> – Müəllim, mən erməni əsgəri olmaq istəmirəm. Mən Azərbaycan əsgəri olmaq istəyirəm. Çünki Azərbaycan əsgəri düşmən uşağını heç zaman öldürmür.
>
> ... Fəxarətdən, qürurdan gözlərimdən sevinc yaşları axdı.

**6-cı addım.** Şagirdlərə Vətən müharibəsində canını fəda etmiş şəhidlər, əsgər və zabitlər, qazilər, onların vətənpərvər ruhu haqqında ümumi məlumat vermək, yaxud şagirdlərdən bu mövzu ilə bağlı hansı bilgilərə malik olduqları soruşula bilər. Müəllim mövzunu yekunlaşdırır, şagirdləri Vətəni sevməyə, onu qorumağa çağırır,şagirdlərin vəzifəsini onlara xatırladır. 1-ci tapşırıq (səh. 91) icra edilir.

**7-ci addım.** Evə 12-ci tapşırıq verilir. Mövzu və mövzunun təqdimi üçün formanın seçilməsi şagirdlərin ixtiyarına buraxılır.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

## 14-cü dərs Mən nə etdimsə, Vətən üçün etdim

**Standartlar:** 2.1.3., 2.1.4., 3.1.3.

**Təlim nəticələri:**

Fakt və hadisələrdən istifadə etməklə fikirlərini əsaslandırır;
Fikirlərini mətnin tərkib hissələrinə uyğun qruplaşdırır;
Mətnin tərkib hissələrini müəyyən edir.

**İş forması:** kollektiv, böyük qruplar

**İş üsulu:** müzakirə

1-ci addım. Müəllim dərsə əvvəlki mövzu ilə bağlı sual-cavabla, yaxud ev tapşırığının yoxlanması ilə başlaya bilər. Ev tapşırıqları yoxlanılır, şagirdlərin yazıları qiymətləndirilir.

2-ci addım. Müəllim şagirdlərə "Mən nə etdimsə, Vətən üçün etdim" mətninin üzərində iş aparacaqları barədə məlumat verir. Daha sonra mətnin məzmunu yada salınır. Bunu müəllim müxtəlif priyomlardan istifadə etməklə həyata keçirə bilər:

1. Mətnin məzmununu yığcam şəkildə bir neçə şagird danışa bilər.
2. Müəllim suallar verməklə mətnin məzmununu yada sala bilər.
3. Müəllim sinfi 2 böyük qrupa bölür. Hər qrupa mətnin bir hissəsinin yığcam məzmununu yazmağı tapşırır. Yazı üçün qruplara 5-6 dəq. vaxt verilir. Hər hissə üçün 6-7 cümlə kifayətdir.

Mətnin məzmununu yazmaq üçün şagirdə plan təqdim edə bilər.

**Plan (nümunə)**

**I hissə**

1. Qarabağda gedən döyüşlər
2. Azərbaycan ordusunun igid əsgərləri
3. Xanoğlan cəsur Azərbaycan əsgəri kimi
4. Xanoğlana verilən tapşırıq

**II hissə**

1. Xanoğlanın yaralanması
2. Xanoğlanın yaralı əsgərə köməyi
3. Xanoğlanın xilası

3-cü addım. Qrupların yazıları təqdim edilir. Məzmun şagirdlərin yadına salınır. Əlavə suallara ehtiyac yaranarsa, müəllim sual verə bilər. Qrupların mövzu ilə bağlı bir-birinə sual verməsi və verilən cavablara münasibət bildirməsi daha məqsədəuyğundur.

4-cü addım. Məzmunla bağlı tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar müəllimin seçimi əsasında qruplar və ya cütlər vasitəsilə aparıla bilər.

2-ci tapşırıq böyük qrupların hər birinə verilə bilər. Belə olan halda müəllim hər iki qrupun Azərbaycan ordusu və Azərbaycan əsgəri haqqında fikirlərini müşahidə edə bilər.

Cədvəl belə olmalıdır.

| Azərbaycan əsgərinin xüsusiyyətləri | Təsdiqləyici cümlə |
|---|---|
| Əsgərlər cəsarətlidir. | Azərbaycan əsgəri cəsarətlə döyüşür, ölüm belə əsgərlərimizi qorxutmurdu. |



LAYİHƏ

| | |
|---|---|
| Əsgərlərimiz vətənsevər və vətənpərvərdir. | Azərbaycan əsgəri mənfur düşməni torpaqlarımızdan qovurdu. Yeni-yeni əraziləri azad etmək üçün fədakarlıq göstərir, az qala, hər təpəyə, hər zirvəyə üçrəngli müqəddəs bayrağı sancmaq arzusu ilə alışıb yanırdılar; doğma insanlarının yolunu gözləyən torpaqlarını azad etmək üçün vuruşur. |
| Əsgərlərimiz mərddir. | Xanoğlan ermənilərdən fərqli olaraq torpaqlarını işğaldan azad etmək üçün həyatını qurban vermiş şəhidini mənfur düşmənə təslim etməyi ağlına belə gətirmədi. Çətinliklə olsa da, onu çiyninə qaldırdı. |
| Əsgərlərimiz dözümlüdür. | Xanoğlan ağır yaralansa da, bu onu qorxutmur. Ağrı get-gedə güclənsə də, dayanmaq bilmir, daha çox düşmən məhv etmək istəyirdi. Sanki güllələrə meydan oxuyurdu. |
| Əsgərlərimiz ən çətin vəziyyətdən belə çıxış yolu tapır. | ...dostunun botinkasının ipini öz ayağına bağladı, sürünməyə başladı. |
| Əsgərlərimizdə inam hissi güclüdür. | Arada bir neçə dəfə yıxılsa da, daxilindəki inam və əyilməz iradə onu ayağa qaldırır, addım atmağa məcbur edirdi. |

Müəllim bu cədvəlin işlənməsi zamanı şagirdlərə istiqamət verməlidir. Xüsusiyyətlər müəllim tərəfindən də verilə bilər. Şagirdlər cədvəlin 2-ci hissəsini tamamlaya bilərlər.

*3-cü tapşırıq* da mətnə əsasən icra edilir. Əgər sinifdə üstün səviyyəyə malik şagird varsa, bu tapşırıq fərdi qayda da verilə bilər.

*4-cü tapşırıq* kollektiv şəkildə icra edilə bilər. Xanoğlan kimi Azərbaycan əsgərlərini yenilməz edən onların torpağa, yurda bağlılığı, Vətənə olan sonsuz sevgisidir.

*5-ci tapşırıq* kollektiv şəkildə icra edilə bilər. Cavab: A

*6-cı tapşırıq* böyük qruplar vasitəsilə icra edilə bilər.

I hissənin tərkib hissələri:

| Giriş hissə | Əsas hissə | Nəticə |
|---|---|---|
| Qarabağda bir çox ərazilərin işğaldan azad edilməsi, müharibənin dəhşəti | Azərbaycan əsgərinin cəsarəti və fədakarlığı, Xanoğlanın kimliyi haqqında məlumat | Tapşırığı yerinə yetirmək üçün dəstənin yola düşməsi |

II hissənin tərkib hissələri:

| Giriş hissə | Əsas hissə | Nəticə |
|---|---|---|
| Xanoğlanın yaralanması, döyüşçü dostunun həlak olması | Xanoğlanın çətin vəziyyətdən çıxış yolu tapması (şəhidi döyüş meydanında qoymaması, botinkanın ipi vasitəsilə onu ardınca çəkməsi) | Xanoğlanın huşunu itirməsi |

7–10-cu tapşırıqlar kollektiv şəkildə icra edilir.

Mürəkkəb sözləri yada salmaq məqsədilə mətndə qırmızı rəngdə verilmiş sözlər üzərində iş aparılır. Aşağıdakı tapşırıq formasından istifadə etmək olar.



LAYİHƏ

Mətndə qırmızı rəngdə verilmiş sözləri seçib cədvələ əsasən qruplaşdırın.

| Ad bildirən mürəkkəb sözlər | Əlamət bildirən mürəkkəb sözlər |
|---|---|
| | |

Mətndə işlənmiş *koma* sözündə vurğusunun 1-ci hecaya düşməsi haqqında şagirdlərə məlumat verilir. Tapşırıq da verilə bilər: *(**Koma** sözündə vurğunun hansı hecada olduğunu müəyyən edin. Vurğunun yeri dəyişməklə sözün mənası dəyişəcəkmi? Fikrinizi nümunələrlə əsaslandırın.)*

5-ci addım. Tapşırıqlar üzərində iş bitdikdən sonra şagirdlər 92-ci səhifədə bələdçi obrazın təqdim etdiyi müzakirəyə dəvət olunurlar. Müzakirə zamanı ehtiyac yaranarsa, əlavə suallar verə bilər. Fikirlər ümumiləşdirilir.

6-cı addım. Mövzuya yekun vurmaq üçün 11-ci tapşırıq icra edilir. Müəllim qurduğu dərsdən asılı olaraq tapşırığı evə də verə bilər.

Qeyd. Növbəti dərsdə dərslikdə verilən tapşırıq üzərində işləmək üçün şagirdlərə 20 Yanvar hadisələri ilə bağlı məlumat toplamaq tapşırılır.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

15-ci dərs

# İyirmi yanvar gecəsi

**Standartlar:**

**Təlim nəticələri:**

F

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, yazı

**Dərsin gedişi**

Müəllim dərsi sinfinin səviyyəsini nəzərə almaqla müxtəlif formalarda təşkil edə bilər.

1. Dinləmə mətnlərindən və dərslikdəki “20 Yanvar gecəsi” şeirindən istifadə etməklə, dərsin sonunda hadisələr haqqında 10-12 cümlədən ibarət yığcam mətn hazırlamaqla;

2. Dərslikdəki “20 Yanvar gecəsi” şeirini oxutdurub onun əsasında təqdimat hazırlamaq və ya inşa yazdırmaqla;

3. 20 Yanvar hadisələri ilə bağlı hekayə yazdırmaqla. Bunun üçün dərslikdəki plan və istiqamətdən istifadə etmək olar.

1-ci addım. Bəxtiyar Vahabzadənin “ŞƏHİDLƏR” şeirindən dinləmə mətni kimi istifadə etmək olar. https://www.youtube.com/watch?v=ekz_4DphmLo linkindən istifadə etməklə səsli dinləmək mümkündür.



LAYİHƏ

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər...

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi Şəhidlər...

O şənbə gecəsi, o qətl günü, –
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü Şəhidlər...

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi Şəhidlər...

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi Şəhidlər...

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu Ana yurdun.
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz cildini çəkdi Şəhidlər...

Dözdü hər zillətə, dözdü hər şeyə,
“Dünyada mənim də haqqım var”, – deyə
Kütləni xalq edən müqaviləyə,
Qanıyla qolunu çəkdi Şəhidlər...

İnsan insan olur öz hünəriylə.
Millət, millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi Şəhidlər.

Müəllim öz seçimi əsasında başqa şeirlərdən də istifadə edə bilər.

**2-ci addım.** Dinləmə mətninə əsasən şagirdlərə suallarla müraciət edilir: “Şeirdə nədən danışılır?”, “Şeirdə hansı tarixi faciədən danışılır?”, “Şəhid dedikdə nə başa düşürsünüz?”, “Şeirdə şəhidlər necə təqdim olunur?” və s. Dinləmə mətninin məzmunu müzakirə edilir.

Şagirdlərin cavabları ümumiləşdirilir: Vətən sevgisi bizi birləşdirən ən müqəddəs hissdir. Vətən təkcə üzərində gəzdiyimiz torpaq deyil, bizləri bir məqsəd və amal uğrunda birləşdirən dəyərli bir yerdir. Hər bir insan üçün Vətəni qorumaq dövlət və milləti qorumaq, Vətəni sevmək də dövlət və milləti sevməkdir.

**3-cü addım.** Dərslikdəki “İyirmi yanvar gecəsi” şeiri oxunur. Şeir əsasında müzakirə təşkil edilir. Şeirin məzmunu mənimsədilir.



LAYİHƏ

**4-cü addım.** Dinləmə mətni ilə oxu mətninin məzmun baxımından müqayisəsi aparılır. Şagirdlərə Qarabağ müharibəsində, Aprel döyüşlərində, Vətən müharibəsində şəhid olan əsgər və zabitlərimiz barədə yığcam məlumat verilir.

**5-ci addım.** Şagirdlərə mövzu ilə bağlı dərsdə gedən müzakirələr əsasında yığcam inşa yazmaq tapşırılır. İnşanın adlandırılması şagirdlərin ixtiyarına buraxılır. İnşa fərdi qaydada və icrası üçün 15 dəq. nəzərdə tutulmaqla icra edilir.

**6-cı addım.** Şagirdlərin yazıları dinlənilir. Yazılar dinlənən zaman şagirdlərin intonasiyası, düzgün tələffüz, hadisələrin təqdiminə uyğun olaraq jest və mimikası, hazırladıqları mətnin tərkib hissələri arasındakı əlaqə, abzasların bitkinliyi diqqətdə saxlanılır və yeri gəldikcə şagirdlərə bildirilir.

**7-ci addım.** Mövzu ilə bağlı ümumiləşmə aparılır: Hər bir insanın qəlbində müqəddəs bir hiss – Vətənə olan dərin sevgi, məhəbbət hissi yaşayır. Hər bir kəs ilk qədəmlərini Vətən torpağında atır və torpaq sevgisinin hərarətini də bu zaman duyur. Bu hərarət zaman keçdikcə o qədər artır. İnsan özünü Vətənsiz təsəvvür etmir.

Vətəni üçün vuruşan, çarpışan, ölümün gözünə dik baxan oğul və qızlarımızı yad etmək, xatirəsini əziz tutmaq isə hər birimizin ən müqəddəs borcudur. Bu gün şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürur yerimiz, fəxrimizdir. Gənc nəslə qürurumuz olan şəhidlərimizi tanıtmaq, onları vətənpərvər ruhda böyütmək, torpağına bağlı, millətinə hörmət hissi ilə tərbiyə etmək isə hər bir vətəndaşın ən ümdə vəzifəsidir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 16-cı dərs “Gözün aydın Azərbaycan!”

**Standartlar:** 2.1.2., 3.1.2., 4.1.1., 4.1.2.

**Təlim nəticələri:**

Şeiri oxuyarkən ritm və tempdən istifadə edir;
Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur;
Məktub yazır;
Yazısında tərkib hissələr arasındakı əlaqəni gözləyir.

**İş forması:** kollektiv, kiçik qruplar, böyük qruplar

**İş üsulu:** müzakirə, yazı, səsli oxu, əqli hücum

**1-ci addım.** Müəllim diqqəti, ilk növbədə, şeirin adına yönəldir və şagirdlərə suallarla müraciət edir: “Sizcə, nə üçün şeir belə adlandırılmışdır?”. “Nə üçün Azərbaycana gözaydınlığı verilir?”

Şagirdlərin cavablarına münasibət bildirilmədən şeirin oxusu təşkil edilir.

**2-ci addım.** Şeir müəllimin seçimi əsasında oxu üsullarından birinin seçilməsi ilə təşkil edilir. Müəllim yeri gəldikcə şagirdlərə suallarla müraciət edir. Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsi barədə şagirdlərlə yığcam müzakirə və ya sorğu-sual təşkil edilir. Şagirdlərin mövzu ilə bağlı fikirləri öyrənilir.



LAYİHƏ

**3-cü addım.** Dərslikdəki 1 və 2-ci tapşırıq icra edilir. “Əgər oğula məktub yazsa idiniz, ona cavabınız nə olardı?” tapşırığı üzərində iş aparır. Tapşırıq müəllimin seçimi əsasında şifahi və yazılı şəkildə aparıla bilər.

Müəllim sinfi 2 qrupa bölməklə də tapşırığı icra etdirə bilər. 1-ci qrupa 3-cü tapşırıq, 2-ci qrupa oğula məktub yazmaq tapşırılır. Hər bir mətn üçün 8-9 cümlə yetərlidir.

**4-cü addım.** Daha sonra müəllim şagirdlərə II bölməni yekunlaşdırdıqları, bu bölmədə maraqlı bir səyahət etdiklərini şagirdin diqqətinə çatdırır. Eyni zamanda, şagirdlərin də bölmə ilə bağlı fikirlərini, bu “səyahətin” onlara nə qazandırdığını suallar vasitəsilə soruşur. Müəllim “Bölmədə maraqlı nə oldu?”, “Hansı mətni bəyəndiniz (bəyənmədiniz?)?”, “Nə üçün?” suallarından istifadə edə bilər.

Bölmənin yekunu üzərində iş aparır, 96-cı səhifədəki suallar üzərində iş aparır, mövzu ilə əlaqələndirir.

**5-ci addım.** Qruplara tapşırıqlar paylanılır. Tapşırıqlar qrupların səviyyələri nəzərə alınmaqla paylanılır.

**I qrup**

1. “Daş adamlar” mətnində daşa dönən obyektlərdən biri *(insan)*
2. “İtirilmiş açar” mətnində çərçivəyə alınmış söz, *bədbəxtlik* sözünün əksi *(xoşbəxtlik)*
3. Azərbaycan əlifbasının 30-cu və 7-ci hərfləri *(və)*
4. Nöqtələrin yerində yazılmalıdır:
   a. Sənsən ........... eşqim, sənsən hür deyəcəyəm ... (R.Qusarçaylı) *(azadlıq)*
5. “Vətəndaş” şeirində insanın güc, qüvvə aldığı məkan kimi təqdim edilir: ______ (Vətən)
6. Cümləni tamamlayın:
   Qız açarı bulaq başında ___________ (tapır)

**Alınan cümlə:** İnsan azadlıq və xoşbəxtliyi Vətənində tapır.

**II qrup**

1. “Vətəndaş” şeirində insana vəzifələrini xatırladan obyekt kimi təqdim olunur. *(Vətən)*
2. Nöqtələrin yerinə sözlərdən uyğun gələnini yazın.
   *Doğmalarımızın, əcdadımızın, babalarımızın, atalarımızın*
   Vətən – əcdadımızın mədfənidir ,
   Vətən – övladımızın məskənidir. (Abbas Səhhət)
3. “Ataya məktub” mətnində çərçivəyə alınmış söz *(yaşamaq)*
4. Azərbaycan əlifbasının 30-cu və 7-ci hərfləri *(və)*
5. “İtirilmiş açar” mətnində yaşıl rəngdə verilmiş söz *(qorumaq)*
6. İzahı verilmiş sözü lüğətin köməyi ilə müəyyən edin. *(məkan)*
   *Bir adamın sakin olduğu, oturduğu yer*

**Alınan cümlə:** Vətən əcdadlarımızın yaşadığı və qoruduğu yerdir.

**III qrup**

1. Azərbaycan əlifbasının 2-ci və 28-ci hərfləri *(bu)*
2. Nöqtələrin yerinə uyğun ifadəni yazın.
   Azərbaycan əsgərləri ........... bayrağı zirvəyə sancmaq arzusu ilə alışıb yanırdılar. *(üçrəngli)*
3. “Mən nə etdimsə, Vətən üçün etdim” mətnində Xanoğlan Mikayılova mənəvi güc verən obyekt. *(bayraq)*
4. Mən, sən, o birlikdə __________ adlanır. *(biz)*
5. “Gözün aydın” şeirində qırmızı rəngdə verilmiş söz *(babalar)*
6. İzahı verilmiş sözü lüğətin köməyi ilə müəyyən edin.
   Nəyi isə saxlamaq üçün birinə inanıb tapşırma ______ (əmanət) ___________

**Alınan cümlə:** Bu üçrəngli bayraq bizə babalardan əmanətdir.



LAYİHƏ

**IV qrup**

1. “Mən nə etdimsə, Vətənim üçün etdim” mətnində çərçivəyə alınmış söz *(Vətən)*
2. Azərbaycan əlifbasının 30-cu və 7-ci hərfləri *(və)*
3. “Daş adamlar” mətnində bənövşəyi rəngdə verilmiş söz *(torpaq)*
4. Nöqtələrin yerinə hansı söz yazılmalıdır?

   Ən əziz duyğudur Vətən ................ (sevgisi)
5. ........... birlikdə valideyn adlanır. *(ata-ana)*
6. *Nifrət* sözünün əksi *(sevgi)*
7. Rəqəmləri əlifbadakı hərflərin ardıcıllığına uyğun müəyyən edin.

   17  7  5  7  22 (qədər)
8. “Ataya məktub” mətnindən götürülmüş “..... doğma ana dilimizdə danışırıq” cümləsindəki doğma sözünü hansı sözlə əvəz etsəniz, məna dəyişməz? *(əziz)*

**Alınan cümlə:** Vətən sevgisi ata-ana sevgisi qədər əzizdir.

6-cı addım. Qruplar tapşırıqları təqdim edirlər. Müəllim gəminin yelkənlərini açmaq üçün bu cümlələrdən vahid cümlə yaratmağı tapşırır.

Gəminin yelkənində “Vətən müqəddəs və doğma məkandır!” cümləsi yazılır.

7-ci addım. Müəllim şagirdlərə 1-ci bölmənin sonunda verilmiş piramida əsasında 2-ci bölmənin piramidasını yaratmağı tapşırır. Şagirdlərə mərtəbələrdə hansı məsələlərə diqqət yetirilməsi ilə bağlı istiqamət verilir:

Ailədə Vətən tərbiyəsi
Sinifdə Vətən tərbiyəsi
Məktəbdə Vətən tərbiyəsi
Cəmiyyətdə Vətən tərbiyəsi

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

17-ci dərs

# Kiçik Summativ Qiymətləndirmə

**Dostluq**

Üç dost meşə ilə gedirdi[1]. Dünəndən əsən güclü külək bir neçə iri ağacı qırıb yerə salmışdı[2]. Ondan bir qədər aralıda yan-yana iki *(cavan, gənc)* ağac dayanmışdı[3]. Bu, dostları çox təəccübləndirdi. Güclü külək *(iri, zorba)* palıd ağacını yerə yıxmış, iki cavan, balaca ağaca isə toxunmamışdı. Onlara heç bir ziyan dəymədi.

Dostlardan biri dedi:

– Uşaqlar, gəlin irəli gedək, görək bunun sirri nədədir?

Hər üçü ağacların lap yanına gəldi və diqqətlə onların kökünə baxdı. Dostlar ağacın yanına gəldikdə gördülər ki, ... Dostlardan biri ağacların kökünü göstərib dedi:

– **Görürsünüz, dostluğun, mehribanlığın, yoldaşlığın nə böyük mənası var!** İnsan da belədir. O, nə qədər qüvvətli olsa da, tək qalanda tez məhv ola bilir, məğlub olur. Lakin etibarlı yoldaşı, dostu olan insan həmişə düşməninə qalib gəlir.

1. *Yolun üstünə iri bir palıd ağacı düşmüşdü* cümləsi mətndə nömrələnmiş cümlələrin hansından sonra olmalıdır?

A) 1 B) 3 C) 2 D) heç birindən sonra

1. Mətndəki əsas fikri tapın.
   A) Güc fiziki hərəkətdir.
   B) Güc insanın fiziki qüvvəsidir.
   C) Birlik həmişə qalib gəlir.
   D) Güclü külək böyük dağıntılar yaradır.

3. Atalar sözlərindən biri mətndəki əsas fikrə uyğundur:
   A) Yaxşı dost dar gündə tanınar.
   B) Ağac dibindən su içər.
   C) Dost dostun eybini üzə söylər.
   D) Güc birlikdədir.

4. Sizcə, dostlar ağacın yanına gəldikdə nə görəcəklər? Cavabı mətnə əsasən seçin.
   A) Dostlar kiçik ağacların da sındığını gördülər.
   B) Dostlar bu iki ağacın kökünün bir-biri ilə möhkəm bağlandığını gördülər.
   C) Dostlar palıd ağacının kiçik ağaclara dayaq olduğunu gördülər.
   D) Dostlar kiçik ağaclardan birinin sındığını gördülər.

5. Mətnlə bağlı fikirlərdən biri səhvdir:
   A) Mətndə küləyin fəsadlarından danışılır.
   B) Mətndə əsas diqqət küləyin sındırdığı ağaclara yönəldilir.
   C) Mətndə əsas diqqət dostluğun gücünə yönəldilir.
   D) Kiçik palıd ağaclarının bir-birinə köməyi mətnin ideyasının açılmasına yardım edir.

6. Mətndə hansı suala cavab vardır?
   A) Palıd ağacı cavan ağacları necə qoruyur?
   B) Dostlar palıd ağacına necə kömək edirlər?
   C) Ağacları nə üçün qorumaq lazımdır?
   D) İnsan nə zaman tez məhv ola bilər?

LAYİHƏ

7. Mətni necə adlandırardınız?

______________________________________________

8. Mətnin I abzasında mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar? Həmin sözlərin altından xətt çəkin.

9. I abzasın son cümləsindəki *ziyan* sözünü hansı sözlə əvəz etsəniz, məzmun dəyişməz?

A) budaq B) zərər C) fayda D) külək

10. Uyğunluğu müəyyənləşdirin:

| | | |
|---|---|---|
| etibar | → | Sıx əlaqə, ünsiyyət, bir olma |
| birlik | → | İnsanlar arasındakı yaxınlıq, dostluq |
| yoldaşlıq | → | Bir şəxsin doğruluğuna, düzgünlüyünə inam |

11. Cümlələrdən hansında *kök* sözünün ifadə etdiyi məna mətndəkinə uyğundur?

A) Kökləri kəsilmiş ağaclar gurultu ilə yıxılırdı.
B) Sözün kökünə bir neçə şəkilçi artırıla bilər.
C) Alaq otlarının kökünü kəsmək lazımdır.
D) O qədər kök idi ki, yerindən tərpənə bilmirdi.

12. Altından xətt çəkilmiş cümlədə *uşaqlar* sözündən sonra niyə vergül işarəsi işlənmişdir?

______________________________________________

13. Tünd şriftlə verilmiş cümlədə hansı söz xüsusi isim kimi işlənə bilər?

______________________________________________

14. Dostluğ**un**, mehribanlığ**ın**, yoldaşlığ**ın** sözlərində tünd şriftlə verilmiş şəkilçilər atılsa, **ğ** samitinin əvəzində hansı samit yazılacaq?

A) x B) h C) q D) g

15. Cümləni tamamlayın.

*Mətni oxuyub bu nəticəyə gəldim ki,* ______________________

______________________________________________

https://www.youtube.com/watch?v=CmoTASRN1J4 Şəhid qızı

https://www.youtube.com/watch?v=cDhMBgMbeZk bayrağımız Şuşada dalğalanacaqdır.



LAYİHƏ

# 3

# Mənəvi dünyam


Baxmaq, görmək və tətbiq etmək...
Nizami Gəncəvi
Qızıma məktub!
Mavi don – Xocalı
Tək hərəkət
KSQ
Fleyta
Limon ağacı
Novruz Cıdır düzündə
Üç mirvari
Layihə
KSQ




LAYİHƏ

## 1-ci dərs Baxmaq, görmək və tətbiq etmək

**Standartlar:** 1.1.2., 2.1.3., 4.1.1., 4.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi mətndə əsas fakt və hadisələri seçir.
Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır.
Mövzuya uyğun mətn yazır.
Xüsusi isimləri seçir.

**İş forması:** fərdi, kiçik qruplarla, kollektivlə

**İş üsulu:** beyin həmləsi, müzakirə, klaster, sorğu, təqdimat, cəld yazı

1-ci addım. Müəllim lövhədə "Baxmaq və Görmək" sözlərini yazır. Şagirdlərə suallarla müraciət edir: *Sizcə, baxmaq hər bir şeyi görmək deməkdirmi?, Siz ətrafa baxaraq başqalarından fərqli nəsə görə bilirsinizmi?, Baxmaqla görməyin fərqi varmı?* Şagirdlərin fikirləri dinlənilir. Səslənən fikirlər klaster üsulu ilə lövhədə müvafiq olaraq sözlərin ətrafında yazılır.

2-ci addım. Müəllim şagirdlərin diqqətini dərslikdəki "Baxmaq, görmək və tətbiq etmək" başlığına yönəldir. Dərslikdə verilmiş qısa məlumatlar oxunur. "Görən gözə yasaq olmaz" atalar sözünün nə məna ifadə etdiyi şagirdlərdən soruşulur və onların fərziyyələri dinlənilir. Müəllim MV-də verilmiş dinləmə mətni ilə şagirdləri tanış edir. Mətn QR koddan istifadə edilərək səsləndirilə və ya müəllimin özünün oxusu vasitəsilə şagirdlərə çatdırıla bilər. Mətndə istifadə olunmuş yeni sözlərin, terminlərin mənasını müəyyənləşdirmək üçün lüğətdən istifadə olunur. Şagirdlərə lüğətlə işləməyi, əlifba sırasını nəzərə almaqla sözlərin tez və sürətlə tapılması yollarını öyrətmək lazımdır. İzahlı lüğətdən istifadə məqsədəuyğundur. Sonra dinləmə mətninə aid tapşırıqlar yerinə yetirilir.

Dinləmə mətni.

***Lotos bitkisi***

*Təbiətdə maraqlı və qeyri-adi bitkilər çoxdur. Bunlardan biri lotos bitkisidir (ağ su zanbağı). O, həmişə palçıqlı və çirkli mühitlərdə bitir. Ancaq maraqlısı odur ki, bu bitkinin yarpaqları həmişə təmiz olur. Lotosun üzərinə cüzi toz dənəsi belə düşsə, dərhal yarpaqlarını yelləyir. Toz zərrəciklərini itələyir. Yarpağın üzərinə düşən yağış damcıları "hərəkət edərək" buradakı tozları yuyub aparır.*

*Lotos bitkisinin bu xüsusiyyəti bina səthinin dizaynı üçün tədqiqatçılara yeni ideya verdi. Tədqiqatçılar bu texnikadan istifadə edərək bina səthlərini təmiz saxlayan maddə istehsal etdilər. Həmin maddəyə* ***"yuyucuya ehtiyac olmadan 5 il ərzində özünü təmiz saxlama zəmanəti"*** *verilib.*

Dinləmə mətninin suallarının cavabları:

**b** Çünki üzərinə cüzi toz qonan kimi yarpaqlarını yelləyərək tozu kənara itələyir.

**2.** 2, 3, 4

**3.** Səthi təmiz saxlayan maddənin yaranmasına

**4.** 2

**5.** Çünki çirkli mühitdə yaşamasına baxmayaraq, yarpaqlarını həmişə təmiz saxlayır.



LAYİHƏ

**6.** Palçıqlı – yol, səki – a, d
Çirkli – mühit, su – b, c
**7.** Fiziki cisimlərin əsasını təşkil edən şey C) 2
**8.** Təmiz, gözəl, ətirli və s.
**9.** Məs.; Su damcısı səthin üzərinə düşür. Damcı səthə yapışaraq, səthin üzərindəki çirki özünə çəkir. Səthin çirki suya hoparaq suyun köməyi ilə aşağıya doğru axır və beləliklə, səth təmizlənir.
**10.** Lotos bitkisi haqqında 5-7 cümlədən ibarət mətn qurur. Məsələn; bitkinin yeri, mühiti, rəngi, faydası, növü və s.

**3-cü addım.** Dərslikdə verilmiş 1 və 2-ci tapşırıqlar ətrafında müzakirə təşkil olunur. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir. Burada məqsəd şagirdlərə ətrafda mövcud olan varlıqlara, əşyalara, bizi əhatə edən hər şeyə fərqli baxışı, yanaşmanı, müşahidəni, gördüyünü qavramaq, kəşf etdiyini səmərəli tətbiq etməyi aşılamaqdır. Məsələn; tullantılara fərqli baxış nəticəsində yeni kəşflərin edilməsi və s. Müəllim şagirdlərin fikrini bu istiqamətlərə yönəltməlidir.

**4-cü addım.** Sonra dərslikdə verilmiş 3, 4, 5, 6, 7, 8, 9, 10, 11 və 12-ci tapşırıqların yerinə yetirilməsi şagirdlərə tapşırılır. Bu tapşırıqların fərdi formada keçirilməsi məqsədəuyğundur.

Tapşırıqların cavabları:

**3.** 4) Göy cisimlərini hansı alim öyrənmişdir?
**4.** C) Baxmaq heç də görmək demək deyil.
**5.** Baxaraq gördüyün hər hansısa bir uğurun, kəşfin başlanğıcı ola bilər.
**6.** Məsələn; Cəmiyyətə inkişaf və tərəqqi verir. Yaşadığımız həyatı asanlaşdırmağa imkan verir. Ölkəni dünyada tanıtmağa imkan verir və s.
**7.** ixtira, kəşf, inkişaf, tərəqqi
**8.** Görmək – gözləri ilə qavramaq
Baxmaq – nəzərini bir şeyə dikmək
**9.** cildçi – cildçəkən usta
**10.** B)
**11.** böyük, yaşıl, quyruqsuz və s. – qurbağa
uca, tüstülənən, yanar və s. – tonqal
**12.** Nyuton, Arximed, Qalvani, Fleminq, Leonardo da Vinçi, Faradey, Britaniya Ensiklopediyası, Samuel Braun, Tvid, Klayd, Ceyms Vatt.

Xüsusi isimlər tək olan varlıqların adını bildirir. Xüsusi isimlərə insan, şəhər, kənd, çay, dağ, məkan və s. adlar aiddir.

**5-ci addım.** Dərslikdə verilmiş 13-cü tapşırığı yerinə yetirmək üçün müəllimə iki üsul təqdim edirik:

**1-ci üsul.** Bu tapşırıq sinifdə yerinə yetirildiyi təqdirdə şagirdləri qruplara ayırmaq lazımdır. Müəllim araşdırmanın aparılması üçün şagirdlərə əlavə materiallar təqdim etməli, təqdimatın hazırlanması üçün istiqamət göstərməlidir. Belə ki dəstək üçün istiqamət və qeyd dərslikdə verilmişdir. Bu məlumatlarla əvvəlcədən şagirdlər tanış edilməlidir. Hazırlanan təqdimatların müzakirəsi təşkil olunmalıdır. Tapşırığa ayrılan vaxt 6-7 dəqiqə kifayət edər.

**2-ci üsul:** Bu çalışma ev tapşırığı kimi də verilə bilər. Şagird araşdırma apararaq maraqlı kəşflər, ixtiralar haqqında məlumat toplayır, bu məlumatlar əsasında təqdimat hazırlayıb sinifdə təqdim edə bilər.

**6-cı addım.** Sonra dərslikdə verilmiş sorğunu reallaşdırmaq üçün əvvəlcə suallar tərtib edilməlidir. Sualları şagirdlərlə birlikdə hazırlaya bilərsiniz. Sorğunu həyata keçirmək üçün müəllimə 2 üsul təqdim edirik:

**1-ci üsul.** Müəllim sinfi iki qrupa ayırır. Bir qrup sualları digər qrupa verir, o biri qrup sualları cavablandırır. Sonra səslənən cavablar ümumiləşdirilir və kiçik mətn yazılır.



LAYİHƏ

**2-ci üsul.** Müəllim bu sorğunun həyata keçirilməsini ev tapşırığı kimi verə bilər. Şagirdlər ailə üzvləri, həyat yoldaşları, tanıdığı çevrənin arasında apara bilər. Sorğunun cavabları ümumiləşdirilir və kiçik mətn yazılır.

Nəticələri ümumiləşdirmək üçün cədvəl, sxem və diaqramlardan istifadə edilməsi məqsədəuyğundur.

Sorğu sualları üçün nümunə:

- Diqqət insanın həyatında necə rol oynayır?
- Diqqətli olmaq fəaliyyətimizə necə təsir edir?
- Diqqət olmadan insan nəsə fikirləşə, qavraya və ya hər hansısa işi, hərəkəti yerinə yetirə bilərmi?
- Dərslərimizi anlamaq və mənimsəmək üçün diqqətli olmalıyıqmı?
- Ətrafınızdakı insanlara qarşı diqqətli olsaq, hansı nəticəni görərik?
- Diqqətsizlik edəriksə, hansı fəsadlarla qarşılaşarıq?

Siz başqa suallar da tərtib edə bilərsiniz. Bu tapşırığı sinifdə yerinə yetirmək üçün 10-12 dəqiqə kifayət edər. Sorğunun nəticələri şagirdlərlə birlikdə müzakirə olunur və ümumiləşdirilir. Dərsdə keçirilənlərin, müzakirə olunan mövzuların yekunu olaraq bu nəticəyə gəlirik ki, kəşflər və ixtiralar tarixin və bütövlükdə həyatın gedişatını dəyişdirib. Həmin kəşflər müxtəlif şəkildə bugünkü həyatımızı formalaşdırıb, cəmiyyətin inkişafını, tərəqqisini təmin edib. Bu kəşflərin, ixtiraların edilməsində diqqət vacib amillərdən biri kimi rol oynamışdır. Diqqət görüləcək işin, fəaliyyətin müvəffəqiyyətlə nəticələnməsinə xidmət etmişdir. İnsanlara, ətrafa diqqət isə mənəvi keyfiyyətlərdən biri hesab edilir və göstərdiyin diqqət sənə qarşı olan münasibəti formalaşdırır.

Hər dərsin sonunda dərslikdə verilmiş “Dəyərlər ağacı”nda sual işarəsinin yerində mətndən öyrəndiyimiz bir keyfiyyəti qeyd etmək tapşırılır. Bu mövzunun müvafiq sözü “Diqqət” olacaqdır.

7-ci addım. Mövzunun sonunda verilmiş “Dəyərlər ağacı”nda dərsin sonunda şagirdlər müsbət keyfiyyət kimi *diqqət* sözünü yazmalıdırlar.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 2-ci dərs Nəsihət xəzinəsi

**Standartlar:** 2.1.1., 2.1.3., 3.1.1., 4.1.1.

**Təlim nəticələri:**

Nitq prosesində sözləri düzgün tələffüz edir.
Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır.
Mətndə isimləri müəyyənləşdirir.
Mövzuya uyğun mətn yazır.

**İş forması:** cütlərlə, kiçik qruplarla, kollektivlə

**İş üsulu:** beyin həmləsi, sual-cavab, müzakirə

1-ci addım. Müəllim dərsə ev tapşırığının müzakirəsi ilə başlaya bilər. Daha sonra Nizami Gəncəvinin dəyərlər dünyasına səyahətə dəvət edir. Lövhədə aşağıdakı hikmətli kəlamı yazır:



LAYİHƏ

Yaxşılığı əzəldən adət etsən özünə,
Yaxşılığın hər yanda qapı açar üzünə.

Şagirdlərə suallarla müraciət edir: *Bu kəlamda hansı fikirlər ifadə olunub?, Siz bu fikirlə razısınızmı?, Həqiqətənmi, edilən yaxşılıqlar hər zaman insanın qarşısına çıxır?* və s. Şagirdlərin fikirləri dinlənilir. Sonra müəllim yeni suallarla müraciət edir: *Şairlər, yazıçılar, ədiblər tərəfindən yazılmış əsərlər, hekayələr, şeirlər, poemalar və s. insanların həyatında nə kimi rol oynayır?, Xarakterimizdə, davranışımızda hikmətli kəlamlardan, fikirlərdən nəticə çıxarıb faydalana bilirikmi?* Şagirdlərin fərziyyələri dinlənilir və ümumiləşdirilir.

**2-ci addım.** Müəllim dərslikdə verilmiş Nizami Gəncəvi haqqında qısa məlumatla şagirdləri tanış edir. Ədibin "Xəmsə"sindən verilmiş kəlamların oxusunu təşkil edir. Həmin kəlamların səsli versiyasını QR kod vasitəsilə səsləndirə bilər. QR kodda Nizaminin digər faydalı kəlamları da yer almışdır. Şair haqqında geniş məlumatı digər QR koddan istifadə edərək toplamaq olar.

https://www.youtube.com/watch?v=D4ZNX85LwT8 (səsli)

https://www.youtube.com/watch?v=uDLQkt7VrFU

**3-cü addım.** Oxudan sonra mətnə aid tapşırıqlar yerinə yetirilir. 1, 2, 3, 4, 5, 6-cı tapşırıqlar şifahi olaraq həyata keçirilir.

Tapşırıqların cavabları:

1. Məsələn; "Dost dosta tən gərək, tən olmasa gen gərək", "Ey-öz-özünü bəyənən, qoy səni el bəyənsin", "Nə tökərsən aşına, o çıxar qaşığına", "Yaxşılıq yerdə qalmaz", "El gözü tərəzidir", "El sevəni aləm sevər", "Dostsuz insan, qanadı sınmış quş kimidir", "Əmək insanı ucaldır", "Birlik harada, dirilik orada" və s.

2. Məsələn; İnsan mənəvi keyfiyyətlərini daim zənginləşdirməli və bu keyfiyyətlərdən istifadə etməyi bacarmalıdır. Davranışlarımız bizim daxili dünyamızı əks etdirir. Atdığımız addımlar hər zaman qarşımıza çıxacaq mənəvi qazancımızdır. Və s.

3. Çalış öz xalqının işinə yara,
Geysin əməlinlə dünya zərxara.

4. A)

5. yaxşılıq etmək, elmli, savadlı olmaq, xalqına xidmət etməyi, dostluqda sədaqətli olmağı, əməyə, zəhmətə məhəbbət, elinə, obasına faydalı olmağı, səbirli, təmkinli olmağı, doğru və ədalətli yanaşmağı və s. tövsiyə edir.

6. Bu tapşırığı şagirdlər yazılı da həyata keçirə bilərlər. Verilmiş cədvəlin sonuncu qrafasının açar sözünü şagirdlərin düşüncələri və fikirləri əsasında qeyd etmək olar. Səslənən fikirlər müzakirə olunaraq daha uyğun açar söz seçilir və qrafaya qeyd edilir.

| zəhmət, əmək | yaxşı dost | dostluq | birlik | ağıl | xalqa xidmət | ətrafa hörmət | insanlara yardım | sədaqət, etibar | acgözlük |
|---|---|---|---|---|---|---|---|---|---|
| 7 | 3 | 2 | 5 | 4 | 8 | 9 | 10 | 6 | 1 |

**4-cü addım.** Bu tapşırıqların həllindən sonra müəllim dərslik səhifə 108-də verilmiş müzakirəni təşkil edir.

- Yaxşılıq nədir?
- Kiməsə yaxşılıq etmisinizmi?
- Yaxşılıq etdiyiniz kim olub?
- Etdiyinizi nə üçün yaxşılıq hesab edirsiniz?
- Sizə hansı yaxşılıq edilib?
- Nə üçün sizə edilənin yaxşılıq olduğunu düşünürsünüz?
- Həmin hadisəni və fikirlərinizi dostlarınızla bölüşün.

Müzakirə zamanı şagirdlərin fikirləri tam olaraq dinlənilməli, mətnimizlə əlaqələndirilməli, əsas ideyaya və nəticənin əldə olunmasına xidmət etməlidir.



LAYİHƏ

5-ci addım. Müəllim dərslikdəki tapşırıqları şagirdləri cütlərə ayıraraq reallaşdıra bilər. Cütlər 7, 8, 9, 10, 11, 12, 13-cü tapşırıqları yerinə yetirirlər.

Tapşırıqların cavabları:

7. dəyanət, vəfa, sadiqlik, etibar
8. yoldaş – dost
9. kamal – ağıl
10. Dosd dosdun eybini örtməsin gərəy.
11. ad – ad, dost, gün, var, quş, tor
    əlamət – yaxşı, gözəl, ağ, xoş, ətirli, hərzə-hərzə, ehtiyatsız
12. Səadət, Kamal – çünki insan adı kimi istifadə oluna bilir.
13. yaxşılıq

6-cı addım. 14-cü tapşırığı kiçik qruplarla yerinə yetirmək məqsədəuyğundur. Müəllim QR koddakı https://www.youtube.com/watch?v=D4ZNX85LwT8 (səsli) Nizami Gəncəvinin əlavə kəlamlarını bir daha səsləndirə və ya əlavə materiallar gətirərək şagirdlərə təqdim edə bilər. Qrup üzvləri seçəcəkləri aforizmlərə aid şəkillər çəkməli və həmin şəklin ifadə etdiyi mənanı səsləndirməlidirlər. Eyni zamanda, seçdikləri aforizmlərdə isimləri müəyyənləşdirmələri də tapşırıla bilər (xüsusi, ümumi, tək və cəm isimlər və s.). Daha sonra həmin şəkillərin sinifdə və ya məktəbin dəhlizində sərgisinin təşkil olunması məqsədəmüvafiqdir. Belə fəaliyyətlər şagirdlərdə aydınlaşdırma, fərqləndirmə, fikiryürütmə, özünüifadə, əməkdaşlıqetmə, təqdimetmə bacarıqlarını formalaşdırır.

14-cü tapşırığın təxmini cavabları aşağıdakı kimi olacaq:

Nizaminin nəsihətlərini oxuyub bu nəticəyə gəldim ki, biz mərd, xeyirxah, səbirli, təmkinli, gözüaçıq, elmli, savadlı, bilikli, səmimi, doğru, düzgün, çalışqan, əməksevər, vətənpərvər olmalı, dostluğa, yoldaşlığa önəm verməliyik. Və s.

Dərslikdə verilmiş “Dəyərlər ağacı”nda isə səslənən mənəvi dəyərlərdən yazmaq olar.

7-ci addım. Nizaminin dəyərlər dünyasına səyahətdə aşılananları, müzakirə olunanları ümumiləşdirərək bu nəticəyə gəlinməlidir ki, insan hər zaman elm öyrənməli, yaxşılıq etməli, ədalətli, əxlaqlı, tərbiyəli, xeyirxah, əməksevər, zəhmətsevər olmalı, vətəninə, xalqına, el-obasına əməlləri ilə xidmət etməli, bir, həmrəy olaraq vətənini qorumalı, vətəninin inkişafında, tərəqqisində töhfə verməli, dostluqda sadiqlik göstərməlidir. İnsanın müsbət keyfiyyətləri onun daxili zənginliyinin əksidir, uğurlu gələcəyinin, şəxsiyyət kimi formalaşmasının təminatçısıdır.

8-ci addım. Qiymətləndirmə dərs boyu təlim nəticələrinə uyğun aparılır.

## 3-cü dərs Qızıma məktub (I hissə)

**Standartlar:** 1.1.1., 2.1.1., 2.1.3.

**Təlim nəticələri:**

Dinləmə mətni əsasında fikirlərini dəqiqləşdirir.
Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir.
Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır.

**İş forması:** fərdi, kollektivlə

**İş üsulu:** müzakirəli oxu, sual-cavab



LAYİHƏ

1-ci addım. Müəllim dərsə dinləmə mətni ilə başlayır. Dinləmə mətni dərslikdə QR kod vasitəsilə, yəni telefondan istifadə edərək səsləndirilə və ya müəllimin səsli oxusu ilə həyata keçirilə bilər. Dinləmə mətni zamanı şagirdlərin diqqətli olması və lazım olduğu halda qeydlərin aparılması tövsiyə edilməlidir.

**Dinləmə mətni. QR kod**

**Nizami Gəncəvi. "Atanın oğluna nəsihəti"**

*Ucalmaq istəsən, bir kamala çat,*
*Kamala ehtiram göstərər həyat.*
*Uşaqkən əslini sorsalar bir az,*
*Ağac bar verəndə cinsi sorulmaz!*
*Elə ki böyüdün, belədir qayda,*
*Atanın adından sənə nə fayda?*
*Səadət kamalla yetişir başa,*
*Xalqa hörmət elə, ədəblə yaşa,*
*Öz adına layiq işlər gör ki, sən,*
*Axırda utanma xəcalətindən.*
*Hərçəndi sənətin çox rütbəsi var,*
*Həyata faydalı bir elmi axtar.*
*Oğul, sözlərimə yaxşı qulaq as,*
*Ata nəsihəti faydasız olmaz:*
*Nə hiyləgər, nə də vicdanı dar ol,*
*Hal bilən, hal duyan bir sənətkar ol.*
*Bir elmi öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*
*Məndən söyləməkdir, səndən eşitmək,*
*Bir insan əliboş gəzməsin gərək.*

Dinləmə mətni oxunduqdan sonra müəllim suallarla şagirdlərə müraciət edir: *Nəsihət dedikdə nə başa düşürsünüz?, Sizə kim nəsihət verir?, Siz kimə doğru yolu seçməkdə kömək etmisiniz?, Siz mətndən hansı xüsusiyyətləri aydınlaşdırdınız?, Bu xüsusiyyətlərdən hansını sizə aid etmək olar və hansını özünüzdə formalaşdırmaq istərdiniz?* Şagirdlərin cavabları dinlənilir.

2-ci addım. Daha sonra müəllim dərslikdə verilmiş dinləmə mətninə aid olan 1, 2, 3, 4, 5, 6 və 7-ci tapşırıqların yerinə yetirilməsini şagirdlərə tapşırır. Bu tapşırıqların fərdi olaraq yerinə yetirilməsi tövsiyə olunur.

Tapşırıqların cavabları:

1. tövsiyə edir: elmli, savadlı, ətrafa faydalı, ədəbli-ərkanlı, vicdanlı, ədalətli, qayğıkeş, diqqətli və s. ol

uzaqlaşdırır: tənbəllikdən, natamam işlərdən, laqeydlikdən, asılılıqdan, hiyləgərlikdən, vicdansızlıqdan və s. uzaq ol

2. D)

3. Məsələn; İnsan xoşbəxtliyi, səadəti öz ağlı, savadı və zəhməti ilə əldə edir. Sahib olduğu bütün müsbət keyfiyyətləri ilə hər zaman xalqına fayda verməli, ətrafa münasibətdə diqqətli, qayğıkeş olmalı, etdiyi əməllərlə hamının rəğbətini, hörmətini qazanmalıdır. (Şagirdlərin fərqli cümlələri ola bilər.)

4. Məsələn; İnsan bacardığı işlə, fəaliyyətlə məşğul olmalı, ətrafa fayda verməli, zamanını dəyərləndirməlidir və s.

LAYİHƏ

5. “yetişir” sözu burada “əldə olunur” mənasında işlənmişdir. Fərqli mənada isə “yetişmək, çatmaq” mənalarında cümlədə işlənə bilər. Məsələn; Meyvələr mövsümündə yetişmişdi. Ana mənzilbaşına gün batanda yetişdi.

6. Seçdiyin peşənin incəliklərini öyrənmək, işində vicdanlı, ədalətli olmaq, hər zaman öz gücünə güvənmək, ətrafa hörmətlə yanaşmaq, əməllərinlə xalqına xidmət etmək, faydalı işlər görmək, arzularına çatmaq üçün hər zaman çalışmaq insanın həyatda amalı olmalıdır. Belə olduqda insan həm özü, həm də ətrafı xoşbəxt olur.

7. məndən – [mənnən]
vicdan – [vijdan]
yarımçıq – [yarımçığ]

**3-cü addım.** Tapşırıqların həllindən sonra müəllim dərslikdə verilmiş mətnin (I hissə) oxusunu təşkil edir. Bu oxunun müzakirəli oxu olacağını şagirdlərin diqqətinə əvvəlcədən çatdırmalıdır. Müzakirəli oxunun məqsədi şagirdlərin mətn mövzusu ilə bağlı biliklərini, hiss və düşüncələrini başqaları ilə paylaşmağına, qarşılıqlı fikir mübadiləsi aparmağına şərait yaratmaq, bununla da onlarda məsələyə müxtəlif tərəflərindən baxmaq bacarığı qazandırmaqdır. Bu metodda mətni hissə-hissə və ya bütöv şəkildə oxumaq olar və müzakirə bütün siniflə, yaxud kiçik qruplarla keçirilə bilər. Müzakirədə bütün şagirdlərin iştirakını və bir-birlərinin fikrinə hörmətlə yanaşmağını təmin etmək lazımdır. Mətnin oxusunda tələffüz qaydalarının düzgünlüyünü diqqətdə saxlamalı, ehtiyac yarandıqda düzəlişlər edilməlidir. Anında edilən düzəlişlər problemin aradan qaldırılması müsbət təsir edir. Müəllim oxu zamanı lazım olduğu məqamda suallarla şagirdlərə müraciət edə bilər. Bu suallar mətnin daha yaxşı mənimsənilməsində, qavranılmasında mühüm rol oynayacaqdır. Şagirdlərin cavabları sona qədər dinlənilməli, əgər səhv varsa, düzgün istiqamətə yönəldilməlidir.

Suallara nümunə:

• Sizə təsəlli verən, dəstək duran insanlar varmı?
• Xəyallarınızı, hiss və düşüncələrinizi valideynlərinizlə bölüşə bilirsinizmi?
• Siz ailə üzvlərinizə sevgi, qayğı göstərirsinizmi?
• Qarşılıqlı münasibət dedikdə nə başa düşürsünüz?
• Valideynlərlə dostluq etmək olurmu?
• Sizin uğurlarınız sevincə səbəb olurmu? və s.

**4-cü addım.** “Qızıma məktub” mətninin I hissəsində yaşıl rəngdə verilmiş cümlə ətrafında şagirdlərin fikirləri dinlənilir. Tapşırıqların yerinə yetirilməsindən sonra müəllim səslənən fikirlərin ümumiləşdirilməsini təşkil edir.

**5-ci addım.** Ümumiləşdirmənin nəticəsi olaraq bu qənaətə gəlinir ki, səmərəli keçən ömür barlı ağactək daim diqqət mərkəzində olar. Faydasız zəhmət peşmançılıq, yorğunluq, baş ağrısı və töhmət gətirər. Faydasız işlə məşğul olan kəs vaxtı itirməklə yanaşı, öz əməyini də itirmiş olur. Əgər hər hansı bir kəs öz əməyini səmərəsiz sərf etməsə, onun gördüyü işin faydası da çox olar. Öz vaxtını boş və mənasız keçirənlərin son aqibəti acı göz yaşları və kimlərəsə möhtac olmaq olar. İnsanın düşüncələri onu faydalı əməyə sövq etməlidir. Çünki faydalı əməyin sayəsində insan öz ömrünü xoşbəxt və şən keçirə bilər. İnsanda öz məqsədinə inam, yüksək ruh və gərgin işə sədaqət olarsa, o, ikiqat əzmlə işləməyi bacarar.

*Həyatda yenilməz olarsa insan,*
*Çatar məqsədinə axır bir zaman.*
*İkiqat əzmlə çalış ki, dostum,*
*Gələcək həyatın olsun firavan.*

Özü üçün həyat yolu seçmək insanın düşüncələrindən asılıdır. Seçilmiş həyat yolunun qiyməti və faydası isə cəmiyyətin həmin şəxsə göstərdiyi münasibətlə ölçülür. İnsan cəmiyyətə, xalqa, vətənə daha çox fayda verə biləcək qədər fəaliyyət göstərməlidir. İnsan həyatının fay-



LAYİHƏ

dalılığı üçün zaman hüdudları yoxdur. İnsan uzun müddət göstərdiyi qüsursuz həyat fəaliyyətinə görə də qiymətləndirilir. Ümumiyyətlə, insan şəxsiyyətinin qiyməti imkan və şərait daxilində bütün bacarığı ilə xalqına verdiyi fayda ilə ölçülür. Öz şəxsi mənafelərini güdənlərin, yüngül və sərfəli işdə baş girləyənlərin xalq yanında hörməti olmaz. Faydasız işə əmək sərf etmək vaxtı ikiqat itirmək deməkdir. Çünki faydasız əmək sərf etdiyin vaxtda mənalı işlə məşğul olub fayda və səmərə əldə edə bilərdin.

6-cı addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 4-cü dərs Qızıma məktub (II hissə)

**Standartlar:** 1.1.1., 2.1.1., 2.1.3., 4.1.3.

**Təlim nəticələri:**

Dinləmə mətni əsasında fikirlərini dəqiqləşdirir.
Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir.
Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır.
Durğu işarələrindən düzgün istifadə edir.

**İş forması:** fərdi, kiçik qruplarla, kollektivlə

**İş üsulu:** proqnozlaşdırılmış oxu, sual-cavab, Venn diaqramı

1-ci addım. Müəllim aşağıdakı misralarla dərsə başlaya bilər:

Kimsəyə uzat ki, kömək əlini,
Kimsə rədd etməsin sənin əlini.
Deyirlər həyatın o işi yaxşı,
Hər kəsə göstərir öz əməlini.

Misraları səsləndirdikdən sonra suallarla müraciət edir: *Yardımsevər olmaq nə deməkdir?, Siz kiməsə yardım əlinizi uzatmısınızmı?, Bəs sizə nə vaxtsa kömək edən olubmu?, Nəticəsi necə olub? və s.* Səslənən suallar şagirdlər tərəfindən cavablandırılır.

2-ci addım. Müəllim dərslikdəki "Qızıma məktub" mətninin II hissəsinin oxusunu təşkil edir. Mətni QR koddan istifadə edərək səsli də səsləndirə bilər. Müəllim proqnozlaşdırılmış oxu üsulundan istifadə edərək mətnin bir neçə hissəsində şagirdlərə baş verə biləcək hadisələrin ardıcıllığı ilə bağlı suallar verə bilər.

3-cü addım. Mətnin oxusundan sonra dərslikdəki 1, 2, 3, 4, 7, 8, 9-cu tapşırıqlar fərdi və ya kollektiv şəkildə yerinə yetirə bilər. Tapşırıqların cavabları:

1. Şagirdlərin cavabları müxtəlif ola bilər.

2. Oxuyub qurtaran kimi əlindəki pulu qutuya atıb yanıma gəldin, artıq oyuna həvəsin qalmadığını dedin.

3. Özünəinam, ətrafa hörmət, qayğı, sevgi, yaxşılıq, ədalət, mərhəmət, sədaqət, cəsurluq, əməksevərlik və s.



LAYİHƏ

4. Dünyanın işini yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.

(Müəllim və ya şagirdlər başqa aforizmlər də seçə bilər)

7. Peşə təkcə pul qazanmaq üçün vasitə yox, həm də özünü ifadə formasıdır. İnsan özünü seçdiyi peşədə daha yaxşı hiss edər və daha gözəl nəticələr qazana bilər. Yox, əgər gördüyünüz işlə xoşbəxt deyilsənsə, onda nəticələrin də uğursuz ola bilər.

8. Tapşırıq əsasında müzakirə təşkil olunur, şagirdlərin fikirləri dinlənilir. Ümumi nəticə olaraq bu fikrə gəlinməlidir ki, müqayisə olunan mətnlərdə valideynlərin narahatlığı övladlarının gələcəyi, onların layiqli vətəndaş kimi yetişməsidir.

9. Şagirdlərin fikirləri dinlənilir. Sonra müəllim ümumiləşdirmə apara bilər: *İnsanın əsil bir insan kimi yetişməsində ona verilən təlim-tərbiyənin çox böyük rolu vardır. Düşdüyü şərait, aldığı tərbiyə insanın gələcək taleyinə ciddi təsir edir. Biz əzəl gündən pis adət və vərdişlərdən qorunmağa çalışmalıyıq. Elə etməliyik ki, pis adət və vərdişlər gələcəkdə əsil bir insan kimi yetişməyimizdə əngələ çevrilməsin. Ailədən götürülən tərbiyə insanın ömrünün axırına qədər həyatımızda özünü göstərir. Ona görə də uşaq şəxsiyyətinin tərbiyə olunmasında valideynlər çox ciddi məsuliyyət daşımalıdırlar. Ən yaxşı tərbiyə örnək olmaqdır. Ümumiyyətlə, gözəl ailə tərbiyəsi alanlar gözəl insan olurlar.*

**4-cü addım.** 5, 6 və 10-cu suallar isə kiçik qruplar şəklində yerinə yetirilə bilər. Bu tapşırıqlar şagirdlərdə fikiryürütmə, əlaqələndirmə, arqumentlər əlavə etmə, fərqləndirmə, münasibət bildirmə, təqdimetmə, nəticə çıxarma, ümumiləşdirmə kimi bacarıqları formalaşdırır.

Tapşırıqların cavabları:

5. *Oxşar cəhətlər:* atalar övladlarına elm, təhsil, özünəinam, yaxşılıq, ədalət, mərhəmət, qayğı, sevgi, vətənə bağlılıq kimi müsbət keyfiyyətləri aşılayır.

*Fərqli cəhətlər:* Oğluma nəsihət mətnindəki ata – nəsihət oğlana verilir, ata XII əsrdə yaşamış

Qızıma məktub mətnindəki ata – nəsihət qıza verilir, ata XXI əsrdə yaşamış

Hər iki ata fərqli zamanlarda, mühitdə yaşamalarına baxmayaraq, övladlarının xoşbəxt gələcəyini, elmli, savadlı, bacarıqlı olmalarını, vətəninə, xalqına xidmət etmələrini, ətrafa, insanlara qayğı, mərhəmət, sevgi göstərmələrini və s. tövsiyə edir.

6. Tapşırığın təxmini cavabı bu məzmunda ola bilər: Ailə sevgi, inam, etibar, qarşılıqlı hörmət üzərində qurulur. Ailə dəyərləri ailə üzvlərinin davranış, münasibət və həyat tərzinə çevrilməlidir. Ailədə böyüyən övladlar bu dəyərləri sözdə deməklə deyil, valideynlərinin nümunəsində görməli və mənimsəməlidir. Uşaq uşaqlıqdan ailə dəyərlərinin nə olduğunu bilirsə, valideynləri bir-birlərinə və övladlarına sevgi və hörmətlə yanaşırlarsa, gələcəkdə uşağın da güclü bir ailə quracağına əmin ola bilərsiniz. (Şagirdlər müxtəlif fikirlər səsləndirə bilər)

10. Bu tapşırıqda da şagirdlərin fikirləri dinlənilir. Səslənən fikirlərdən sonra ümumiləşdirmə aparıla bilər: *Əsil insan olmaq adamın qarşısında bir sıra vəzifə və borclar qoyur. Bu vəzifə və borcları həmişə layiqincə yerinə yetirməklə əsil insanlıq simasını nümayiş etdirmək olar. İnsan insanlıq borcunu və vəzifəsini başa düşməlidir. Vətənə, anaya məhəbbət, darda qalanın əlindən tutmaq, ümidsizə kömək etmək, uşaqlara və qocalara qayğı göstərmək, təbiəti mühafizə etmək və s. insanın borcu və vəzifəsidir. Öz insanlıq borcu və vəzifəsinə sədaqətli olan kəslərin cəmiyyət içində mövqeyi həmişə yüksək olar. Öz hərəkət və fəaliyyətinə görə cəmiyyət içində yüksək mövqeyə malik olan kəslər isə xoşbəxt adamlardır.*

10-cu tapşırığın yerinə yetirilməsi üçün zaman çatmazsa, bu, ev tapşırığı kimi də verilə bilər.

**5-ci addım.** Tapşırıqların həllindən sonra səslənən fikirlərin mətnin ideyasına uyğunluğu, əsas fikrin aydınlaşdırılması müzakirə olunur.

**6-cı addım.** Ümumiləşdirmənin nəticəsi olaraq bu qənaətə gəlinir ki, imkan və şərait daxilində öz arzu və istəklərini həyata keçirməyə çalış. Bunun üçün birincisi vaxtdan istifadə et.



LAYİHƏ

Çünki zaman dayanmır. Elm öyrənmək, biliklərə sahib olmaq heç vaxt gec deyildir. Həyat çox mürəkkəbdir, bu mürəkkəbliyin içindən doğru yol seçmək çətindir. Həyatda seçilmiş ən düzgün yol xoşbəxtliyin, səadətin arxasınca gedən yoldur. Yaşa, yarat, fəaliyyət göstər, o zaman heç vaxt taleyindən şikayət etməzsən. Möhkəm iradə sahibləri əksərən xoşbəxt taleli kəslər olurlar. Xoşbəxt talelik insanın həyatda öz arzu və istəklərinə çatması deməkdir. Öz arzu və məqsədlərinə isə həyatla mübarizədə həmişə möhkəm iradə sahibləri olan şəxslər çatarlar. Yaxşı yaşamağın da, həyatda öz istək və arzularına çatmağın da, xoşbəxtliyin də hamısının yeganə yolu ağılla hərəkət etmək, düşüncəli olmaq, həyatla mübarizə aparmağı bacarmaqdadır.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

5-ci dərs

# Qızıma məktub

**Standartlar:** 2.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Müzakirələrdə münasibət bildirməklə fikirlərini əsaslandırır.

Mövzu ilə bağlı esse yazır.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** müzakirə, söz assosiasiyası

1-ci addım. Müəllim lövhədə *düşüncələrim, arzularım, məqsədlərim, fikirlərim* ifadələrini yazır. Sonra müzakirə təşkil olunur. Şagirdlərdən bu ifadələrin məzmununa uyğun ardıcıllığı davam etdirmək tələb olunur. Fikirlər dinlənilir və *xəyal* sözünün alınması təmin edilir. Müəllim dərslikdə verilmiş müzakirə suallarının (*Xəyal nədir?, Xəyallarınız varmı?, Xəyallarınızı bölüşmək istərdinizmi? və s.* – müəllim sualların sayını artıra bilər) cavablandırılmasını təşkil edir. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir. Belə ki xəyal gələcək gözləntilərini proqnozlaşdırma, hədəflərin müəyyən edilməsi, planlaşdırma, strategiya qurmaq, mübarizə aparmaq, həvəsləndirmə və s. kimi bacarıqları özündə əks etdirir.

2-ci addım. Müzakirədən sonra müəllim dərslikdə verilmiş 11,12,13,14 və 15-ci tapşırıqların cavablandırılmasını təşkil edir. Bu tapşırıqlar şifahi olaraq yerinə yetirilir.

Tapşırıqların cavabları:

11. xəyal
12. ürək – qəlb – könül
    istək – arzu – dilək
    dəstək – kömək – dayaq
13. xəstəlik – sağlamlıq
    çətin – asan
    Çətinlik sözünün əks mənası yoxdur.
14. Yadıma düşür – xatırlayıram
    Göz qoyurdum – baxırdım, nəzər yetirirdim, diqqət yetirirdim
15. gülmək – duyğusunu bildirmək
    gülümsəmək – gülər kimi olmaq, duyğusunu ifadə etmək
    təbəssüm – gülümsəmək
    qəhqəhə çəkmək – bərkdən, səslə gülmək

Şagirdlər verilmiş sözləri cümlələrdə işlədir və şəkillərlə uyğunlaşdırırlar.

LAYİHƏ

**3-cü addım.** Müəllim şagirdləri dərslikdə verilmiş qayda ilə tanış edir. Materialın möhkəmləndirilməsi üçün qaydaya uyğun əlavələr də oluna bilər. Hər hansı bir mətn və ya cümlələr üzərində tapşırıqlar yerinə yetirmək məqsədəuyğundur.

**4-cü addım.** Daha sonra 16, 17, 18, 19-cu tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar şifahi və ya yazılı da keçirilə bilər. Şifahi formada fərdi olaraq, yazılı formada isə cütlərlə reallaşdırılmalıdır.

Tapşırıqların təxmini cavabları:

16. Çünki burada fərqləndirilmiş adlar istifadə olunmayıb
17. Çünki fikrini ifadə edən şəxsin hiss və həyəcanını bildirir
18. Burada təsəvvürlər dəqiq olmur
19. Gözəl, fərəhli, qürurlu, sevincli, kədərli, qorxulu və s.
    Böyük, məqsədli, işıqlı, saf, təmiz və s.

**5-ci addım.** Tapşırıqların həllindən sonra müəllim şagirdlərə essenin yazılma qaydasını başa sala bilər. Bu qayda dərslikdə öz əksini tapmış, yazmaq üçün istiqamət verilmişdir. Eyni zamanda, esseyə bir nümunədə yerləşdirilmişdir. Şagirdlərlə bu nümunəni müzakirə etmək məqsədəuyğundur. (essenin yazılma qaydasını bura yerləşdirmək)

Essenin qiymətləndirmə meyarlarını isə burada təqdim edirik. Esseləri qiymətləndirərkən bu meyarlardan istifadə edə bilərsiniz.






LAYİHƏ

6-cı addım. Daha sonra dərslikdəki 20-ci tapşırıq yerinə yetirilir. Tapşırıq seçmə yolla müzakirə olunur. Burada şagird birlik, bərabərlik, vəhdət, dostluq, yoldaşlıq, güc, qüvvət kimi dəyərlərə aid fikirlərini yaza bilər. Bu tapşırığa uyğun gələn aforizm isə

*Bir olsa yoldaşın, dostun əməli,*
*Daşdan su çıxardar onların əli.*
*Nifaq olan yerdə fəlakət də var,*
*Səadət günəşi birlikdən doğar.*

7-ci addım. Ümumiləşdirmə aparılır və bu nəticəyə gəlirik ki, həyatda düşüncə hərəkətdən öncə gəlir. Reallaşdırılması planlanan bütün layihələr əvvəlcə zehində canlandırılır, daha sonra tətbiq olunur. İnsanın arzuları, xəyalları onu gələcəyə, inkişafa, tərəqqiyə istiqamətləndirir, ona motivasiya verir. Fransız yazıçısı Qaston Levisin dediyi kimi “Xəyal canlandırır, ağıl müqayisə edir, zövq bəyənib seçir, istedad icra edir”.

21-ci tapşırıq evə verilir.

8-ci addım. “Dəyərlər ağacı”nda insansevərlik, ləyaqət, təmiz ad, birlik, dostluq, əməkdaşlıq və s. kimi sözlər yazıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## *6-cı dərs* Mavi don

**Standartlar:** 2.1.1., 2.1.3., 3.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Nitq prosesində tələffüz qaydalarına əməl edir.
Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Mətnin tərkib hissələrini müəyyənləşdirir.
Mövzuya uyğun hekayə yazır.

**İş forması:** kollektiv, kiçik qrupla

**İş üsulu:** klaster, söz assosiasiyası, debat, müzakirə edərək oxu

1-ci addım. Müəllim dərsə ev tapşırığının seçmə yolla yoxlanılması ilə başlaya bilər. Səslənən ev tapşırıqları müzakirə olunur və ümumiləşdirilir. Daha sonra müəllim lövhədə *müharibə* sözü yazır. Şagirdlərdən bu sözün nə ifadə etdiyini, nə fəsadlar törətdiyini soruşur. Səslənən fikirlər müharibə sözünün ətrafında qeyd olunur.

2-ci addım. Dərslikdə verilmiş mətnin oxusu təşkil edilir. Oxu zamanı orfoqrafiya və tələffüz qaydalarına əməl olunmalıdır. Mavi rəngdə verilmiş sözlərdə hansı hərfin yazılmasını da şagirdlərin müəyyənləşdirməsini təmin etmək məqsədəuyğundur. Mətnin oxusunu müzakirə edərək oxu üsulu ilə yerinə yetirə bilərsiniz. Bu oxu üsulunun məqsədi şagirdlərin mətnin mövzusu ilə bağlı bilik, hiss düşüncələrini başqaları ilə bölüşdürməli və onların bilik və düşüncələrindən istifadə etməklə fərqli baxışlar qazanmalarına nail olmaqdır. Bu metod mətn hissələrə ayrılaraq tətbiq oluna bildiyi kimi, həm də bütünlüklə tətbiq edilə bilər. Müzakirə bütün sinif və



LAYİHƏ

ya qruplar halında keçirilə bilər. Müzakirənin sonunda əldə olunan müştərək düşüncələr lövhədə qeyd olunur. Bütün şagirdlərin müzakirədə iştirakı və bir-birinin fikrinə hörmət edilməsinə nail olunmalıdır.

**3-cü addım.** Mətnin oxusu zamanı müəllim mətnlə bağlı, müharibə və onun fəsadları ilə bağlı suallar verə bilər: *Sizcə, hadisə hansı müharibə zamanı baş vermişdir?, Müharibə dövlətə nə kimi ziyan yetirir?, Müharibənin fəsadları təkcə dövlətə zərər vurur, yoxsa?, Uşaqların həyatında müharibə necə izlər buraxır?* və s. Şagirdlərin diqqətinə səsləndirəcəkləri cavabların əsaslandırılmış olması çatdırılmalıdır. I Qarabağ müharibəsi zamanı yaşanmış hadisələrə toxunulmalıdır. Çünki bu mətn həmin zamanı özündə əks etdirir. Şagirdlərin cavabları dinlənilir.

**4-cü addım.** Müəllim debat təşkil edir. Debat zamanı müzakirə olunacaq mövzu şagirdlərin diqqətinə çatdırılır və hər qrupun öz arqumentlərini səsləndirməli olduqları vurğulanır. Debat mövzusu: *Müdir Səidə zəhmətlə qazanılanın daha şirin olduğunu başa salır.*

Arqument üzərində iş prosesi aşağıdakı kimidir:

1. Arqument irəli sürülür
2. Arqument izah edilir
3. Arqument sübut edilir
4. Nəticə çıxarılır

Səslənən arqumentlər ümumiləşdirilir və nəticə çıxarılır.

**5-ci addım.** Müəllim dərslikdə verilmiş "Uşaq Hüquqları Haqqında Azərbaycan Respublikasının qanunu"ndan 24, 42, 248, 249 və 205 maddələrlə şagirdləri tanış edir. Qanunun oxusu təşkil olunur.

**6-cı addım.** Mətnin və maddələrin oxusundan sonra müəllim şagirdlərə dərslikdə verilmiş sualların müzakirəsinə dəvət edir. Mətndəki hadisənin necə davam edəcəyini, Səidin paltarı alacağını, Səidin yerində olsa idiniz atacağınız addımın nə olacağını və s. kimi sualların cavablandırılmasını təşkil edir. Daha sonra şagirdləri üç qrupa bölərək mətnin sonluğu ilə bağlı təxminlərini hekayə şəklində yazmaları tapşırılır. Bir qrup hekayənin giriş, digər qrup əsas, digər qrup isə sonluq hissəsini yaza bilər. Hekayənin yazılması üçün dərslikdə istiqamət də verilmişdir. Hekayədə Uşağın əmək hüquqları ilə bağlı oxuduğunuz maddələrdən də istifadə edilə bilər. Müəllim şagirdlərə hekayəni yazmaq üçün plan da təqdim edə bilər.

**Plana nümunə:**

**Plan:**

1. Səidin anasının bu hadisəyə münasibəti
2. Səidin məktəb dostunun onu dəstəkləməsi
3. Səidin xəstələnməsi
4. Səidin bacısını sevindirməsi və s.

**7-ci addım.** Qrupların yazdıqları hekayələr dinlənilir. Həmin hekayələr sinfin bir guşəsindən asıla və ya bir yerdə toplanıb saxlanıla bilər. Çünki növbəti dərs zamanı mətnin davamı səsləndən sonra müzakirə təşkil olunmalı və yazılan hekayələr müqayisə edilməlidir. Üst-üstə düşən məqamlar qeyd olunmalıdır.

**8-ci addım.** Dərslikdə verilmiş 5, 6, 7, 8, 9 və 10-cu tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqların yazılı və ya şifahi aparılması müəllimin seçimindən asılıdır.

Tapşırıqların cavabları:

5. Şagirdlər mətnə istinad edərək fikirlərini bildirə bilərlər.
6. I – c, II – a, III – d, IV – b



LAYİHƏ

7. zərf – içərisinə hər hansı bir kağız qoyub harasa göndərmək üçün xüsusi kağız qab
   zəif – gücsüz, əldən düşmüş, qətiyyətsiz
   zərif – incə, ürəyəyatan
8. *vəfat etmişdir* yox *həlak olmuşdur* olmalıdır.
9. don – paltar
10. Şagird dərslikdə verilmiş üç mənada düşmək sözünü cümlədə işlədir. Məsələn;
    Hava şarı bir müddətdən sonra yerə endi.
    Uşaq xizəklə sürüşən zaman yerə yıxıldı.
    Qonaqlar məkana çatdıqdan sonra maşından aşağı endilər.

9-cu addım. Qiymətləndirmə təlim nəticəsinə uyğun aparılır.

## 7-ci dərs Mavi don

**Standartlar:** 1.1.2., 2.1.3., 2.1.4., 4.1.2.

**Təlim nəticələri:**

Dinlədiyi mətndə fakt və hadisələri seçir.
Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Fikirlərini mətnin hissələrinə uyğun qruplaşdırır.
Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** Venn diaqramı, müzakirə

1-ci addım. Müəllim dərsə əvvəlki dərsdə mətnin ardı ilə bağlı qrupların yazdıqları hekayələrin yada salınması ilə başlaya bilər. Sonra dərslikdə verilmiş QR kod vasitəsilə əvvəlki mətnin ardını səsləndirə bilər, əgər bu şərait olmasa müəllim oxunu özü səsləndirməlidir. Oxu zamanı düzgün oxu qaydalarına əməl olunmalı, intonasiyaya diqqət yetirilməlidir.

***Dinləmə mətni:***

*...Səid mağazada bacardığı qədər kömək etməyə başladı. Ona tapşırılan işlərin öhdəsindən səylə gəlirdi.*

*Bir gün mağazanın müdiri Səidə maşınının açarlarını uzadaraq onu yumasını, təmizləməsini tapşırdı. Səid nazik, qara şlanqdan gələn soyuq su ilə maşını yumağa başladı. Çantasını və gödəkçəsini mağazanın qapısının yanında küncə qoymuş, qollarını və şalvarının balaqlarını çırmalamışdı. Ara-sıra ayağına su tökülməsinə, ayaqlarının islanmasına fikir vermirdi. "Anam gələnə qədər ayaqlarımı da, corablarımı da qurudaram", deyə fikirləşirdi. Sonra o, avtomobilin yük yerindən kiçik tozsoranı çıxarıb maşının içini də təmizlədi və işini bitirdi.*

*Bir neçə gün keçdi. Səid bu məsələni təkcə özünə dost saydığı Orxana danışdı; hər gün dərsdən qayıdarkən yolunu mağazanın qarşısından salmasının səbəbini izah etdi. Orxan məsələni biləndən sonra onu bu işdən çəkindirməyə çalışdı. Lakin buna nail ola bilmədi.*



LAYİHƏ

*Leyla əvvəlki kimi şıltaqlıq etməsə də mavi donu ara-sıra yenə yada salırdı. Səid gizlincə ona demişdi ki, əgər özünü yaxşı aparsan, o donu sənə alacağam.*

*Səhər yuxudan duranda gecə bərk yağış yağdığını görən Səid sevindi: "Hər tərəf palçıqdır, maşını yenə yumaq lazımdır". Dərsdən çıxan kimi o, Orxanla birlikdə qaça-qaça mağazaya getdi. Orxan yenə bütün yolu danışaraq, onu bu işdən çəkindirməyə çalışdı. Amma Səid yenə də razılaşmadı. Şlanqı götürüb maşının üzərinə səliqə ilə gəzdirdi. Buna baxmayaraq Səidin ayaqları yaş olmuşdu. Onlar evə qayıtdılar.*

*O gün Səid çox yorulmuşdu. Donmuş barmaqları sözünə baxmadığından, açarla qapını çətinliklə açdı. Nahar etməmiş yerinə uzanıb üstünü yorğanla bərk-bərk örtdü. Üşüyürdü...*

*Beş gün idi ki, Səid evdə xəstə yatırdı. Sahə həkimi onun ciyərlərinə baxaraq "sətəlcəm" diaqnozunu qoymuşdu. Anası işdən bülletenə çıxaraq Səidə özü qulluq edir, iynələrini vaxtı-vaxtında vurur, dərmanlarını içizdirirdi. Orxan hər gün onu yoxlamağa gəlir, dərslərin yerini göstərir, fürsət düşən kimi mağaza müdiri haqqında deyinirdi. Amma Səid ona cavab vermir, narahatlıqla fikirləşirdi: "Təki tez sağalım. Bircə dəfə də maşını yusam, paltarı götürə bilərəm..."*

*Bir gün Orxan yenə onlara gəldi. Birbaşa Səidin otağına girib qapını astaca örtdü və yavaşdan dedi:*

*– Müdir məndən səni soruşdu.*

*Səidin ürəyi qopdu:*

*– Doğrudan?! Nə dedin?*

*Orxan özündən razı halda güldü:*

*– Nə lazım idisə, dedim. Dedim sizin ucbatınızdan Səid xəstələnib, sətəlcəm olub. Bu soyuqda da uşağa maşın yuduzdurarlar? Utanmır...*

*Səid hirsindən qıpqırmızı oldu:*

*– Sən nə etmisən? Bütün işləri korlamısan ki! Mənim bütün əziyyətim hədər getdi!*

*Bu zaman səsə Səidin anası içəri daxil oldu. Təəccüblü halda ana nə qədər sual versə də, Səid bir söz demədi: "Dalaşdıq, vəssalam". O gündən sonra Orxan bir daha ona baş çəkməyə gəlmədi, Səid sağalıb məktəbə gedəndə də, onunla danışmadı.*

*Ürəyi döyünə-döyünə mağazaya yaxınlaşan Səid nə deyəcəyini götür-qoy edirdi. "Orxan işlərimi yaman korladı. Bircə dəfə də maşını yusaydım vəssalam. İndi isə... Müdir, yəqin, məni qovacaq". Səid könülsüz mağazaya daxil oldu. Satıcı qız onu görən kimi çağırdı: "Haradasan, balası?" Səid ağzını açıb nəsə söyləmək istəyəndə isə satıcı tez dilləndi: "Məndə sənə çatacaq bir şey var". O, səliqə ilə qızılı kağıza bükülmüş və mavi lentlə bağlanmış iri qutunu Səidə uzatdı. Təəccübdən Səidin ağzı açıq qalmışdı. O kəkələdi:*

*– N-nədir bu?*

*– Necə nə? Sənin almaq istədiyin mavi don. Müdir özü dedi ki, qəşəng büküb sənə çatdırım.*

*Səid qucağında iri bağlama mağazadan çıxanda sanki uçurdu. Bacısının necə sevinəcəyini təsəvvür etdikcə, özündən asılı olmayaraq gülümsəyirdi. Əlbəttə, anasına hər şeyi izah etməli idi. "Yəqin ki, anam məni bağışlayar. Bir də ki, Orxanla barışmalıyam..."*

*Reyhan Yusifqızı*

2-ci addım. Sonra müəllim lövhədə Venn diaqramı çəkərək oxu müddətində qrupların yazdıqları hekayələrdə üst-üstə düşən məqamları, fərqli məqamları diaqramda qeyd etməli, yeri gəldikcə müzakirələr təşkil olunmalıdır.



LAYİHƏ




Venn diaqramı təhlil olunur və üst-üstə düşən məqamlar ümumiləşdirilir.

**3-cü addım.** Müəllim Səidin atdığı addımı, onun ailəsinə, bacısına qarşı münasibəti, xarakterindəki xüsusiyyətləri şagirdlərlə müzakirə edir, onların fikirlərini dinləyir.

**4-cü addım.**

Müəllim şagirdlərin diqqətinə I Qarabağ müharibəsi zamanı törədilmiş "Xocalı faciəsi" haqqında məlumat çatdıra bilər və ya bu faciə haqqında şagirdlərin bildiklərini soruşa bilər. Dinləmə mətni kimi əlavə olaraq bu materialı müəllimin diqqətinə çatdırırıq. Mətnə aid sualları da şifahi formada şagirdlərlə müzakirə oluna bilər.

***Əlavə dinləmə mətni: QR kod***

***Bir millətin səsi (Həbib Nəbiyev) ixtisarla***
*İyirmi altı fevral...o mənfur gecə,*
*Nələr gətirmədi Azərbaycana?!*
*Qərinələr keçə, əsrlər keçə,*
*Tarix bağışlamaz onu vicdana.*
*O gecə vicdanın susdu səsi də,*
*İnsanlıq adına ləkə vuruldu.*
*Dünyanın ən böyük müsibəti də,*
*O gecə yaşandı. Matəm quruldu.*
*İlahi, bu nədir?! Bu dəhşət nədir?!*
*Tarixdə görünməz müsibət nədir?!*
*Qanlar axa-axa selə dönübdür,*
*Xocalı qanlı bir gölə dönübdür.*
*Ah düşmən, nə qədər acımasızsan,*
*Körpəyə, qocaya heç baxmayırsan.*
*Dağıdıb, taladın sən Xocalımı,*
*Səhraya döndərdin gülüstanımı.*
*Atın gülləlləri durmadan yenə,*
*Hamınız birlikdə düşmən üstünə.*
*Ölsək, şəhid olub ucalarıq biz,*
*Yaşarsaq, sonadək vuruşarıq biz.*
*Öldün, ölümünlə ucaldın əsgər,*
*Xalqımız hər zaman qədrini bilər.*
*Şəhidsən, sən uca bir zirvədəsən,*
*Bu xalqın, millətin ürəyindəsən.*
*Unutmaz millətim, vətənim məni,*

LAYİHƏ

*Yaşadan hər zaman yaşadar məni.*
*Hər kəs öləcəkdir, ölüm bir haqdır,*
*Vətənçün ölənlər yaşayacaqdır.*

*1. Şeirdə hansı faciədən danışılır?*
*2. Düşmənin qəddarlığı hansı misrada daha çox öz əksini tapmışdır?*
*3. Əsgərlər şeirdə necə təqdim olunmuşdur?*
*4. "Şəhidlik zirvəsi" ifadəsini necə başa düşürsünüz? Fikirlərinizi əsaslandıraraq bildirin.*
*5. Mətndə ad, yoxsa əlamət bildirən sözlərdən çox istifadə olunmuşdur? Faciə hansı sözlərlə daha çox çatdırılmışdır?*

**5-ci addım.** Daha sonra dərslikdə verilmiş 2,3,4,11 və 12-ci tapşırıqların yerinə yetirilməsi tapşırılır. Bu tapşırıqlardan 2,3 və 4-cü tapşırıqlar şifahi, 11 və 12-ci tapşırıqlar yazılı formada həyata keçirilə bilər.

Tapşırıqların cavabları aşağıdakı kimidir:

2. 2) tərbiyəedicidir 3) yardımsevərdir

3. Şagirdlər öz xarakterlərini Səidin xarakteri ilə müqayisə edirlər. Cavablar müxtəlif olacaq.

4. B)

11. Burada sözün həqiqi və ya məcazi məna kəsb etdiyi müəyyənləşdirilməlidir. Dərslikdə verilmiş cədvələ müvafiq olaraq sözlərin sayı artırılır.

soyuq su – həqiqi
soyuq rəftar – məcazi
böyük bina – həqiqi
böyük arzu – məcazi
gözəl paltar – həqiqi
gözəl münasibət – məcazi

12. Şagirdlərin seçiminə buraxılır. Seçdikləri hissə əsaslandırılmalıdır.

**6-cı addım.** Dərsin sonunda müzakirələrin ümumiləşdirilməsi aparılır. Bu nəticəyə gəlinir ki, müharibə hər zaman dövlətin, onun vətəndaşlarının, ekologiyasının həyatında mənfi fəsadlarla yadda qalır. Belə ki müharibə dövlətin, insanların taleyinə birbaşa təsir edir, çox dərin izlər buraxır, ailələrdə ciddi problemlər yaradır. Müzakirə etdiyimiz mətndə də bu problemlərin olduğunu gördük. Bu çətinliklərdən çıxış yolu, bu çətinliklərin öhdəsindən gəlmək dövlətlə yanaşı ailə üzvlərinin də üzərinə düşür. Səidin ailəsinə, bacısına qarşı münasibəti, onun qayğıkeş, səmimi, cəsarətli, zəhmətkeş, mehriban olması, ailəsi üçün hər bir zəhmətə qatlanması böyük iradə, mərhəmət, qayğı, hörmət və sevgi dəyərlərindən xəbər verir. Bu müsbət keyfiyyətlər onun balaca qəlbində dərin kök salmışdır. Həqiqətən də ailəsinin qayğısına qalan, ona hörmətlə yanaşan, sevgisini paylaşan insanlar cəmiyyət arasında da qarşılıqlı hörmət görəcək, müsbət dəyərləndiriləcəkdir.

13-cü tapşırıq evə verilir.

**7-ci addım.** Dərslikdə verilmiş "Dəyərlər ağacı"nda sevgi, qayğı, zəhmətkeş, əməksevər, mehriban və s. kimi ifadələr yazıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

8-ci dərs

# Tək hərəkət

**Standartlar:** 1.1.2., 2.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Dinləndiyi mətndəki hadisələrə münasibət bildirir.
Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Mətnlə bağlı fikirlərini yazır.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** müzakirə, beyin həmləsi, proqnozlaşdırılmış oxu

1-ci addım. Evə verilmiş tapşırıq seçmə yolla yoxlanılır. Şagirdlərin fikirlərinə münasibət bildirilir və fikirlər ümumiləşdirilir. Sonra dinləmə mətni üzərində iş aparılır. Sualları cavablandıra bilməsi üçün şagirdlər mətni diqqətlə dinləməyə sövq edilir. Oxunun ifadəli, düzgün, məzmuna uyğun təşkili vacibdir. Mətn oxunur, dərslikdə 122–123-cü səhifələrdə verilmiş suallar üzərində iş aparılır.

**Dinləmə mətni**

*Qəhrəmanımız Cənubi Afrikada doğulub. Adı Oskar Leonard Karl Pistoriusdur. Bu gənc 1986-cı ilin 22 noyabr tarixində dünyaya göz açıb. Hələ 11 aylığında olarkən onun ayaqlarında müəyyən qüsurlar yaranmış, buna görə də ayaqlarını amputasiya etməli olmuşlar. Yüksək nailiyyətlər əldə edən idmançıya valideynləri böyük dəstək olmuşlar. Onlar balaca Oskara bir neçə protez sifariş edərək onun qaçması, üzməsi və hətta velosiped sürməsi üçün şərait yaratmışlar. Çox bahalı olan bu protezlər demək olar ki, onu yenidən həyata qaytarmışdı. Oskar daima öz üzərində çalışır, hər gün müxtəlif istiqamətlərə qaçırdı. Hər dəfə məsafələri müqayisə edərək ölçürdü. Fiziki qüsuruna qalib gəlmək istəyən gənc müxtəlif idman yarışlarında iştirak edir, uğurlu nəticələr əldə edir.*

*Oskar Leonard Karl özü haqqında deyir: “Mən hamı kimiyəm. İnsanlardan heç nə ilə fərqlənmirəm. Mənim də bu dünyada yaşamaq, istədiyim kimi həyat tərzi sürmək haqqım var”.*

*Romada təşkil olunan yarışlarda Leonard 400 metrlik məsafəni düz 46 saniyəyə dəf etmişdir və yeniliyə imza atmışdır. Qeyd edək ki, Oskar XXI əsrin Ən möhtəşəm idmançıları sırasına daxildir. İdmançı özünə mən: “terminatoram”, – deyir. Jurnalistlər isə onu “ülgüc üzərində qaçan” adlandırırlar.*

Tapşırıqların cavabları:

1. A
2. D
3. 1; 3; 4
4. Məs.; çalışqan, bacarıqlı, cəsur, dözümlü və s.
5. 1) kəsmək; 2) doğramaq; 3) amputasiya etmək
6. Müxtəlif alətlərin kəsici tərəfi, bıçağı
7. müxtəlif – eyni – fərqli
   yenilik – köhnəlik – müasirlik
   balaca – böyük – kiçik
8. Şagirdlərin fikirləri müxtəlif ola bilər. Burada əsas odur ki, şagird münasibət bildirərkən səsləndirəcəyi fikrin səbəb və nəticəsini əsaslandırsın.



LAYİHƏ

Müəllim əlavə olaraq bu tapşırığı da verə bilər:

*Mətndən götürülmüş sözləri cədvələ əsasən qruplaşdırın.*

*yüksək, idman, gənc, yarış, iştirak, saniyə, uğurlu, cəld*

| *Ad bildirən sözlər* | *Əlamət bildirən sözlər* |
|---|---|
| | |

https://az.m.wikipedia.org/wiki/Oskar_Pistorius linkindən istifadə etməklə Oskar haqqında ətraflı məlumat əldə edə bilərsiniz.

Dinləmə mətni əsasında tapşırıqların icrası üçün 10-12 dəqiqə kifayətdir. Əgər şagirdlərdə dinləmə mətni üzərində işləmək vərdişi varsa, təklif olunan müddətdə onu tamamlamaq çətinlik törətməyəcəkdir.

2-ci addım. Dərslikdəki “Tək hərəkət” mətninin oxusu üzrə iş təşkil edilir. Oxudan əvvəl orfoqrafiya tapşırığı üzərində iş aparılır.

Daha sonra şagirdlərin diqqəti dərslikdəki “Tək hərəkət” mətninin şəkillərinə yönəldilir və müzakirə təşkil olunur. Müəllim suallarla şagirdlərə müraciət edir: *Sizcə, bu mətndə nədən danışıla bilər?, Şəkillər sizə hansı məlumatı ötürdü?* Şagirdlərin təxminləri dinlənilir. Səslənən təxminlər lövhədə də qeyd oluna bilər.

Daha sonra müəllim şagirdlərə müxtəlif suallarla müraciət edə bilər: *İnsanın uğur əldə etməsi üçün nə lazımdır?, İnsanda bacarıq necə formalaşır?, Sizcə, fiziki qüsur insanın yolunda əngəl ola bilərmi?, İnsanın güclü iradəsi belə məqamlarda necə kömək ola bilər?*

Proqnozlaşdırılmış oxunun məqsədi şagirdlərin oxu prosesində fəallıqlarını artırır, onların hiss, düşüncə və hadisələrə marağını artırır. Müəllim oxu zamanı mətnin məzmunu ilə bağlı müxtəlif suallar verməklə şagirdlərin diqqətini mətn ətrafında daha çox cəmləşdirə bilər. Bu oxu növü şagirdlərdə fikirlərini ifadə etmək, idrak marağının stimullaşdırılması, təfəkkürün inkişafı kimi bacarıqları formalaşdırır.

Müəllim motivasiya üçün https://www.youtube.com/watch?v=RkNYJZj_AWs linkindən istifadə edə bilər.

3-cü addım. Mətnin düzgün və sürətli oxusu təşkil edilir. Rollar üzrə oxudan istifadə məqsədəuyğundur. Oxu zamanı tələffüz qaydalarına əməl olunması diqqətdə saxlanılmalı, səhvlər üzərində iş aparılmalıdır. Lövhədə qeyd olunmuş təxminlər də oxu prosesində nəzərdə saxlanılmalı, üst-üstə düşən məqamlar vurğulanmalıdır. Mətnin oxusu səhifə 124-ə qədər təşkil olunur. Mətndə *Sizcə, müəllimin cavabı necə olacaq?* sualı müzakirə olunur (Sualın cavabı: ***Sən çalışmağa davam et!*** ). Şagirdlərin təxminləri dinlənilir və sonra mətnin ardı oxunur. Şagirdlər əslində olanı və təxminlərinin müqayisəsini edirlər.

4-cü addım. Mətnin oxusundan sonra *Həyatda belə hadisə ilə qarşılaşmısınızmı?, Kimdəsə özünəinam yaratmısınızmı?, Yaxud əksinə, özünüzə güvənmək üçün kimsə sizə yardım edibmi?, Nəticəsi nə olub?* sualları ilə şagirdlərə müraciət edilir. Yığcam müzakirə təşkil edilir və fikirlər ümumiləşdirilir.

5-ci addım. 1-8, 10, 11-ci tapşırıqlar üzərində iş təşkil olunur. Qurduğu dərsdən asılı olaraq müəllim tapşırıqları kollektiv və ya cütlər vasitəsilə icra etdirə bilər. Bu tipli tapşırıqlar şagirdlərdə müşahidəetmə, müqayisəetmə, əlaqələndirmə, fərqləndirmə, izahetmə, təqdimetmə, fikiryürütmə və s. kimi bacarıqları formalaşdırır.

**Tapşırıqların cavabları:**

**1.** Mətnin adı ilə bağlı suala şagirdlərin müxtəlif cavabları ola bilər. Səslənən cavablar əsaslandırılmalıdır. *Oğlanın qələbəsini nə təmin etdi?* sualının cavabı olaraq şagirdlərin *özünəinamlı, çalışqan, zəhmətkeş, səbirli, iradəli, dözümlü olması, müəlliminin və valideynlərinin dəstəyi* və s. kimi ifadələri səsləndirməsi məqsədəuyğundur.



LAYİHƏ

**2.** Bu cümlə mətnin sonunda verilmişdir. Burada da şagirdlərin fərdi düşüncələri, yanaşmaları ola bilər. Səslənən fikirlər arqumentlərlə əlaqələndirilməlidir. 127-ci səhifədə 2-ci çərçivədə verilmiş fikirlərdən istifadə oluna bilər.

Şagirdlərə izah olunmalıdır ki, sağlamlıq imkanı məhdud uşaqların da bacarığı, istedadı var. Onların cəmiyyətə adaptasiya olunması, özlərini cəmiyyətin yararlı üzvü hesab etməsi üçün həmin uşaqlara qayğı göstərilməli, yeri gəldikdə onların bacarıqlarından istifadə edilməlidir. Hər hansı bir fiziki qüsuru olan insanların da böyük daxili potensialı vardır. Onların arasında gözəl rəsm əsərləri çəkən, müxtəlif yaradıcılıq növləri ilə məşğul olan, məntiqi təfəkkürə əsaslanan bir çox sahələrdə, idmanda, musiqidə fəaliyyət göstərən əlil insanlarımız da vardır.

**3.** Burada şagird 4 bəndin hər birini səsləndirib fikrini əsaslandıra bilər. Lakin daha yaxın bəndlər isə 2 və 3-dür.

**4.** B

**5.** Bu sualın cavabı da sərbəstdir. Lakin doğru cavab "Xeyr, təsadüf deyil" olmalıdır. Çünki uşağın çalışqanlığı, bacarığı, özünəinamı bu qələbənin qazanılmasında ona kömək olmuşdur. Fərqli fikirlər də ola bilər.

**6.** Şagirdlərin yanaşmaları fərqli ola bilər. Son fikir kimi şagirdin gəldiyi nəticə bu olmalıdır ki, ailə və məktəb, valideyn və müəllimin səmərəli əməkdaşlığı uşağın inkişafını, onun gələcəyini, uğurlarını təmin edir.

**7.** 2 və 7-ci aforizmlər uyğun gəlir.

**8.** Səbir, dözüm və iradə insanın uğur qazanmasını təmin edir.

Şagirdlər dərslikdə verilmiş sxemi tamamlamaqla fikirlərini səsləndirə bilərlər. Arzuları, məqsədləri uğrunda atacaqları addımları, görəcəkləri işləri barədə fikirlərini bölüşə bilərlər.

**10.** Mətnlərin aşıladığı xüsusiyyətlər: diqqətli, səbirli, iradəli və dözümlü olmaq, daim öyrənməyə həvəsli olmaq, xeyirxahlıq və yaxşılıq etmək, özünəinam formalaşdırmaq və s. (şagirdlərin müxtəlif fikirləri ola bilər)

**11.** Oğlanda valideynləri özünəinam tərbiyə edir.
Oğlanda dözümlü, səbirli və qətiyyətli olmağı müəllim yaradır.
Oğlanın qələbəsini ona olan inam, bacarığı və vərdişi təmin edir.

Qeyd. Müəllimin 6, 10, 11-ci tapşırıqları fərdi qaydada icra etdirməsi məqsədəuyğundur.

6-cı addım. Müəllim ümumiləşdirmə apararaq şagirdlərin yekun nəticəyə gəlmələrini təmin edir: valideynlərin, müəllimlərin göstərdiyi istiqamət, verdiyi dəstək insanda özünəinamı, özünəhörməti, ətrafa hörməti formalaşdırmaqda kömək olur. Çalışqanlıq, zəhmət, səy, dözüm, iradə, səbir isə qələbəyə gedən yolda vacib amillərdəndir. Bu keyfiyyətlər insanın qələbəsinə, inkişafına, gələcəyinə ciddi şəkildə müsbət təsir edir. Nəticənin yekunu kimi 9-cu tapşırıq fərdi qaydada icra edilir. (Sinifdə tapşırığı icra etməyə zaman olmazsa, tapşırıq evə verilə bilər.)

7-ci addım. Şagirdlərin səviyyəsini nəzərə almaqla müəllim tapşırıqları aşağıdakı kimi bölüşdürə bilər:

1. 22-ci tapşırıq evə verilir. Tapşırığın icrası üçün müəllim şagirdlərə plan təqdim edə bilər. Tapşırığın qruplar şəklində hazırlanması məqsədəuyğundur.
2. "Tək hərəkət" mətnindəki idmançı oğlana münasibətim" mövzusunda yığcam (6-10 cümlədən ibarət) inşa
3. "Tək hərəkət" mətnindəki müəllimə münasibətim" mövzusunda yığcam (6-10 cümlədən ibarət) inşa
4. Azərbaycan paraolimpistləri haqqında buklet (və ya divar qəzeti) hazırlamaq
5. Mətn əsasında rəsmin çəkilməsi və s.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə müvafiq aparılır.



LAYİHƏ

9-cu dərs

# Tək hərəkət

**Standartlar:** 2.1.3., 3.1.1., 3.1.2., 4.1.1., 4.1.3.

**Təlim nəticələri:**

Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Mətndə əlamət və keyfiyyət bildirən sözləri fərqləndirir.
Mətndəki sözləri düzgün vurğu ilə oxuyur.
Hekayə yazır.
Sifətlərin yazılış qaydalarına əməl edir.

**İş forması:** kollektiv, cütlərlə, kiçik qruplarla

**İş üsulu:** beyin həmləsi, müzakirə

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanılması ilə başlayır. Bu seçmə yolla həyata keçirilə bilər. Müxtəlif tapşırıqlar varsa, yaxşı olar ki, hamısı dinlənilsin. Şagirdlərin yazılarına münasibət bildirilir və fikirləri ümumiləşdirilir. Daha sonra müəllim şagirdlərin diqqətini dərslikdəki, 127-ci səhifədəki şəklə yönəldir. Şəkil əsasında müzakirə təşkil olunur. Müzakirə zamanı müəllim suallarla şagirdlərə müraciət edə bilər, 3 dekabr Beynəlxalq Əlilliyi olan Şəxslər Günü haqqında qısa məlumat da verə bilər.

Müzakirənin nəticəsi olaraq qeyd olunmalıdır ki, hər bir insanın daxilində böyük bir potensial vardır. Bu potensialı üzə çıxarmaq, inkişaf etdirmək vacib amildir. Həyatda baş vermiş hər hansı bir fəlakət, bədbəxt hadisə həyatın bitməsi demək deyildir. Mübarizə aparmaq, səbir, dözüm, iradə göstərmək, özünə, gücünə, potensialına inanmaq lazımdır.

2-ci addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 13–17-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların cütlər vasitəsilə aparılması məqsədəuyğundur.

Tapşırıqların cavabları:

**13.**
1) iradəli; 2) qələbə; 3) bacarıqlı

**14.** yarış

**15.**
**çempionat** – hər hansı bir idman növü və idman oyunları üzrə birincilik yarışları
**çempion** – idman yarışlarında qələbə qazanan şəxs və ya komandaya verilən ad

**16.**
cüdo, idman ustası, idmançı, məşq otağı, isinmə hərəkətləri, sürət, döyüş, çempionat, yarış, rinq, məşq, həyəcan, final, cüdoçu, fənd, çempion, kubok və s.

**17.**
qalib – məğlub   tək – xeyli, çoxlu   eyni – fərqli
Uyğunluq tapşırıqlarından da istifadə etmək olar. Məsələn;
Uyğunluğu müəyyən edib nümunələrlə əsaslandırın.

| | | |
|---|---|---|
| məşq | hərəkət | rinq |
| döyüşmək | göstərmək | etmək |



LAYİHƏ

**3-cü addım.** Tapşırıqların cavabları yoxlanır, ümumiləşdirilir. Daha sonra dərslikdə (səh. 128, 129) verilmiş 18, 19, 20 və 21-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar cütlərlə və ya fərdi şəkildə, şifahi və yazılı həyata keçirilə bilər.

Tapşırıqlardan əvvəl və ya tapşırıqların həlli zamanı müəllim dərslikdə verilmiş qaydanı şagirdlərə izah etməlidir. Qayda 19-cu tapşırıq üzərindən də izah edilə bilər.

Tapşırıqların cavabları:

**18.** diqqə́tlə (*qət* hecası), idmançınín (*nın*), otağıná (*na*), xahíşlə (*hiş*), döyüşə́ (*şə*), həyəcánla (*can*), yarışmadán (*dan*), rəqibinə́ (*nə*)

**19.** böyük (necə?) – əlamət, yaxşı (necə?) – əlamət, məşhur (necə?) – keyfiyyət, milli (necə?) – keyfiyyət, həyəcanlı (necə?) – əlamət, güclü (necə?) – əlamət, çarəsiz (necə?) – əlamət

Əlamət və keyfiyyəti fərqləndirmək üçün sözün cümlə daxilində işlənmə mənasına diqqət yetirilməli olunduğu şagirdlərə bildirilməlidir. Belə ki daxili keyfiyyətləri bildirən sifətlər keyfiyyət bildirən sifətlər olur. Məsələn; O, gözəl uşaqdır (*burada gözəl əlamət bildirir*). Onun gözəl ürəyi var (*burada daxili keyfiyyət olduğu üçün keyfiyyət bildirir*).

1. bacarıqlı və s.

idmançı – güclü, fədakar, çalışqan, qalib və s.

**4-cü addım.** Tapşırıqların həllindən sonra müəllim dərslikdə verilmiş 21-ci tapşırığı şagirdlərin işləməsi üçün tövsiyə edir. Bu tapşırıq fərdi qaydada yerinə yetirilə bilər. Sifətlərin əlamət, yoxsa keyfiyyət bildirdiyi şagirdlərdən soruşulur.

**5-ci addım.** Mətndən sonrakı tapşırıqlar üzərində iş aparılır. Fikirlər dinlənildikdən sonra ümumiləşdirilmə aparıla bilər. Belə ki insanlar kimi ağaclar da canlıdır. Onlara vurulan ziyan dünyamıza, ekologiyaya çox ciddi təsir edir. Ağacların faydası bizim sağlamlığımız üçün böyük rol oynayır. Bu faydaların bir neçəsini sadalaya bilərik:

1. Havada olan tozun görünmədən bir müddət sonra yox olmasına görə meşələrə borcluyuq. Meşələr təxminən, 25-55 ton toz saxlayır və tozun yaratdığı xroniki astma riskini azaldır.

2. Ağaclar atmosferdə pis qoxu və insan sağlamlığına mənfi təsir göstərən ammonyak, azot dioksid, kükürd dioksid və ozon kimi qazları udur, havadakı hissəcikləri qabığından və yarpaqlarından süzür. Bu şəkildə təmiz havadan nəfəs almağımızı təmin edir.

3. Ağaclar məktəblərdə və parklarda saatlarla vaxt keçirən insanları ziyanlı şüalardan qoruyur.

4. Diqqət çatışmazlığı və hiperaktivliyi olan uşaqların təbiətlə təması simptomlarının azalmasına yardım edir.

6. Ağaclarla təmas zehni yorğunluğu azaldır.

7. Radiasiyanın və radiasiyanın yaratdığı dəri xəstəliklərinin qarşısını alır.

8. Meşələr əyləncə, istirahət və asudə vaxtlarını keçirmək imkanı yaradır. Havası, suyu, təbii mənzərələri və sakit mühiti ilə insanların fiziki və zehni sağlamlığında müsbət rol oynayır.

9. Meşələrin istehsal etdiyi oksigenli hava beyin sağlamlığı üçün ilk şərtdir. Beyin hüceyrələri arasında ötürülmə təmin edən kimyəvi maddələri artıraraq yaddaşın zəifləməsinin qarşısını alır.

10. Oksigenli hava qanı təmizləməyə kömək edir və bədənin öz funksiyalarını daha asan yerinə yetirməsinə imkan verir və s.

Dərsin sonunda keçirilən, müzakirə olunan məlumatların əlaqələndirilməsi və ümumiləşdirilməsi aparılır. Nəticə olaraq bu qənaətə gəlinir ki, hər bir insanın həyatda yaratmaq, inkişaf etmək, fəaliyyət göstərmək, ünsiyyət qurmaq, bacarığını nümayiş etdirmək və s. kimi vəzifələri vardır. Yaşadığımız zaman qarşımıza çıxacaq çətinliklər, maneələr bizi qorxutmamalı, əksinə, bizi



LAYİHƏ

bu çətinliklərin öhdəsindən gəlməyə, bu maneələri dəf etməyə ruhlandırmalıdır. Bizi əhatə edən ətraf mühitə, insanlara qayğı, hörmət, sevgi ilə yanaşmalı, ailəmizi, Vətənimizi, təbiətimizi daim qorumalı, inkişaf və tərəqqi üçün əlimizdən gələni etməliyik.

"Dəyərlər ağacı"nda birlik, qayğıkeşlik, insansevərlik və s. kimi müsbət keyfiyyətləri qeyd edə bilərik.

**6-cı addım.** Dərslikdəki 23-cü tapşırıq üzərində iş aparılır. Hekayənin yığcam yazılması məqsədəuyğundur.

Tarixən bir cümlədən ibarət hekayələrin yazılması faktdır. Məsələn; yazıçı Ernest Heminquey bir dəfə belə bir mübahisə edir ki, o, bir neçə sözdən ibarət elə bir hekayə yaza bilər ki, hər bir oxucunun qəlbini göynədər. O, bir neçə sözdən ibarət: "Uşaq çəkmələri satılır. Geyinilməmişdir" hekayə yazmaqla mübahisəni udur.

Uşaqlarda bu vərdişi formalaşdırmaq olar. Yəni uşaqları elə cümlələr yazmağa sövq etmək olar ki, həmin cümlənin səbəbi, nəticəsi, səbəbdən nəticəyə gedən yolu müxtəlif cümlələrlə genişləndirmək mümkün olsun.

Məsələn:

Uşaq sevinirdi. Özünə inamı artmışdı.

Atanın ümidləri doğruldu. Oğlu həyata qayıtmışdı.

Ana oğluna saat almışdı. Oğlan saatı sağ qoluna taxmalı oldu və s.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

## 10-cu dərs Kiçik Summativ Qiymətləndirmə

**Kənd həkimi**

Gülyaza bir məktub verdilər. Məktubu qonşu kənddə yaşayan bir müəllim yazmışdı. Onun körpə uşa...ı ağır xəstə idi.

Gülyaz atı yəhərləyib yola düşdü. Qaraçalı kəndinə gedən yol hələ yaxşı seçilmirdi.

Birdən at qulaqlarını şəkləyib durdu. Gülyaz iki yaşıl fənər kimi parıldayan canavar gözü gördü. Canavar sürətlə atın üstünə atıldı. At təpi...i ilə onu vurub yerə yıxdı. O, yenə də şığıyıb yan tərəfdən atıldı. Gülyaz bütün qüvvəsini toplayıb uzunboğaz çəkməsi ilə ona bərk bir təpi... vurdu. Canavar zingildəyərək arxası üstə yıxıldı. Gülyaz kəhəri qamçıladı. O, bütün qüvvəsini toplayıb atı qovma...a başladı. Nəhayət, kəndə çatdı, xəstə uşa...ı ölümdən xilas etdi. İki gündən sonra Gülyaz geri qayıtmaq istəyərkən uşağın anası onu quca...layıb dedi:

– Həkim, biz sizin xəcalətinizdən necə çıxacağıq?

Həkim gülümsünərək körpəni göstərib dedi:

– Bizim mükafatımız budur, bax! Bundan da böyük mükafat olar?

1. Mətndə nöqtələrin yerinə hansı hərflər yazılmalıdır?

A) ğ, k, y, ğ, ğ B) k, q, ğ, y, ğ C) ğ, y, k, ğ, q D) y, ğ, q, k, ğ

2. *Uzunboğaz* sozü nə üçün mürəkkəb sifətdir?
   A) eyni sözün təkrarından yaranıb
   B) iki müxtəlif mənası olan sözün birləşməsindən yaranıb
   C) əksmənalı sözlərdən yaranıb
   D) yaxınmənalı sözlərdən yaranıb

3. Verilmiş sözlərin tələffüzünü yazın.

Məktub – [________________] uşaq – [______________]

Kənd – [______________] xəstə – [______________]

4. Mətndən xüsusi isimləri seçərək yazın.

______________________________________________

______________________________________________

5. Mətnin ideyasına uyğun hikmətli söz hansı bənddə verilmişdir?
   A) Gülümsəmədiyin bir gün, itirilmiş bir gündür.
   B) Qənaət özü dövlət deməkdir.
   C) Həyatdan ibrət almağı bacaran insan xoşbəxt olur.
   D) Vəzifə böyük işlər etmək deyil, lazım olanı etməkdir.

6. Mətndə altından xətt çəkilmiş cümlədə həkim mükafat dedikdə nəyi nəzərdə tuturdu? Fikrinizi bir cümlə ilə ifadə edin.

______________________________________________

______________________________________________

7. Cümləni tamamlayın.

*Gülyaza qonşu kənddə yaşayan bir müəllim məktub yazmışdı, çünki* ____________

______________________________________________



LAYİHƏ

8. Mətndə canavarın gözü haqqında verilmiş məlumatlardan hansı yanlışdır?
A) yaşıl rəngdədir B) parlaqdır C) boz rəngdədir D) iki ədəd gözdür

9. Mətndən sifətləri seçib yazın.

10. Aşağıdakı fikirlərdən hansı mətndə yoxdur?
A) Həkim yolda canavarla rastlaşdı.
B) Həkim xəstələnmiş oğlan uşağını ölümdən xilas etdi.
C) Həkim at çapa bilirdi.
D) At canavarı təpiklədi.

11. *At təpiyi ilə onu vurub yerə yıxdı* cümləsində hansı sözdə k – y əvəzlənməsi baş vermişdir? Həmin sözü müəyyənləşdirib yeni sətirdə yazın.

12. Mətndə qırmızı rəngdə verilmiş ifadəni fərqli mənalarda cümlədə işlədin.
1.
2.

13. Bunlardan biri mətndə işlənən xəcalət sözünün izahıdır:

☐ utanılacaq hal, utanmağa səbəb olan şey

☐ əvəzini vermək, qarşılıq olaraq bir şey verməklə əvəzini çıxmaq

14. Mətnə əsasən doğru fikirləri müəyyənləşdirin.
1) Vəzifəsini düzgün icra edən insan xoşbəxtdir.
2) Savadsız insan kor kimidir.
3) Yaxşılıq edən yaxşılıq tapar.
4) Sənət tükənməz xəzinədir.
5) Var-dövlət sərvətə deyil, qənaətə söykənir.

A) 1, 3, 2 B) 1, 3, 4 C) 2, 3, 5 D) 3, 4, 5

15. Mətndə 1-ci və 2-ci abzasları əlaqələndirən iki cümlə yazın.



LAYİHƏ

11-ci dərs

# Fleyta

**Standartlar:** 1.1.2., 2.1.1., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi mətndə faktları seçir.
Tələffüz qaydalarına əməl edir.
Mətnin tərkib hissələrini müəyyənləşdirir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** beyin həmləsi, müzakirə, proqnozlaşdırılmış oxu

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanılması ilə başlaya bilər. Ev tapşırığının seçmə yolla yoxlanılması məqsədəuyğundur. Ümumiləşdirmə aparılır və yekun nəticə əldə olunur.

Daha sonra dinləmə mətninin oxusu təşkil edilir. Oxu materialını müəllim və ya şagirdlər də səsləndirə bilər. Oxu zamanı düzgün oxu qaydalarına əməl olunmalı, tələffüz, intonasiya, vurğu diqqətdə saxlanılmalı, vaxtında düzəlişlər olunmalıdır.

Qeyd. Dinləmə mətnini dərslikdə verilmiş "Fleyta" mətnindən əvvəl və ya sonra da səsləndirmək olar. Bu müəllimin tədris etdiyi metodikadan asılıdır.

***Dinləmə mətni:***

*Bir qartal tələyə düşmüşdü. Qanad çalır, çırpınır, canını qurtarmağa çalışırdı. Yaşlı bir kişi onun bu halını görcək ürəyi yandı. "Yəqin, onun da balaları var", – deyə düşündü və qartalı xilas etdi. Qartal qanad çalıb uçdu. Bir müddət keçdi. Bir gün yaşlı kişi köhnə bir evin kölgəsində oturub dincini alırdı.*

*Göydə uçan qartal uzaqdan xilaskarını görüb tanıdı. Uçaraq kişiyə yaxınlaşdı, papağını başından götürüb həmin yerdən uzaqlaşdı. Kişi qartalın dalınca qaçmağa başladı. Düzənliyə çatanda qartal papağı yerə atdı. Elə bu zaman yer-göy titrədi, sanki zəlzələ baş verdi. Kişi əvvəlcə qorxdu. Sonra özünə gəlib papağını yerdən götürdü və dincəldiyi yerə qayıtdı. Nə görsə, yaxşıdır? Ev uçub dağılmışdı, daş daş üstə qalmamışdı. Kişi başa düşdü ki, bu qartal vaxtilə xilas etdiyi quşdur. İndi yaxşılığının əvəzini çıxdı.*

2-ci addım. Dinləmə mətninə aid suallar şifahi formada cavablandırılır.

1. Mətnə məzmununa uyğun başlıq verin.
2. Mətnin aşıladığı müsbət keyfiyyətlər hansıdır?
3. Mətnin ardını davam etdirin. Qartal ona hansı yaxşılığı etmişdir?
4. Mətndə real olmayan hansı hadisələr vardır? Fikirlərinizi əsaslandırın.
   1. ................, çünki________________________
   2. ................, çünki________________________

LAYİHƏ

5. “Qartal tələyə düşmüşdü.” cümləsində hansı söz yerində deyil? Həmin sözü lazımi ifadə ilə əvəz edin.

Verilmişdir ____________________.          Olmalıdır________________________.

6. Hansı atalar sözü mətnin ideyasına uyğundur?

a) Hər kəsə öz vətəni əzizdir.
b) Qorxan gözə çöp düşər.
c) El bizim, sirr bizim.
d) Yaxşılıq elə ki, başına gəlsin.

7. Verilmiş cümlələrdə altından xətt çəkilmiş sözlər hansı mənada işlənmişdir?

1) Marsi fleyta çalırdı.
2) Qartal qanad çalıb uçdu.

1. ___________________________          2. ______________________________

Həmin sözü daha hansı mənada işlətmək olar?

__________________________________________________________________________

8. Ardıcıllığı davam edin.

xilas edən → xilaskar
heyvanları ovlayan → ...........
yaxşılıq edən → ...........

**3-cü addım.** Suallar cavablandırıldıqdan sonra müəllim dərslikdə verilmiş (səh.130) epiqraf ətrafında müzakirə təşkil edir. Müzakirə zamanı *Uğur qazanmaq üçün zəhmət çəkməliyikmi? Zəhmət çəkməsək bəhrəsini görə bilərikmi?* kimi suallardan istifadə edə bilərsiniz. Şagirdlər müzakirə zamanı səsləndirdikləri fikirləri əsaslandırmalı, qarşılaşdıqları nümunələri misal olaraq göstərməlidirlər.

Müəllim dərslikdəki mətnin oxusunu təşkil etməmişdən əvvəl aşağıdakı linklərdən istifadə edərək fleytada səsləndirilmiş musiqini təqdim edə bilər, şagirdlərə bu musiqi aləti haqqında məlumat verə bilər.

https://www.youtube.com/watch?v=blkNw3YXrdw
https://www.youtube.com/watch?v=JicW9XjeqWc
https://www.youtube.com/watch?v=SOiHh5i0BoU

**4-cü addım.** Müəllim şagirdlərin diqqətini dərslikdə verilmiş “Fleyta” mətninə yönəldir. Mətnin oxusu təşkil edilir. Mətnin oxusunu proqnozlaşdırılmış oxu, panoram sürətli oxu, sual verərək oxu üsullarından istifadə edərək reallaşdırmaq olar. Oxu zamanı orfoqrafiya və orfoepiya qaydalarına düzgün əməl etmək lazımdır. Bu qaydalarla bağlı mətnin əvvəlində verilmiş tapşırıqlar da yerinə yetirilməlidir. Mətnin sonluğunda *Sizcə, nə baş verəcək?* sualına aid doğru fikir şagirdlər tərəfindən müəyyənləşdirilməlidir.

***Doğru cavab:** Bağdakı bütün ağaclar quruyacaq, Efialt hirsindən fleytanı dənizə atacaq.*

Düzgün fikir səsləndikdən sonra mətnin sonunda verilmiş sualların müzakirəsi təşkil olunur. Şagirdlərin fikirləri dinlənilir. Mətnin ardını təxəyyüllərinə uyğun davam etdirirlər.

(Mətnin ardını bura əlavə etmək.)

**5-ci addım.** Daha sonra dərslikdə verilmiş 1 və 2-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar cütlər formasında yazılı şəkildə həyata keçirilə bilər. 1-ci tapşırıqda cütlər mətndəki problemi tapıb həlli yolunu müəyyənləşdirirlər. Sonra isə müəyyən etdikləri problemdən çıxış yolunu öz yanaşmaları əsasında qeyd edirlər. Şagirdlərin fikirləri müxtəlif ola bilər. 2-ci tapşırığı reallaşdırmaq üçün yenə də mətnə istinad etmək lazımdır. Belə ki şagirdlər mətndən faktları seçərək verilmiş cədvəli tamamlamalıdırlar. Məsələn;

Marsi Egey dənizinin sahilində yaşayırdı.

Marsi çox tənbəl idi, işləməyi sevməzdi və s.



LAYİHƏ

**6-cı addım.** Dərslikdəki 15, 16, 17 və 18-ci tapşırıqlar da yerinə yetirilir. Tapşırıqların cavabları:

15. tənbəl – çalışqan　　təpə – dağ　　yoxsul – varlı
dolu – boş　　sevmək – nifrət etmək　　sübh – axşam

1. yuxuya getmək – yatmaq
   əl tutmaq – kömək etmək
   baş aça bilməmək – anlamamaq
2. həris – bir şeyə həddindən artıq can atmaq, istəmək
   heyrət – bir şeydən təəccüblənmək, çaşqın qalmaq
   ecazkar – möcüzələr yaradan, hər kəsi heyrətə salan
3. 1) çalmaq – ifa etmək
   2) çalmaq – qanadını tərpədərək havaya qalxmaq
   3) çalmaq – biçmək
   4) çalmaq – dişləmək, sancmaq və s.

Müəllim əlavə olaraq şagirdlərə aşağıdakı tapşırığı da verə bilər:

1. Aşağıdakı sxemi mətnlərə istinad edərək tamamlayın.




**7-ci addım.** Dərsin sonunda mətnin ideyası ilə bağlı ümumiləşdirmə aparılaraq bu nəticəyə gəlinir ki, insan yaxşılıq edərsə hər zaman o yaxşılığın əvəzini görəcəkdir. İnsan müsbət keyfiyyətləri daim inkişaf etdirməli, onu zənginləşdirməlidir. Yaxşılıq etmək, qayğı göstərmək, çalışmaq, zəhmətkeş olmaq, əməksevər olmaq və s. kimi müsbət keyfiyyətlər insanda formalaşmalı və inkişaf etməlidir.

Dərslikdəki 8 və 9-cu tapşırıqlar evə verilir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

12-ci dərs

# Fleyta

**Standartlar:** 2.1.3., 3.1.1., 3.1.2., 4.1.2.

**Təlim nəticələri:**

Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Əsas nitq hissəsi olan sifətin qrammatik mənasını izah edir.
Sifətə aid yazı qaydalarına əməl edir.
Mətnin hissələri arasında əlaqəni müəyyənləşdirir.

**İş forması:** kollektiv, kiçik qruplarla

**İş üsulu:** müzakirə, sual-cavab, təqdimat

1-ci addım. Müəllim motivasiya olaraq dərslikdə verilmiş (səh. 133) 10-cu tapşırığı yerinə yetirərsə ev tapşırığının yoxlanılması ilə başlaya bilər. Tapşırığın cavablarının müzakirəsi təşkil olunur və ümumiləşdirmə aparılır. Sonra “Fleyta” mətni bir daha yada salınır. Müəllim mətni xatırlatmaq üçün şagirdlərə mətnlə bağlı suallar verə bilər.

2-ci addım. Fleyta mətninə aid tapşırıqların yerinə yetirilməsi şagirdlərə tapşırılır. 3, 4, 5, 6 və 7-ci tapşırıqlar kollektiv şəkildə şifahi olaraq həyata keçirilə bilər.

5-ci tapşırığın cavabı: D)

3-cü addım. Tapşırıqların müzakirəsi zamanı şagirdlərin fikirləri mətnə istinad edilərək səsləndirilməlidir. Şagirdlər mətndən söylədikləri fikirlərin təsdiqini tapan cümlələri və ya abzasları səsləndirə, məzmunla bağlı həyatda qarşılaşdıqları məqamları da qeyd edə bilərlər.

4-cü addım. Müəllim dərslikdə (səh.134) verilmiş qayda ilə şagirdləri tanış edir. Qayda izah edilir. Müəllim əlavə misallar üzərində də qaydanı izah edə bilər. Daha sonra dərslikdə səhifə 133-də verilmiş 10, 11, 12, 13 və 14-cü tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar şifahi formada cavablandırıla bilər.

5-ci addım. Sonra şagirdlər kiçik qruplara bölünərək 24-cü tapşırığı həyata keçirməlidirlər. Bu tapşırığın həlli üçün dərslikdə istiqamət verilmişdir. Şagirdləri müəllim lazımi məlumatlarla təmin etməlidir. Qruplar təqdimatlarında cədvəllərdən, diaqramlardan, istifadə edə bilərlər. Təqdimatın hazırlanmasına 5-6 dəqiqə kifayət edər. Qruplar hazırladıqları təqdimatı nümayiş etdirirlər və buradakı məlumatlarla digər qrupların üzvlərini tanış edirlər.

6-cı addım. Sonra 20, 21, 22 və 23-cü tapşırıqlar yerinə yetirilir.
19-cu tapşırıq evə verilə və ya vaxt çatarsa dərsdə həyata keçirilə bilər.

**Tapşırığın cavabı:**
İşarələnmiş söz – YAXŞILIQ

1. bayraq
2. bağ
3. yaxşı
4. şar
5. ağıl
6. ailə



LAYİHƏ

7. Bakı
8. qız

7-ci addım. Dərsin sonunda keçirilən mövzu və müzakirə olunan məsələlərlə bağlı ümumiləşdirilmə aparılır və bu nəticə əldə olunur ki, yaxşılıq bitməyəndir və o, bumeranq kimidir. Yaxşılığı ona ehtiyacı olanlara payladıqca çoxalacaqdır. Etdiyin yaxşılıqlar sənə geri dönəcəkdir. Yaxşılıqlar insanın ətrafında xoşbəxtliklə, sevinclə, sevgi ilə, mərhəmətlə dolu bir dünya yaradır. İnsan bu dünyada özünü bəxtəvər hiss edir. Əmək və zəhmətin də insanın həyatında mühüm yeri vardır. Çəkilən zəhmət, sərf olunan əmək mütləq öz bəhrəsini verəcəkdir. İnsan zəhmətinin bəhrəsini də görəndə xoşbəxt olur. Hər bir çətin işin sonunda rahatlıq da vardır.

8-ci addım. Mövzunun sonunda verilmiş “Dəyərlər ağacı”nda zəhmətkeşlik, qayğı, sevgi, yaxşılıq və s. kimi keyfiyyətlər yazıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*13-cü dərs*

# Limon ağacı

**Standartlar:** 2.1.3., 3.1.2., 4.1.1.

**Təlim nəticələri:**

Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Oxu zamanı tələffüz qaydalarına əməl edir.
Mövzuya uyğun mətn tərtib edir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** müzakirə, klaster, sual-cavab

1-ci addım. Müəllim klaster üsulundan istifadə edərək lövhədə “Yaxşılıq” sözünü yazır. Yazılan sözün ətrafında şagirdlərin səsləndirdikləri fikirlər qeyd edilir. Şagirdlərin təxmini olaraq fikirləri qayğıkeşlik, yardım etmək, əl tutmaq, kömək etmək, xeyirxahlıq, mərhəmət və s. olacaqdır. Sonra müəllim şagirdlərə *Sizcə, edilən yaxşılıqlar insana geri qayıdırmı?, Siz yaxşılıq edərkən qarşılığını gözləyirsinizmi?* sualları ilə müraciət edir. Şagirdlərin fikirləri dinlənilir.

2-ci addım. Daha sonra müəllim dərslikdə verilmiş “Limon ağacı” mətninin oxusunu təşkil edir. Mətnin oxusu oxu qaydalarına əməl olunmaqla həyata keçirilir. Mətndə mötərizədə verilmiş sözlərdən düzgün olanı müəyyənləşdirilir və yerində istifadə edilir. Mətnin müəyyən hissəsində verilmiş sual anında cavablandırılır. Oxunun davamı təşkil edilir. *Cümləni tamamlamaq üçün hansı cavabı seçərdiniz?* sualının cavabı olaraq hər üç variantı seçmək olar.

3-cü addım. Mətnin sonunda verilmiş sualın cavabının müzakirəsi təşkil olunur. Burada axırıncı abzasda verilmiş **böyük** sözünün nə üçün dırnaqda yazıldığı soruşulur və cavab olaraq qeyd edilməlidir ki, həmin limon ağacı görünüşcə böyük olsa da, xaraktercə böyüklük göstərə bilmədi. O, paylaşmağı, yardım etməyi, kömək etməyi bacarmadı və s. Sonra müəllim dərslikdə



LAYİHƏ

verilmiş 1, 2, 3, 4, 5, 6 və 7-ci tapşırıqların yerinə yetirilməsini şagirdlərə tapşırır. Bu tapşırıqlar kollektiv formada, şifahi olaraq həyata keçirilə bilər.

1-ci tapşırığın həlli üçün dərslikdə nümunə verilmişdir.

2 və 3-cü tapşırıqlarda şagirdlərin fikirləri dinlənilir. Səsləndirdikləri fikirləri həyatlarında baş verən məqamlarla da əlaqələndirə bilərlər.

4-cü tapşırıqda birinci misraya kiçik limon ağacı, ikinci misraya böyük limon ağacı, üçüncü misraya kiçik limon ağacı qeyd ediləcəkdir.

5-ci tapşırıqda mətnin ideyası ilə bağlı cümlənin məzmunu yaxşılığın heç vaxt itməyəcəyi, sənə geri dönəcəyi və yaxşılıqların xoşbəxtlik gətirəcəyi ilə bağlı olması nəzərdə tutulur. Atalar sözləri isə yaxşılıqla bağlı olmalıdır. Məsələn;

Yaxşılıq itməz.
Yaxşılıq elə ki, başına gəlsin.
Yaxşılıq yaxşılıq gətirər.
Yaxşılıq yerdə qalmaz.
Yaxşılıq yeganə libasdır ki, heç vaxt köhnəlmir və s.

6-cı tapşırıqda doğru cavab C)

7-ci tapşırıqla bağlı müzakirə təşkil olunmalı, şagirdlərin cavabları dinlənilməlidir.

**4-cü addım.** Müəllim əlavə olaraq şagirdlərə mətnlə bağlı tapşırıqlar verə bilər. Bu tapşırıqlar aşağıdakılardır:

1. Fikirlərinizi bildirməklə aşağıdakı cümləni tamamlayın:

Bağban obrazını → bəyənmədim, / bəyəndim, → çünki ......................

2. Mətnin adı ilə razısınızmı? Siz mətnə necə ad verərdiniz?

Bu tapşırıqlar ətrafında müzakirə aparılır. Şagirdlərin cavabları dinlənilir. Yaxşı olardı ki, səslənən cavablar mətnə istinad edilərək səslənən fikri təsdiq edən cümlələrlə əsaslandırılsın.

**5-ci addım.** Sonra müəllim dərslikdə səhifə 139-da verilmiş 13-cü tapşırığın yerinə yetirilməsini şagirdlərə tövsiyə edir. Bu tapşırıq yazılı şəkildə həyata keçirilir. Mətnin yazılması üçün 5-6 cümlə kifayət edər. Seçmə yolla şagirdlərin yazdığı kiçik mətnlər müzakirə olunur.

**6-cı addım.** Dərsin sonunda müzakirə olunan mövzu ümumiləşdirilir və nəticəyə gəlinir ki, yaxşılıq müsbət mənəvi keyfiyyətlərdəndir. Yaxşılıqlar insanın həm daxili, həm də xarici aləmini gözəlliklərlə zənginləşdirir, onun inkişafına, cəmiyyətdə mövqeyinə, özünə münasibətinə müsbət təsir edir.

**7-ci addım.** 14-cü tapşırıq ev işi olaraq verilir.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

14-cü dərs

# Limon ağacı

**Standartlar:** 1.1.1., 1.1.2., 4.1.3.

**Təlim nəticələri:**
Mətn əsasında sualları cavablandırır.
Mətndəki hadisələrə münasibət bildirir.
Defislə yazılan sifətlərin yazılış qaydasını bilir.

**İş forması:** kollektiv, fərdi, kiçik qruplarla

**İş üsulu:** müzakirə, sual-cavab, təqdimat

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanılması ilə başlaya bilər. Şagirdlərin yazdıqları inşa, esse seçmə yolla dinlənilir, müzakirə təşkil olunur, ümumiləşdirilmə aparılır. Sonra dinləmə mətni səsləndirilir. Dinləmə mətnini müəllim özü və ya şagirdlər oxuya bilər.

***Dinləmə mətni***

---

*Filadelfiyada güclü yağış yağırdı. Saatlar gecə yarısını göstərirdi. Otelin qarşısında bir avtomobil dayandı. İçərisindən yaşlı bir kişi və həyat yoldaşı düşdü. İnzibatçının yerində gənc bir adam dayanmışdı. Gələnlər ondan bu gecəni qalmaq üçün otaq istədilər. İnzibatçı: "Təəssüf ki, boş yerimiz yoxdur. Ancaq sizi bu yağışda küçədə qoya bilmərəm. Əgər istəsəniz, mənim otağımda qala bilərsiniz", – dedi.*

*Qadın da, kişi də çox sevindilər və inzibatçıya təşəkkür edərək gecəni orada qaldılar.*

*Ertəsi gün oteldən ayrılanda adam inzibatçıya: "Siz, əslində, Amerikanın ən yaxşı otellərinə layiqsiniz. Kim bilir, bəlkə də, nə vaxtsa belə bir otelə sahib olacaqsınız", – dedi. Gülüşdülər və qarşılıqlı xoş sözlərdən sonra oteldən ayrıldılar.*

*Aradan illər keçdi. İnzibatçı bu hadisəni çoxdan unutmuşdu. Bir gün məktub aldı.*

*Məktub müəllifi yağışlı gecəni xatırladır və onu yaxın bir tarixdə Nyu-Yorkda gözlədiyini yazırdı. Məktubun içində Nyu-Yorka təyyarə bileti də var idi. Gənc inzibatçı Nyu-Yorka yola düşdü. Adam onu verdiyi ünvanda gözləyirdi. Görüşdükdən sonra tindəki qırmızı binanı göstərərək: "Budur... Bu da sənin otelin", – dedi.*

*Bunu deyən adam amerikalı məşhur "Valdorf Astoriya" otellərinin sahibi Vilyam Valdorf Astor, inzibatçı isə bu otelin ilk müdiri Corc C. Boldt idi...*

*"Ailəm" jurnalı. Yanvar 2009*

2-ci addım. Dinləmə mətninə aid suallar cavablandırılır.

1. Mətni necə adlandırardınız?
   a) Heç bir yaxşılıq kiçik deyil.
   b) Təsadüfi tanışlıq
   c) Otel sahibi
   d) Dost dosta tən gərək.



LAYİHƏ

2. Mətndəki əsas fikri müəyyən edin.

3. Mətnin ideyasına uyğun atalar sözü yazın.

4. Sxemi tamamlayın.




5. Kiçik limon ağacı ilə otelə gələn qocanın xüsusiyyətlərini xarakterizə edərək aşağıdakı cədvəli tamamlayın.

| kiçik limon ağacı | otelə gələn qoca |
|---|---|
| • ____________________ | • ____________________ |
| • ____________________ | • ____________________ |
| • ____________________ | • ____________________ |

6. Bu fikirlərdən biri mətndə vardır.
   A) Vilyam Valdorf Astor yaxşılıq etmək xatirinə yaxşılıq edir.
   B) Gənc inzibatçı Nyu-Yorka nə üçün getdiyini bilirdi.
   C) Vilyam Valdorf Astor gənc inzibatçını xeyirxahlığına görə mükafatlandırır.
   D) Gənc inzibatçı gecə yarısı otelə gələnlərin kim olduğunu bilirdi.

7. Mətndə hansı suala cavab tapmaq olmaz?
   A) Gənc inzibatçı nə üçün gələnlərə öz otağını təklif edir?
   B) Gənc hansı məzmunda məktub alır?
   C) Nə üçün gənc inzibatçıya otel hədiyyə edilir?
   D) Nə üçün Filadelfiyada güclü yağışlar gecə yarısı başladı?

8. Verilmiş sözlərin düzgün yazılışını qeyd edin.

| | |
|---|---|
| atel – | aftamabil – |
| təsüf – | təyarə – |
| məşur – | müdür – |

9. Mətndən bir neçə isim və sifət yazın.

| **İsim** | **Sifət** |
|---|---|
| .... | ... |

10. Mətndən hansı müsbət xüsusiyyətləri öyrəndiniz?

Mətni oxuduqdan sonra özünüzdə olan müsbət keyfiyyətlərin sayını artırmış oldunuzmu?

3-cü addım. Daha sonra müəllim dərslikdə (səh. 139) verilmiş qaydanı şagirdlərə izah edir. 8, 9, 10, 11, 12 və 15-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar fərdi və ya cütlərlə də həyata keçirilə bilər.



LAYİHƏ

Tapşırıqların cavabları:

8. toxum – 1. Ali bitkilərin adətən mayalanmadan sonra inkişaf edən və maya ilə qabıqdan ibarət olan rüşeymi
2. əkmək üçün ayrılmış dən
çiçək – 1. çılpaqtoxumlu örtülütoxumlu bitkilərin ləçək tacından və erkəkciklə dişicikdən ibarət olan çoxalma orqanı
ağac – budaqları və bərk gövdəsi olan çoxillik bitki
meyvə – bəzi ağacların, kolların yeməli, şirəli məhsulu

9. Bu tapşırıq üçün dərslikdə nümunə verilmişdir.
ümidi kəsilmək – inanmamaq
özünü dartmaq – lovğalanmaq
tab gətirə bilməmək – dözməmək
qol-qanad atmaq – inkişaf etmək

10. qollu-budaqlı, cılız ağac, dadsız meyvə, böyük ağac, kiçik boylu ağac, kiçik ağac
dadsız – keyfiyyət bildirir
qollu-budaqlı, cılız, böyük, kiçik – əlamət bildirir

11. Mətndə qırmızı rəngdə verilmiş sözlər sifətdir və sifətin yazılış qaydaları qeyd olunmalıdır.

12. Mətndən sifətlər seçilir və cədvəldə müvafiq sütunda yazılır.

15. Bu tapşırıq yazılı şəkildə yerinə yetirilir.

4-cü addım. Müəllim şagirdləri kiçik qruplara ayırır və limon ağacı haqqında araşdırmaya dəvət edir. Araşdırma üçün müəllim müxtəlif linklərdən (https://az.wikipedia.org/wiki/Limon, https://www.agro.gov.az/az/bitkicilik/coxillik-ekmeler/limon-1, https://www.bilgibitig.com/limon-agaci-ve-meyvesi.html), materiallardan istifadə etməli, şagirdləri məlumatlarla təmin etməlidir. Araşdırma aparmaq üçün dərslikdə istiqamət də verilmişdir. Təqdimatın hazırlanması üçün 4-5 dəqiqə kifayət edər.

5-ci addım. Qruplar hazırladıqları təqdimatları təqdim edirlər. Dərsin sonunda aparılmış müzakirələrə əsasən ümumiləşdirmə aparılır və belə nəticəyə gəlinir ki, təbiətə də qayğı göstərmək, onu qorumaq lazımdır. O da öz növbəsində ona qarşı etdiyin yaxşılığı sənə qaytaracaqdır. Yaxşılıq hər zaman sənin qarşına çıxacaqdır.

6-cı addım. Müəllim növbəti dərs üçün müxtəlif xalqlarda (Türkiyə, Pakistan, Tacikistan, Özbəkistan, Qazaxıstan, Türkmənistan) keçirilən "Novruz bayramı" haqqında məlumatların toplanmasını şagirdlərə ev tapşırığı kimi tövsiyə edir.

Mövzunun sonunda verilmiş "Dəyərlər ağacı"nda qayğı, yaxşılıq, sevgi, mərhəmət və s. kimi müsbət keyfiyyətlər yazıla bilər.

Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

# 15-ci dərs Novruz Cıdır düzündə

**Standartlar:** 2.1.3., 3.1.2., 4.1.2.

**Təlim nəticələri:**

Fikirlərini bildiyi hadisələrlə əsaslandırır.
Vurğudan düzgün istifadə edir.
Mətnin hissələri arasında əlaqəni müəyyənləşdirir.

**İş forması:** kollektiv, kiçik qruplarla

**İş üsulu:** müzakirə, sual-cavab, təqdimat

1-ci addım. Müəllim aşağıdakı linklərdən istifadə edərək dərsə başlaya bilər.
https://www.youtube.com/watch?v=vBOb3wuNoxw
https://www.youtube.com/watch?v=MBB_t725kCQ
https://www.youtube.com/watch?v=NDjtAbcQIRg

Linklərdən nümayiş etdirildikdən sonra müəllim *Sizcə, hər il qeyd etdiyimiz "Novruz bayramı"nı bu il fərqləndirən nə oldu?, Builki Novruzun əhəmiyyətini necə səciyyələndirə bilərsiniz?, Hansı əlamətdar hadisələrin şahidi oldunuz?* sualları ilə şagirdlərə müraciət edir. Suallar ətrafında müzakirə təşkil olunur. Şagirdlərin fikirləri dinlənilir. Səslənən fikirlərin əsaslandırılmış olmasına diqqət yetirilməlidir.

2-ci addım. Sonra dərslikdə verilmiş (səh. 140) mətnin oxusu təşkil olunur. Şagirdlər mətnlə tanış olurlar, mətnin sonunda verilmiş sualları cavablandırırlar.

3-cü addım. Müəllim "Novruz dünya xalqlarında" başlıqlı təqdimatın hazırlanması üçün iki böyük qrup yaradır. Həmin qrup üzvləri evə verilən tapşırıq əsasında topladıqları məlumatlardan istifadə edərək maraqlı, rəngarəng təqdimatların hazırlanmasına sövq edilirlər. Təqdimatın hazırlanması üçün 5-7 dəqiqə kifayət edər. Qruplar təqdimatları təqdim edirlər.

4-cü addım. Təqdimatdan əvvəl müəllim lövhədə aşağıda verilmiş cədvəli çəkə bilər və ya böyük ölçülü vərəq üzərində qeyd edib asa bilər, texniki avadanlıqdan istifadə edib elektron lövhədə göstərə bilər. Qrupların təqdimatı zamanı səslənən oxşar cəhətlər müvafiq sütunda qeyd edilməlidir.

Adları verilmiş ölkələrdə keçirilən Novruz bayramı ilə bizdə keçirilən Novruz bayramının oxşar cəhətlərini müəyyənləşdirin və diaqramında qeyd edin.






LAYİHƏ

**5-ci addım.** Sonra səslənən və qeyd edilən fikirlərin ümumiləşdirməsi aparılaraq belə nəticəyə gəlinir ki, hər bir xalqın öz milli adət-ənənələri, nəsildən-nəslə keçən, ötürülən milli-mənəvi dəyərləri vardır. Onları yaşatmaq hər bir insanın, vətəndaşın borcudur.

Daha sonra müəllim bu mövzunu ifadə edən atalar sözlərindən, hikmətli sözlərdən, müdrik fikirlərdən istifadə edə bilər.

Milli bayramımız olan Novruzun haqqında, Cıdır düzündə keçirilən Novruz və onun adət-ənənələrinin əhəmiyyəti haqqında geniş məlumatlar verməli, şagirdlərin fikirləri, mülahizələri dinlənilməlidir. Novruz bayramının birliyi, həmrəyliyi özündə əks etdirməsi vurğulanır. Müəllim Novruzla bağlı Ümummilli lider Heydər Əliyevin söylədiyi fikirlərlə dərsi yekunlaşdıra bilər:

> *Novruz bütün bayramlardan ona görə seçilir ki, o, xalqın içindən gələn bayramdır. Hər bir insanın qəlbindən gələn, hər bir azərbaycanlının qəlbini sevindirən bayramdır.*
>
> *Biz nə qədər çox yaşayırıqsa, Novruz bayramının Azərbaycan xalqı üçün, hər bir azərbaycanlı üçün nə qədər gərəkli və nə qədər sevimli olduğunu bir o qədər də hiss edirik.*

**6-cı addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 16-cı dərs Novruz Cıdır düzündə

**Standartlar:** 2.1.3., 3.1.2., 4.1.1.

**Təlim nəticələri:**
- Mülahizələrini bildirməklə fikirlərini əsaslandırır.
- Sözləri düzgün vurğu ilə oxuyur.
- Esse yazır.

**İş forması:** kollektiv, cütlər, fərdi

**İş üsulu:** beyin həmləsi, sual-cavab, klaster və ya anlayışın çıxarılması, rollu oxu

**1-ci addım.** Müəllim dərsə şagirdlərə mirvari ilə bağlı suallar verməklə başlaya bilər: *Mirvari nədir?, Mirvari görmüsünüzmü?, O hansı formada olur?, Mirvaridən nə məqsədlə istifadə edirlər? və s.*

Şagirdlərin cavabları ümumiləşdirilir.

Müəllim mirvari haqqında şagirdlərə məlum olan məlumatları klaster vasitəsilə də yoxlaya bilər.

**2-ci addım.** Dərslikdəki “Üç mirvari” mətninin oxusu təşkil edilir. Oxu zamanı şagirdin intonasiyası, düzgün oxusu diqqətdə saxlanır. Oxudan əvvəl orfoqrafiya tapşırıqları icra edilir. Mətnin rollar vasitəsilə oxusu daha məqsədəmüvafiqdir. Oxu zamanı abzasların ardıcıllığı bərpa edilir (2, 1, 3).

https://danishankitab.az/book/216/uc-mirvari (səsli mətn) istifadə etmək olar.

**3-cü addım.** Oxudan sonra mətndə qırmızı hərflə verilmiş sözlərin böyük hərflə yazılmasının səbəbi soruşulur. Şagirdlərə həmin sözlərin cümlədə ümumi isim kimi işlədilməsi təklif olunur.



LAYİHƏ

**4-cü addım.** *Siz nəyi seçərdiniz?* sualı ilə şagirdlərə müraciət olunur. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir.

**5-ci addım.** Dərslikdəki 1-3-cü tapşırıqlar üzərində iş aparılır. 1, 2-ci suallar kollektiv, 3-cü tapşırıq cütlər vasitəsilə icra edilə bilər.

Aşağıdakı tapşırıqlardan da istifadə etmək olar:

1. Mətnə əsasən müəyyən edin.

| | doğru | yanlış |
|---|---|---|
| 1) Baba və nəvə ilk olaraq Xoşbəxtlik adlı mirvarini dindirdilər. | | |
| 2) Nəvə babanın məsləhəti ilə razılaşdı. | | |
| 3) Baba nəvəsi ilə birlikdə yaşayırdı. | | |
| 4) Mirvarilər qayanın üstündə yerləşmişdilər. | | |
| 5) Onlar evə Var-dövlət adlı mirvarini apardılar. | | |
| 6) Gülbala hamıya kömək etmək üçün var-dövləti seçmək istəyir. | | |

2. Mətnin ideyasını müəyyənləşdirin, fikrinizi atalar sözü və ya aforizmlə ifadə edin.
3. Baba obrazının xüsusiyyətləri hansılardır?
4. Nəvə obrazının xüsusiyyətləri hansılardır?

**6-cı addım.** 5-ci tapşırıq üzərində iş aparılır. Dərslikdə essenin yazılması üçün istiqamət verilmişdir. Tapşırıq fərdi şəkildə icra edilir.

**7-ci addım.** Yazılar seçmə yolla oxutdurulur. Yaxşı olar ki, oxunan yazılara şagirdlərin özləri tərəfindən münasibət bildirilsin.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## *17-ci dərs* Üç mirvari

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.1., 4.1.1.

**Təlim nəticələri:**

Mətnlə bağlı suallar verir.
Mətndəki faktları müəyyən edir.
Danışarkən sözləri düzgün tələffüz edir.
Təqdimat hazırlayır.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** beyin həmləsi, sual-cavab

**1-ci addım.** Müəllim şagirdlərə mövzu ilə bağlı araşdırma aparacaqları haqqında məlumat verir. Araşdırma mövzusunun adını elan edir.

**2-ci addım.** Dərslikdə verilmiş "Mirvarinin yaranması bir canlının həyatına son qoyur" fikri əsasında sinfinin səviyyəsi nəzərə alınmaqla debat və ya müzakirə təşkil edilir. https://www.youtube.com/watch?v=Qu4TVSkgJHQ linkindən istifadə etmək olar. Şagirdlər fikirlərini sadə şəkildə izah edirlər.



LAYİHƏ

3-cü addım. Dərslikdəki dəniz ilbizləri haqqında məlumat oxunur. Mirvarinin əmələ gəlməsini göstərən sxem üzərində iş aparılır.

Müəllim dərsə təqdim olunan linklərdən uyğun bildiyindən istifadə etməklə davam etdirir:

https://www.youtube.com/watch?v=PMtUKnsnNSA (Dənizlərdəki gözqamaşdıran cavahirat: Mirvarilər)

https://www.youtube.com/watch?v=MBNKLgPk4G0 Texniki imkanlar yoxdursa, müəllim bu məlumatdan istifadə edə bilər:

*İstənilən balıqqulağının içərisində yaşayan molyusk mirvari yaradaraq, onu böyüdə bilər. Amma sədəf mirvariyə təbiətdə çox nadir hallarda rast gəlinir. Belə bir mirvarinin yaranması üçün kənardan hər hansı bir qıcıqlandırıcının (qum dənəsi, parazit və s.) müdaxiləsi zəruridir. Belə ki molyusk həmin kənar maddəni mirvarinin içində saxlayır. Zərif sədəf pərdələr bir-birinin üstünə çəkilərək lay-lay yığılır və bunun nəticəsində gözəl bir inci – mirvari yaranır. Olduqca maraqlı müdafiə mexanizmidir.*

*Yaranma yerindən asılı olaraq, mirvarilər dəniz mirvarilərinə və şirin su hövzələrində yaranan mirvarilərə bölünür. Əmələgəlmə formasından asılı olaraq isə mirvarilər təbii və süni yetişdirilən mirvarilərə bölünür. Təbiət mirvariləri son zamanlar olduqca nadir tapıntıya çevrilib, onlara rast gəlmək, demək olar ki, mümkün deyil. Bir qiymətli mirvari tapmaq üçün yüzlərlə molyusk öldürmək lazım gəlir. Mirvarini yetişdirmək isə daha asandır. Proses, demək olar ki eynidir. Bundan ötrü insan özü ilbizə süni şəkildə qıcıqlandırıcı daxil edir. Bu, əsasən, digər ilbizin dərisinin bir hissəsi olur. Mirvarinin təşəkkültapma prosesi, adətən, iki ildən yeddi ilə qədər çəkir.*

*Qiymətli daş hesab olunan mirvarini yaratmaq qabiliyyəti cəmi iki molyuska məxsusdur, bunlardan biri dənizdə yaşayan mirvari ilbizi, digəri isə şirin sular sakini midiyadır, ona çay və göllərdə rast gəlmək olar.*

*Mirvarilər aləmi haqqında daha bir maraqlı fakt odur ki, bu yarım orqanik varlıqlar, elə məhz yarımcanlı olduqları üçün nadir hallarda bir neçə yüz il ömür sürürlər. Bizə məlum ən qədimi (yaşlı) mirvari bir zamanlar Elizabet Teylora məxsus armud şəkilli "Preqrina" mirvarisidir, çəkisi 55,95 karat olan bu inci Mirvari adasında hələ 16-cı əsrin ortalarında aşkar olunmuşdur. Şirin sularda yetişdirilən mirvarilərin böyük bir hissəsi Çinin payına düşür, amma eyni zamanda Şotlandiya, Almaniya, Rusiya və Şimali Amerika ölkələrində də mirvari yetişdirilməsi ilə məşğul olurlar. Dəniz mirvariləri isə Qırmızı dənizin və Fars körfəzinin sakit laqunlarında (dənizdən ayrılmış göllər), həmçinin Yaponiya və Şri-Lankanın vulkanik mənşəli Mərcan adaları sahillərində yetişdirilir.*

*Ağ mirvarilər daha geniş yayılmışdır. Amma onlar təkcə ağ rəngdə olmur. Sədəfdəki rəngin interferensiyasından asılı olaraq, bu incilər krem və ya çəhrayı rəngdə ola bilərlər. Sarı, yaşıl və qara mirvarilərə isə daha az rast gəlinir. Ən nadir və ən bahalı incilər isə mavi və ya tünd tutqun – boz rəngdə olanlardır.*

https://banker.az/mirvaril%C9%99rin-yaranmasi-v%C9%99-xususiyy%C9%99tl%C9%99ri/

4-cü addım. Dərslikdəki 4-cü tapşırıq üzərində iş aparılır. Sinif qruplara bölünür. Qruplara mirvarinin əmələ gəlməsi ilə bağlı təqdimat hazırlamaq tapşırılır. Tapşırıqları qruplar arasında belə bölmək olar:

1. Mirvarinin əmələ gəlməsi
2. Mirvarinin toplanması
3. Mirvari bəzək əşyası kimi

Tapşırıq qruplar arasında belə də bölünə bilər:

1 qrup mövzu ilə bağlı təqdimat hazırlayır.
2 qrup mövzu ilə bağlı inşa (və ya esse) yazır.
3 qrup mövzu ilə bağlı dialoq hazırlayır.



LAYİHƏ

**5-ci addım.** Qruplar mövzu ətrafında işləyir. Müəllim qrupları materialın yığcam və məzmunlu hazırlanmasına istiqamətləndirir.

**6-cı addım.** Qruplar işlərini təqdim edir. Müzakirələr aparılır və ümumiləşdirilir. Mövzuya yekun vurulur.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*18-ci dərs*

## Layihənin III hissəsinin yekunu

**Standartlar:** 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Müzakirələrdə fikirlərini əsaslandırır.
Vahid fikir formalaşdırır.

**İş forması:** kiçik qruplarla, kollektiv

**İş üsulu:** əqli hücum, təqdimat

**1-ci addım.** Müəllim şagirdlərə III bölməni yekunlaşdırdıqları, bu bölmədə maraqlı bir səyahət etdiklərini şagirdin diqqətinə çatdırır. Eyni zamanda, şagirdlərin də bölmə ilə bağlı fikirlərini, bu “səyahətin” onlara nə qazandırdığını suallar vasitəsilə soruşur.

**2-ci addım.** Şagirdlərin diqqəti 146-cı səhifədə verilmiş suallara yönəlir və sualların müzakirəsi təşkil olunur:

*Mənəvi dəyərlər nədir?, Mənəvi dəyərlər aləminə səyahət sizə nə qazandırdı?,*

*Öyrəndiyiniz müsbət keyfiyyətlər düşüncələrinizdə hansı dəyişikliyi yaratdı?, Özünüzdə müşahidə etdiyiniz, lakin mətnləri öyrəndikdən sonra “Son!” dediyiniz keyfiyyət oldumu?*

Şagirdlərin ilkin təxminləri dinlənilir.

**3-cü addım.** Müəllim bölmə ilə bağlı şagirdlərin fikirlərini öyrənmək üçün *Bölmədə maraqlı nə oldu?, Hansı mətni bəyəndiniz (bəyənmədiniz?)?, Nə üçün?* suallarından istifadə edə bilər.

**4-cü addım.** Müəllim bir daha şagirdlərə III bölməni yekunlaşdırdıqlarını, artıq gəminin yelkənlərindəki suallardan birini açmağın vaxtı gəldiyini onlara xatırladır.

Sual işarəsinin yerində nə yazıldığını bilmək üçün daha maraqlı tapşırıqları icra etməli olduqlarını onların diqqətinə çatdırır. Tapşırıqları icra etmək üçün təlimatı şagirdlərə xatırladır (dərslik, səh. 146).

**5-ci addım.** Qruplara tapşırıqlar paylanır. Tapşırıqlar qrupların səviyyələri nəzərə alınmaqla paylanır.

**I qrup**

**1.** Dünyanın işini, yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.
misralarında Nizami Gəncəvi hansı mənəvi keyfiyyəti təbliğ edir? *(yaxşılıq)*



LAYİHƏ

**2.** “Qızıma məktub” mətnində çərçivədə verilmiş söz *(insan)*
**3.** *Hansı peşəni seçməyindən asılı olmayaraq, insanları sev* cümləsində qırmızı rəngli sözü hansı ifadə ilə əvəz etsəniz, məzmun dəyişməz? *(sənət)*

***Alınan cümlə:*** **Yaxşılıq insanlıq sənətidir.**

**II qrup**

**1.** “Üç mirvari” hekayəsində çərçivəyə alınmış söz *(xoşbəxtlik)*
**2.** “Nəsihət xəzinəsi”ndə 2-ci aforizmdə qırmızı rəngdə verilmiş söz *(yaxşı)*
**3.** *Düşmən* sözünün əksi *(dost)*
**4.** İzahına əsasən sözü müəyyən edin:
*Hər hansı bir əlamətinə görə çoxun arasından birinə üstünlük vermək (seçmək)*
**5.** “Tək hərəkət” mətnində çərçivəyə alınmış söz *(asılı)*

***Alınan cümlə:*** **Xoşbəxtlik yaxşı dost seçməkdən asılıdır.**

**III qrup**

**1.** “Qızıma məktub” mətnində göy rəngdə verilmiş söz *(insanlıq)*
**2.** *1-1+nə* ifadəsini sözlə yazın. *(bir-birinə)*
**3.** *Açan* sözünün əksi *(bağlayan)*
**4.** Azərbaycan əlifbasının hərf ardıcıllığına görə sözü müəyyənləşdirin
17 1 24 26 13 18 13 17 18 13 *(qarşılıqlı)*
**5.** İzahına əsasən sözü müəyyən edin:
*Böyüklərə, yaşlılara, ətrafa göstərilən ehtiram (hörmət)*

***Alınan cümlə:*** **İnsanları bir-birinə bağlayan qarşılıqlı hörmətdir.**

**IV qrup**

**1.** Nizaminin “**Doğrunu** danışan hörmətli olar...” misrasında fərqləndirilmiş sözü yaxınmənalı sözlə əvəz edin. *(düzgün)*
**2.** “Fleyta” mətnində yaşıl rəngdə verilmiş söz *(düşünmək)*
**3.** *Kiçik* sözünə əks olan söz *(böyük)*
**4.** “Baxmaq, görmək, tətbiq etmək” mətnində çərçivəyə alınmış söz *(kəşflər)*
**5.** “Baxmaq, görmək, tətbiq etmək” mətnində yaşıl rəngdə verilmiş söz *(qədər)*
**6.** Nöqtələrin yerinə ad bildirən sözlərin hamısına aid ola biləcək sözü seçib yazın.
*Maraqlı, qeyri-adi, xoşagəlməz, əhəmiyyətli, çevik*
... iş, ... hadisə, ... qərar *(əhəmiyyətli)*

***Alınan cümlə:*** **Düzgün düşünmək böyük kəşflər qədər əhəmiyyətlidir.**

6-cı addım. Qruplar tapşırıqları təqdim edirlər. Müəllim gəminin yelkənlərini açmaq üçün bu cümlələrdən vahid cümlə yaratmağı tapşırır.

***Gəminin yelkənində:*** **Müsbət keyfiyyətlərə malik insan xoşbəxtdir.**



LAYİHƏ

## 19-cu dərs Kiçik Summativ Qiymətləndirmə – 2

**Alma ağacı**

Məktəbin həyətində Vüsalla birlikdə (*basdırdığımız, əkdiyimiz*) alma ağacı hələ çox körpə idi. Çəhrayı çiçəkləri yenicə tökülmüşdü. Ancaq gözləmədiyimiz halda birdən havalar soyudu.[4] Axşama yaxın **(şaxta, şaxda)** düşməyə başladı.[1]

Sinfimizin bütün uşaqları təşvişə düşdülər.[2] Qərara gəldik ki, səhər qədər qalıb bağçanın keşiyini çəkək.[3] Ağaclardan xeyli kənarda tonqallar qaladıq. Hər tərəfi **(tüstü, tüsdü)** bürüdü. Ocaqlar səhərə kimi kəndin üstünü işıqlandırdı.

Gülünü yenicə tökmüş ağacları şaxtadan beləcə qoruduq. Səhər günəş yenə dağların arasından boylandı. Bahar quşlarının şən səsləri ətrafa yayıldı. Hər şey öz qaydasında idi.

**Ağaclarımızı şaxta vurmamışdı.**

(Qılman İlkin)

1. Mətndəki səbəb-nəticə əlaqələrini cədvələ əsasən tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| Gözləmədiyimiz halda havalar soyudu. | ..... |
| ....... | Hər tərəfi tüstü bürüdü. |
| Axşama yaxın şaxta düşməyə başladı. | .... |
| ....... | Bahar quşlarının şən səsləri ətrafa yayıldı. |

2. Mətnə əsasən demək olar:
   A) Uşaqların birgəfəaliyyəti ağacları xilas edir.
   B) Ağacların bir qismini şaxta vurur.
   C) Havanın şaxtalı olacağını bilən uşaqlar vaxtında tədbir gördülər.
   D) Çiçəkləri töküldüyü üçün ağacları şaxta tam vurmadı.

3. Mətn vasitəsilə çatdırılılan əsas fikri yazın.

____________________________________________

4. Cədvəli mətnə əsasən tamamlayın:

| Mətndə ifadə olunan fikir | Təsdiq edən cümlə |
|---|---|
| 1. Çevik qərarın verilməsi | Qərara gəldik ki, səhərə qədər qalıb bağçanın keşiyini çəkək. |
| 2. Vəziyyətdən çıxış yolu | Ağaclardan xeyli kənarda tonqallar qaladıq. |
| 3. Təbiətə qayğı | Gülünü yenicə tökmüş ağacları şaxtadan beləcə qoruduq. |

5. Mətndən hansı suala cavab tapmaq olmaz?
   A) Uşaqlar nə üçün tonqal qaladılar?
   B) Tonqal qalamağı kim təklif etdi?
   C) Ağaclar necə qorundu?
   D) Ağacları nə üçün şaxta vurmadı?



LAYİHƏ

6. Mətnin 1-ci abzasında 1-ci cümlədə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?

A) *Basdırdığımız* sözünün işlənməsi daha düzgündür.
B) *Əkdiyimiz* sözünün işlənməsi daha düzgündür.
C) Hər iki söz işlənə bilər.
D) Heç biri işlənə bilməz.

7. Hansı cümlə mətndə altından xətt çəkilmiş sözün mənasına uyğundur?

A) Fateh albomda gözəl təbiət təsvirləri çəkirdi.
B) Əsgərlərimiz Vətənin sərhədlərini layiqincə qoruyurlar.
C) Boşqabı qonağa tərəf yaxınlaşdırdı.
D) Qapını özünə tərəf dartdı.

8. Mətndə tünd şriftlə verilmiş cümlədə *şaxta vurmamışdı* sözü hansı mənada işlənmişdir?

______________________________________________________________________

9. Sual işarələrinin yerində yazılmalı sözü müəyyən edin.

soyumaq → ?     şən → ?     işıqlı → ?

10. Cümləni tamamlayın.

*Vüsal xüsusi isimdir, çünki* ______________________________

11. Mətndən verilmiş sifətlərə uyğun isimləri seçib yazın.

körpə __________     çəhrayı __________     şən __________

12. Cədvəldə sözlərin düzgün və ya səhv yazılışını müəyyən edin.

| | Düzdür | Səhvdir |
|---|---|---|
| çiçəyləri | | + |
| keşiyini | | |
| çiçəklərə | | |
| keşiyçi | | |

13. Mətndə mötərizədə tünd şriftlə verilmiş sözlərdən hansı yazılış, hansı tələffüz qaydasına uyğundur?

| Yazılış | Tələffüz |
|---|---|
| ____________ | [            ] |
| ____________ | [            ] |

14. *Məktəbin həyətindəki alma ağacları sanki bizdən kömək istəyirdi* cümləsini mətndə nömrələnmiş hansı cümlədən sonra yerləşdirsəniz, ardıcıllıq pozulmaz?

A) 2     B) 3     C) 1     D) 4

15. Mətnin sonluğunu tamamlamaq üçün 1-2 cümlə yazın.

______________________________________________________



LAYİHƏ

# 4

## Zəfər yolu

Günəşə baxan şəhər
Günəşli torpaq
Danışan abidələr
KSQ
Danışan abidələr
Dahi şəhər
Musiqi konservatoriyası
Layihənin yekunu
KSQ

LAYİHƏ

1-ci dərs

# Günəşə baxan şəhər

**Standartlar:** 1.1.2., 2.1.1., 2.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Mövzu ilə bağlı fakt və hadisələri toplayır;
Danışan zaman düzgün tələffüz qaydalarına əməl edir;
Mövzu ilə bağlı fikirlərini faktlarla təsdiq edir;
Topladığı məlumatlardan istifadə etməklə dialoqu tamamlayır.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** müzakirə, karusel, ikihissəli gündəlik

1-ci addım. Müəllim şagirdin diqqətini bölmənin başlığına və orada verilən istiqamətlərə (səh. 148-149) cəlb edir. Bölmədə öyrədiləcək mövzular haqqında ümumi məlumat verilir. Şagirdlərə bildirilir ki, son bölmədə biz sizinlə I bölmədə bizə teleqram vasitəsilə çatdırılacaq fikri öyrənəcək, zirvənin hara olduğunu öyrənəcəyik. Müəllim zirvə sözünün hansı leksik mənanı ifadə etdiyini də şagirdlərdən soruşa bilər.

Diqqət mətnin adına yönəldilir, şagirdlərə suallar ünvanlanır: “Sizcə, Günəşə baxan şəhər” dedikdə hara nəzərdə tutulur?”, “Niyə belə hesab edirsiniz?” Şagirdlərin cavabları dinlənilir. Dərslikdə həmin ifadənin izahı ilə bağlı Sara Aşurbəylinin tədqiqatlar nəticəsində gəldiyi fikir şagirdlərə oxutdurulur. Müəllim tərəfindən də oxuna və ya məlumat verilə bilər.

Daha sonra “Siz Bakı şəhərinin adı ilə bağlı hansı məlumata maliksiniz?” sualı ilə şagirdlərə müraciət edir.

2-ci addım. Şagirdlər tədqiqata cəlb edilir: “Təsəvvür edin ki, Sizə başqa ölkədən (şəhərdən, rayondan, kənddən və s.) qonaq gəlmişdir. Siz Bakı şəhəri, onun görməli yerləri, adət-ənənələri, mətbəxi və s. haqqında onları məlumatlandırmalısınız. Qonağınızı, ilk növbədə, hara dəvət edərsiniz?” sualı ilə şagirdlərə müraciət edilir.

Daha sonra onların qarşısında problem qoyulur: Qonağınızı üçün, ilk növbədə, özünüz məlumatlı olmalısınız”.

3-cü addım. “Siz Bakı şəhəri haqqında hansı məlumatlara maliksiniz?” sualı ilə şagirdlərə müraciət edilir. Şagirdlərin fikirləri öyrənilir. Fikirlər yığcam şəkildə lövhəyə qeyd oluna bilər. Müəllim məsələyə daha yaradıcı yanaşaraq lövhədən Bakı şəhərinin şəklini asmaqla, şagirdlərə stikerlər paylayır, bildikləri məlumatı yazmağı, həmin kağızları lövhədəki şəklin ətrafına yapışdırmağı tapşırır.

4-cü addım. 151-ci səhifədəki dialoq oxunur. Onu tamamlamaq şagirdlərə tapşırılır. Dialoqu tamamlamaq üçün müəllim sinfinin, şagirdin, mühitin səviyyəsini nəzərə almaqla təqdim olunan linklərdən uyğun olanını təqdim edə bilər.

Seçilmiş linkdən şagirdlər mövzu ilə bağlı məlumat əldə edirlər, dialoqu tamamlamaq üçün həmin məlumatlardan istifadə edirlər.

Tapşırığı icra etmək üçün qrup üzvləri arasında vəzifə bölgüsünü düzgün aparmaq lazımdır.

https://www.youtube.com/watch?v=XczUpWypSiY (Əsrlərin yadigarı İçərişəhər)
https://www.youtube.com/watch?v=Ilku2mspFvY (Eldar Mansurov – İçərişəhərim)
https://www.youtube.com/watch?v=iO3INLuJnuI (İçərişəhər – Oqtay Ağayev)

LAYİHƏ

https://www.youtube.com/watch?v=Yp7xDBCEsJs Hüseynağa Aslanov – "İçərişəhər" poema (Zeynal Cabbarzadə)

https://azerbaijan360.az/

Bu linklərdəki materiallara baxış keçirməklə şagirdləri təqdimat hazırlamağa da yönəltmək olar. Linklərdən istifadə zamanı ikihissəli gündəlikdən istifadə edə bilər.

| Dinlədiyim (oxuduğum) mətndən məlumat | Məlumata münasibətim (məlumatın məndə oyatdığı təəssürat) |
|---|---|
| | |

Dialoqun tamamlanması üçün dərslikdə istiqamət (səh. 152) verilmişdir. Tamamlamaq üçün 10-12 cümlə kifayətdir.

**5-ci addım.** Qruplar işlərini təqdim edirlər. Dialoqu tamamlamaq üçün qrupların yazıları dinlənilir. Lazım gələrsə, müvafiq düzəlişlər aparılır. Ən uyğun dialoq seçilir və dərslikdəki dialoqla əlaqələndirməyə diqqət yetirilir.

**6-cı addım.** Hazır dialoq (dərslikdəki və şagirdlərin hazırladıqları) rollar vasitəsilə təqdim edilir.

**7-ci addım.** Evə mövzu ilə bağlı (şagirdlərin səviyyəsi nəzərə alınmaqla) tapşırıqlar verilir.

1. Bakı haqqında esse yazmaq (10-15 cümlə)
2. Bakıdakı tarixi və ya müasir abidələrdən hər hansı biri haqqında təqdimat hazırlamaq (3 slayd)
3. Divar qəzeti hazırlamaq
4. Buklet hazırlamaq
5. Plastilin və ya digər fiqurlardan istifadə etməklə Bakının maketini hazırlamaq

Qeyd. Növbəti dərsdə işləmək üçün şagirdlərə yaşadığı inzibati rayon haqqında məlumat toplamaq, həmin məlumatları dərsə gətirmək tapşırılır.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 2-ci dərs Günəşə baxan şəhər

**Standartlar:** 4.1.1., 4.1.2., 4.1.3.

**Təlim nəticələri:**

Topladığı məlumatlardan istifadə etməklə mətn hazırlayır.
Mətnin hissələrini əlaqələndirir.
Yazıda isim və sifətlərin yazılışına əməl edir.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** müzakirə, yazı



LAYİHƏ

**1-ci addım.** Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlayır. Tapşırıqlar müzakirə olunur və mövzu yekunlaşdırılır.

**2-ci addım.** Müəllim şagirdlərə "Rayon nədir?", "Rayon dedikdə nə başa düşürsünüz?" sualı ilə müraciət edir. Daha sonra şagirdlərə "Hansı rayonları tanıyırsınız?", "Hansı rayonların adını çəkə bilərsiniz?", "Hansı rayonlarda olmusunuz?" suallarını ünvanlayır. Cavablar ümumiləşdirilir və şagirdlərə növbəti sualla müraciət edilir: "İnzibati rayon" ifadəsini eşitmisinizmi?"

Təbii ki, şagirdlər bunu izah etməkdə çətinlik çəkəcək. Müəllim sadə şəkildə bunu belə izah edə bilər: Bakı böyük şəhərdir. Bu şəhər ayrı-ayrı ərazilərə bölünmüşdür. Bu ərazilərin hər birinin idarəetmə sistemi, abidələri, adət-ənənəsi, məktəbləri, parkları və s. vardır.

**3-cü addım.** Müəllim şagirdlərə inzibati rayonlar üzrə səyahətə çıxmağı təklif edir. Dərslikdə 152–153-cü səhifədəki şəkillər üzərində yığcam müzakirə aparılır. Şagirdlərə bildirilir ki, mövzu üzrə təqdimat (inşa və ya esse) hazırlanacaq.

**4-cü addım.** Şagirdlər dərslikdə Xəzər rayonu üzrə nümunə kimi hazırlanmış təqdimatla tanış edilir. Tərkib hissələrdə verilmiş məlumatlara, məlumatların təqdiminə diqqət yetirilir.

Daha sonra şagirdlər 154-cü səhifədəki planla tanış edilir. Müəllimlər şagirdlərlə birlikdə fərqli plan hazırlaya bilərlər.

**5-ci addım.** Qruplar müəyyənləşdirilir. Qrupların hazırlayacaqları mətn üçün hansı formaya (təqdimat, inşa və ya esse) üstünlük verdikləri barədə müzakirə aparılır. Verilən plan üzrə təqdimat (inşa və ya esse) hazırlamağı tapşırır. Bunu icra etmək üçün müəllim müxtəlif priyomlardan istifadə edə bilər:

1. Oxuduğu məktəbin yerləşdiyi inzibati ərazi üzrə təqdimatın hazırlanması.
2. Sinif şagirdlərin sayına görə 3-4 qrupa bölünür. Püşkatma yolu ilə təqdimat hazırlanacaq inzibati ərazi müəyyənləşdirilir.
3. Qrupların sayına uyğun inzibati ərazi seçilir, şagirdlərin topladığı məlumatlar əsasında təqdimat hazırlamaq tapşırılır.

Tapşırığın icrası üçün qruplara 20 dəq. vaxt verilir.

**6-cı addım.** Qruplar təqdimatlarını, yaxud məlumatlarını təqdim etmək üçün seçilmiş forma üzərində işləyirlər.

Təbii ki, bunun icrası bir 45 dəqiqədə mümkün deyil. Şagirdlərin işləri natamam qalsa da, narahat olmağa dəyməz. Tapşırığın ardını növbəti dərsdə davam etdirmək daha məqsədəuyğundur.

**7-ci addım.** Müəllim qrupların tapşırığı hansı səviyyədə icra etmələrinə diqqət yetirir, onlara istiqamət verir. Qrupları daha yaxşı işləməyə sövq edir.

Əgər tapşırıq tamamlanmazsa, qiymətləndirilmə aparılmır.

Dərsdə aşağıdakı linklərdən istifadə etməklə müxtəlif məlumatlar toplamaq olar:

http://www.elibrary.az/docs/jurnal/jrn2020_471.pdf

https://www.youtube.com/watch?v=2HDqPbCs44Q "Qala" Dövlət Tarix Etnoqrafiya Qoruğu

https://www.youtube.com/watch?v=ASDWuVTc-Ls (Atəşgah)

LAYİHƏ

## 3-cü dərs Günəşə baxan şəhər

**Standartlar:** 3.1.1., 4.1.3.

**Təlim nəticələri:**

Sayların qrammatik mənasını izah edir;

Sayların yazılış qaydalarına əməl edir.

**İş forması:** kollektiv, qruplarla, fərdi

**İş üsulu:** müzakirə, yazı

**1-ci addım.** Ötən dərsdə şagirdlər təqdimatlarını tamamlaya bilməmişlərsə, bu dərsdə iş davam etdirilir. Müəllim qrupların işinə nəzarət edir.

Əgər tapşırıq tamamlanmışsa, dərs birbaşa sayların tədrisi, digər nitq hissələri ilə əlaqəsi üzərində qurulur.

**2-ci addım.** Qrup işlərini təqdim edirlər. Təqdimatların müzakirəsi aparılır. Yeri gəldikcə, *“Niyə belə hesab edirsiniz?”, “Niyə məhz bu abidədən (mətbəxdən, məkandan və s.) yazınızda söhbət açmısınız?”, “Niyə bu şəkildən istifadə etmisiniz?”* kimi suallardan istifadə edir.

Qruplar tərəfindən bir-birlərinə sual verməsi, təqdimatda əksini tapmış məsələlərə münasibət bildirilməsinin təşkili məqsədəuyğundur.

Təqdimat zamanı müəllim şagirdlərin sözləri, vurğunu düzgün tələffüz etməsinə, fikirlərini əlaqələndirməsinə və əsaslandırmasına, suallara dəqiq və konkret cavab verməsinə diqqət yetirir. Yeri gəldikcə şagirdlərin təqdimatında işlənən və müəllim tərəfindən seçilmiş sözlərin qrammatik mənasının müəyyənləşdirilməsi həmin sözlərin gələcəkdə cümlə quran zaman şagirdlərdə onlardan düzgün istifadə qaydalarının formalaşmasına səbəb olacaqdır.

**3-cü addım.** Müəllim mövzunu yekunlaşdırır və ümumi nəticə əldə edilir: Bakı böyük şəhərdir. O bizim respublikamızın paytaxtıdır. Biz Bakı, onun tarixi, formalaşması, inzibati əraziləri, yaşadığımız ərazi haqqında kifayət qədər məlumatlı olmalıyıq. Yeri gəldikdə yaşadığımız ərazi, onun adət-ənənəsi, mətbəxi, tarixi abidələri haqqında dostlarımıza, tanışlarımıza, digər ölkələrdən gəlmiş həmyaşıdlarımıza məlumat verməliyik.

Daha sonra şagirdlərə bildirir: Biz səyahətimizə təsadüfi Bakıda başlamamışıq. Çünki Bakıdan Azərbaycanın bütün bölgələrinə getmək mümkündür. Bizim də səyahətə başlamaqda məqsədimiz teleqramda bizə görüşü vəd edilən zirvəyə çatmaqdır.

**4-cü addım.** Müəllim dərslikdə verilmiş Xəzər rayonu haqqında təqdimatda sayları müəyyənləşdirmək üçün iş aparır. Bunu şagirdlərin hazırladıqları təqdimatlar (əgər saylar varsa) üzərində də icra etmək olar.

**5-ci addım.** Saylar haqqında qayda izah edilir. Sayların, əsasən, isim nitq hissəsi ilə bağlı olduğu bildirilir. Sayların orfoqrafiyası şagirdlərə öyrədilir.

**6-cı addım.** 1–3-cü tapşırıqlar icra edilir. Tapşırıqların fərdi qaydada icrası məqsədəuyğundur.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.



LAYİHƏ

## 4-5-ci dərslər Günəşli torpaq

**Standartlar:** 1.1.2., 2.1.1., 2.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Mövzu ilə bağlı fakt və hadisələri toplayır.
Danışan zaman düzgün tələffüz qaydalarına əməl edir.
Mövzu ilə bağlı fikirlərini faktlarla təsdiq edir.
Topladığı məlumatlardan istifadə etməklə dialoqu tamamlayır.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** müzakirə

**Müəllimin nəzərinə:**

Dərsin 4-cü saatında Sabirabad, 5-ci saatında Saatlı mövzusu tədris olunur. Hər iki dərsə 1 saat vaxt ayrılır. Hər iki dərs eyni istiqamətdə, yaxud müəllimin sinfinin və şagirdinin səviyyəsini nəzərə almaqla fərqli şəkildə qurula bilər.

Saatlı rayonu üzrə araşdırma apararkən dərsin sonunda *"Bu yol sizi hara apara bilər?"* sualı üzərində yığcam müzakirə təşkil etməyə məqsədəuyğundur.

1-ci addım. Müəllim dərsə dərslikdəki dialoqla başlaya bilər. İlk cümlə (Bu dəfə yolumuz Muğan istiqamətindədir.) oxunur. Şagirdlərdən Muğan haqqında nə bildikləri soruşulur. Şagirdlər suala cavab verməkdə çətinlik çəkərlərsə, müəllim özü məlumat verməlidir.

**Müəllimin nəzərinə:**

http://www.anl.az/down/meqale/hafta_ichi/2016/may/491744.htm; https://sherg.az/x%C9%99 b%C9%99r/17096/ linklərindən istifadə etməklə Muğan haqqında məlumat əldə etmək olar. Muğan haqqında təsəvvür yaratmaq üçün S.Vurğunun "Muğan" poemasından istifadə etmək olar.

Bu məlumatdan da istifadə etmək olar.

***Muğanın dastanlaşmış tarixi...***

*"Muğan" sözünün mənası barədə müxtəlif fikirlər var. Tanınmış dilçi-alim, professor Qara Məşədiyevin fikrincə, Muğan "Muğal" sözünün birinci komponenti olan "Muğ"dan əmələ gəlib. "Muğ" şöhrət, fəxr mənasına gələn qədim türk sözüdür. Muğanın təbii sərvəti, çox gözəl iqlimi və münbit şəraiti diqqəti cəlb etdiyindən bu məkan zaman-zaman əldən-ələ keçib. Dillər əzbərinə çevrilən Muğan düzünün gözəlliyinə şeirlər həsr olunub, mahnılar qoşulub.*

*Bəzi tədqiqatçılara görə, Muğan vilayəti və düzünün adı orta əsrlərdə mövcud olmuş Muğan şəhərinin adı ilə bağlıdır. Orta əsr ərəb mənbələrində Xəzər dənizi sahilində, Kürün mənbəyindən təqribən 100 kilometr, cənubda Ərdəbilin 50 kilometrliyində yerləşən Muğan şəhəri iki çay arasında təsvir olunub. Məşhur ərəb tarixçisi İbn Xordabeh Muğan hakimi Şəklə haqqında, digər ərəb tarixçisi Əl-Müqəddəsi başdan-başa bağ-bağatla əhatə olunmuş bu şəhərin gözəlliyi, əhalisinin hörmətcil və səxavətli olması barədə ətraflı*



LAYİHƏ

*məlumat veriblər. Bir fikrə görə, şəhər XIII əsrdə monqol yürüşləri, digər fikrə görə isə XV əsrdə Teymuri sultanı Əbu Səidlə Ağqoyunlu Uzun Həsən arasında baş vermiş vuruşma zamanı dağıdılıb. Tarixçilər Qərnati və Zəkəriyyə Qəzvini Muğan ölkəsi, onun geniş ərazidə yerləşməsi, iqliminin Azərbaycanın başqa yerlərinə nisbətən isti, heyvandarlıq üçün yararlı otlaqlara malik olması haqqında məlumat verib, yerli əhalini türkmənlər adlandırıblar. Antik müəlliflər, Hekatey, Herodot isə tarixi Muğan (Mukan) ərazisində mik, muk tayfasının yaşaması haqqında məlumat veriblər. Ümumilikdə Azərbaycanda Muğan adı ilə bağlı 18 yaşayış məntəqəsi mövcud olub.*

Dialoqun ardı oxunur, Muğana daxil olan ərazilər sadalanır.

**2-ci addım.** Şagirdlərə “Sizcə, Muğan nə üçün “Günəşli torpaq” adlanır?” sualı ilə müraciət edilir. Ərazidə il ərzində günəşli saatların miqdarı çox olduğundan bura çox isti olur.

*Muğanın təbiəti barədə orta əsr yazılı mənbələrində xeyli məlumat var. Həmdullah Qəzvinin “Hüzhət əl-Qülüb” əsərinin dördüncü bölməsi Muğan və Aran əyalətlərinin təsvirinə həsr edilib. Həmdullah Qəzvini yazırdı ki, “bu əyalətlərin havası isti və nəmişlidir. Əyalət Şirvan və Xəzər dənizi ilə sərhədlənir. Payızda Savalan dağları görünməz olanda bütün ərazidə ot quruyur və zəhərli olur. Yazda onun zəhərliyi aradan qalxır. Savalan göründüyü vaxt otlaq tamamilə təhlükəsiz olur”. Mənbələrdə Azərbaycan ərazisində Muğan və Muğaniyyə adlı iki coğrafi obyektdən bəhs olunur. Deyilənə görə, orta əsrlərdə Qəbələ ilə həmsərhəd olan və Girdiman çayının aşağı axarında yerləşən ərazi Muğaniyyə adlanıb.*

**3-cü addım.** Şagirdlər araşdırmaya dəvət olunur. Dərslikdəki məlumat (*Bu rayonla Bakı arasında olan məsafə 170 km-dir. Sabirabad Kür çayının sağ sahilində yerləşir. Şəhər yaxınlığında Suqovuşan adlanan yerdə Araz çayı Kür çayı ilə birləşir.*) şagirdlərin diqqətinə çatdırılır. *“Sizcə, söhbət hansı ərazidən gedir?”* sualı ilə şagirdlərə müraciət edilir.

Yəqin ki, şagirdlər arasında, xüsusilə də Sabirabadda yaşayanlar söhbətin hansı ərazidən getdiyini biləcəklər.

Əgər çətinlik yaranarsa, müəllim  müxtəlif suallardan və hökmlərdən istifadə edə bilər: “*Bu şəhər məşhur Azərbaycan şairi Mirzə Ələkbər Sabirin adını daşıyır*”, “*Dərslikdə nə üçün qarpız şəkli verilmişdir?*” (*Sabirabad bostan bitkisi olan qarpızı ilə məşhurdur, onun qabığından mürəbbə bişirirlər. Qarpız çox yeyilən müalicəvi məhsuldur. Sabirabadda qarpız festivalı keçirilir.*), yaxud Azərbaycan əlifbasındakı hərflərin ardıcıllığını (25 1 2 14 24 1 2 1 5) təqdim etməklə ərazinin adını müəyyənləşdirməkdə şagirdlərə yardımçı ola bilər.

**4-cü addım.** Şagirdlərə Azərbaycanın xəritəsi təqdim edilir. Təqdim olunan xəritələrdən müəllim qurduğu dərsə uyğun olanını seçə bilər.








LAYİHƏ

Bakı şəhərinin üzərindən Sabirabad istiqamətində düz xətt çəkir və qeyd edir ki, biz artıq yolumuzun az bir hissəsini müəyyən etmişik. Gəldiyimiz ərazi haqqında müəyyən məlumat toplamalı, təqdimat hazırlamalıyıq. https://www.youtube.com/watch?v=PSSz2FkQrB0, https://heydaraliyev-centers.az/sabirabad/about-region linklərindən istifadə etməklə şagirdlərə Sabirabad rayonu haqqında məlumat vermək olar. Texniki imkanlar yoxdursa, ensiklopediyalardan müvafiq məlumatı şagirdlərə təqdim edə bilər.

**5-ci addım.** Şagirdlərə təqdimat hazırlamaq tapşırılır. Səh. 157-də təqdimat hazırlamaq üçün plan verilmişdir. Təqdimatı qruplar şəklində də hazırlamaq olar. I qrupa Sabirabad rayonu, II qrupa rayonun tarixi abidələri, III qrupa adət-ənənələri haqqında təqdimat hazırlamağı tapşırmaq olar. Təqdimatın 2-3 slayddan ibarət olması yetərlidir. Fotoşəkillərin əlavə edilməsi məqsədəuyğundur. Əgər təqdimat hazırlamaq imkanı yoxdursa, adi vatman kağızında, A3, A4 vərəqlərində də bunu icra etdirmək mümkündür.

**6-cı addım.** Qrupların təqdimatları dinlənilir, müzakirə olunur.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Qeyd. Saatlı rayonu üzrə araşdırma apararkən https://sherg.az/x%C9%99b%C9%99r/17096/; https://gomap.az/info/Cities/Saatli.aspx; https://www.youtube.com/watch?v=85gRq0PqxtQ https://www.youtube.com/watch?v=eCODDZLuGYU linklərindən və ya müəllimin uyğun hesab etdiyi digər məlumatlardan istifadə etmək olar.

## 6-cı dərs Danışan abidələr

**Standartlar:** 1.1.2., 3.1.1., 2.1.3., 2.1.4.

**Təlim nəticələri:**

Mövzu ilə bağlı fakt və hadisələri toplayır.
Sayların yazılışı ilə bağlı qaydaları bilir.
Mövzu ilə bağlı fikirlərini faktlarla təsdiq edir.
Mətnin tərkib hissələri ilə bağlı fikir söyləyir.

**İş forması:** kollektiv, böyük qruplar

**İş üsulu:** müzakirə, proqnozlaşdırılmış oxu (və ya sual verərək oxu)

**1-ci addım.** Müəllim dərsə müxtəlif priyomlardan istifadə etməklə başlaya bilər.

1. Əvvəldə istifadə etdiyi xəritəni şagirdlərin diqqətinə çatdırır və suallarla şagirdlərə müraciət edir. “Xəritədə yol hansı əraziyə istiqamətlənmişdir?”, “Sizcə, nə üçün biz məhz həmin ərazidə araşdırma aparmalıyıq?” və s.



LAYİHƏ




2. Təqdim olunmuş
http://beyleqanli.az/az/chapter.html?id=19 https://www.youtube.com/watch?v=6TAkVwkPvD4
http://www.beyleqanli.az/az/chapter.html?id=82
http://www.anl.az/down/meqale/azerbaycan/ 2010/sentyabr/132182.htm
https://sputnik.az/life/20170121/408527805/qeyb-olmush-sheher-gizli-tarix.html
linklərdən uyğun bildiyini istifadə etməklə dərsə keçid etmək və suallarla şagirdlərə müraciət etmək mümkündür: “Hansı məlumat daha çox diqqətinizi çəkdi?”, “Nə üçün belə hesab edirsiniz?”, “Beyləqan haqqında məlumata maliksinizmi?”, “Bu məlumatlardan hansı ilə tanış idiniz?” və s.

3. Texniki imkanlar yoxdursa, müəllim Beyləqan haqqında şagirdə yığcam məlumat verir.

4. Müəllim şagirdləri Beyləqan rayonunun (dərslikdə var) xəritəsi ilə tanış edir, aparacaqları araşdırma barədə şagirdləri məlumatlandırır.

**2-ci addım.** Müəllim diqqəti mətnin adına yönəldir. “Sizcə, nə üçün mətn “Danışan abidələr” adlandırılmışdır?” (tapşırıq 1), “Mətnin adı ilə razısınızmı?” sualları ilə şagirdlərə müraciət edir.

https://525.az/news/4732-das-uzerinde-xerite-ve-ya-aciq-sema-altinda-muzey linkindən istifadə etmək olar.

Şagirdlərin cavabları ümumiləşdirilir.

**3-cü addım.** Mətnin oxusu təşkil edilir. Müəllimin seçimi əsasında proqnozlaşdırılmış və ya sual verərək oxudan istifadə etmək olar.

Sual verərək oxu zamanı:

Müəllim oxudan əvvəl və ya oxu zamanı şagirdlərə sual hazırlamağı tapşırır. Məqsəd şagirdləri mətn üzərində işləməyə yönəltməkdir.

Bu iki formada həyata keçirilir:

1. Müəllim mətni səsli və ya səssiz oxutdurur. Şagirdlər oxu prosesində beyinlərində əmələ gələn sualları yazırlar. Həmin suallar sinfə və ya qrupa verilir.



LAYİHƏ

2. Şagirdlər mətnə göz gəzdirirlər və yaranan sualları qeyd edirlər. Həmin suallar sinfə verilir və cavablar ümumiləşdirilir.

Oxu zamanı mətndəki saylar və onların yazılışı ilə bağlı şagirdlərə suallar verilir.

**Müəllimin nəzərinə:**

Müəllim sayların yazılışını möhkəmləndirmək üçün imla yazıdan (lüğət üzrə imla, köçürmə imla və s.) istifadə edə bilər. 4-5 cümlə və ya söz yetərlidir. Nümunə kimi cümlələr təqdim olunur:

*Nizami 12-ci əsrdə yaşamışdır. Günəşin istiliyi iyirmi milyon dərəcədir. Martın 21-də yaz fəsli girir. Bloka daxil olub 6-cı mərtəbəyə qalxdı.*

**4-cü addım.** Müəllim mətn üzərində iş aparır. Əlavə suallarla şagirdlərdə Beyləqan haqqında təsəvvür oyadır. Bunun üçün müəllimə yuxarıda linklər də təqdim olunmuşdur. Müəllim həmin linklərdən yığcam məlumatlar toplayıb şagirdə təqdim edə bilər. Əgər imkan olarsa, bu dərs prosesində Beyləqanın hər hansı bir məktəbi ilə telekörpü yaradıla bilər. Bu dərs həm şagirdlər arasında dostluq və əməkdaşlıq mühitinin yaranmasına, həm də əlavə biliklərin əldə edilməsinə imkan yaratmış olar.

**5-ci addım.** 2-ci tapşırıq üzərində iş aparılır.

**6-cı addım.** Şagirdlərə müasir Beyləqan haqqında 2 abzasdan ibarət mətn hazırlamaq və dərslikdəki mətnlə əlaqələndirmək tapşırığı verilir. Şagirdlərə yuxarıda göstərilən linklərdən və ya ensiklopediyadan müvafiq məlumatlar təqdim edilir. Bu tapşırıq böyük qruplar vasitəsilə icra edilir.

**7-ci addım.** Qruplar işlərini təqdim edir. Müzakirələr və ümumiləşmələr aparılır.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*7-ci dərs*

# Danışan abidələr (Örənqala)

**Standartlar:** 3.1.1., 2.1.3., 3.1.3., 4.1.3.

**Təlim nəticələri:**

Mətndəki nitq hissələrini fərqləndirir.
Mövzu ilə bağlı fakt və hadisələri müqayisə edir.
Əfsanənin tərkib hissələrini müəyyən edir.
Sayların yazılışını bilir.

**İş forması:** kollektiv

**İş üsulu:** müzakirə, müqayisəli oxu

**1-ci addım.** Müəllim dərsə müxtəlif priyomlardan istifadə etməklə başlaya bilər:

1. Əvvəlki dərsdə təqdim olunan, lakin müəllimin istifadə etmədiyi linklərdən uyğun olanını təqdim etməklə və müvafiq suallar verməklə yeni mövzuya keçid edir.



LAYİHƏ

2. Beyləqan  haqqında əvvəlki dərsdə öyrəndikləri məlumatlar əsasında suallar verməklə.
3. “Danışan abidələr” mətni əsasında suallar verməklə.

**2-ci addım.** Müəllim bugünkü dərsdə “Örənqala” haqqında bir əfsanə öyrənəcəklərini şagirdlərin diqqətinə çatdırır. “Örənqala” sözünün “örənimək” sözündən götürüldüyünü izah edir. “Örənimək” sözünün izahı dərslikdə verilmişdir.

**3-cü addım.** Əfsanənin oxusu təşkil edilir. Bunun üçün müqayisəli oxudan istifadə olunur. Bu oxudan istifadə etməkdə əsas məqsəd şagirdlərin oxuduqları mətnlə əvvəlki mətn arasında əlaqə yaradabilmə bacarığını və düşüncə tərzini yoxlamaqdır. Mətnlər arasında yer, zaman, mövzu, fikir və hadisə (əgər varsa, obraz) baxımından əlaqə yaratmaq üçün suallar verilir.

Mətnin oxusu bitdikdən sonra “Danışan abidələr”lə “Örənqala” əfasanəsinin həm quruluş, həm də məzmun baxımından oxşarlığının müəyyən edilməsi ilə bağlı şagirdlərə suallar verilir: “Mətndə hansı oxşarlığı gördünüz?”, “Bu oxşarlıq nə ilə bağlıdır?”, “Niyə belə hesab edirsiniz?”

**Mətnlər arasında məzmun baxımından oxşarlıq:** (Beyləqanın qədim tarixə malik olması, Örənqalanın qədim Beyləqan şəhəri olması, şəhərin dağıntılara məruz qalması.)

**Mətnlər arasında quruluş baxımından oxşarlıq: (**Hər iki mətn tərkib hissələrdən ibarətdir, hər iki mətndə tərkib hissələrə  müvafiq məlumat təqdim olunur.)

| **Mətnlərin tərkib hissələri** | | | |
|---|---|---|---|
| **Mətnlər** | **Giriş hissə** | **Əsas hissə** | **Nəticə** |
| “Danışan abidələr” | Beyləqanın Azərbaycanın qədim şəhəri olması, yerləşdiyi ərazi | Örənqala haqqında məlumat | Şəhərin dağıdılması və yandırılması |
| “Örənqala” | Zəlzələ nəticəsində Beyləqanın dağılması, əhalinin şəhəri tərk etməsi, atanın oğulu Beyləqana getməyə sövq etməsi | Ata ilə oğulun yola çıxması, atanın Beyləqanla bağlı sualları və oğulun cavabları, həmin sual-cavabda Beyləqanın dağılması barədə məlumatın verilməsi | Atanın istədiyini tapa bilməməsi, təəssüfünü bildirməsi |

**4-cü addım.** Dərslikdəki şəkil üzərində iş aparılır. Şəkildə Örənqala təsvir olunmuşdur. Şəkil məzmunla uyğunlaşır: *Örənqalanın qədim şəhər olması, şəhərin ortasında uca qalanın olması, şəhərin yaşıllıqla əhatə olması*

**5-ci addım.** Oxu bitdikdən sonra 3–6-cı tapşırıqlar üzərində iş aparılır.

**Müəllimin nəzərinə:**

5-ci sualın icrası üçün bu məlumatdan istifadə etmək olar.

*Kür çayı boyu introzonal (yeraltı suyun yaratdığı) landşaft Tuqay meşələrinin yaranmasına səbəb olur. Tuqay meşələri — Kür çayının subasarında, əsasən söyüd və ağyarpaq qovaq ağacları üstünlük təşkil edən nadir meşədir. Tuqay meşələri inkişaf etdiyi sahələrdə çoxlu şirin (şorlaşmamış) torpaqaltı suların olması aran rayonlarında qalın meşəliklərin inkişaf etməsi üçün əlverişli şərait yaradır. Tuqay meşələrinin inkişaf etməsi ilə yerli mikroiqlim şəraiti dəyişir. Bu və ya başqa səbəbdən yeraltı suyun səviyyəsi aşağı endikcə meşə bitkilərinin yaşayış şəraiti pozulur və nəhayət, bu meşələr məhv olur. Belə halda bu meşələrin yerində yarımsəhra-bozqır bitkiləri inkişaf etməyə başlayır və torpaqlar quru mühitə düşür. Bu hadisə uzun müddət davam etdikdə keçmiş Tuqay torpaqları boz torpaqlara qədər dəyişdirilir.*

https://www.facebook.com/EKOetika-240847743407894/videos/8-ci-burax%C4%B1l%C4%B1%C5%9F-%C3%BCmumi-me%C5%9F%C9%99-ehtiyat%C4%B1-v%C9%99-tuqay-me%C5%9F%C9%99l%C9%99ri/1198423790501106/ (**Tuqay meşələri**) linkindən istifadə etməklə Tuqay meşələri haqqında məlumat əldə edilə bilər.



LAYİHƏ

**6-cı addım.** Müəllim şagirdlərə Beyləqan mətbəxi haqqında ümumi məlumat verir. "Mətbəxin yaranmasında və inkişafında iqlimin rolu" haqqında yığcam müzakirə təşkil edir. "Sizcə, iqlim mətbəxə necə təsir edə bilər?" sualı ilə şagirdlərə müraciət edilir.

Torpağın münbit maddələrlə, su ilə təmin olunması, torpağın tərkibi, hava şəraiti qida məhsullarına birbaşa təsir edir. Keyfiyyətli və sağlam qida məhsulu dadlı yeməklərin hazırlanması üçün əvəzsiz mənbədir.

**7-ci addım.** Müəllimin seçimi əsasında hər iki mətnin tərkib hissələrdən müəyyən sözlər seçilir, onların hansı nitq hissələrinə aid olduğu soruşulur. Sayların yazılışı ilə bağlı qayda nümunələrlə izah olunur. Qayda dərsliyin 161-ci səhifəsində verilmişdir.

8–9-cu tapşırıqlar icra edilir. Evə sinfin və şagirdlərin səviyyəsini nəzərə almaqla müxtəlif tapşırıqlar vermək olar:

1. Dərslikdəki 10-cu tapşırıq
2. Beyləqan mətbəxi haqqında təqdimat
3. Beyləqan şəhəri haqqında təqdimat
   Təqdimatların 3-4 slayddan (məlumat və fotoşəkillərlə) olması yetərlidir.
4. Mətnlər əsasında Beyləqan və ya Örənqalanın plastilin və digər ləvazimatlardan istifadə etməklə maketinin hazırlanması.
5. Mətn əsasında rəsm əsərinin çəkilməsi

Dərsin sonunda şagirdlərə "Sizcə, Beyləqan sizi hansı istiqamətə yola salacaq?" sualı ilə şagirdlərə müraciət edir. Şagirdlərin cavabları dinlənilir, səhv, yaxud düz olmasından asılı olmayaraq münasibət bildirilmir. Şagirdə deyilir: "Növbəti dərsdə cavablarınızın düz və ya yanlış olmasını müəyyən edə biləcəyik" .

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələirnə uyğun aparılır.

## *8-ci dərs* Kiçik Summativ Qiymətləndirmə – 2

**Ağoğlan məbədi**

1. Ağoğlan məbədi Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir.
2. Abidə V–VI əsrlərə aiddir.
3. Tarixi abidə əvvəllər qəsr olmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qalmışdır.

Əvvəllər məbəd qəsr kimi tanınmışdır. Deyilənə görə, qədim zamanlarda gənc bir səyyah bu ərazidən keçirmiş. O, buranın gözəl təbiətinə heyran olur və bu məkanda qəsr tikdirmək qərarına gəlir. Ətrafına dəstə toplayıb işə başlayır. Gənc oğlan xalqın sevgisini qazanır. Çox yaraşıqlı olduğundan yerli əhali onu "ağ oğlan" deyə çağırırmış. Qəsr də onun adı ilə "Ağoğlan" adlandırılmışdır.

Bu tikili "Qaranquş qəsri" adı ilə də tanınmışdır. Deyilənə görə, bir gün günorta yeməyi vaxtı bir qaranquş aşpazın başına fırlanır, onun camaata yemək verməsinə mane olmağa çalışırmış. Ətrafdakı insanlar quşun bu hərəkətinə maraqla tamaşa edir, lakin heç nə anlamırlar. Birdən qaranquş özünü qaynar qazanın içinə atıb öldürür. Qəzəblənən aşpaz yeməyi kənara boşaldarkən qazanda ilan ölüsü olduğunu görür.

Qəsrin sahibi xilaskar quşu təntənə ilə tikilinin yanında **(basdırır, yoxsa dəfn edir)**, qəsri də onun şərəfinə "Qaranquş qəsri" adlandırır.

Lakin zaman ötdükcə qəsrin bu adı unudulur. Məbədə çevriləndən sonra isə xalq arasında onu tikdirənin şərəfinə "Ağoğlan" kimi tanınır.



LAYİHƏ

“Ağoğlan” məbədi böyük ölçülərə malikdir. Onun daxili divarları yonulmuş iri, qara daşlarla üzlənmişdir. Divarlarda, mala üzərində çoxrəngli rəsmlər çəkilmişdir.

1992-ci ildə erməni qəsbkarları Laçını işğal etdikdən sonra “Ağoğlan” məbədini özününküləşdirməyə başlamışlar. Onlar abidənin divarlarındakı albanlara aid daş yazıları, həmçinin xeyli ornament və rəmzləri tamamilə silmişlər.

Lakin 2020-ci ildə Laçın rayonu işğaldan azad edilmiş, abidələrin də əsirlik həyatına son qoyulmuşdur.

1. Gənc səyyah nə üçün xalqın sevgisini qazanır?
   A) məbəd tikdirdiyi üçün
   B) yaraşıqlı olduğu üçün
   C) zəhmətkeş olduğu üçün
   D) qurub-yaratdığı üçün

2. Bu suallardan birinə mətndə cavab yoxdur:
   A) Ağoğlan məbədi harada yerləşir?
   B) Məbədlə bağlı hansı rəvayətlər vardır?
   C) Gənc nə üçün xalqın sevgisini qazanır?
   D) Məbəd nə üçün həm də “Qaranquş qəsri” adlandırılmışdır?

3. Mətnin tərkib hissələrində ifadə olunan fikirlərdən hansı yanlışdır?

| Giriş hissə | Əsas hissə | Nəticə hissə |
|---|---|---|
| Məbədin qəsr kimi tikilməsi | Abidənin adlandırılması ilə bağlı müxtəlif rəvayətlərin olması | Laçın rayonunun və əraziyə daxil olan abidələrin işğaldan azad edilməsi |

4. Hadisələrdən biri mətnin əsas hissəsinə aiddir:
   A) Məbədin V–VI əsrlərə aid olması
   B) Ermənilər tərəfindən abidənin rəsmlərinin silinməsi
   C) Gənc səyyahın qəsr tikdirməsi
   D) Ağoğlanın məbədinin işğal edilməsi

5. Mətndən 3 fakt seçib yazın.
   1. _______________
   2. _______________
   3. _______________

(Mətndəki faktlar: *Ağoğlan məbədinin Laçında yerləşməsi; abidənin V–VI əsrlərə aid olması; abidənin alban memarlığının nümunəsi olması; 1992-ci ildə Laçının işğal edilməsi; məbədin divarlarında albanlara məxsus rəsmlərin olması: Laçının işğalı ilə abidənin işğalı; məbədin erməniləşdirilməsi; 2020-ci ildə həm Laçının, həm də abidənin işğaldan azad edilməsi.*)

6. Fikirlərdən biri mətndə vardır:
   A) Azərbaycan torpağı tarixi abidələrlə zəngindir.
   B) Xalqımız yaxşılığı heç zaman unutmur.
   C) Tarixi abidələrimizin çoxsu albanlara məxsusdur.
   D) Abidələr tarixin yadigarıdır.

7. *Bu məbəd alban memarlığının maraqlı nümunələrindən biri hesab edilir* cümləsini nömrələnmiş cümlələrin hansından sonra yerləşdirsək, düzgün olar?
   a. 1 b. 2 c. 3



LAYİHƏ

8. Biri “Qaranquş qəsri” rəvayətinin nəticəsidir:
A) Qaranquş özünü qazanın içinə atıb öldürür.
B) Aşpaz ilanın öldüyünü görür.
C) Qəsr qaranquşun şərəfinə “Qaranquş qəsri” adlandırılır.
D) Qəsr sonralar Ağoğlan məbədi adlandırılmışdır.

9. Hansı cərgədə yanlışlığa yol verilmişdir?

| Fakt | Hadisə |
|---|---|
| A) Ağoğlan məbədi V–VI əsrlərə aiddir. | Gənc səyyah qəsr tikmək qərarına gəlir. |
| B) 1992-ci ildə Laçın rayonu işğal edilmişdir. | Qaranquş aşpazın camaata yemək verməsinə mane olmağa çalışır. |
| C) 2020-ci ildə Ağoğlan məbədi işğaldan azad edilmişdir. | Qaranquşun təntənə ilə basdırılması |
| D) Yaraşıqlı olduğu üçün səyyaha “ağ oğlan” adını verirlər. | 2020-ci ildə Laçın rayonu işğaldan azad edilmişdir. |

10. Uyğunluğu müəyyənləşdirin:

| | |
|---|---|
| səyyah | ibadət yeri |
| məbəd | tikilmiş ev, bina, abidə |
| tikili | səyahət edən şəxs |

11. *“... yerli əhali onu “ağ oğlan” deyə çağırırmış”* cümləsində əhali sözünü hansı sözlə əvəz etmək olar?
a) camaat b) xalq c) millət

12. Bunlardan biri *abidə* sözünün ifadə etdiyi mənadır:
• heykəltəraş tərəfindən daşdan, tuncdan və s. hazırlanmış insan və ya heyvan surəti
• tarixi əhəmiyyəti olan bir hadisəyə və ya tarixi bir şəxsə xatirə olaraq ucaldılan tikili, qurğu
• insan bədəninin beldən yuxarı hissəsinin heykəli

13. Mətndə 4-cü abzasda mötərizədə verilmiş sözlərdən hansının işlənməsi düzgündür?

14. *Əsr* və *əsir* sözlərinin mənasını yazın.
Əsr ____________________________________________
Əsir ___________________________________________

15. Verilmiş sözlərin tələffüzünü yazın.
dəstə [...] rəngli [...] yaraşıqlı [...]

16. Altından xətt çəkilmiş sözlərdə vurğunun hansı hecaya düşdüyünü deyin.
yaraşıqlı ________ lakin ______ maraqla _________ malikdir _________



LAYİHƏ

17. Fikirlərdən hansı səhvdir?
A) Ağoğlan sözü quruluşuna görə mürəkkəbdir.
B) Xalq sözünü cəmdə işlətmək olmaz.
C) Laçın sözü xüsusi isimdir.
D) Mətndə saylar da vardır.

18. 2-ci abzasdan sifətləri seçib yazın.

______________________________________________

19. “Yaraşıqlı” sözündə **q** samiti nə zaman **ğ** kimi yazılacaq?

______________________________________________

20. “Yeməyi” sözündə sözün son hecasındakı **y** samiti nə zaman **k** kimi yazılacaq?

*9-cu dərs*

# Danışan abidələr (araşdırma)

**Standartlar:** 1.1.2., 2.1.1., 2.1.3., 4.1.2

**Təlim nəticələri:**

Mövzu ilə bağlı fakt və hadisələri seçir.
Danışan zaman düzgün tələffüz qaydalarına əməl edir.
Mövzu ilə bağlı fikirlərini faktlarla təsdiq edir.
Topladığı məlumatlardan istifadə etməklə dialoqu tamamlayır.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, BİBÖ, klaster

## 1-ci addım.

https://www.youtube.com/watch?v=SPfMEcj2PSI (Azərbaycanda meşələr)
https://www.youtube.com/watch?v=JqhdnhJZKX0&list=TLPQMDUwNjIwMjHkXN7L3jSIVQ&index=2 (Məhv olan meşələr deyil, gələcəyimizdir!) linklərindən məqsədəmüvafiq olanı istifadə etməklə dərsə başlamaq olar.

Texniki imkanlar yoxdursa, meşələr haqqında məlumat olan kitablardan istifadə etmək olar. (Ayna uşaq ensiklopediyası)

Əgər müəllim BİBÖ üsulundan istifadə edəcəksə, dərsin ilk mərhələsindən istifadə edilir və “Bilirəm” hissəsi doldurulur.

Şagirdlərə “Meşə nədir?”, “Meşədə olmusunuzmu?”, “Nə müşahidə etmisiniz?” və s. bu kimi suallarla müraciət edilir. Şagirdlərin cavabları dinlənildikdən sonra növbəti sual verilir: “Meşədə nə daha çoxdur?” “Ağac” cavabını aldıqdan sonra diqqət dərslikdəki ağac şəklinə (yuxarıdakı şəkil) yönəldilir.

Müzakirələrin yığcam və faydalı olmasına diqqət yetirin.



LAYİHƏ

**Müəllimin nəzərinə:**

Şagirdlərin cavablarına əlavə olaraq müəllim bildirir ki, *meşə evlərin tikilməsi, istilik və qida əldə edilməsi üçün material bazasıdır. Meşədə çoxmüxtəlifliyi saxlayan heyvanlar, bitkilər və mikroorqanizmlər vardır. Meşə təkcə ağac demək deyil, həm də biomüxtəlifliyin maddələr mübadiləsinin baş verdiyi yerdir*.

2-ci addım. Şəkil üzərində iş aparılır: "Şəkildə nə təsvir olunmuşdur?", "Ağac hansı hissələrdən ibarətdir?" sualları ilə şagirdlərə müraciət edilir. "Ağacın hansı faydaları vardır?" sualı ilə şagirdlərə müraciət edilir. Klaster üsulundan istifadə edilməsi məqsədəuyğundur. Şagirdlərin cavabları alınır, sonra mətndə ağacın faydaları ilə bağlı məlumat oxunur. Şagirdlər söylədikləri fikirlərin düzgün olub-olmadığını müəyyən edirlər.

3-cü addım. Dərslikdəki sxem – "Meşədə ağacların yaşama dövranı" – üzərində iş aparılır. *"Sizcə, meşədəki biomüxtəlifliyi necə qorumaq olar?", "Siz hansı təklifləri verə bilərsiniz?"*sualları ilə şagirdlərə müraciət edilir.

Sxemi müəllim belə şərh edə bilər: *Ağacları parçalayan həşəratlar onların parçalanmasının və qidalı maddələrin torpağa qarışmasının təminatçısıdır. Deməli, maddələr mübadiləsi baş verir. Məhv olan ağac digəri üçün qida mənbəyidir. Əgər ağaclar parçalanmasa idi, çürüməsə idi və torpağa qarışmasa idi, bitkilər üçün lazım olan qida maddələri olmazdı.*

Şagirdlərin cavabları lövhəyə yazılır. Müəllim lazımi cavabları almadığı təqdirdə özü də şagirdlərə təkliflər verə bilər:

- Şəraiti nəzərə almaqla yerli ağacların əkilməsi
- Ağacların kəsilməsinin maksimum qarşısının alınması
- İstirahət üçün mərkəzlərin meşənin qırılması hesabına deyil, meşəyə yaxın yerdə salınması
- Meşədə tonqal qalanmaması

4-cü addım. Dərslikdəki 7-ci tapşırıq üzərində iş aparılır. Şagirdlər planla tanış edilir.

Dialoqun tərtib edilməsi ilə bağlı 5-ci sinif Azərbaycan dili dərsliyində plan və istiqamət verilmişdir. Müəllimə kömək məqsədilə onu burada da təqdim edirik:

Dialoq canlı ünsiyyətdir, danışıqdır.

- Dialoq danışılır və eşidilir.
- 2 və daha artıq şəxs arasında olur.
- Dialoji nitq zamanı həmsöhbətlər deyilənlərə öz münasibətini bildirir.
- Sual verilir.
- Fikir ya təsdiq, ya da inkar edilir.

**Dialoqu tərtib etmək üçün plan:**

1. Mövzunun müəyyənləşdirilməsi
2. Dialoqa girəcəyiniz şəxsin (şəxslərin) müəyyənləşdirilməsi
3. Mövzu ilə bağlı sualların müəyyənləşdirilməsi
4. Alınan cavablara münasibət bildirilməsi
5. Deyilənləri təsdiqləmək üçün faktlardan, sübutlardan istifadə edilməsi
6. Yeri gəldikcə nəzakətli sözlərdən istifadə edilməsi

**İstiqamət:**

1. Mənası hamıya aydın olan söz və ifadələrdən
2. Sadə və yığcam cümlələrdən
3. Sual cümlələrindən
4. Sual cümlələrinə verilən cavablardan

LAYİHƏ

5. Bəli (hə), xeyr (yox) sözlərindən
6. Müraciət bildirən sözlərdən
7. Münasibət bildirən sözlərdən (bəlkə, görəsən, deyəsən, əlbəttə, deməli və s.)

Dialoqlarda intonasiyadan asılı olaraq cümlənin sonunda nöqtə, sual və nida işarələrindən istifadə olunur.

Sətrin sonunda (müəllifin nitqindən sonra) qoşa nöqtədən, sətrin əvvəlində (şəxsin nitqindən əvvəl) tire işarəsindən istifadə olunur.

5-ci addım. Şagirdlər 3 qrupa bölünür. Dialoq üçün ağac-obrazlar (məs.; çinar, palıd, cökə, ağcaqayın və s.) və ideya müəyyən edilir. Qruplar arasında mətnin tərkib hissələri müəyyənləşdirilir. Hər qrupa bir tərkib hissəni yazmaq tapşırılır. Qruplar müəllimin köməyi və istiqaməti ilə mətni hazırlayırlar.

6-cı addım. Qruplar işlərini təqdim edirlər. Müzakirələr aparılır. Tərkib hissələr arasında rabitə yaratmaq üçün iş aparılır.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 10-11-ci dərslər Dahi şəhər

**Standartlar:** 1.1.2., 2.1.3., 4.1.1., 4.1.2, 4.1.3.

**Təlim nəticələri:**

Mövzu ilə bağlı fakt və hadisələri seçir.
Mövzu ilə bağlı fikirlərini faktlarla təsdiq edir.
Topladığı məlumatlardan istifadə etməklə mətn hazırlayır.
Mətnin hissələrini əlaqələndirir.
Yazısında nitq hissələrinin yazılışına və durğu işarələrinin işlənməsinə diqqət yetirir.

**İş forması:** kollektiv, kiçik və ya böyük qruplar

**İş üsulu:** müzakirə, sual-cavab

Füzuli rayonu dahi Azərbaycan şairi Məhəmməd Füzulinin adını daşıdığı üçün mövzu belə adlandırılmışdır.

Bu dərslər də digər layihə dərsləri kimi hazırlana bilər.

11-ci dərsdə müəllim səyahətin davam etdiyini, Beyləqandan götürülən istiqamətin daha maraqlı bir əraziyə olduğunu şagirdlərin diqqətinə çatdırır. Yuxarı çərçivədəki məlumat oxunur. “Sizcə, söhbət hansı rayondan gedir?” sualı ilə şagirdlərə müraciət edilir. Əvvəlki dərslərdə istifadə olunan xəritədən istifadə edə bilər.

Ərazinin adı müəyyən edildikdən sonra müəllim Füzuli rayonu haqqında ümumi, yığcam məlumat verilir.

https://www.youtube.com/watch?v=pEgKiSrLAkk (Füzuli rayonu) linkindən istifadə etmək olar.

Dərslikdəki məlumatların oxusu (səh. 162) təşkil edilir.

QR-dan istifadə etməklə Füzuli rayonuna virtual səyahət təşkil edilir. Səyahətlə bağlı şagirdlərin təəssüratları dinlənilir.



LAYİHƏ

163-cü səhifədəki 1-ci tapşırıq üzərində iş aparılır. Tapşırığı müəllimin seçimi əsasında cütlər, kiçik və  ya böyük qruplar vasitəsilə yerinə yetirmək olar.

https://www.armenianvandalism.az/az_fizuli.html linkindən istifadə etməklə tapşırıqların icrası mümkündür.

Hər hansı bir abidə haqqında təqdimatın hazırlanması evə də tapşırıla bilər.

12-ci dərsdə şagirdlər sxem əsasında iş aparırlar. Sxem üzərində iş aparmaq üçün plan və istiqamət verilmişdir.

https://www.youtube.com/watch?v=dBH7nZh1gew (Füzuli rayonu və şəhərinin bütünlüklə hər yerinin dronla çəkilişi və erməni vəhşiliyi) linkindəki məlumatı nümayiş etdirmək şagirdlərin təqdimat (inşa və ya hekayə) hazırlamasına yardımçı ola bilər. Tapşırığın icrası üçün 20 dəq. kifayətdir.

Daha sonra 165-ci səhifədəki şəkillər və 4–6-cı tapşırıqlar üzərində iş aparılır. 7-ci tapşırıq evə verilir.

## 12-ci dərs Musiqi konservatoriyası

**Standartlar:** 1.1.2., 2.1.3., 4.1.1., 4.1.2, 4.1.3.

**Təlim nəticələri:**

Mövzu ilə bağlı fakt və hadisələri seçir.

Mövzu ilə bağlı fikirlərini faktlarla təsdiq edir.

Topladığı məlumatlardan istifadə etməklə mətn hazırlayır.

Mətnin hissələrini əlaqələndirir.

Yazısında nitq hissələrinin yazılışına və durğu işarələrinin işlənməsinə diqqət yetirir.

**İş forması:** kollektiv,  kiçik və ya böyük qruplar

**İş üsulu:** müzakirə, sual-cavab

1-ci addım. Müəllim “Musiqi konservatoriyası dedikdə ilk anda nə düşündünüz?” sualı ilə şagirdlərə müraciət edir. Şagirdlərin cavabları dinlənilir.

2-ci addım. Dərslikdəki dialoq oxunur və tapşırıq icra edilir. Şagirdlər “Şuşa” sözünü birlikdə deyirlər.

3-cü addım. Müəllim Şuşa şəhəri haqqında məlumat verməzdən əvvəl şagirdlərin Şuşa ilə bağlı hansı məlumatlara malik olduğunu soruşur. Şagirdlərə “Şuşa şəhəri harada yerləşir?”, “Şuşa şəhəri haqqında hansı məlumatlara maliksiniz?” kimi suallar ünvanlanır. Şagirdlərin cavabları ümumiləşdirilir. Müəllim Şuşa, şəhərin tarixi, tarixi abidələri ilə bağlı ətraflı məlumat verir. 167-ci səhifədəki tapşırıq üzərində kollektiv iş formasından istifadə etməklə iş aparır.

1-ci çərçivədə nöqtələrin yerinə **Turşsu**, 2-ci çərçivədə nöqtələrin yerinə **İsa bulağı**, 3-cü çərçivədə nöqtələrin yerinə **Cıdır düzü**, 4-cü çərçivədə nöqtələrin yerinə **Böyük Kirs dağı** söz və ifadələri yazılmalıdır.

4-cü addım. Müəllim Şuşanın işğalı tarixi və işğaldan azad edilməsi haqqında şagirdlərə məlumat verir. Şuşanın işğaldan azad edilməsində cənab Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan ordusunun tarixi qələbəsi haqqında məlumat verir. Prezidentin informasiya



LAYİHƏ

mübarizəsində parlaq qələbəsindən danışmaqla şagirdlərdə məlumatlı olmaq, məlumatlardan yerində və düzgün istifadə etmək bacarığı formalaşdıra bilər.

https://www.youtube.com/watch?v=FV00gDXIp_4
https://www.youtube.com/watch?v=Pvcs3I2OqUU
https://www.youtube.com/watch?v=FwcQxPc53VU
https://www.youtube.com/watch?v=XcinA1fxplc
https://www.youtube.com/watch?v=doSObVWcy9I (Zəfər paradı) linklərindən istifadə etməklə mövzunu möhkəmləndirə bilər.

"Paradı izləmisinizmi?", "Qələbə paradı sizdə hansı hissləri oyatdı?" suallarından istifadə edilə bilər.

Qeyd. Texniki imkanlar yoxdursa, dərslikdəki 168-ci səhifədə prezident İlham Əliyevin çıxışından bir hissə verilmişdir. Həmin çıxış intonasiya ilə oxudulur, "Prezidentin çıxışında hansı milli-mənəvi dəyərləri müəyyən edə bildiniz?" (*vətənpərvərlik, vətənə, yurda bağlılıq, kökə bağlılıq, sədaqətlilik, mübarizlik, qorxmazlıq, əqidə saflığı, dərin düşüncə, qətiyyətlilik, dönməzlik, liderlik* və s.) sualı ilə müraciət edilir.

5-ci addım. Növbəti dərsdə hekayə yazmaq üçün hazırlıq işi aparılır.

Siniflə birgə mövzu və çatdırılacaq əsas fikir müəyyən edilir. Sonra kiçik qruplar yaradılır. Qruplardan birinə zaman və məkanı müəyyənləşdirmək, II qrupa obrazlar yaratmaq, ehtiyac duyularsa, adlandırmaq, III qrupa hadisələri müəyyən etmək tapşırılır.

6-cı addım. Siniflə birgə hadisələrin giriş hissəsi, necə davam edəcəyi və sonluğu müzakirə edilir. Hadisələrin ardıcıllığı planı tərtib edilir. Giriş və əsas hissələrin, sonluğun planı ayrı-ayrılıqda da tərtib edilə bilər. Toplanılan bütün məlumatlar ümumiləşdirilir.

Evə 1-ci tapırıq verilir. Tapşırığın icrası üçün şagirdlərə istiqamət verilir. Bu yazı şagirdin təxəyyülünə əsaslanır. "Şuşanın dünəni"ndə Şuşanın tarixinə ümumi nəzər, işğalı, "Şuşanın bu günü"ndə işğaldan azad edilməsi, quruculuq işlərinin aparılması; "Şuşanın gələcəyi"ndə isə şagird Şuşanı necə görmək istədiyi barədə düşüncələrini yazır.

Mətnin 20-25 cümlədən ibarət olması yetərlidir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

13-cü dərs

# Musiqi konservatoriyası

**Standartlar:** 4.1.1., 4.1.2, 4.1.3.

**Təlim nəticələri:**

Mövzu ilə bağlı hekayə yazır.
Mətnin hissələrini əlaqələndirir.
Yazısında nitq hissələrinin yazılışına və durğu işarələrinin işlənməsinə diqqət yetirir.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, sual-cavab



LAYİHƏ

1-ci addım. Ev tapşırığı 1-2 nəfərə oxutdurulur. Mövzu təkrar edilərək yada salınır. Şagirdlərin yazıları qiymətləndirilir. Daha çox şagirdi qiymətləndirmək və onları diqqətdən kənarda saxlamamaq üçün mətnləri hissələrlə ("Şuşanın dünəni", "Şuşanın bu günü", "Şuşanın gələcəyi") oxutdurmaq olar.

2-ci addım. Müəllim əvvəlki dərsdə yazılacaq hekayə ilə bağlı aparılan hazırlıq işlərini yada salır, lazım gələrsə, ideya, obrazlar, məkan, zamanla bağlı suallar verir.

3-cü addım. Şagirdlər qruplara bölünür. Qruplar əvvəlki dərsdə müəyyənləşdirildiyi kimi, tərkib hissələr üzrə (I qrup giriş, II qrup əsas, III qrup nəticə hissə) işləməyə başlayır.

4-cü addım. Qruplar işlərini təqdim edirlər. Hər qrupun işi ayrı-ayrılıqda dinlənilir, yeri gəldikdə düzəliş və əlavələr edilir. Şagirdlərin düzgün tələffüzü, cümlələrin düzgün qurulması diqqətdə saxlanılır.

5-ci addım. Hissələr tam oxunduqdan sonra tərkib hissələr arasında əlaqə yaratmaq üzərində iş aparılır. Hekayənin rollar üzrə oxusunu da təşkil etmək və ya təqdim etmək məqsədəmüvafiqdir.

6-cı addım. Hekayə tam oxunur. Şagirdlər öz yazılarına münasibət bildirir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*14-cü dərs*

## Layihənin yekunu

**Standartlar:** 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Müzakirələrdə fikirlərini əsaslandırır.
Vahid fikir formalaşdırır.

**İş forması:** kiçik qruplarla, kollektiv

**İş üsulu:** əqli hücum, rollu oyun, təqdimat

1-ci addım. Müəllim tədris ilinin əvvəlində uşaqlara layihə kimi təqdim olunan teleqramı xatırladır və "Dərs ilinin əvvəlində sizə yazılan teleqramın məzmunu nə idi?", "Həmin teleqramda siz hara dəvət olunurdunuz?" sualları ilə şagirdlərə müraciət edir.

Şagirdlərin cavabları dinlənilir.

"Zirvə nədir?" *(Zirvə dağ, dağ silsiləsi və ya dağ massivinin ən yüksək hissəsidir. Tektonik quruluşundan, onu təşkil edən süxurların tərkibindən və s. asılı olaraq zirvələr müxtəlif formalarda olur (pik, platoyabənzər və s.). Dünyada ən yüksək zirvə Himalay dağlarında Comolunqma (Everest, 8848 m),*



LAYİHƏ

*Azərbaycan Respublikasında isə Bazardüzüdür (4466 m). Bazardüzü zirvəsi Baş Qafqaz silsiləsində, Azərbaycan Respublikası ilə Dağıstan sərhədində yerləşir. Şuşada ən yüksək zirvə Böyük Kirs dağıdır (2725 m)).*

"Yəqin ki, artıq teleqramda "gizlənən" sözlərin nə ifadə etdiyini anladınızmı?" sualları ilə şagirdlərə müraciət edilir.

**2-ci addım.** "Sizcə, teleqramı sizə kim yaza bilərdi?" sualı ətrafında müzakirə təşkil edilir.

**3-cü addım.** Dərslikdə 170-ci səhifədəki dialoq rollar vasitəsilə təqdim olunur. Oxu zamanı şagirdin intonasiyası, sözləri düzgün vurğu ilə deməsi, sözlərin ədəbi dilin normalarına uyğun tələffüz edilməsi, ifa etdiyi rola uyğun jest və mimikası diqqətdə saxlanır.

**4-cü addım.** Şagirdlərə dialoqun ardını yazmaq təklif olunur. Müəllimin seçimi əsasında bu böyük və ya kiçik qruplar vasitəsilə həyata keçirilə bilər. Dialoqu uzun-uzadı yazmağa ehtiyac yoxdur. Fikirlərin konkret və yığcam təqdimi daha məqsədəuyğundur.

Dialoqu tamamlamaq üçün şagirdlərə plan təqdim etmək olar

**Plana nümunə:**

**Plan:**

1. Dostların görüşü

2. Fikirlərin bölüşülməsi *(Sizə qovuşduq, Sizi unutmadıq, Tədbirlərdə baş verən hadisələrə münasibət bildirdik, Evdə valideynlərimiz, məktəbdə müəllimlərimiz sizin haqqınızda bizə çox danışmışdılar və s.)*

3. Qələbənin qeyd edilməsi

Hər qrupdan 1 uşaq seçməklə cüt yaradılır və onlara "Azərbaycan həsrətli Qarabağ"a məktub yazmaq tapşırığı verilir.

**5-ci addım.** Şagirdlərin yazıları təqdim olunur, dərslikdəki dialoqla şagirdlərin yazdığı mətn arasında əlaqə yaradılır.

**6-cı addım.** Səyahət zamanı dostların qazandığı, əldə etdiyi bacarıqlar oxunur. Şagirdlərə *"Bu səyahət sizə nə qazandırdı?"* sualı ilə müraciət edilir.

**7-ci addım.** Şagirdlərə dərs ilinin əvvəlində verilmiş cədvəl onlara təqdim olunur. Şagirdlər cədvəli tamamlayırlar. İlkin fikirlərlə sonrakı fikirlər tutuşdurulur.

**Cədvəl 1.**

| | İlkin fikirlərim | Sonrakı fikirlərim |
|---|---|---|
| Səyahət nədir? | | |
| Səyahət sizi dəyişə bilərmi? | | |
| SƏYAHƏT ETMƏK SİZİ NECƏ DƏYİŞİR? | | |
| Əgər səyahət etsəniz, nə öyrənəcəksiniz? | | |
| Səyahət zamanı hansı problemlər yarana bilər? | | |
| Səyahət zamanı problem yaranarsa, nə edərsiniz? | | |



LAYİHƏ

**Cədvəl 2.**

| | |
|---|---|
| Səyahət nədir? | |
| Səyahət insanda bacarıq formalaşdıra bilərmi? | |
| Səyahət hansı bacarıqları formalaşdıra bilər? | |

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

## 15-ci dərs Kiçik Summativ Qiymətləndirmə

Müəllim KSQ-ni ifadə mətn yazdırmaqla keçirə bilər.

Mətn 1-2 dəfə müəllim tərəfindən oxunur. Lazım gələrsə, mətnin planı tərtib edilir. Lövhəyə yazılır. Şagirdlər plan əsasında ifadə yazırlar.

**İfadə mətnlərinə nümunə:**

**Mətn 1**

**Acı su**

Qızmar yay gün idi. Vaqif Ramizlə Xəzərin sahilindən, çimərlikdən qayıdırdı. Bağlara yaxınlaşanda onlar vedrə ilə su aparan yaşlı qadına rast gəldilər. Qadın üçün qumda yerimək çox çətin idi. O, bir neçə addım gedib dincəlir, sonra yenə vedrəni götürüb yavaş-yavaş yeriyirdi.

Bunu görən Vaqif  Ramizə dedi:

– Dayan, kömək etmək lazımdır!

Ramiz etiraz etdi:

– Əşi, gəl gedək! Özü aparar.

Vaqif onun sözünə baxmadı, tez qarıya tərəf qaçdı. Vedrəni qadının əlindən alıb evə apardı.

Bir neçə gündən sonra Ramiz dostu Kərimlə dənizdən qayıdırdı. O, istidən bərk tərləmiş və susamışdı. Evlərinə hələ çox qalmışdı. Ramiz yaxındakı həyətə girib ev sahibini səslədi. Eyvanda balaca bir qız göründü. Ramiz su istədi. Bir azdan əlində qrafin və stəkan tutmuş qoca bir qarı bayıra çıxdı.

Ramiz yerindəcə donub qaldı. O, bir neçə gün əvvəl  Vaqiflə rast gəldikləri qadını tanıdı. Geri dönmək istədi. Qoca qadın stəkanı doldurub Ramizə uzatdı və mehribanlıqla dedi:

– Al, iç, bala!

Ramiz xəcalətindən bilmədi, nə etsin. Suyu içib razılıq etdi və cəld həyətdən çıxdı. Amma ona elə gəldi ki, su acı idi.

**Mətn 2**

**Çiçəklərə toxunmaq qadağandır**

Günəş sarı saçlarını yığıb dağların arxasına çəkilirdi. Hava yavaş-yavaş qaralırdı. Bütün uşaqlar meydançaya yığışdılar. Bir qədər bundan əvvəl yağış yağdığı üçün bağçanı sulamağa ehtiyac yox idi. Yağış asfaltın da üstünü toz-torpaqdan təmizləmişdi. Biz şitilliyə tərəf getdik.



LAYİHƏ

Heybət baba orada skamyada oturmuşdu. Onun saldığı bağ çox gözəl və səliqəli idi. Bağçanın yaraşıqlı dəmir məhəccəri günəşin şüaları altında parıldayırdı. Orada bir neçə yerdə yerə taxta lövhələr vurulmuşdu. Lövhələrdə səliqə ilə yazılmışdı:

"Çiçəklərə toxunmaq qadağandır!"

Heybət baba fərəh dolu baxışlarla bağçanın hər küncünü seyr edirdi.

Müəllim ifadə yazıları yoxladıqdan sonra onları qruplaşdırır:
Orfoqrafik səhvlər
Durğu işarələri səhvi
Üslub səhvləri

İlk növbədə, yazıların müsbət tərəfləri sadalanır. Daha sonra ifadə yazılarda buraxılmış səhvlər şagirdlərin diqqətinə çatdırılır, müzakirələr aparılır.

İfadə yazının aşağıdakı meyarlar üzrə qiymətləndirilməsi məqsədəmüvafiqdir:

**1. Sözdə saitləri düzgün yazır.**
1.1. *e* və *ə* hərflərini
1.2. *u* və *ü* hərflərini

**2. Sözdə samitləri düzgün yazır:**
2.1. *x* və *h* hərflərini
2.2. söz ortasında *q, ğ, x* hərflərini
2.3. söz sonunda *q* və *k* hərflərini

**3. Cümlə sonunda durğu işarələrindən düzgün istifadə edir.**
3.1. Dialoqlarda qoşa nöqtədən istifadə edir.
3.2. Dialoqlarda tire işarəsindən istifadə edir.
3.3. Cümlənin sonunda müvafiq durğu işarəsindən istifadə edir.

**4. Mətnin məzmununu yazır.**
4.1. Hadisələrin ardıcıllığına riayət edir.
4.2. Abzaslar arasında əlaqəni qurur.
4.3. Mətnin tərkib hissələrini əlaqələndirir.
4.4. Mövzuya yaradıcı yanaşır.
4.5. Yazıda cümlələr məna cəhətdən əlaqələnir.

**5. Sözləri əlaqələndirmək üçün şəkilçilərdən düzgün istifadə edir.**

**6. Sözlərin mənasını bilir, onlardan düzgün və yerində istifadə edir.**

**7. İsimlərin yazılış qaydalarına əməl edir.**

**8. Sifətlərin yazılış qaydalarına əməl edir.**

**9. Sayların yazılış qaydalarına əməl edir.**

**Restavrasiya üsulu.**

Bu üsul şagirdlərə mətnlə işləməklə yanaşı, konspekt yazmaq və ondan istifadə etmək bacarığını da formalaşdırır. Bunun üçün onlara xüsusi şəkildə işarələnmiş, şərti işarələri olmayan, ixtisar edilmiş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib genişləndirməlidirlər.



LAYİHƏ

# Buraxılış məlumatı

**AZƏRBAYCAN DİLİ 6**
*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-040)*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Samirə Bektaşi**
**Yeganə Abdullayeva**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Yeganə Rüstəmova**
Üz qabığının dizayneri **Nurlan Nəhmətov**
Redaktor və korrektor **Gültəkin Cəfərova**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**

© **"Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələrilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 16,6. Fiziki çap vərəqi 20. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 160.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş ______. Tiraj . Pulsuz. Bakı – 2021

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu nəşr edən:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:
**"Çaşıoğlu Eİ" MMC**
**(Bakı, Mikayıl Müşfiq küç., 2A)**

LAYİHƏ

Pulsuz

LAYİHƏ